İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ƏLLİ ALTINCI KİTAB

## APREL 2013 - MAY 2013

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının həyata keçirilməsinə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Kitabda Latviya prezidentinin Azərbaycana səfəri, həmçinin Azərbaycan prezidentinin Avstriya Respublikasına rəsmi səfəri zamanı ölkəmizin dünyada artan nüfuzu, şaxələndirilmiş iqtisadiyyatı, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, beynəlxalq əməkdaşlıq, xüsusən də Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə dair məsələlər yer almışdır.

Bu cilddə, həmçinin dövlət başçısının bölgələrə səfərlərinə, burada ictimaiyyətin nümayəndələri ilə görüşlərinə, bir sıra mədəni-məişət, sosial və sənaye müəssisələrinin açılışında iştirakına dair materiallar da toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\dfrac{\textbf{0801000000}}{\textbf{M} - \textbf{651(07)} - \textbf{2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

## NAZİRLƏR KABİNETİNİN 2013-cü İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK *

*14 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 14-də Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclasda nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Nazirlər Kabinetinin bugünkü iclasında biz ilin birinci rübünün sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik.

Keçən ilin yekunları çox müsbət idi. Keçən il Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edibdir. Ölkə qarşısında duran bütün əsas vəzifələr icra edilmişdir. İqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan işlər də yüksək səviyyədə idi. Yəni keçən ilin yekunları bu ilin inkişafına da möhkəm zəmin yaratdı.

Azərbaycanda iqtisadi islahatlar uğurla davam etdirilir və gözəl nəticələrə gətirib çıxarır. Bu baxımdan 2013-cü il də keçən illərdən fərqlənmir. Ancaq hesab edirəm ki, biz 2013-cü ildə keyfiyyətcə daha da böyük nəticələr görəcəyik.

---

* Назирляр Кабинетинин 2013-ъц илин биринъи рцбцнцн сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунмуш иъласында Верэиляр назири Фазил Мяммядов, Мцдафия Сянайеси назири Йавяр Ъамалов və Сящиййя назири Огтай Ширялийев çıxış etdilər.

Ümid edirəm ki, 2013-cü il xüsusilə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafında rekord ili olacaqdır. İqtisadiyyatın şaxələndirilməsi məsələsi bizim üçün iqtisadi sahədə əsas prioritetdir. Xüsusilə enerji sektorunda görülmüş işlər nəticəsində, demək olar ki, bütün hədəflərin təmin edilməsi şəraitində qeyri-neft sektorunun inkişafı təbii ki, prioritet olmalıdır. 2013-cü ilin birinci rübündə iqtisadi inkişaf özünü bir daha göstərdi. Xüsusilə qeyri-neft sektorundakı inkişaf məni çox sevindirir.

Bu ilin birinci rübündə ümumi daxili məhsul 3,1 faiz artmışdır. Hesab edirəm ki, bu çox yaxşı göstəricidir. Bu artımı qeyri-neft sektorunun hesabına əldə etmişik. İlin birinci rübündə qeyri-neft sektorunun inkişafı 11,4 faiz olmuşdur. Yəni bugünkü Azərbaycan iqtisadiyyatını təhlil etmək üçün əsas göstərici olmalıdır. Əvvəlki dövrlərdə də, bu gün də Azərbaycanın iqtisadi inkişafını təhlil edənlər bəzi hallarda bu inkişafı neft-qaz amili ilə bağlayırlar. Şübhə yoxdur ki, ilk illərdə – müstəqilliyimizin ən ağır dövründə, keçən əsrin 90-cı illərinin ortalarında başlamış neft strategiyamız ölkə iqtisadiyyatına böyük təkan vermişdir və bu gün neft-qaz sektoru ölkə iqtisadiyyatında önəmli bir yer tutur. Ancaq bizim əsas uğurlarımız müdrik iqtisadi islahatlar nəticəsində təmin edilmişdir və bu il qeyri-neft sektorunun 11,4 faiz artması özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, ölkə iqtisadiyyatı və ümumiyyətlə, ölkəmiz neft-qaz amilindən asılılığını azaldır və beləliklə, dayanıqlı inkişaf artıq reallıqdır.

Makroiqtisadi göstəricilər də çox müsbətdir. İnflyasiya cəmi 1,2 faiz təşkil edir. Keçən il inflyasiya 1,1 faiz idi. Keçən ilin yekunlarını müzakirə edərkən mən qeyd etmişdim ki, bu il də inflyasiya birrəqəmli olmalıdır. Ancaq görürük ki, nəticələr daha da yaxşıdır – 1,2 faiz inflyasiya makroiqtisadi sabitlik üçün çox önəmli məsələdir. Daim qeyd etdiyim kimi, bizim bütün məqsədlərimizin mərkəzində insan amili dayanır. İnflyasiyanın aşağı səviyyədə saxlanması, əlbəttə ki, insanların rifah halının yaxşılaşmasına xidmət göstərir.

Əhalinin pul gəlirləri isə təxminən 6 faiz artmışdır. Biz burada da real artımı görürük. Kənd təsərrüfatında 4 faizdən çox artım olmuşdur. Bu da çox gözəl göstəricidir. Valyuta ehtiyatlarımız da artmaqdadır. Baxmayaraq ki, 2013-cü ildə böyük infrastruktur layihələrinin həyata keçirilməsi böyük də maliyyə vəsaiti tələb edir. Sovet dövründən qalmış əmanətlərin qaytarılması prosesi gedir. Maaşlar və pensiyaların məbləği artırılacaqdır və daim artırılır. Buna baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı yenə də artıra bilirik.

Xərclər də kifayət qədər çoxdur. Xərclər ölkə iqtisadiyyatının şaxələndirilməsinə xidmət edir. Əvvəlki dövrlərdə qarşıya hədəf qoyulmuşdur ki, biz valyuta ehtiyatlarımızı ildən-ilə artırmalıyıq və bunu edirik. Bu göstəriciyə, xüsusilə adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya miqyasında ön sıralardadır.

Regionların sosial-iqtisadi inkişafı ikinci Dövlət Proqramı bu ilin birinci rübündə uğurla icra edilib. Proqram bu il başa çatacaqdır. Əminəm ki, proqram artıqlaması ilə icra ediləcək. Çünki son illər proqrama əlavələr edilmişdir, yeni proqramlar qəbul olunmuşdur. Bu proqramın icrası nəticəsində ölkəmizdə 1 milyon 100 mindən artıq iş yeri açılmışdır ki, onların da 30 mini bu ilin birinci rübündə yaradılmışdır. Əlbəttə, bu göstərici də qeyri-neft sektorunda əldə edilən uğurlarla bilavasitə bağlıdır. Çünki əsas iş yerlərini yaradan sahələr qeyri-neft sənayesi və kənd təsərrüfatıdır.

Regionlarda quruculuq işləri aparılır, sosial infrastruktur yaradılır. Hesab edirəm ki, 2013-cü ildə bu istiqamətdə əsas məsələlər öz həllini tapacaqdır. Sosial infrastrukturun modernləşdirilməsi və yenidən yaradılması ilə bağlı müvafiq göstərişlər verilmişdir. Dövlət büdcəsində bu məqsədlər üçün kifayət qədər böyük məbləğlər nəzərdə tutulur və vaxtaşırı Prezidentin ehtiyat fondundan bu məqsədlərə əlavə vəsait ayrılır. Deyə bilərəm ki, 2 regional inkişaf proqramı Azərbaycan iqtisadiyyatına çox böyük töhfə vermişdir. Əgər 2004-cü ildə birinci proqram qəbul

olunmasaydı, indi hazırda şaxələndirilmiş iqtisadiyyatdan söhbət belə gedə bilməzdi.

Onu da deməliyəm ki, iqtisadi islahatlar mötəbər beynəlxalq qurumlar tərəfindən də qeyd edilir. Azərbaycan o ölkələrdəndir ki, öz daxili imkanlarına söykənir, öz iqtisadi və siyasi inkişafını özü təmin edir. İqtisadi sahədə seçdiyimiz kurs beynəlxalq qurumlar tərəfindən də qiymətləndirilir. Baxmayaraq ki, bu gün hələ də bəzi ölkələrdə böhran öz acı nəticələrini göstərməkdədir, Azərbaycanda nə böhranın ən qızğın çağında, nə də indi maliyyə və iqtisadi böhranın heç bir əlaməti yoxdur. Bunun başlıca səbəbi Azərbaycanın müstəqil siyasətidir, müstəqil iqtisadi siyasətdir, bizim maliyyə vəziyyətimizdir və artıq həyat göstərir ki, bu, yeganə düzgün yoldur.

İslahatların davam etdirilməsi inkişafımızı daha da gücləndirəcək. Çox əlamətdar haldır ki, beynəlxalq qurumlar da bunu qeyd edirlər. Xüsusilə əsas reytinq agentlikləri «Standard & Poors», «Fitch» və «Moodys» Azərbaycanın kredit reytinqini artırmışdır. Bunlardan yuxarı reytinq agentlikləri yoxdur. Avropanın bəzi ölkələrinin kredit reytinqlərinin aşağı salındığı bir dövrdə Azərbaycanın reytinqi qalxır. Davos Dünya İqtisadi Forumu 4 il ardıcıllıqla Azərbaycan iqtisadiyyatını MDB məkanında ən rəqabətqabiliyyətli iqtisadiyyat kimi qeyd edir. Bu gün dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı 46-cı yerdədir.

Deyə bilərəm ki, Davos İqtisadi Forumu dünya miqyasında bir nömrəli beynəlxalq forumdur. Bu forumun həm siyasi, həm də iqtisadi istiqaməti var. Azərbaycan bu forumun fəal iştirakçısıdır və bu il ilk dəfə olaraq Dünya İqtisadi Forumu böyük uğurla Bakıda keçirilmişdir. Forumda səslənən fikirlər, o cümlədən Azərbaycan iqtisadiyyatı, ümumiyyətlə, ölkəmizin inkişafı ilə bağlı səslənən fikirlər çox müsbət idi. Bu fikirlər və bu qiymət deyə bilərəm ki, ən yüksək qiymətdir. Biri var hansısa qondarma qeyri-hökumət təşkilatı yalançı bir reytinq düzəldir və istənilən halda siyasi sifarişlər əsasında ölkələrin elə bil ki, sıralamasını müəyyən edir. Biri də var ki, mötəbər

beynəlxalq qurumlar, Dünya Bankı, Dünya İqtisadi Forumu, Valyuta Fondu, digər mötəbər beynəlxalq qurumlar Azərbaycanda gedən prosesləri təqdir edir, yüksək qiymətləndirir.

İqtisadi islahatlar bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan iqtisadiyyatı tam şəkildə bazar iqtisadiyyatı prinsipləri üzərində qurulub. Hazırda ümumi daxili məhsulun 83 faizi bazar iqtisadiyyatında, özəl sektorda formalaşır. Dövlət inhisarında olan şirkətlər də tədricən beynəlxalq mühasibat və beynəlxalq idarəçilik prinsiplərinə keçir. Bu proses gedir, daha da sürətlə getməlidir. Dövlət şirkətləri, yəni strateji, ölkəmiz üçün əhəmiyyət daşıyan sahələrdə fəaliyyət göstərən dövlət şirkətləri də korporativ üsul-idarə ilə idarə edilməlidir və bir daha demək istəyirəm ki, bu istiqamətdə son illər ərzində böyük nailiyyətlər müşahidə olunur.

Sosial məsələlərin həllinə gəldikdə, bu məsələlər həmişə olduğu kimi, bizim üçün prioritetdir. Belə olmasaydı, son 10 il ərzində yoxsulluq 50 faizdən 6 faizə düşməzdi. Bu da neft-qazla zəngin olan ölkələr üçün əlamətdar göstəricidir. Adətən, neftlə, qazla zəngin olan ölkələrdə təbəqələşmə prosesi gedir – varlılar daha da varlanır, kasıblar daha da kasıblaşır. Deyə bilərəm ki, bizim sosial və iqtisadi siyasətimizin uğurla aparılması bu fəsadların da qarşısını alıbdır.

Sosial məsələlərin həllinə gəldikdə – sosial infrastruktur layihələrini qeyd etmək istəyirəm – xəstəxanalar, məktəblər, mədəniyyət ocaqları, idman qurğuları tikilir. Sosial infrastrukturun yaradılması, yeniləşməsi prosesi bu il və gələn illərdə də davam edəcəkdir. Ünvanlı sosial yardım alan vətəndaşlar da dövlət tərəfindən qayğı ilə əhatə olunur. 123 min ailə dövlətdən bu yardımı alır və hər bir ailə orta hesabla dövlətdən 117 manat müavinət alır. Əlbəttə, mən çox istərdim ki, ünvanlı sosial yardıma ehtiyacı olan ailələrin sayı azalsın. Ölkəmizin uğurlu inkişafı, yeni iş yerlərinin yaradılması, sosial proqramlar əminəm ki, yaxın zamanlarda bu kateqoriyadan olan insanların da yaşayış səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Ancaq hələ ki, dövlət dəstəyinə ehtiyacı olan ailələr var və biz onların qayğıları ilə məşğuluq. Çalışacağıq ki, bundan sonra da dövlət tərəfindən onlara verilən maddi yardımı artıraq.

Bu il maaşlar və pensiyalar artırılacaq. Hesab edirəm ki, sosialyönümlü siyasətimizin nəticələri çox müsbət olacaqdır. Sosial məsələlərin həllində, ilk növbədə biz məcburi köçkünlərin problemlərini qeyd edirik, daim bu məsələlərlə məşğuluq. Son bir neçə ay ərzində bu istiqamətdə çox önəmli hadisələr baş vermişdir. Keçən ilin sonunda Müşfiqabad qəsəbəsində böyük bir şəhərciyin, bu yaxınlarda isə Masazır qəsəbəsində böyük şəhərciyin açılışını qeyd etmişik. Bir neçə gündən sonra Mingəçevirdə böyük şəhərciyin açılışı qeyd ediləcək. Bütün mənzillər yüksək keyfiyyətlə tikilmişdir, bütün infrastruktur – məktəblər, uşaq bağçaları, tibb məntəqələri, su, qaz, işıq və digər infrastruktur layihələri nəzərdə tutulur. Dövlət Neft Fondundan bu il 300 milyon manat yalnız tikinti işlərinə ayrılmışdır. Artıq Prezidentin ehtiyat fondundan müəyyən məbləğ də ayrılmışdır və istisna olunmur ki, gələcəkdə də, bu ilin sonuna qədər yenə də ayrılacaq. Biz demək olar ki, hər il köçkünlər üçün yeni bir şəhər salırıq. Bu il 20 min köçkün yeni evlərə, mənzillərə köçürüləcək. Artıq yataqxanalardan köçürülmə prosesi başlanmışdır, vaxtilə fin qəsəbələrində məskunlaşmış köçkünlər bu il tamamilə oradan köçəcək və «fin qəsəbəsi» anlayışı «çadır şəhərciyi» anlayışı kimi, birdəfəlik aradan götürüləcəkdir.

Amma hələ də çətin, ağır vəziyyətdə yaşayan köçkünlər var – məktəblərdə, uşaq bağçalarında, yataqxanalarda, hərbi hissələrin ərazilərində. Onların köçürülməsi də təmin ediləcək. Bu il və gələn il, ondan sonrakı illərdə bu məsələ həm bizim büdcəmizdə, Dövlət Neft Fondunun büdcəsində və ümumiyyətlə, Azərbaycanda diqqət mərkəzində olacaqdır.

O ki qaldı beynəlxalq məsələlərin təhlilinə, deyə bilərəm ki, Azərbaycan öz beynəlxalq mövqelərini bu ilin əvvəlində də möhkəmləndirə bilmişdir. Bizim ikitərəfli əlaqələrimiz genişlənir, güclənir, tərəfdaş ölkələrin sayı artır. Azərbaycan

beynəlxalq arenada öz mövqeyini müdafiə etmək iqtidarındadır. Azərbaycan dünya miqyasında çox böyük hörmətə layiq ölkədir. Çünki sözümüz də, əməlimiz də birdir. Azərbaycan etibarlı tərəfdaşdır. Bizim xarici siyasətimiz daxili siyasətimizin məntiqi davamıdır. Xarici siyasətimiz ölkəmizin daha da güclənməsinə yönəldilmişdir, biz milli maraqlarımızı çevik və məqsədyönlü xarici siyasətlə təmin edirik və beynəlxalq təşkilatlarda fəaliyyətimiz çox təsirlidir. Azərbaycan ikinci ildir ki, BMT Təhlükəsizlik Şurasının üzvüdür və bu ən mötəbər qurumda bütün məsələlərlə bağlı öz prinsipial sözünü deyir və deyəcəkdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bir neçə gün bundan əvvəl MDBMİ-nin forumunda mən Azərbaycanın rəsmi mövqeyini bildirmişəm. Bir daha demək istəyirəm ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıbdır, heç vaxt olmayacaqdır. Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik və çalışacağıq ki, bütün imkanlardan istifadə edib tezliklə bu münaqişəni həll edək. Bu münaqişənin həlli beynəlxalq hüquq normaları əsasında olmalıdır, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qeyd-şərtsiz icra edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan çəkilməlidir.

Biz bundan sonra da öz gücümüzü – siyasi, iqtisadi, hərbi gücümüzü artırmalıyıq, artırırıq və bu bizim suveren hüququmuzdur. Bir daha demək istəyirəm, məndə heç bir şübhə yoxdur ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Hər gün, hər ay bizim qələbəmizi yaxınlaşdırır. Hər ay, hər il Azərbaycan daha da güclənir, Ermənistan daha da zəifləyir. Bunu artıq bu məsələ ilə məşğul olan bütün maraqlı qurumlar, ölkələr də görür, bilir. Tarixin gedişatı, inkişafı belədir ki, Azərbaycan ilə rəqabət aparmaq Ermənistan üçün mümkün olmayacaqdır. Onların əsas ümidi xarici qüvvələrə, erməni lobbisinə, havadarlarına və bəzi başqa ölkələrin dairələrinədir. Bizim isə

ümidimiz öz gücümüzədir – Azərbaycan xalqınadır, haqq və ədalətədir, beynəlxalq hüquqadır və artan gücümüzədir. Əminəm ki, Azərbaycan ədaləti bərpa edəcək və öz ərazi bütövlüyünü təmin edəcəkdir.

Bir daha demək istəyirəm ki, biz münaqişə dövründə çox fəal işləmişik. Münaqişə dövründə geridə qalmış ölkədən inkişaf edən ölkəyə çevrilmişik. Bu dövrdə iqtisadi sahədə inqilabi islahatlar aparmışıq. Ölkəmizi möhkəmləndirə bilmişik. Bu gün Azərbaycan və Bakı dünya mərkəzlərindən biridir. Şəhərimizdə, ölkəmizdə nə qədər beynəlxalq tədbir keçirilir. Demək olar ki, hər ay, bəzi hallarda ayda bir neçə dəfə beynəlxalq forumlar, iqtisadi forumlar, mədəniyyətlə, sivilizasiyalar dialoqu ilə bağlı forumlar. Yəni Bakı, Azərbaycan bir daha demək istəyirəm ki, dünya mərkəzlərindən birinə çevrilib. Bakıda siyasi məsələlər, regional əhəmiyyətli məsələlər müzakirə edilir.

Bakıda keçirilən Davos Forumunun əsas mövzusu Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında əlaqələr və bu əməkdaşlığın gələcəyi ilə bağlı idi. Yəni beynəlxalq aləm də Bakını regional mərkəz kimi tanıyır. Bu reallıqdır. Bizim istəyimiz də, niyyətimiz də və artıq görülən işlər də regional çərçivələrdən çoxdan çıxıbdır. Azərbaycanda həll olunan məsələlər, qəbul edilən qərarlar nəinki regionun inkişafına, qitədə gedən bəzi proseslərə də öz təsirini göstərir. Biz artıq ciddi beynəlxalq amilə çevrilmişik. Siyasi təşəbbüslər bizim razılığımız olmadan, bizim maraqlarımız təmin edilmədən öz həllini tapa bilmir.

Biz enerji diplomatiyası istiqamətində bir çox hallarda vacib qərarların təşəbbüskarıyıq. Bu sahədə gedən proseslər bizim qərarımızdan asılıdır. İqtisadi əməkdaşlıq, nəqliyyat məsələlərinin həlli, Asiyanı Avropa ilə birləşdirən dəhlizlərin fəaliyyət göstərməsi ilə bağlı bizim sözümüz həlledicidir. Bu söz təşəbbüslərin irəli sürülməsidir və bu təşəbbüslərin həyata keçirilməsidir. Yəni budur bugünkü Azərbaycan!

Bizim siyasətimiz xoşniyyətlidir. Biz bütün ölkələrlə münasibətləri qarşılıqlı hörmət və bir-birinin işinə qarışmamaq

prinsipləri üzərində qururuq. Bu, dünya miqyasında, beynəlxalq aləmdə qəbul edilən prinsipdir. Biz özümüz bilirik ki, ölkəmizi necə idarə etməliyik. Bizə kənardan məsləhətlər lazım deyil. Biz güclü ölkəyik. Xalqla iqtidar arasında birlik, vəhdət vardır.

Bizim iqtisadi göstəricilərimiz dünya miqyasında ən yüksək göstəricilərdir, ən sürətli göstəricilərdir. Təkcə son 10 ilin yekunlarına baxmaq kifayətdir. Azərbaycanda yaşanan inkişaf dünyada çox nadir hallarda müşahidə edilir – həm siyasi, iqtisadi, həm energetika, mədəniyyət sahələrində. Ölkəmizin dünya mərkəzlərindən birinə çevrilməsi, beynəlxalq reytinq agentliklərinin qiymətləri, BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimiz bu inkişafın göstəricisidir. Ona görə bir daha demək istəyirəm ki, xarici siyasətlə bağlı biz bundan sonra da bütün ölkələrlə bərabərhüquqlu münasibətlərin inkişafında maraqlıyıq.

Xarici siyasətlə bağlı bizim prinsipial mövqemiz bütün istiqamətlər üzrə öz müsbət nəticələrini verir. Biz müstəqilliyimizi qoruyuruq və qoruyacağıq. Əsrlər boyu Azərbaycan başqa ölkələrin, imperiyaların tərkibində yaşamışdır. Əsrlər boyu biz müstəqillikdən məhrum idik. Azərbaycanda gedən proseslər başqa mərkəzlərdən idarə edilirdi. 21 ildir ki, biz müstəqil dövlət kimi yaşayırıq. Bundan böyük xoşbəxtlik ola bilməz, bundan böyük dəyər ola bilməz. Biz sözün əsl mənasında, müstəqil dövlətik. Müstəqilliyi qoruyacağıq və möhkəmləndirəcəyik. Bunu etmək üçün bizim güclü iqtisadiyyatımız olmalıdır.

İqtisadi sahədə aparılan islahatlar və sosial məsələlərin həlli bizi gücləndirir. İmkan verir ki, biz dünya miqyasında öz sözümüzü deyək. Ona görə biz iqtisadi məsələlərin həlli ilə bağlı həm proqramlar qəbul etmişik, həm də ölkədə gedən quruculuq işlərinə mütəmadi qaydada qiymət veririk.

# YEKUN NİTQİ

Bu gün çıxışlarda səslənən rəqəmlər və məlumat onu göstərir ki, bütün sahələrdə dinamik inkişaf təmin edilir. Əminəm ki, 2013-cü ildə həm sosial, həm iqtisadi sahələrdə yaxşı nəticələr olacaqdır. Əvvəlki dövrlərdə və birinci rübdə görülmüş işlər haqqında burada artıq kifayət qədər danışıldı. Qarşıda duran vəzifələr haqqında bəzi fikirlərimi bildirmək istəyirəm. Əslində 2013-cü ildə görüləcək işlərlə bağlı bütün vəzifələr müəyyənləşdirilmişdir. Dövlət İnvestisiya Proqramı icra edilir. Əvvəlki dövrlərdə qəbul edilmiş proqramlar icra edilir və onların bəziləri bu il başa çatdırılmalıdır. O ki qaldı əsas, yəni diqqət tələb edən məsələlərə, onların içində, əlbəttə ki, iqtisadiyyatın şaxələndirilməsi bu sahədə əsas vəzifə olaraq qalır. Əlbəttə, giriş sözümdə misal gətirdiyim rəqəmlər deməyə əsas verir ki, bu istiqamətdə çox önəmli nəticələr əldə edilmişdir. 11,4 faiz səviyyəsində artan qeyri-neft iqtisadiyyatımız hesab edirəm ki, dünya miqyasında bəlkə də ən sürətlə artan iqtisadiyyatdır.

Biz bilirik ki, həm bölgədə, həm qitədə iqtisadi sahədə proseslər o qədər də uğurla getmir. Bəzi ölkələrdə böhran yaşanır. Azərbaycanda isə düşünülmüş iqtisadi siyasət nəticəsində qeyri-neft sektorumuz 11,4 faiz artmışdır. Bu doğrudan da çox gözəl göstəricidir və nəzərə almalıyıq ki, bu artım əvvəlki illərdə dinamik artımın üzərinə gələn bir artımdır. Biri var ki, sıfırdan, yaxud da ki, mənfi göstəricilərdən hansısa nəticəni əldə edəsən.

İldən-ilə qeyri-neft sektorumuz artır. Keçən ilin nəticələri də bunu göstərir. Keçən il qeyri-neft sektorumuz 9,7 faiz, bu ilin birinci rübündə isə 11,4 faiz artmışdır. Bir daha demək istəyirəm və hesab edirəm ki, bu göstərici bütün digər statistik göstəricilər arasında ən önəmlisidir. Çünki ölkəmizin dinamik inkişafını göstərir. Onu göstərir ki, ölkəmizin bundan sonrakı uğurlu inkişafı daim təmin ediləcəkdir.

Bununla bərabər, öz həllini gözləyən məsələlər də vardır. Bəzi istiqamətlər üzrə işlər daha da təkmilləşdirilməlidir. Hesab edirəm ki, bəzi istiqamətlər üzrə əsaslı islahatlar aparılmalıdır. Biz sağlam rəqabət mühitinin tam formalaşdırılmasına nail olmalıyıq. Bu istiqamətdə böyük işlər görülmüşdür. Deyə bilmərəm ki, Azərbaycanda sağlam rəqabət tam şəkildə təmin edilib. Qeyri-neft sektorumuzda 11,4 faiz səviyyəsində artım əslində biznes mühitinin yaxşı olduğunu göstərir. Ancaq bununla bərabər, əgər biz sağlam rəqabəti tam şəkildə təmin edə bilsək, inhisarçılığa qarşı daha da ciddi addımlar ata bilsək, əminəm ki, göstəricilərimiz daha da böyük olacaqdır. Biz rəqabətqabiliyyətli məhsulların İstehsalını artırmalıyıq – həm ixracı artırmaq, eyni zamanda, daxili bazarı da rəqabətqabiliyyətli məhsullarla təmin etmək üçün.

Son illərdə bizim əsas hədəfimiz idxalı azaltmaq, yerli istehsalı gücləndirmək, iş yerləri yaratmaq idi. Biz bu məqsədlərə nail olmaq üçün dövlət səviyyəsində kompleks tədbirlər planını icra etmişik. Əlbəttə ki, Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş infrastruktur layihələri özlüyündə özəl sektorun inkişafına və rəqabətqabiliyyətli məhsulların istehsalına kömək göstərirdi. Əgər dövlət xərcləri olmasaydı, bölgələrdə müasir infrastruktur layihələri icra edilməsəydi, heç bir biznes mühitindən söhbət belə, gedə bilməzdi.

Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə ildən-ilə sahibkarlara güzəştli şərtlərlə daha böyük məbləğdə kreditlər verilir. Cari ildə bu məbləğ 250 milyon manatdır. Bu da, əlbəttə ki, daxili istehsalı stimullaşdırır. Əsas məqsədimiz bu günə qədər bu hədəf olubdur və bu, məqsəd olaraq qalır ki, maksimum dərəcədə özümüzü təmin edək və idxaldan asılılığı minimuma endirək. İndiki mərhələdə isə hesab edirəm ki, rəqabətqabliyyətli məhsulların istehsalına daha da böyük diqqət yetirilməlidir.

İlk növbədə daxili bazarı rəqabətqabiliyyətli məhsullarla təmin etməliyik ki, Azərbaycan vətəndaşları ölkədə istehsal olunan ən yüksək keyfiyyətli məhsullarla təmin edilsinlər. Bunu

mən sahibkarlarla fevral ayında keçirdiyim görüşdə demişəm, bu gün də demək istəyirəm ki, bu qədər sürətlə artan iqtisadiyyatımız və qeyri-neft sektorumuz bizə xarici bazarlara çıxışı təmin etməyi diktə edir. Əgər xarici bazarlarda kifayət qədər böyük mövqelərə nail olmasaq, bu mövqeləri əldə etməsək, daxili bazarı təmin edəndən sonra bizdə müəyyən problemlər yarana bilər. Çünki kənd təsərrüfatının, emal sənayesinin inkişafı artıq elə sürətlə gedir ki, istehsal edilən məhsulların həcmi artacaq və əgər məhsullar rəqabətə dözə bilməsə, xarici bazarlara çıxmaq ildən-ilə daha da çətin olacaqdır. Ona görə, rəqabətqabiliyyətli məhsulların istehsalının artırılması hesab edirəm ki, ən vacib prioritetlərdən biri olmalıdır. Bu istiqamətdə işlər görülür və sahibkarlara verilən layihələr ekspertizadan keçirilir. Hesab edirəm ki, dövlət və hökumət tərəfindən sahibkarlara verilən tövsiyələr rəqabətqabiliyyətli məhsulların istehsalına təkan verəcəkdir.

Biz ixrac mallarının nomenklaturasını artırmalıyıq. Yenə də əgər bu məhsullar rəqabətqabiliyyətli olmasa, biz buna nail ola bilməyəcəyik. Yeni müəssisələr müasir texnologiyalar əsasında yaradılmalıdır. Xüsusilə dövlət dəstəyi ilə yaradılan müəssisələr 100 faiz müasir texnologiyalar üzərində öz fəaliyyətini qurmalıdır. Eyni zamanda, dövlətin dəstəyi olmadan yaradılan müəssisələrdə də nəzarət olmalıdır ki, köhnəlmiş avadanlıq Azərbaycana gətirilməsin. Azərbaycanda ən müasir texnologiyalar tətbiq olunmalıdır. Bizim siyasətimiz bundan ibarətdir ki, ölkəmizdə istənilən sahədə ən qabaqcıl texnologiya və təcrübə tətbiq edilməlidir.

Bununla bərabər, hesab edirəm ki, iqtisadiyyat üçün vacib olan məsələlərdən biri də kadr hazırlığıdır. Biz bunu görürük. Görürük ki, bəzi hallarda müasir texnologiyalar gətirilir, ancaq kadr potensialı hələ ki, bir qədər geridə qalır. Ona görə biz müasir peşəkar kadrların hazırlanmasına daha da ciddi fikir verməliyik. Bu hazırlıq, əlbəttə ki, iqtisadiyyatın ümumi inkişafı ilə uzlaşdırılmalıdır. Biz daha çox sürətlə inkişaf edən iqtisadi sahələr üzrə kadr hazırlığına fikir verməliyik.

Bütövlükdə kadr hazırlığı məsələsi hesab edirəm ki, xüsusi diqqət tələb edir. Bu məsələ eyni zamanda, gənclərin bu işlərə cəlb edilməsi ilə bağlıdır. Gənc kadrların irəli çəkilməsi daha da sürətlə getməlidir və ümumiyyətlə, bildiyiniz kimi, Azərbaycanda gənclər siyasəti uğurla aparılır, Azərbaycan gəncliyi Dövlət Proqramı icra edilir. Gəncləri işlə təmin etmək üçün onların təhsilini yüksək səviyyədə təşkil etmək üzrə işlər gedir.

Gənc ailələrin həyatda rastlaşdığı ən böyük problem mənzil problemidir. Hesab edirəm ki, ipoteka-kreditləşmə mexanizmləri təkmilləşdirilməlidir, yenidən baxmaq lazımdır. Düzdür, bu istiqamətdə indi müəyyən islahatlar aparılır. Ancaq hesab edirəm ki, hələ çox işlər görülməlidir və ipotekaya ayrılan məbləğ artırılmalıdır. Baxmaq lazımdır, əgər büdcədə imkan olarsa bu il, olmasa gələn ildən ipotekaya ayrılan kreditlər artırılmalıdır ki, gənclərin mənzil problemi daha da sürətlə təmin edilsin.

Ərzaq təhlükəsizliyi ilə bağlı daim biz öz işlərimizi aparırıq və sahibkarlarla müşavirədə bu məsələ əsas məsələlərdən biri idi. Yenə də demək istəyirəm, bizim tam imkanımız var ki, özümüzü ərzaq məhsulları ilə 100 faiz təmin edək. Nəinki təmin edək, həm də böyük ixrac potensialı yaradaq. Biz burada 2 istiqamət üzrə getməliyik. Əlbəttə, bitkiçilik, heyvandarlıq sahələrində intensiv metodlara daha çox üstünlük verilməlidir. Eyni zamanda, iri fermer təsərrüfatlarının yaradılması prosesi də başlamışdır. Bizim hələ ki, dövriyyədə olmayan böyük torpaq sahələrimiz vardır. Orada meliorativ tədbirlər, infrastruktur layihələri həyata keçirilməlidir ki, biz 10 minlərlə hektar yeni torpaqları dövriyyəyə buraxaq. Beləliklə, bu həm yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır, həm də ərzaq təhlükəsizliyini tam şəkildə təmin edəcəkdir. Ərzaq təhlükəsizliyi enerji təhlükəsizliyi kimi, bəlkə də ondan da vacib olan məsələdir. İstisna edilmir ki, gələcək illərdə bu, əsas məsələlərdən birinə çevriləcək. Çünki qlobal meyillər bunu göstərir.

Dünyada indi resurslar uğrunda mübarizə gedir: enerji, su resursları uğrunda. İndi ərzaq məhsullarının istehsalı ilə bağlı qeyri-müəyyən mənzərə yaranmışdır. Ona görə hesab edirəm, hər bir ölkə çalışmalıdır ki, özünü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etsin, xüsusilə Azərbaycan kimi gözəl coğrafi imkanlara malik olan bir ölkə. Elə ölkələr var ki, orada, ümumiyyətlə, heyvandarlıqdan, bitkiçilikdən söhbət gedə bilməz. Səhra tipli torpaqlardır. Ancaq xoşbəxtlikdən bizdə belə deyil və Azərbaycanda müxtəlif ərzaq məhsullarını istehsal etmək mümkündür. 9 iqlim qurşağımız və güclü maliyyə imkanlarımız vardır. Ona görə biz ərzaq təhlükəsizliyini 100 faiz təmin etməliyik. Bu o demək deyil ki, biz inteqrasiya proseslərinə, yaxud da ki, indi dünya inteqrasiya proseslərinə qoşulmuruq. Biz qoşuluruq. Əlbəttə ki, biz öz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri üzərində qurmuşuq. Ancaq onu da xatırlayırıq ki, taxılla bəzi ixracçı ölkələrdə yaranmış müəyyən çətinliklər istər-istəməz bizə də mənfi təsir göstərmişdir. Əvvəlki illərdə bağlanmış kontraktlara xitam verildi, onlar icra edilmədi və biz vəziyyətdən çıxış yolunu axtarmağa məcbur idik. Ona görə özümüzü tam əmin və sığortalı hiss etmək üçün biz əsas ərzaq məhsulları ilə özümüzü təmin etməliyik. Əlbəttə ki, meliorasiya, irriqasiya sistemlərinin qurulması prosesi getməlidir.

Aqrar sahə ilə bağlı, hesab edirəm ki, biz aqraryönümlü orta peşə təhsili müəssisələrinin yaradılmasına da başlamalıyıq. Sovet dövründə belə praktika var idi. Mən hesab edirəm ki, biz bunu bərpa etməliyik və ümumiyyətlə, orta peşə təhsili müəssisələrinin yaradılması və keyfiyyətcə yeni mərhələyə keçməsi məsələləri ön plandadır.

Çünki yenə də qayıdıram kadr hazırlığı məsələlərinə və görürük ki, Azərbaycanda bütün istiqamətlər üzrə işlər çox sürətlə gedir, sənaye, kənd təsərrüfatı istehsalı, xidmət sektorumuz artır. İndi bu qədər xidmət mərkəzləri yaradılır. Turizmin inkişafı sürətlə gedir və biz kadr çatışmazlığı ilə üzləşirik və gələcəkdə daha da çox üzləşə bilərik. Ona görə bütün bu

məsələləri aidiyyəti dövlət qurumları, nazirliklər gərək birgə müzakirə etsinlər, uzlaşdırsınlar.

Bizim iqtisadi inkişafla bağlı çox dəqiq, konkret proqramımız vardır. Proqram üzrə gedirik, bir çox hallarda bu proqramı qabaqlayırıq. Ancaq konseptual baxımdan bütün nazirliklər, dövlət qurumlarının rəhbərləri bu işin içindədirlər, bilirlər ki, bizi nələr gözləyir. Ona görə biz nazirliklər arasında da bu məsələləri uzlaşdırmalıyıq.

Elektron kənd təsərrüfatı layihəsi həyata keçirilməlidir, fermerlərin elektron qeydiyyat sistemi yaradılmalıdır. Əgər biz buna nail ola bilsək, digər başqa tədbirlərlə yanaşı, aqrar sektorun dayanıqlı inkişafını daha da sürətləndirə bilərik. Əvvəlki dövrlərdə çox böyük işlər görülmüşdür. İndi biz o illəri xatırlayarkən görürük ki, nə texnika, nə gübrə, nə də yanacaq çatışmazlığı var. Ona görə bütün bu məsələlər tədricən öz həllini tapır. Aqroservislər yaradılır, kreditlər verilir, dövlət tərəfindən dəstək göstərilir. Hətta cins mal-qaranın alınmasını da dövlət bilavasitə öz üzərinə götürür. Eyni zamanda, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə vəsait ayrılır. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Subsidiyalarda təkmilləşmə prosesi getməlidir. Bu barədə mən əvvəlki müşavirədə sözümü demişəm, təkrar etmək istəmirəm. Yəni bu sahə də həm iqtisadiyyat və həm də sosial məsələlərin həlli üçün prioritetdir, çünki əhalimizin 47 faizi aqrar bölgələrdə yaşayır.

Dövlət İnvestisiya Proqramının icrası ilə bağlı, hesab edirəm ki, heç bir problem olmayacaqdır. Lazım olan həcmdə proqram icra ediləcəkdir. Keçən il ölkə iqtisadiyyatına müxtəlif mənbələrdən 22 milyard dollar investisiya qoyulmuşdur. Bu investisiyaların böyük hissəsi daxili sərmayələrdir. Ancaq xarici investisiyalar da təqribən 30 faiz səviyyəsindədir. Bu da çox gözəl göstəricidir. Bu göstərir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə olaraq qalır. Bu həm energetika, neft-qaz sektoruna aiddir, eyni zamanda, ölkə iqtisadiyyatının digər sahələrinə də böyük həcmdə investisiyalar qoyulur. Bunu

nəzərə alaraq hesab edirəm ki, bu il də Azərbaycana qoyulacaq investisiya 22 milyarddan az olmayacaqdır. Həmçinin pensiya və maaşların artırılması nəzərdə tutulur. Sovet dövründən qalmış əmanətlərin qaytarılması bu il başa çatacaqdır. Bütün bu amillər istər-istəməz makroiqtisadi vəziyyətə mənfi təsir edə bilər. Ona görə makroiqtisadi sabitlik həmişə olduğu kimi, diqqət mərkəzində olmalıdır. Düzdür, keçən il 1,1 faiz, bu ilin birinci rübündə 1,2 faiz inflyasiya bizi sevindirir. Biz daim çalışmalıyıq ki, inflyasiya yükü ən aşağı səviyyədə olsun.

Bu il sosial proqramların icrası davam etdiriləcək. Bu barədə mən giriş sözümdə fikirlərimi bildirdim – maaşların, pensiyaların artırılması, ünvanlı sosial proqramın icra edilməsi, sosial infrastrukturun yaradılması. Bütün bölgələrdə xəstəxanalar, məktəblər, digər sosial obyektlər tikilir və bu iş davam etdiriləcəkdir.

Səhiyyə məsələlərinin həlli ilə bağlı nazir burada məlumat verdi. Doğrudan da biz son illərdə bu sahədə də ciddi dönüşə nail ola bilmişik. İndi müasir klinikalar, diaqnostika, dializ mərkəzləri yaradılmışdır. Bir daha demək istəyirəm ki, insan amili ən vacib məsələdir. İnsan sağlamlığı da ən vacib məsələdir. Yenə də qayıdıram kadr hazırlığına. Bizim bölgələrdə də, Bakıda da ən müasir avadanlıq quraşdırılır. Bəzi hallarda dünyanın aparıcı klinikalarında olan avadanlıqdan da geri qalmır, hətta onları da qabaqlayır. Mən bunu bilirəm. Çünki vaxtaşırı xarici qonaqlarla, səhiyyə sistemindən gələn qonaqlarla görüşlər əsnasında onlar da bildirirlər ki, sizdə ən müasir avadanlıq vardır. Amma bəzi hallarda kadr hazırlığı o səviyyəyə bir qədər çatmır. Ona görə kadr hazırlığı burada ön planda olmalıdır. Əlbəttə, ilk növbədə biz Azərbaycanda kadr hazırlığını yüksək səviyyədə təmin etməliyik. Biz peşəkar həkimlərin yetişdirilməsinə ilk növbədə, ölkə daxilində nail olmalıyıq. Bununla bərabər, bizim həkimlər müxtəlif proqramlar əsasında xarici klinikalara ezam olunurlar, orada təlim keçirlər. Eyni zamanda, Bakıda səhiyyə sahəsində

görkəmli mütəxəssislər, alimlər çalışırlar. Hesab edirəm ki, biz bu prosesləri daha da sürətləndirməliyik.

Burada nağdsız ödəmələrin həcmi ilə bağlı Vergilər naziri məsələ qaldırdı. Bu istiqamətdə böyük işlər görülmüşdür, xüsusilə 2012-ci ildə Bakı şəhərində. Hələ ki, bu göstəriciyə görə biz lazımi səviyyədə deyilik. Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə nağdsız ödəmələr mütləq əksəriyyət təşkil edir. Bizdə belə deyil. Çalışmalıyıq ki, biz bu göstəriciyə görə də inkişaf etmiş ölkələrin səviyyəsinə yaxınlaşaq.

Ümumiyyətlə, biz istənilən sahədə müsbət təcrübəni tətbiq edirik. Harada ki ən qabaqcıl, müsbət təcrübə var və bizə sərf edirsə, o təcrübəni tətbiq edirik və etməliyik. Çünki bu olmasa, ölkəmizi müasirləşdirə bilmərik.

Azərbaycan inkişaf etmiş ölkələrin sırasında olmalıdır. Ona görə biz müsbət təcrübəni öyrənirik, istənilən sahədə tətbiq edirik. Bu, təbii, normal prosesdir. Hesab edirəm ki, biz nağdsız ödəmələrin səviyyəsini, həcmini artıra, vergilərin yığımında daha da böyük uğurlara nail ola, xoşagəlməz halların qarşısını daha sürətlə ala bilərik. Yəni bu, dünyada, inkişaf etmiş ölkələrdə oturuşmuş bir yanaşmadır. Biz də bunu daha da sürətlə tətbiq etməliyik.

Ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə çox sürətlə aparılır. Bu mübarizə hərtərəfli şəkildə aparılır. Korrupsiya və rüşvətxorluq cəmiyyət üçün ən böyük problemlərdən biridir, ən böyük yaramızdır. Biz inkişaf etmiş ölkələrin bu sahədə də təcrübəsini nəinki öyrənməliyik, eyni zamanda, tətbiq etməliyik. Mən dəfələrlə bu barədə fikirlərimi bildirmişəm, bir daha demək istəyirəm ki, yalnız cəza tədbirləri, inzibati tədbirlər bizim istədiyimizə nail olmaq üçün kifayət etməz. Əlbəttə ki, cəza tədbirləri də olmalıdır, hüquq mühafizə orqanları da bu istiqamətdə öz fəaliyyətini davam etdirməlidir. İnzibati tədbirlər də görülür və görüləcəkdir.

Ancaq institusional tədbirlərin genişlənməsi, tətbiqi, sistem xarakterli islahatların aparılması və davam etdirilməsi, hesab edirəm ki, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə bizə

daha yaxşı imkan yaradacaq. Biz korrupsiya, rüşvətxorluq üçün mövcud olan meydanı maksimum dərəcədə daraltmalıyıq. «Elektron xidmət», «Elektron hökumət» layihələri bu istiqamətdə atılan çox önəmli addımlardır.

Məmur-vətəndaş ünsiyyəti bu istiqamətdə minimuma endirilməlidir. Yenə də inkişaf etmiş ölkələrin təcrübəsini biz maksimum dərəcədə tətbiq etməliyik. Buna görə də Azərbaycanda İKT sektorunun inkişafına daha da böyük diqqət göstərilməlidir və göstəriləcəkdir.

Son aylar ərzində bu istiqamətdə çox ciddi addımlar atılmışdır. Onların içində «ASAN xidmət»in fəaliyyətini qeyd etmək istəyirəm. Bu xidmət öz fəaliyyətini genişləndirir. Artıq minlərlə vətəndaş «ASAN xidmət»ə müraciət etmişdir. Biz «ASAN xidmət»in fəaliyyətini genişləndiririk. Hesab edirəm ki, bu ilin yayına qədər Bakının bütün rayonları əhatə ediləcəkdir. Böyük şəhərlər – Sumqayıt, Gəncə şəhərləri əhatə ediləcəkdir. Hesab edirəm ki, gələn il bütün başqa bölgələrdə də xidmət yaranmalıdır. O vaxta qədər mobil avtobuslarla bu xidmət göstəriləcəkdir. Artıq avtobuslar alınıbdır. Yaxın həftələrdə Azərbaycanda olacaqdır. Bu avtobuslar vasitəsilə müxtəlif bölgələrdə bu xidmət öz fəaliyyətinə başlayacaqdır.

Bir sözlə, institusional islahatlar, «Elektron hökumət», şəffaflıq və əlbəttə ki, güclü siyasi iradə olmalıdır. Bu güclü siyasi iradə vardır. Biz əgər inkişaf etmiş ölkəyə çevrilmək istəyiriksə, korrupsiyaya, rüşvətxorluğa qarşı daha da ciddi mübarizə aparmalıyıq. Əminəm ki, biz bu mübarizədə qalib gələcəyik.

Bununla bərabər, dövlət məmurlarının məsuliyyəti də artmalıdır. Dövlət məmurları xalqa xidmət edir və etməlidirlər. Bu məsələlərlə bağlı mən fikirlərimi bildirmişəm. Dövlət məmuru cəmiyyətdə hər bir vətəndaş üçün nümunə olmalıdır – təvazökarlıq, saflıq və vətənə xidmət nümunəsi. Dövlət məmurları seçilmiş insanlar olmalıdır. Onların həm peşəkarlığı, həm də mənəvi keyfiyyətləri yüksək səviyyədə olmalıdır. Məmur-vətəndaş münasibətləri hörmət əsasında qurulmalıdır.

Harada ki nöqsanlar, pozuntular vardır, əlbəttə ki, tədbirlər görülür və bu proses bundan sonra da davam etdiriləcəkdir.

Cəmiyyətdə sosial ədalət prinsipləri tam şəkildə tətbiq edilməlidir. Bunu bizim Əsas Qanunumuz – Konstitusiya tələb edir və ümumi normal davranış elə olmalıdır ki, sosial ədalət prinsipləri pozulmasın. İnsanları narahat edən ən böyük məsələ ədalətsizlikdir, həyatda da, siyasətdə də – hər bir sahədə. Ona görə də ədalət, sosial ədalət olmalıdır və bütün qərarlar ədalətli olmalıdır. Əgər qərar ədalətlidirsə, əgər hətta kiminsə xoşuna gəlmirsə, ədalətli olduğu üçün bu qərarla barışırlar. Əgər qərar ədalətsizdirsə, belə demək mümkündürsə, bundan böyük ədalətsizlik ola bilməz.

Biz sənaye istehsalının artırılması ilə bağlı əvvəlki dövrlərdə böyük işlər görmüşük. Bu ilin birinci rübündə də qeyri-neft sənayemiz artıb. Bu, müsbət göstəricidir. Ancaq gələcəkdə sənaye istehsalımızı müasirləşdirmək üçün, əlbəttə ki, böyük işlər görüləcəkdir. Onların arasında mən texnoparkların yaradılmasını qeyd etmək istəyirəm. Artıq bu istiqamətdə işlər gedir. Biz əsas 3 mərkəz seçmişik. Bu mərkəzlər əslində ənənəvi mərkəzlərdir: Bakı, Sumqayıt, Gəncə şəhərləri. Orada texnoparkların yaradılması prosesi gedir. Hesab edirəm ki, biz bu siyahıya Mingəçeviri də əlavə etməliyik. Çünki Mingəçevir də sənaye şəhəridir. Orada kənd təsərrüfatı, demək olar ki, yoxdur. Mingəçevirdə müasir sənaye komplekslərinin tikilməsi ilə bağlı qərarlar verilməlidir. Bu məsələ ilə bağlı mən artıq göstərişlər vermişəm. İnvestisiya qoymaq istəyən qurumlara tövsiyə edilir ki, onlar Mingəçevirə də diqqət yetirsinlər. Hesab edirəm ki, buna nail olsaq, onda ölkədə 4 əsas sənaye mərkəzi olacaqdır. Hesab edirəm ki, Azərbaycan üçün bu kifayətdir. Texnologiya parklarının öz üstünlükləri olacaq. Orada fəaliyyət göstərəcək müəssisələr ölkəmiz, iqtisadiyyatımız üçün strateji xarakter daşımalıdır. Əlbəttə ki, orada yalnız rəqabətqabiliyyətli, ixracyönümlü məhsullar istehsal olunmalıdır. Əminəm ki, biz yaxın aylarda yeni texnologiya parklarının yaradılmasını görəcəyik.

Regional inkişaf proqramına gəldikdə, bu istiqamətdə işlər plan üzrə gedir. Bu ilin sonuna qədər ikinci Dövlət Proqramı yekunlaşdırılacaq. Burada infrastruktur layihələri əsas üstünlük təşkil edir. Bu layihələrdə heç bir problem yoxdur.

Bakıətrafı qəsəbələrin inkişaf proqramı da bu il başa çatmalıdır. Bu çox böyük proqramdır. Ancaq icra müddəti çox qısadır – cəmi 2 il. Çalışmalıyıq ki, bu ilin sonuna qədər qəsəbələrdə nəzərdə tutduğumuz bütün layihələr icra edilsin. Bilirəm ki, ilin sonuna qədər Bakıda bütün məktəblər əsaslı təmir ediləcək. Bu proses artıq gedir. İlin sonuna qədər bir dənə də olsun təmirsiz məktəb olmayacaqdır.

Qazlaşdırma məsələləri, demək olar ki, Bakıda 100 faiz təmin edilib. Ancaq qazın verilməsinin keyfiyyəti hələ ki, bəzi hallarda problem yaradır.

Kənd yollarının, qəsəbədaxili və qəsəbələrarası yolların tikintisinə diqqət verilməlidir. Su və kanalizasiya layihələri – bunlar çox böyük layihələrdir. Çalışmalıyıq ki, ilin sonuna qədər işlərin böyük əksəriyyətini görək. Hər halda, bu pro-qramı qəbul edərkən mən çox qısa bir müddət qoydum. Biz bunu 5 ilə də uzada bilərdik. Çünki işin həcmi həddən artıq böyükdür. Ancaq 2 il ərzində bütün səylərimizi birləşdirmişik ki, Bakı qəsəbələrinin illərlə yığılıb qalan problemləri həllini tapsın. Hesab edirəm ki, bu da çox önəmli bir sosial layihədir.

Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi davam edir. Biz hesab edirdik ki, 2013-cü ildə bu layihəni icra edəcəyik. Ola bilər ki, gələn ilə qalsın. Bütövlükdə deyə bilərəm ki, layihənin icrasında heç bir problem yoxdur. Əsas işlər bu ilin sonuna qədər görüləcək. Bu layihə Azərbaycan dövlətinin təşəbbüsü ilə həyata keçirilir. Biz bu layihəyə həm siyasi dəstək vermişik, həm də maliyyə yükünün böyük hissəsini öz üzərimizə götürmüşük. Ancaq indi görürük ki, bu layihə də artıq regional müstəvidən çıxıbdır. Əvvəlki illərdə bu layihəyə qarşı çıxanlar indi onu dəstəkləyirlər. Yaxşı xatırlayıram ki, biz Bakı–Tbilisi–Qars layihəsini tərəfdaşlarımızla ciddi şəkildə müzakirə etdikdə «Ermənistan niyə bu layihənin üzvü deyildir?» sualları ilə üz-üzə

qalmışdıq. «Ermənistan bu layihənin üzvü olmasa, bu layihəyə beynəlxalq dəstək verilməyəcəkdir» məsələləri də ortaya çıxmışdı. Buna baxmayaraq, Azərbaycan, Türkiyə, Gürcüstan dövlətlərinin birgə iradəsi nəticəsində biz bu layihəni həyata keçiririk, keçirəcəyik. Ermənistan bu layihədən də təcrid edilibdir. Bu bizim prinsipial mövqemizdir. Nə qədər ki, torpaqlarımız işğal altındadır, Ermənistan heç bir regional layihənin iştirakçısı ola bilməz. Bakı–Tbilisi–Qars dəmir yolunun həyata keçirilməsi tarixi hadisədir.

Son illər Azərbaycanda turizmin sürətli inkişafını qeyd etmək istəyirəm. Xüsusilə birinci rübdə bu sahədə çox əlamətdar hadisə baş vermişdir – «Şahdağ» xizək mərkəzi fəaliyyətə başlamışdır. Bu da hesab edirəm ki, əlamətdar hadisədir. Çünki heç bir dövrdə Azərbaycanda dağ-xizək mərkəzi olmamışdır. Qonşu ölkələrdə olmuşdur. Hesab edirəm ki, bu layihənin icra edilməsi artıq öz səmərəsini göstərir. Dövlət əsas texniki və maliyyə yükünü öz üzərinə götürmüşdür. Bu da təbiidir. Bu da özəl sektora, regionun inkişafına verdiyimiz töhfədir. Minlərlə iş yeri yaradılacaq. Artıq Qusar rayonunda yüzlərlə iş yeri yaradılıbdır, özü də keyfiyyətli iş yerləridir. Orada işləyənlərə yüksək maaş verilir. Azərbaycan vətəndaşları üçün gözəl bir istirahət və əyləncə mərkəzi yaratdıq. Bu yaxınlarda mənə verilən məlumata görə, birinci 2 ay ərzində 50 min insan artıq bu kompleksdən istifadə edibdir. Bu çox böyük göstəricidir. Nəzərə alsaq ki, orada cəmi 1 kiçik mehmanxana fəaliyyət göstərir, 50 min insanın oraya gəlməsi çox əlamətdar hadisədir. Gələn qış mövsümünə qədər ən azı 3 yeni böyük mehmanxana öz qapılarını qonaqların üzünə açacaqdır. Yeni istirahət zonaları, parklar, yeni küçələr salınır. Yəni «Şahdağ» kurortu dünya miqyasında ən müasir, ən gözəl kurortlardan birinə çevrilməlidir. Qarşıya məhz belə məqsəd qoyulmuşdur.

«Şahdağ» kurortunun açılışına gedərkən mən oraya birinci səfərimi xatırladım. Birinci dəfə mən oraya gedəndə orada bir dənə də olsun tikili yox idi. Hər tərəf dağlar, qar idi. Nə yaşayış yeri, nə də bir bina, heç nə yox idi. Bu layihəni başlayarkən, sözün düzü, bir az fikirləşirdim ki, görəsən biz bunu icra edə biləcəyik, yoxsa yox?! Ancaq çox şadam ki, bu məsələnin həllində də uğurlara imza

atdıq. Bu onu göstərir ki, istənilən layihəmiz, əgər biz bu layihəni başlayırıqsa, mütləq uğurla başa çatmalıdır. Bütün infrastruktur layihələri icra edildi – içməli su, kanalizasiya, elektrik, qaz xətləri. Gözəl dördzolaqlı yol, hotellər, qaldırıcılar, tibb mərkəzləri, təlim yerləri, müasir istirahət zonaları tikilir. Hesab edirəm ki, bu, ölkəmizin ən gözəl istirahət zonalarından biri olacaqdır. Çox şadam ki, bu layihədən sonra Qəbələdə də xizək kurortunun yaradılmasına başlayıblar. Mən bu yaxınlarda orada olarkən gördüm ki, artıq Qəbələdə ikinci xizək kurortu yaradılır. Bu kurort da bu ilin sonuna qədər hazır olacaqdır.

Çıxışımın sonunda qeyd etməliyəm ki, «İnformasiya-kommunikasiya texnologiyaları ili» Azərbaycanda uğurla başlayır. Azərbaycan kosmik dövlətdir. Bu, böyük, tarixi nailiyyətdir. «Azərspace-1» peyki orbitdədir. Artıq idarəçilik də Azərbaycana verilibdir. Biz bu peyki Bakıdan idarə edirik. Artıq tərəfdaşlarla 2-ci, 3-cü peykin orbitə buraxılması ilə bağlı danışıqlara başlamışıq. Bu da bir yenilik, müasirlik, inkişafdır.

Qeyd etmək istəyirəm ki, bizim ikinci regional inkişaf proqramımız bu ilin sonunda başa çatır. Çox iş görülübdür. Amma görüləcək işlər çoxdur. Hesab edirəm ki, üçüncü dövlət proqramının hazırlanması ilə bağlı biz daha da fəal işləməliyik. İlin sonuna qədər 3-cü Dövlət beşillik Proqramı hazır olmalıdır ki, 2014-cü ilin əvvəlində biz onu da qəbul edək və beləliklə, ölkəmizin uğurlu inkişafını təmin edək.

Sağ olun.

## «ALİ AUDİT QURUMLARININ POTENSİALININ GÜCLƏNDİRİLMƏSİNİN MÜASİR ÇAĞIRIŞLARI» MÖVZUSUNDA IV BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Azərbaycan Respublikası Hesablama Palatasının təşkilatçılığı ilə Ali Audit Qurumlarının Avropa Təşkilatına və Ali Audit Qurumlarının Ərəb Təşkilatına üzv qurumların IV beynəlxalq konfransının iştirakçılarını paytaxt Bakı şəhərində salamlayır və konfransın işinə müvəffəqiyyətlər arzulayıram.

Konfransınızın yüksək statusu Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 66-cı sessiyasında qəbul edilən və ictimai resursların rasional istifadəsində ali audit qurumlarının rolunun yüksəldilməsi baxımından böyük əhəmiyyət daşıyan «Ali audit qurumlarının gücləndirilməsi vasitəsilə dövlət idarəçiliyinin səmərəliliyinin, cavabdehliyinin, effektivliyinin və şəffaflığının artırılması haqqında» Qətnamənin çağırışlarının həyata keçirilməsinə dünya ölkələri ilə birgə Azərbaycanın da artan marağının bariz nümunəsidir.

Ölkəmizdə belə mühüm tədbirin təşkilini qabaqcıl idarəetmə metodlarının tətbiqində və dövlət vəsaitlərinin istifadəsi zamanı şəffaflığın artırılmasında audit qurumlarının potensialının gücləndirilməsi istiqamətində fəaliyyətlərin dəstəklənməsi olaraq qəbul edirik.

İnanıram ki, Bakı konfransı qazandığınız müsbət təcrübəyə arxalanmaqla, təşkilatlarınız arasında qarşılıqlı işgüzar münasibətlərin daha da dərinləşməsinə və müasir çağırışların uğurla gerçəkləşdirilməsinə zəmin yaradacaq, bütövlükdə dövlət maliyyə nəzarəti orqanlarının işinin səmərəliliyinin yüksəldilməsinə töhfələr verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2013-cü il*

## «MDB MÜSƏLMANLARI SÜLH VƏ SABİT İNKİŞAF TƏRƏFDARIDIRLAR» BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – MDB Müsəlmanları Məşvərət Şurasının Bakıda keçirdiyi Beynəlxalq konfransın iştirakçılarını ürəkdən salamlayır, ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycan islam dünyasının tarixi-mədəni mərkəzlərindən biri olmaqla, dünyəvi və çoxkonfessiyalı dövlətdir. Sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşən ölkəmizdə tarixən müxtəlif xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan mehriban dostluq və əməkdaşlıq münasibətləri mövcud olmuş, yüksək tolerantlıq ənənələri formalaşmışdır. Cəmiyyətimizdə belə mütərəqqi münasibətlərin bərqərar olmasında islam dininin müstəsna rolu danılmazdır. Azərbaycanda milli mədəniyyətin və mentalitetin ayrılmaz hissəsi olan islam dini öz ümumbəşəri mahiyyəti və birləşdirici missiyası ilə insanları daim sülhə, əmin-amanlığa, humanizmə və həmrəyliyə dəvət etmişdir.

Bu gün ölkəmizdə tarixi-mənəvi irsin, etnik-mədəni müxtəlifliyin qorunub saxlanması və daha da inkişaf etdirilməsi həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biridir. Dövlət–din münasibətləri zəngin milli ənənələrimizə söykənir və müasir hüquqi normalarla tənzimlənir. Biz bu təcrübəni ölkədə gerçəkləşdirilən dini siyasətin uğurlu təminatı kimi qəbul edir və mövcud ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, nümunəvi dözümlülük mühitinin zəruri amili kimi qiymətləndiririk.

Hazırda qloballaşan dünyada mürəkkəb ictimai-siyasi proseslər yaşanır, etnik-dini zəmində münaqişələr, irqi ayrı-seçkilik, dini ekstremizm və islamofobiya kimi arzuolunmaz təzahürlər müşahidə edilir. Beynəlxalq təhlükəsizliyi və insanların əmin-

amanlığını təhdid edən belə hallara qarşı mübarizədə aparıcı dünya dinlərinin sülh və həmrəylik çağırışlarına, sivilizasiyalararası dialoqa və əməkdaşlığa, dini-mənəvi liderlərin nüfuzlu sözünə ciddi ehtiyac vardır. Dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün istiqamətləndirilməli, mütərəqqi islami dəyərlərin təbliği və təşviqi müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir. Bütün bunlar müasir mərhələdə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin, demokratik dünya birliyi ilə əməkdaşlıq münasibətlərinin prioritet xəttini təşkil edir. Ölkəmiz bu sahədə nüfuzlu beynəlxalq və regional təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında uğurla fəaliyyət göstərir.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, son illərdə MDB Dinlərarası Şurasının, MDB Müsəlmanları Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının toplantılarının, xüsusən Dünya Dini Liderləri Sammitinin Bakıda keçirilməsi Azərbaycandakı dini sabitliyi, tolerantlıq mühitini, əqidə və ifadə azadlığını bütün dünyaya bir daha bariz şəkildə nümayiş etdirmişdir. Azərbaycan dövləti dinlərarası dialoqun dinamik inkişafına müsbət təsir göstərən bütün səyləri bundan sonra da dəstəkləyəcəkdir.

Əmin olduğumu bildirirəm ki, zəruri və aktual bir mövzuya həsr olunmuş bugünkü beynəlxalq toplantınız da konstruktiv müzakirələr ruhunda keçəcək, dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafına, tolerantlıq, qarşılıqlı anlaşma və dostluq kimi bəşəri dəyərlərin təbliğinə və təşviqinə öz töhfəsini verəcəkdir.

Bu xeyirxah yolda hər birinizə uğurlar və cansağlığı arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2013-cü il*

## FRANSANIN «ASTRİUM» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ DİREKTORU FRANSUA OK VƏ «EUROPEAN AERONAUTİC DEFENCE AND SPACE» ŞİRKƏTİNİN BEYNƏLXALQ MƏSƏLƏLƏR ÜZRƏ DİREKTORU JAN-PYER TALİMONİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Fransanın «Astrium» şirkətinin prezidenti və baş direktoru Fransua Oku və «European Aeronautic Defence and Space» şirkətinin beynəlxalq məsələlər üzrə direktoru Jan-Pyer Talimonini qəbul etmişdir.*

*Görüşdə iştirak edən Fransanın Azərbaycandakı səfiri Paskal Mönye Azərbaycanın ilk süni peykinin orbitə buraxılmasını tarixi hadisə kimi qiymətləndirdi və Fransa hökumətinin ölkəmizin kosmos proqramlarının həyata keçirilməsinə bundan sonra da dəstək verəcəyini vurğuladı.*

*Fransanın «Astrium» şirkətinin prezidenti və baş direktoru Fransua Ok rəhbərlik etdiyi şirkətin bu sahədə Avropanın ən böyük şirkətlərindən biri olduğunu vurğulayaraq şirkətin həyata keçirdiyi layihələr barədə dövlətimizin başçısına məlumat verdi.*

*Azərbaycanın ilk süni peykinin orbitə buraxılmasını kosmos sənayesinin inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirən dövlətimizin başçısı göstərilən dəstəyə görə təşəkkürünü bildirdi. Fransanın bir çox sahələrdə ölkəmizin əsas tərəfdaşlarından biri olduğunu vurğulayan prezident İlham Əliyev informasiya-kommunikasiya texnologiyalarının inkişafı və kosmos texnologiyası sahəsində əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

## HACIQABUL RAYONUNA SƏFƏR

*15 aprel 2013-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Hacıqabul rayonunda səfərdə olmuşdur.

Dövlətimizin başçısı əvvəlcə Hacıqabul şəhərində ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.

Sonra Azərbaycan prezidenti parkın ərazisində yenidən qurulan Heydər Əliyev Mərkəzi ilə tanış oldu.

Məlumat verildi ki, Mərkəz 2008-ci ilin mayından fəaliyyət göstərir. Ötən ilin fevralından burada aparılan yenidənqurma işlərindən sonra bina genişləndirilmiş, ümumi sahəsi 260 kvadratmetrdən 1172 kvadratmetrə çatdırılmışdır. Mərkəzdə əlavə olaraq ekspozisiya zalı, foto, xalq yaradıcılığı və rəsm studiyaları, elektron kitabxana, xarici dil mərkəzi, konfrans və kino zalları yaradılıb. Bu, rayon gənclərinin ümummilli lider Heydər Əliyevin siyasi irsinin öyrənilməsi, eləcə də bilik və bacarıqlarının artırılması, xarici dillərə yiyələnməsi, elektron kitabxanalardan geniş istifadə etməsi üçün geniş imkan açır.

Mərkəzdə ulu öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində və ölkəmizin müstəqilliyi dövründə Hacıqabula səfərlərini, rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən maraqlı fotolar toplanıb. Xalq yaradıcılıq studiyasında gənclər qədim və müasir xalçaçılıq, toxuculuq, naxışvurma sənətinin sirlərinə yiyələnəcəklər. Mərkəzdə fəaliyyət göstərəcək rəsm studiyası rayon gənclərinin rəssamlıq sənəti ilə məşğul olmalarına imkan yaratmaqla yanaşı, həm də onların istedadlarını nümayiş etdirmələri üçün geniş imkanlar açır. Heydər Əliyev Mərkəzinin xarici dil bölməsində gənclər ingilis, fransız, rus, alman dillərini öyrənə biləcəklər. Bunun üçün onlar bölmədə quraşdırılan müasir texniki vasitələrdən istifadə edəcəklər. Burada yaradılan avtomatlaşdırılmış kitabxanada informasiya sistemindən istifadə edilir.

*Kitabxanada xüsusi sistemin köməyi ilə elektron kataloq yaradılıb. Bu sistemdə hazırda 10 baza fəaliyyət göstərir. Kitabxananın bütün elektron resursları sistemin veb modulu vasitəsilə dünya informasiya məkanına çıxarılır.*

*Mərkəzlə tanışlıqdan sonra Azərbaycan prezidenti Heydər Əliyev parkını gəzdi. Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov məlumat verdi ki, Heydər Əliyev parkında 2011-ci ilin sentyabrından yenidənqurma işləri başlanmışdır. Ümumi sahəsi 1,5 hektar olan parkda rayon sakinlərinin istirahətinin təmin edilməsi üçün geniş imkanlar yaradılmışdır. Burada Uşaq əyləncə və istirahət mərkəzi, 320 yerlik yay teatrı və kafe inşa edilmişdir. Parkda müasir işıqlandırma sistemi quraşdırılmış, yaşıllıq zolaqları salınmışdır.*

## Rəncbər–Qubalı Baloğlan–«Pir-Hüseyn» Xanəgahı avtomobil yolunun açılışı mərasimi

*Hacıqabul rayonuna səfəri çərçivəsində prezident İlham Əliyev aprelin 15-də Rəncbər–Qubalı Baloğlan–«Pir-Hüseyn» Xanəgahı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev yeni yolun, eləcə də hazırda genişləndirilən və perspektivdə genişləndirilməsi nəzərdə tutulan respublika əhəmiyyətli yolların, həmçinin Hacıqabul–Paşalı–Tağılı avtomobil yolunun texniki-iqtisadi göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yeni magistralın istismara verilməsi yerli əhali ilə yanaşı, «Pir-Hüseyn» Xanəgahı Tarix-Memarlıq Qoruğuna gələn qonaqların rahatlığını tam təmin edəcəkdir. Əvvəllər sakinlər bu ərazidə torpaq və çınqıl yoldan istifadə edib. Yolun inşasına «Azəryolservis» ASC tərəfindən 1 ay əvvəl başlanılıb və işlərin keyfiyyətlə qısa müddətdə görülməsi üçün bütün qüvvələr səfərbər olunub. Nəticədə rayonun mühüm yaşayış məntəqələrini birləşdirən rahat bir yol ərsəyə gəlib.*

*Qeyd edildi ki, ümumi uzunluğu 18 kilometr, eni 6 metr olan yol dördüncü dərəcəlidir. Yeni yolun salınması zamanı bütün zəruri yol nişanları qoyulmuş, dayanacaqlar inşa edilmişdir. Yolun Bakı–Tbilisi əsas magistralından Rəncbər kəndinədək olan hissəsi 6,5 kilometr, Rəncbər kəndindən Qubalı Baloğlan kəndinə olan hissəsi 5,5 kilometr, Qubalı Baloğlan kəndindən «Pir-Hüseyn» Xanəgahı Tarix-Memarlıq Qoruğuna olan hissəsi isə 6 kilometrdir. Yeni yol Rəncbər–Qubalı Baloğlan kəndlərinin 6500-dən çox sakininə xidmət edəcəkdir.*

*Prezident İlham Əliyevə respublika əhəmiyyətli digər yollarda aparılan işlər, həmçinin genişləndirilən və perspektivdə genişləndirilməsi nəzərdə tutulan yollar barədə də məlumat verildi. Sonra Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov dövlətimizin başçısına Hacıqabul–Paşalı–Tağılı avtomobil yolu barədə məlumat verdi. Bildirildi ki, dördüncü dərəcəli bu yolun ümumi uzunluğu 37 kilometrdir. Burada əsaslı təmir işlərinə ötən ilin avqustunda başlanılmışdır. Yolun 10 kilometri artıq istismara hazırdır. Azərbaycan prezidentinin 2012-ci il dekabrın 5-də imzaladığı sərəncamla yolun inşasına 5 milyon manat vəsait ayrılıb. Yolboyu müxtəlif diametrli 28 suötürücüsü qoyulub. Bu ilin avqustunda istifadəyə veriləcək və 7 yaşayış məntəqəsini birləşdirəcək yoldan 6 min sakin istifadə edəcəkdir.*

*Azərbaycan prezidenti yolun rəmzi açılışını bildirən lenti kəsdi. Sonra prezident İlham Əliyev Rəncbər və Qubalı Baloğlan kəndlərinin sakinləri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Gözəl yoldur, təzə çəkilib. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Kənd yollarının çəkilişi ölkə üzrə sürətlə gedir. O cümlədən Hacıqabul rayonunda da bu işlər aparılır. İndicə mənə məruzə edildi, bir bu kənd yoludur, bir də ki, digər istiqamətdə kənd yolları bərpa edilibdir. Əslində yenidən tikilir. Çünki bu yollar torpaq yolları olmuşdur. Bilirəm ki, kənd camaatı uzun illər əziyyət çəkib. Ancaq indi bu gözəl yol çəkiləndən sonra rahat gedib-gəlmək mümkün olacaqdır.

**S a k i n l ə r:** Çox sağ olun. Təşəkkür edirik.

**İ l h a m  Ə l i y e v:** Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram. Çünki yol hər bir yaşayış məntəqəsi üçün çox önəmlidir. Yaxşı yol olmayanda istər-istəməz problem də yaranır, xüsusilə qış və payız aylarında. Gözəl asfalt yoldur, rahatdır, bir neçə kəndi birləşdirir. Digər istiqamətdə 7 yaşayış məntəqəsini birləşdirən yol çəkilir. Gələcək illərdə hələ bu işlər davam etdiriləcək. Çünki buna hələ ehtiyac var. Çalışmalıyıq ki, bütün kəndlərimizdə gözəl yollar olsun.

**Q ə n i m ə  İ s r a f i l o v a** *(kənd sakini):* Möhtərəm cənab Prezident! İcazə verin Sizi Rəncbər–Qubalı Baloğlan kəndlərinin sakinləri adından salamlayım. Kəndimizə «Xoş gəlmisiniz!» – deyim. İcazə verin Rəncbər və Qubalı Baloğlan kəndlərindən keçərək «Pir-Hüseyn» Xanəgahı Tarix-Memarlıq Qoruğuna qədər uzanan bu 18 kilometrlik gözəl asfalt yolu biz sakinlərə bəxş etdiyinizə görə Sizə hər iki kəndin sakinləri adından dərin minnətdarlığımızı bildirək, ürəkdən təşəkkür edək. Allah Sizə cansağlığı versin, ömrünüz uzun olsun. Allah Sizə yar olsun. Çox razıyıq. Sizin diqqətinizi hər dəfə görürük, hiss edirik. Kənd sakinləri adından bir təklifimiz də vardır. Hər iki kəndin əhalisinin Sizdən bir xahişi var. Kəndin girəcəyində dəmir yolu keçidi darısqaldır.

**İ l h a m  Ə l i y e v:** Mən də gördüm. Bir az ensizdir.

**Q ə n i m ə  İ s r a f i l o v a:** Oradan iritutumlu maşınlar keçəndə problem yaranır, uzaq məsafə qət edərək gəlirlər. Bu işdə bizə kömək göstərməyinizi xahiş edirik.

**İ l h a m  Ə l i y e v:** Kömək göstərərik, Nəqliyyat naziri də buradadır. Göstəriş verirəm ki, bu məsələ də həll olunsun. Mən də fikir verdim ki, çox ensizdir. Yəqin ki, əvvəlki illərdə tikilmişdir. Onu da genişləndirmək lazımdır ki, rahat gediş-gəliş olsun.

**Q ə n i m ə  İ s r a f i l o v a:** Təşəkkür edirik. Səmimi təşəkkürümüzü bildiririk. Çox sevindirici haldır. Rəncbər kəndinin tarixinə qızıl hərflərlə yazılacaqdır.

**İ l h a m  Ə l i y e v:** Bu yolun çəkilişi vətəndaşların müraciəti əsasında baş vermişdi. Siz bilirsiniz ki, ilk növbədə, ma-

gistral yolların təmiri ilə məşğul idik. İndi Hacıqabuldan Bakıya və digər istiqamətə getmək üçün gözəl imkanlar vardır. Ondan sonrakı mərhələdə şəhərlərarası yolların tikilməsi ilə məşğul olduq. Bu layihə də, demək olar ki, başa çatmaq üzrədir. Ardıcıllıqla kənd yollarının təmiri və qurulması məsələsi diqqət mərkəzində oldu. Bu layihələrdə, ilk növbədə daha çox yaşayış məntəqəsi olan yollara üstünlük verildi. Bu istiqamət üzrə cəmi 2 kənd vardır. Ancaq vətəndaşların xahişini, burada xüsusilə tarixi abidə olan «Pir-Hüseyn» Xanəgahının mövcudluğunu nəzərə alaraq bu yol da proqrama salındı.

Əminəm ki, bundan sonra da Hacıqabul rayonunda bütün digər məsələlər uğurla həll olunacaqdır. Burada digər infrastruktur layihələri, içməli su layihəsi icra edilir. Əlbəttə, içməli su ilk növbədə rayon mərkəzinə veriləcəkdir, ondan sonra kəndlərə. Qazlaşdırma gedir. İndi bütün kəndlərdə qaz xətləri ya çəkilibdir, ya da ki, çəkilir. Sizin kəndinizdə var, daimidir?

**S a k i n l ə r:** Bəli, bütün evlərdə var, daimidir.

**İ l h a m Ə l i y e v:** Belə də olmalıdır.

**Q ə n i m ə İ s r a f i l o v a:** Sizin diqqətiniz və göstərişləriniz sayəsində. İnsan amilinə çox böyük önəm göstərirsiniz.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, əsas məsələ bundan ibarətdir ki, Azərbaycan vətəndaşları rahat yaşasınlar. Sizi bir daha ürəkdən təbrik edirəm.

**S a k i n l ə r:** Sağ olun.

## Şirvan–Muğan su kəmərindən Hacıqabul şəhərinə içməli suyun verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Şirvan–Muğan su kəmərindən Hacıqabul şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı Hacıqabul şəhərinin su təchizatının planını və Şirvan–Muğan su kəmərinin texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov bildirdi ki, Hacıqabul şəhərinin günlük orta su sərfi 248 min litrdir. Ümumi su anbarının ehtiyatı 10 min kubmetrdir. Şirvan–Muğan su kəmərinin uzunluğu 170 kilometrdir. Bu kəmərdən istifadə edən əhalinin sayı isə 470 min nəfərdir. Layihəyə əsasən kəmər 121 kəndi, o cümlədən Sabirabadın 13 kəndini əhatə edəcəkdir. Sabirabad–Saatlı qrup su kəmərinin uzunluğu isə 40 kilometrdir. Layihəyə əsasən 37 kəndin 160 mindən çox sakini təmiz içməli sudan istifadə edəcəkdir.*

*Məlumat verildi ki, «Hacıqabul şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi» əhali artımının 2035-ci ilə qədər inkişaf perspektivi nəzərə alınmaqla, 30,4 min nəfər üçün hesablanmışdır və dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilir. Hacıqabul şəhərinin sakinləri içməli su ilə – təməli 2012-ci il iyulun 16-da prezident İlham Əliyev tərəfindən qoyulmuş Şirvan–Muğan qrup kəməri vasitəsilə təmin olunacaqdır.*

*Hacıqabul şəhərində mərkəzləşdirilmiş içməli su sistemi keçən əsrin 70-ci illərində yaradılıb. Hazırda şəbəkə istismara yararsızdır. Şəhərin su şəbəkəsinin uzunluğu 25,5 kilometr təşkil etmiş, kanalizasiya şəbəkəsi isə, ümumiyyətlə, olmamışdır. Rəsmi statistikaya əsasən, hazırda Hacıqabul şəhərinin əhalisinin sayı 24,8 min nəfərdir və onların 50 faizə yaxını mərkəzləşdirilmiş içməli su şəbəkəsi ilə təmin olunmayıb. Əhali orta hesabla sutkada qrafiklə 8 saat su alır. Qalan əhali isə öz tələbatını fərdi qaydada ödəyir.*

*Yeni «Hacıqabul şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi» çərçivəsində şəhərin su təchizatının özüaxımlı rejimdə aparılması üçün 2,4 kilometr uzunluğunda magistral kəmər çəkilib, relyef baxımından yüksək nöqtədə tutumu 5 min kubmetr olan anbar inşa edilir. Şəhərdə uzunluğu 115 kilometr olan müxtəlif diametrli paylayıcı su şəbəkəsi və ümumi uzunluğu 105 kilometr olan kanalizasiya şəbəkəsi yaradılacaqdır. İndiyədək 30 kilometr su xətti, 20 kilometr kanalizasiya xətti çəkilib. 8,7 kilometr uzunluğunda layihələndirilmiş kanalizasiya kollektorunun 6,7 kilometrində*

*işlər tamamlanıb. Ümumiyyətlə, 2014-cü ildə layihənin icrası başa çatdıqdan sonra bütün şəhər əhalisi fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunacaqdır. Layihəyə uyğun olaraq, Hacıqabul şəhərinin şərq hissəsində, relyef baxımından çökək ərazidə kanalizasiya-nasos stansiyasının tikintisi planlaşdırılır. Çirkab suları toplanaraq Şirvan–Kürdəmir avtomobil yolunun kənarında tikiləcək çirkab sutəmizləyici qurğuya ötürüləcəkdir və təmizləndikdən sonra yaxınlıqdan keçən Baş Şirvan kollektoruna axıdılacaqdır.*

*Azərbaycan prezidenti suyun şəhərə rəmzi olaraq verilməsini təmin edən qurğunu işə salan düyməni basdı.*

## HACIQABUL RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 aprel 2013-cü il*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, hörmətli hacıqabullular!

Mən sizi ürəkdən salamlayıram. Bu gün Hacıqabul rayonunun inkişafında çox əlamətdar bir gündür. Bu gün biz Hacıqabula içməli suyun verilməsini qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Son illər ərzində ölkəmizdə görülən işlər arasında içməli su layihələri xüsusi yer tutur. Çünki bütün dövrlərdə vətəndaşlarımız içməli su ilə lazımi səviyyədə təmin olunmamışdılar. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında keçən əsrin 70-ci illərində su problemlərinin böyük hissəsi öz həllini tapmışdır. Ancaq həyat davam edir, ölkəmiz inkişaf edir, əhali artır və əlbəttə, su təminatı ilə əlaqədar əlavə tədbirlər görülməli idi və görülür.

Hazırda, demək olar ki, ölkəmizin bütün yerlərində içməli su və kanalizasiya layihələri icra edilir. Bu proses geniş vüsət almışdır. Əminəm ki, gələn illərdə Azərbaycanda hər bir yerdə təmiz içməli su olacaqdır.

Hacıqabul rayonunun içməli su ilə təmin edilməsi üçün praktiki tədbirlər görülmüşdür. Keçən il biz Hacıqabulda Şirvan–Muğan su kəmərinin təməlini qoyduq. Bu kəmərin fəaliyyəti nəticəsində artıq Hacıqabula içməli su gəlir. Ondan sonrakı dövrdə yeni şəbəkələr qurulacaqdır. Artıq bu işlərə başlanılmışdır və biz hər bir evə içməli suyun verilməsinə nail olacağıq. Bu doğrudan da böyük layihədir, deyə bilərəm ki, tarixi layihədir. Bu onu göstərir ki, siyasi iradə olduğu zaman hər bir iş görülə bilər.

Azərbaycanda hər bir rayonda böyük infrastruktur layihələri icra edilir. İlk növbədə, elektrik enerjisinin təchizatını yüksək

səviyyəyə qaldırmalı idik. Artıq bu proses, demək olar ki, başa çatır. Qazlaşdırma prosesi də uğurla gedir. Hacıqabul rayonunun bütün kəndlərində qazlaşdırma işləri aparılır, kəndlərin böyük əksəriyyətində artıq bu işlər başa çatmışdır. Yəqin ki, yaxın aylarda bütün yaşayış məntəqələrində 24 saat keyfiyyətli qazın verilməsi mümkün olacaqdır.

Biz kənd yollarının çəkilişi ilə ciddi məşğuluq. Bu gün biz Hacıqabulda kənd yollarının açılışını da qeyd etdik. 2 layihə icra edilir, biri artıq başa çatmışdır. İndi ikinci layihə davam etdirilir və əminəm ki, yaxın zamanlarda bütün kəndlərə gedən yollar yenidən tikilib istifadəyə veriləcək.

Beləliklə, hər bir rayon üçün lazım olan infrastruktur layihələri ardıcıllıqla və uğurla öz həllini tapır. Beləliklə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci hissəsi də artıq uğurla icra edilir və ilin sonuna qədər başa çatdırılacaqdır. Ondan sonra 2014–2018-ci illəri əhatə edəcək yeni proqram qəbul ediləcəkdir. Ancaq bu ilin sonuna qədər hər bir yerdə əsas infrastruktur layihələri başa çatmalıdır.

Bu layihələrin içində, əlbəttə ki, içməli su layihəsi xüsusi yer tutur. Çünki su həyat deməkdir, təmiz içməli su isə sağlam həyat deməkdir. Bizim bütün siyasətimizin mərkəzində insan amili, Azərbaycan vətəndaşı dayanır. Mən bunu dəfələrlə qeyd etmişəm. Bir daha demək istəyirəm, görülən bütün işlər, ölkəmizdə gedən quruculuq, abadlıq, müasirləşmə işləri bir məqsədi güdür ki, Azərbaycan vətəndaşı rahat yaşasın, işlə təmin olunsun, yaxşı maaş alsın və bütün infrastruktur layihələri ən yüksək standartlara cavab versin. Biz bunu edirik, buna nail oluruq. Azərbaycanda infrastruktur sahəsində görülən bütün işlər ən yüksək dünya standartlarına cavab verir, o cümlədən içməli su layihəsi. Veriləcək suyun keyfiyyəti də yüksək olacaqdır. Bu işlər Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun şəkildə görülür. Beləliklə, insan sağlamlığına çox böyük töhfə veriləcəkdir. Çünki təmiz içməli su, bir daha demək istəyirəm ki, insan üçün ən vacib şərtdir.

Mən əminəm ki, bütün başqa istiqamətlər üzrə də uğurlu siyasətimizi davam etdirəcəyik. Regionların inkişafı uğurla gedir, sosial siyasət uğurla aparılır. Bizim iqtisadi imkanlarımız da genişlənir və birinci rübün sosial-iqtisadi yekunları artıq müzakirə edilmişdir və bir daha görürük ki, hər bir istiqamət üzrə Azərbaycan sürətlə inkişaf edir. Xüsusilə qeyri-neft sektorunun inkişafı bizim üçün prioritetdir və bu sahədə birinci rübdə 11 faizdən çox artım müşahidə olunub. Hesab edirəm ki, bu da dünya miqyasında ən yüksək göstəricidir. Dünyanın bir çox yerlərində hələ də maliyyə və iqtisadi böhranın hökm sürdüyünü nəzərə alsaq, Azərbaycanın uğurlu inkişafı bir daha onu göstərir ki, seçdiyimiz yol düzgün yoldur. Hər bir addım düzgün istiqamətdə atılır. Ölkəmiz böyük inkişaf yolu keçmişdir. Əminəm ki, bu inkişaf, görülmüş işlər gələcək inkişaf üçün də gözəl şərait yaradacaqdır. Çünki biz bundan sonra da inkişaf yolu ilə getməliyik.

Biz Azərbaycanda bütün işləri ardıcıllıqla görürük. Həm iqtisadi, həm siyasi sahədə, xarici siyasət məsələlərinin həllində, sosial sahədə. Yəni ölkə hərtərəfli inkişaf edir. Bir daha demək istəyirəm, ən gözəl göstərici ondan ibarətdir ki, biz görülən bütün işlərin nəticələrini görürük. Bir neçə il əvvəl biz içməli su layihələrini başlatdıq, artıq bu gün isə bunun gözəl nəticələrini görürük. Uğurlarımızın təməlində ilk növbədə, bizim islahatlarımızdır və Azərbaycanda Heydər Əliyev siyasətinin davam etdirilməsidir. Gələn ay biz ulu öndərin 90 illik yubileyini qeyd edəcəyik. Bu ərəfədə görülən bütün işlərə bir daha nəzər saldıqda görürük ki, son 10 il ərzində Azərbaycan Heydər Əliyev siyasətinə öz sadiqliyini göstərərək böyük uğurlara nail olmuşdur. 10 il əvvəl mən bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Çox şadam ki, bu gün, 10 il keçəndən sonra görülən bütün işlər, əldə edilmiş nəticələr, bu inkişaf, bu quruculuq bir daha Heydər Əliyev siyasətinin nə qədər düzgün olmasını təsdiqləyir.

Bu gün Hacıqabulda içməli su layihəsinin başa çatması doğrudan da əlamətdar və unudulmaz bir hadisədir. Əminəm ki, gələcəkdə belə gözəl açılışlar çox olacaqdır. Hacıqabulda gözəl abadlıq-quruculuq işləri aparılır, parklar salınır, yeni sənaye müəssisələri yaradılır, küçələr abadlaşır. Bir sözlə, əminəm ki, rayonun inkişafı bundan sonra yalnız və yalnız sürətlə davam edəcəkdir. Beləliklə, ölkə iqtisadiyyatına hacıqabullular da öz dəyərli töhfələrini bundan sonra da verəcəklər. Əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sağ olun.

**H a f i z B ə ş i r o v** *(rayon sakini):* Möhtərəm cənab Prezident! İcazə verin, Sizi bütün Hacıqabul ictimaiyyəti adından salamlayım, rayonumuza «Xoş gəlmisiniz!» – deyim. Bu gün rayonumuzun həyatında əlamətdar bir gündür. Şəhərimizə içməli su verilir. Məncə, cənab Prezident, insan həyatında suyun əhəmiyyəti haqqında danışmağa ehtiyac yoxdur. Atalarımız «su həyatdır» deyiblər. Su həmişə elimizə, obamıza bolluq, paklıq, sağlamlıq gətirib.

Keçən əsrin 70-ci illərində ulu öndərimiz Heydər Əliyev Kür çayından Bakı şəhərinə və ətraf yaşayış məntəqələrinə kəmər çəkdirərək milyonlarla insanı sevindirdi. İndi bu nəcib missiyanı Siz davam etdirirsiniz, cənab Prezident.

Keçən ilin iyulunda Hacıqabul rayonunda yeni su kəmərinin təməlqoyma mərasimində Siz demişdiniz: «Əminəm ki, gələn ilin sonuna qədər bütün 6 rayonda gözəl mərasimlər keçiriləcəkdir. Bu rayonlara təmiz içməli suyun verilməsi tədbirlərində sizinlə birlikdə iştirak edəcəyik». Sizin iştirakınız və xeyir-duanızla bu gün şəhərimizə təmiz içməli su verildi. Hər bir sakinimiz insan həyatı və sağlamlığı üçün əvəzsiz olan içməli su ilə təmin olunacaqdır. Bu Sizin təkcə hacıqabullulara deyil, insanlarımıza, ölkə vətəndaşlarına necə yüksək önəm verməyinizin bariz nümunəsidir.

İcazə verin, bizə həyatımız üçün əvəzsiz bir nemət olan təmiz su bəxş etdiyinizə görə bütün hacıqabulluların dərin minnətdarlığını və səmimi təşəkkürlərini Sizə çatdırım.

Möhtərəm cənab Prezident!

Biz çox yaxşı bilirik ki, Sizin fəaliyyətinizin təməlində həmişə Azərbaycan vətəndaşı dayanır. Sizin həyata keçirdiyiniz bütün tədbirlər insanların yaxşı yaşamasına, onların həyatının, təhlükəsizliyinin, hüquqlarının qorunmasına yönəlibdir. 2010-cu ildə baş vermiş təbii fəlakət, sel daşqınları zamanı biz bunun bir daha şahidi olduq. Sadə insanlar o çətin günlərdə dövlətin gücünü, onun rəhbərinin qayğısını bir daha hiss etdilər. Həmin günlərdə məhz Sizin rəhbərliyinizlə görülmüş tədbirlər nəticəsində insan tələfatına yol verilmədi. İnsanlar böyük çətinliklə üz-üzə qalmadı. Doğrudan da bir neçə ay keçmədi ki, bütün fəlakət bölgəsində olduğu kimi, Hacıqabulda da sel suları basmış kəndlərimizdə zərərçəkmiş ailələr üçün yüzlərlə yeni evlər tikildi. İnsanlara maddi kömək göstərildi. Hacıqabullular bütün bunlara görə bir daha Sizə öz dərin minnətdarlıqlarını bildirirlər.

Möhtərəm cənab Prezident!

Bu gün hər birimiz ölkəmizin uğurlarına görə böyük qurur hissi keçiririk. Çünki Azərbaycan son illər ərzində iqtisadi inkişaf baxımından, sözün əsl mənasında, dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Rayonumuzda vaxtilə mövcud olan problemlər bu gün Sizin yüksək diqqətiniz sayəsində ardıcıllıqla aradan qaldırılır. Rayonumuzda öz məhsulu ilə bütün ölkəni təmin etmək gücündə olan yüzlərlə hacıqabullunun işləyəcəyi tikinti materialları zavodu istifadəyə verilib. Bu müəssisə sakinlərimizin, xüsusən də gənclərimizin məşğulluq probleminin həllinə böyük töhfə olacaqdır. Böyük məmnunluq və razılıq hissi ilə bildirmək istəyirəm ki, bu gün hər bir hacıqabullunun evinə mavi yanacaq verilir. Hər bir ev dayanıqlı elektrik enerjisi ilə təmin edilir. İndi rayonumuzun vaxtilə gediş-gəlişi həddən artıq çətin olan ən ucqar kəndlərinə belə, yeni yollar çəkilir. Bütün bunlarla yanaşı, ümumtəhsil məktəblərimizin hamısı yenidən qurulub, onların maddi-texniki bazası möhkəmləndirilib, rayonda uşaq tibb mərkəzi, 50 çarpayılıq xəstəxana-poliklinika tikilib istifadəyə verilmişdir.

Sizin qayğınız sayəsində şəhərimiz də öz görkəmini tanınmaz dərəcədə dəyişib. Şəhərimizdə yeni xiyaban və parklar salınır. Müasir işıqlandırma sistemi qurulub. Bir sözlə, sakinlərimizin rahat yaşayışı üçün hər cür şərait yaradılır. Bütün bunlara görə, bizim firavan yaşamağımız üçün gördüyünüz həyatı əhəmiyyətli işlərə görə, cənab Prezident, Sizə və Heydər Əliyev Fondunun prezidenti, hörmətli Mehriban xanım Əliyevaya hacıqabulluların dərin minnətdarlığını çatdırıram.

Möhtərəm cənab Prezident!

Xalqımızın Sizə olan inamı, etibarı möhkəm və tükənməzdir. Çünki Siz insanlarımızın kiçikdən böyüyə kimi hamısına dərin rəğbət və hörmətlə yanaşırsınız. Daim bizim sağlamlığımızın, təhlükəsizliyimizin qayğısına qalırsınız. Biz hacıqabullular həmişə Sizinləyik.

Diqqətinizə görə çox sağ olun.

## Daxili Qoşunların «N» saylı hərbi hissəsində yenidənqurma işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Daxili Qoşunların Hacıqabuldakı «N» saylı hərbi hissəsində yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyevə raport verdi.*

*Məlumat verildi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən nizami ordu quruculuğu siyasəti Azərbaycanı regionda ən güclü orduya malik dövlətə çevirib. Son 10 il Daxili Qoşunların fəaliyyətinin təşkili, idarə olunması və şəxsi heyətin həyat şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzindədir. Cəmiyyətin və dövlətin mənafeyinin, habelə ictimai asayişin mühafizəsində daim sayıq dayanan Daxili Qoşunların əsgər və zabitləri ötən illər ərzində öz üzərinə düşən vəzifələrin*

öhdəsindən layiqincə gəlmişdir. Daxili Qoşunlarda aparılan islahatlar, döyüş hazırlığı, maddi-texniki təminat, hərbi qulluqçuların sosial vəziyyəti və digər proseslər baxımından son illər bu qurum üçün də yeni inkişaf dövrü kimi xarakterizə olunur. Qarşıya qoyulan xidməti vəzifələrini şərəflə yerinə yetirməyə qadir olan Daxili Qoşunların şəxsi heyəti Azərbaycanın milli mənafelərinin keşiyində ayıq-sayıq dayanmışdır və ölkədə daxili sabitliyin qorunmasında əsas qüvvələrdən biridir. Daxili Qoşunlar artıq yüksək peşəkarlığa malik, mənəvi-psixoloji hazırlığı mükəmməl olan bir quruma çevrilib.

Dövlətimizin başçısı hərbi hissənin yenidən qurulması layihəsi və maketi ilə tanış oldu. Bildirildi ki, hazırda Daxili Qoşunların maddi-texniki bazasının təkmilləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirilir. Hərbi hissədə yaradılan şərait də bunun əyani nümunəsidir. 19 hektar ərazidə salınan hərbi şəhərcikdə yenidənqurma işləri mərhələli şəkildə davam etdiriləcəkdir. Birinci mərhələdə inşasına ötən ilin martında başlanan beşmərtəbəli qərargah, əsgər yataqxanası və yeməkxana, nəzarət-buraxılış məntəqəsi tikilmişdir. Ərazi hasarlanaraq, geniş sıra meydanı yaradılıb, daxili kommunikasiya xətləri çəkilib. Şəhərciyin ərazisində yaşıllaşdırma işləri aparılıb. Binalar bütün zəruri mühəndis-kommunikasiya sistemləri ilə təchiz olunub. Birinci mərhələdə tikilən bina və qurğuların ümumi sahəsi 7 min 674 kvadratmetrdir. Növbəti mərhələdə isə şəhərcik ərazisində 400 nəfərlik beşmərtəbəli əsgər yataqxanası, 60 mənzilli altımərtəbəli yaşayış binası, silah-sursat anbarı, 100 avtomaşınlıq avtopark tikiləcəkdir. Həmçinin burada qarovul məntəqəsi, hamam və camaşırxana, qazanxana, transformator yarımstansiyası, nasosxana və gözətçi qüllələrinin tikintisi nəzərdə tutulub.

Azərbaycan prezidentinin diqqətinə çatdırıldı ki, şəhərciyin ərazisindəki binaların inşasında milli memarlıq elementlərindən istifadə edilib.

Sonra prezident İlham Əliyev hərbi hissənin qərargahında yaradılan şəraitlə tanış oldu. Qərargahın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Silahlı Qüvvələrin

*inkişafına göstərdikləri diqqət və qayğını, Daxili Qoşunların fəaliyyətini əks etdirən fotostendlər və dövlət atributlarının əks olunduğu lövhələr qurulub. Müxtəlif inzibati otaqların yerləşdiyi birinci mərtəbədə eyni zamanda, döyüş fəaliyyətinin gücləndirilməsi ilə bağlı təlimatlar da əksini tapmışdır. Yeni inşa olunan qərargah da bütün zəruri kommunikasiya sistemləri, mebel və inventarla təmin olunub.*

*Azərbaycan prezidenti hərbi şəhərciyin ərazisini gəzdi, yenidən qurulan 70 mənzilli zabit yataqxanasına baxdı, zabit ailələrinin yaşayış şəraiti ilə maraqlandı.*

*Dövlətimizin başçısı hərbçilərin ailə üzvləri ilə xatirə şəkli çəkdirdi. Hərbi şəhərciyin fəaliyyəti ilə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## «Gilan Seramik» parkında Seramik plitələr istehsalı zavodunun açılışı mərasimi

*Prezident İlham Əliyev aprelin 15-də Hacıqabula səfəri çərçivəsində «Gilan Seramik» parkında Seramik plitələr istehsalı zavodunun açılışında da iştirak etmişdir.*

*Məlumat verildi ki, bu zavod Cənubi və Şimali Qafqaz, həmçinin Mərkəzi Asiya ölkələri arasında yalnız Azərbaycandadır. Sahəsi 27 hektar olan müəssisənin inşasına 2009-cu ilin sonlarında başlanılıb. Zavodda bu sahədə dünyanın ən aparıcı şirkəti olan İtaliyanın «Sacmi» müəssisəsinin avadanlığı quraşdırılıb. Bu avadanlıq vasitəsilə beynəlxalq standartlar səviyyəsində məhsul əldə etmək mümkündür. Müəssisənin fəaliyyətə başlaması daxili bazarın həmin materiallara tələbatının ödənilməsində həlledici rol oynayacaqdır. Bununla yanaşı, gələcəkdə məhsulların xaricə ixracı da planlaşdırılır.*

*Yeni müəssisələrin yaradılması əhalinin məşğulluğunun artırılmasında da mühüm əhəmiyyət kəsb edir. Zavodda çalışanlara 100 və 150 yerlik 2 yeməkxana xidmət göstərəcəkdir. Müəssisənin ərazisində inşa olunmuş dördmərtəbəli 80 yerlik müasir Qonaq evində qonaqların və zavodda çalışanların istirahəti üçün hər cür*

*şərait yaradılıb. Müəssisənin inzibati bölməsində də işçilər üçün hərtərəfli şərait vardır. Bölmənin konfrans və toplantı zalları müasir səviyyədə qurulmuşdur. Burada müxtəlif tədbirlərin keçirilməsi mümkün olacaqdır. İkimərtəbəli sərgi salonunda zavodda istehsal olunan məhsullar nümayiş etdirilir. Bundan başqa, müəssisənin ərazisində hazır məhsullar və avadanlığın ehtiyat hissələri anbarları inşa olunub, nasosxana, qazanxana və transformator quraşdırılıb. Zavodun həyatində geniş abadlıq-quruculuq işləri görülmüş, yaşıllıqlar salınmış, idman meydançası yaradılmışdır.*

*Məlumat verildi ki, zavod 19,7 min kvadratmetr qapalı sahədən ibarətdir. Burada quraşdırılan müasir avadanlıqla rəqabətədavamlı məhsul istehsal ediləcəkdir.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı.*

*Bildirildi ki, ümumilikdə müəssisənin yaradılmasına 40,2 milyon manat investisiya qoyulub. Avadanlığın alınması və tikintinin həyata keçirilməsi məqsədilə İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondundan 5 milyon manat güzəştli kredit ayrılmışdır. İstehsal avadanlığı italiyalı mütəxəssislər tərəfindən quraşdırılmışdır. Müəssisənin illik xammal tələbatı 80 min ton təşkil edir. Bu tələbatın əsas hissəsi yerli xammal hesabına ödəniləcək, bəzi qatqı maddələr isə Türkiyə və Ukraynadan gətiriləcəkdir.*

*Zavodun xammal bazasının yaradılması məqsədi ilə aparılmış geoloji tədqiqatlar nəticəsində Abşeron və Gəncə–Qazax iqtisadi rayonları ərazisində kifayət qədər xammal yataqlarının mövcudluğu və həmin yataqlardan alınacaq xammal-materialların yüksək keyfiyyət göstəricilərinə malik olduğu müəyyən edilib. Zavodda il ərzində 1 milyon 815 min kvadratmetr döşəmə plitə, 1 milyon 798 min kvadratmetr üzlük plitə və 165 min paqonmetr dekorativ plitə hazırlanacaqdır. Müəssisədə yaxın gələcəkdə tələbata uyğun olaraq bütün ölçülərdə plitə buraxılacaqdır.*

*Diqqətə çatdırıldı ki, müəssisənin işi tam avtomatlaşdırılıb. Zavodda 500-dən çox adam daimi iş yeri ilə təmin olunub.*

Müəssisədə üçnövbəli iş rejimi tətbiq edilməklə, hər növbədə 94 nəfər işləyəcəkdir. Zavodun fəaliyyətinin genişləndirilməsi ilə əlaqədar gələcəkdə iş yerlərinin sayı daha da artırılacaqdır.

Müəssisə ilə tanış olan prezident İlham Əliyevə «Gilan Seramik» parkında inşa ediləcək daha bir istehsal sahəsi – yeni keramaqranit zavodu barədə məlumat verildi. Bildirildi ki, müəssisənin inşasından məqsəd istehsal olunan məhsulların çeşidinin və həcminin artırılmasıdır.

Prezident İlham Əliyev yeni zavodun təməlini qoydu.

Məlumat verildi ki, zavodun cənub hissəsində 15 hektar sahədə müxtəlif duş kabinələri, vannalar və digər sanitariya qovşağı avadanlığı istehsal edən müəssisənin tikintisi nəzərdə tutulub. Bu layihələrin həyata keçirilməsi rayonun sosial-iqtisadi inkişafında və əhalinin məşğulluğunun artırılmasında mühüm rol oynayacaqdır.

Dövlətimizin başçısı daha sonra müəssisədə yaradılmış sərgi salonu ilə tanış oldu. Burada zavodda hazırda istehsal olunan və olunacaq məmulatların nümunələri sərgilənir. Bildirildi ki, bu məhsullar keyfiyyətinə görə dünya bazarında rəqabətə davamlılığı ilə seçiləcəkdir.

Prezident İlham Əliyev müəssisənin inzibati bölməsində də oldu. Burada işçilər üçün hərtərəfli şərait yaradılıb. Bölmənin konfrans və toplantı zalları müasir səviyyədə qurulmuşdur. İnzibati bölmədə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafına verdikləri töhfələri əks etdirən fotolardan ibarət guşə yaradılıb.

Görülmüş işləri yüksək qiymətləndirən Azərbaycan prezidenti tapşırıqlarını verdi.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Boston şəhərində törədilmiş partlayışlar nəticəsində insanların həlak olması və xəsarət alması barədə xəbər məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 aprel 2013-cü il*

## İNDONEZİYA RESPUBLİKASI PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ MARZUKİ ALİENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da İndoneziya Respublikası Parlamenti Nümayəndələr Palatasının sədri Marzuki Alienin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan – İndoneziya münasibətlərinin ikitərəfli formatda uğurla inkişaf etdiyini bildirdi, əlaqələrimizin siyasi, iqtisadi, parlamentlərarası əməkdaşlıq və digər sahələrdə genişləndirildiyini vurğuladı. Son vaxtlar siyasi əlaqələrimizin daha da intensivləşdiyini deyən prezident İlham Əliyev bu əməkdaşlığın inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə daim qarşılıqlı dəstək verdiklərini deyən dövlətimizin başçısı bu dəstəyin gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə etdi. İndoneziya Parlamenti Nümayəndələr Palatasının sədri Marzuki Alienin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin daha da genişləndirilməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*İndoneziya Parlamenti Nümayəndələr Palatasının sədri Marzuki Alie ölkələrimiz arasında əlaqələrin təhsil, turizm, ticarət, tikinti və digər sahələrdə genişləndirilməsi üçün də böyük imkanların olduğunu vurğuladı. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirdi, münaqişənin yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələri nəzərə alınmaqla, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu dedi.*

## MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏR

*16 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Mingəçevir şəhərinə səfərə gəlmişdir. Dövlətimizin başçısı yeni inşa olunan Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılan xalqımızın ümummilli liderinin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov prezident İlham Əliyevə məlumat verdi ki, yeni ucaldılan abidənin müəllifi Xalq rəssamı Ömər Eldarovdur. Abidənin ətrafında abadlıq işləri görülmüş, yaşıllıq zolaqları salınmışdır.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 16-da Mingəçevirə səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Mingəçevir şəhərinin inkişafı ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə Mingəçevirin inkişafına mühüm töhfə vermişdir. Ümummilli liderin bu fəaliyyətini Mingəçevir şəhər ictimaiyyəti ehtiramla yad edir. Mingəçevir şəhərində inşa olunan Heydər Əliyev Mərkəzi də ulu öndərin zəngin həyat yolunun səhifələrini vərəqləməyə, Azərbaycan tarixinin bütöv bir qərinəsinə nəzər salmağa imkan verir.*

*Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov məlumat verdi ki, Mərkəzin tikintisinə 2008-ci ilin avqustunda başlanılmış, 6 min kvadratmetrlik ərazidə inşa olunan Mərkəzdə ən müasir standartlar tətbiq edilmişdir. Ulu öndərin zəngin irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması məqsədilə yaradılan Mərkəz ümummilli liderin xatirəsinin əbədiləşdirilməsi istiqa-*

mətində görülən tədbirlərdən biridir. Mərkəzdə ulu öndərin ölkəmizə rəhbərliyinin müxtəlif dövrlərini əks etdirən fotostendlər qurulmuşdur.

Prezident İlham Əliyev Mərkəzin akt zalı ilə tanış oldu. Bildirildi ki, 570 yerlik geniş və işıqlı akt zalında şəhər və respublika səviyyəli tədbirlərin, konfransların və iclasların keçirilməsi nəzərdə tutulur. Mərkəzdəki xüsusi guşədə dövlət atributları haqqında məlumat verilir. Burada, həmçinin Azərbaycanın zəngin dövlətçilik tarixini əks etdirən lazer lövhə yaradılıb. Mərkəzə gələn hər bir kəsin Azərbaycanın tarixi ilə bağlı dolğun məlumat əldə etmək imkanı vardır.

Qeyd olundu ki, Mərkəzin ikinci mərtəbəsindən sərgi zalı kimi də istifadə ediləcəkdir. Hazırda burada mingəçevirli rəssamların və heykəltəraşların əl işləri nümayiş olunur. Mərkəzdə gənclərin müasir texnoloji yeniliklərlə yaxından tanış olmaları, onların bilik və bacarıqlarının inkişafı üçün kurslar təşkil ediləcəkdir. Bunun üçün internet sinfi, elektron kitabxana və kompüter mərkəzi qurulub. Mərkəzdə ulu öndər Heydər Əliyevin irsini öyrənən və prezident İlham Əliyevin fəaliyyətindən bəhs edən monitor-zallar da fəaliyyət göstərəcəkdir. Bundan əlavə, məktəblilərin Azərbaycanın zəngin tarixini dərindən öyrənmələri üçün xüsusi dərnəklər, o cümlədən müasir formatlı kinozal, sərgi salonu, fotostudiya, dizayn və rəsm studiyası yaradılmışdır.

Sonra dövlətimizin başçısı Mərkəzdə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

## MİNGƏÇEVİR ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 aprel 2013-cü il*

**İ l h a m Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. Bu gün Mingəçevirdə çox əlamətdar bir gündür. Biz Mingəçevirdə Heydər Əliyev Mərkəzinin açılışına toplaşmışıq. Çox gözəl, möhtəşəm binadır. Həm xarici gözəlliyi ilə seçilir, əlbəttə ki, daxili tərtibatı da çox yaxşıdır, yüksək səviyyədə tikilmişdir. Əlbəttə ki, ulu öndərin yubileyi ərəfəsində Mingəçevirdə belə Mərkəzin açılışı çox böyük məna daşıyan bir hadisədir.

Ulu öndər bütün dövrlərdə Vətəninə sədaqətlə, ləyaqətlə xidmət etmişdir. XX əsrin 70–80-ci illərində onun rəhbərliyi altında Azərbaycan sovet məkanında ən qabaqcıl yerlərə qalxa bilmişdir. Mingəçevir üçün o illər ərzində çox böyük işlər görülmüşdür. Mingəçevirin sovet məkanında çox böyük sənaye mərkəzinə çevrilməsi də məhz ulu öndərin adı ilə bağlı olmuşdur. Əlbəttə, müstəqillik dövründə Heydər Əliyevin xidmətləri o qədər böyükdür ki, bu barədə danışmaq üçün saatlarla vaxt lazımdır. Ən ağır illərdə xoşagəlməz halların qarşısı məhz onun rəhbərliyi ilə alındı və Azərbaycan inkişaf yoluna qədəm qoydu.

Müstəqilliyimizin ilk illəri hamımızın yaxşı yadındadır. O vaxt əslində Azərbaycanın müstəqil ölkə kimi yaşaması sual altında idi. Əvvəlki rəhbərlik ölkəni uçurum kənarında qoymuşdu. Azərbaycan xalqının iradəsi, o cümlədən mingəçevirlilərin ulu öndərə olan inamı vəziyyətin köklü şəkildə dəyişməsinə gətirib çıxardı. 1993-cü ildən bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir, uğurla və sürətlə gedir. Bu gün də ulu öndərin siyasi xətti davam etdirilir. Hər bir yerdə, hər bir bölgədə və hər bir istiqamət üzrə onun qoyduğu yol bu gün inkişaf yoludur.

Mingəçevirin inkişafı da çox sürətlidir. Son illər bu şəhərdə böyük işlər görülüb. Şəhər gözəlləşib, abadlaşıb. Yeni gözəl binalar tikilib, küçələr genişləndirilib. İctimai yerlər yaradılıb, parklar salınıbdır. Bu gün bir daha gedən işlərlə tanış oldum. Görürəm ki, doğrudan da bütün işlər böyük zövqlə, keyfiyyətlə aparılır. İnsanların rahat yaşaması üçün bütün işlər görülübdür. Əvvəlki dövrlərdə də Mingəçevirdə olarkən açılışlarda iştirak etmişəm. Keçən dəfə biz Kür avarçəkmə bazasının açılışını qeyd etdik. Bu da ölkə miqyasında nadir bir idman və turizm obyektidir. Çox şadam ki, biz nəinki bu bazanı bərpa etdik, həm də ən yüksək dünya standartlarına cavab verən bir idman və turizm mərkəzini yarada bildik. Əlbəttə ki, gələcəkdə şəhərin inkişafı üçün turizm sektoru önəmli rol oynaya bilər və oynamalıdır. Çox şadam ki, sahilin o biri tərəfində yeni hotellər, istirahət zonaları tikilir.

Mingəçevirin çox gözəl iqlimi, çox gözəl təbiəti var. Kür çayı boyu yerləşən ən gözəl şəhərdir. Kür çayının rəngi də burada çox gözəldir, çox şəffafdır. Belə rəng başqa yerdə yoxdur. Bunu siz də bilirsiniz, biz də bilirik. Əlbəttə, Mingəçevirin bu gözəl təbii vəziyyətindən biz gərək maksimum dərəcədə istifadə edək. İş adamları buraya investisiya qoymalıdır. Mingəçevir Azərbaycanın çox böyük turizm mərkəzinə çevrilməlidir. Bunu etmək üçün bir daha demək istəyirəm ki, bütün imkanlar vardır. Artıq tikilən hotellər də turizm sektorunun inkişafına xidmət göstərəcəkdir. Eyni zamanda, biz gərək Mingəçeviri böyük sənaye mərkəzi kimi inkişaf etdirək. Mən Nazirlər Kabinetinin toplantısında bu məsələ ilə bağlı xüsusi göstəriş vermişəm. Əslində Azərbaycanda 3 böyük sənaye mərkəzi müəyyən olunubdur – Bakı, Sumqayıt və Gəncə. Mingəçeviri də biz bu siyahıya əlavə etməliyik. Sovet vaxtında burada çoxlu müəssisələr fəaliyyət göstərirdi. Sonra onların bir çoxu bağlandı. Biz Mingəçeviri yenidən böyük sənaye mərkəzinə çevirməliyik. Buna nail olmaq üçün artıq hökumətə müvafiq göstərişlər verilib. İndi işlər gedir ki, Mingəçevirdə texnologiya parkı yaradılsın. Dövlətin dəstəyi ilə burada bir neçə iri müəssisə yaradılsın ki, iş

yerləri çoxalsın. Baxmayaraq ki, son illər Mingəçevirdə iş yerləri ilə bağlı böyük işlər görülübdür, amma hələ də işsizlər vardır. Biz gərək şərait yaradaq ki, onlar işlə təmin olunsunlar və öz maddi vəziyyətlərini yaxşılaşdıra bilsinlər. Ona görə Mingəçevirin gələcək inkişafı sənayenin, turizmin inkişafı ilə bağlı olacaqdır. Əlbəttə ki, sosial infrastrukturun yaradılması və müasirləşdirilməsi istiqamətində də işlər gedəcəkdir.

Mənə verilən məlumata görə şəhər xəstəxanası o qədər də yaxşı vəziyyətdə deyil. Xəstəxananın yenidən qurulmasına ehtiyac var. Bu barədə göstəriş veriləcək. Mingəçevirdə hələ ki, Olimpiya Mərkəzi tikilməyib. Düzdür, biz daha çox Kür avarçəkmə bazasının tikintisi ilə məşğul idik. Bu da ölkə miqyasında böyük bir idman qurğusudur. Ancaq Kür avarçəkmə bazasında daha çox peşəkar idmançılar məşğul olurlar. Olimpiya mərkəzlərində isə adi vətəndaşlar, gənclər, uşaqlar, yeniyetmələr idmanla məşğul olmalıdırlar. Ona görə Mingəçevirdə şəhər xəstəxanası, Olimpiya Mərkəzi, turizm obyektləri və sənaye müəssisələrinin yaradılması gələcək illərdə bizim üçün əsas istiqamət olacaqdır.

Şübhəsiz ki, sosial cəhətdən ən ağır vəziyyətdə olan soydaşlarımız, məcburi köçkünlərin problemləri də öz həllini tapmalıdır. Bu gün böyük bir şəhərcik açılır. Mingəçevirdə 20 mindən artıq köçkün məskunlaşıbdır, onların problemləri də tədricən öz həllini tapır. Mingəçevirdə bundan sonra da köçkünlər üçün yeni binalar, evlər tikiləcəkdir.Yəni Mingəçevirin timsalında biz, ümumiyyətlə, ölkəmizin inkişaf modelini görürük – güclü sənaye potensialı, sosial məsələlərin həlli, sosial infrastrukturun yaradılması və qeyri-neft sektorunun inkişafı. Çünki bizim üçün, yəni dövlət, hökumət üçün gələcək illərdə əsas vəzifə bunlardan ibarət olacaq ki, ölkəmiz hərtərəfli inkişaf etsin, bütün bölgələr daha da böyük inkişafa nail olsun və iqtisadiyyatın dayanıqlılığını təmin etmək üçün qeyri-neft sektorunun inkişafına daha da böyük təkan verilsin. Bu ilin birinci rübündə qeyri-neft sektorumuz 11,4 faiz artmışdır. Bu da hesab edirəm ki, dünya miqyasında ən yüksək göstəricidir.

Əlbəttə, Mingəçevirin gələcək inkişafı və şəhərin abadlaşması daim diqqət mərkəzində olacaqdır. Mən dəfələrlə Mingəçevirdə olmuşam, bundan sonra da olacağam, sizinlə birlikdə bütün bu işləri görəcəyik. Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**B ə h m ə n N ə c m ə d d i n o v** *(şəhər sakini):* Möhtərəm cənab Prezident, Mingəçevir şəhərinə xoş gəlmisiniz! İcazə verin, mingəçevirlilər adından Sizi bu gözəl sarayda salamlayım. Hamıya məlumdur ki, Mingəçevirin inkişafında, bugünkü günə çatmasında ulu öndərin çox böyük zəhməti olmuşdur. Məhz ulu öndərin böyük təşəbbüsü və qətiyyəti sayəsində Mingəçevir Azərbaycanın energetika mərkəzinə çevrildi. Siz bilirsiniz ki, Cənubi Qafqazın ən iri enerji nəhəngi olan İstilik-Elektrik Stansiyası məhz Mingəçevirdə ulu öndərin qətiyyəti nəticəsində tikildi və bu gün də bu stansiya Azərbaycan iqtisadiyyatında böyük əhəmiyyət kəsb edir.

Bu möhtəşəm sarayın tikintisində bütün mingəçevirlilər fəal iştirak etmişlər və bizim nəsil bildiyiniz kimi, ümummilli lider Heydər Əliyevin dövründə böyüyüb, biz onun irsini gözəl bilirik. Bu saray gənclərimizin gələcəkdə ulu öndərin dərin irsini, həyat məktəbini öyrənmək üçün çox gözəl bir yer olacaqdır. Burada gənclərimiz müxtəlif klublarda öz bilik və intellekt səviyyələrini artıracaqlar, özlərinə lazım olan məşğuliyyətləri artıq burada tapa biləcəklər. Sizin sayənizdə ölkəmizin iqtisadiyyatı çox sürətlə inkişaf edir. Buna misal olaraq Dünya İqtisadi Forumunun Bakı şəhərində keçirilməsini göstərmək olar. Bu, Azərbaycanın bugünkü dünya iqtisadiyyatında hansı səviyyədə olduğunu təsdiqləyən bir göstəricidir. Orada iştirak edən qonaqların Azərbaycan iqtisadiyyatına, Azərbaycanın inkişafına verdiyi qiymət ürəyimizi dağa döndərdi. Bunların hamısı Sizin apardığınız düzgün siyasətin nəticəsidir. Azərbaycan durmadan inkişaf edir. Bu, danılmaz faktdır. Belə inkişaf edən bölgələrdən biri də Mingəçevir şəhəridir.

Bu gün Siz qeyd etdiniz, Mingəçevir şəhəri abadlaşır, gözəlləşir, gözəl xiyabanlar tikilir, parklar açılır, belə möhtəşəm saraylar istifadəyə verilir, qaçqınlarımız-köçkünlərimiz üçün gözəl binalar tikilir, infrastruktur dəyişir. Bu bizi çox sevindirir. Mingəçevirə göstərdiyiniz yüksək diqqət və qayğıya görə Sizə, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya mingəçevirlilərin böyük təşəkkürünü çatdırmaq istəyirəm. Biz Sizin ötən bazar günü Nazirlər Kabinetinin iclasındakı çıxışınızı diqqətlə izləmişik və Mingəçevirə verdiyiniz bu töhfəni böyük səmimiyyətlə qarşılayırıq. Həqiqətən, Mingəçevir buna layiqdir.

Siz qeyd etdiyiniz kimi, Mingəçevirdə keçmişdə iri sənaye müəssisələri var idi və burada 18 mindən artıq əhali çalışırdı. Amma bu gün baxmayaraq ki, Sizin göstərişinizlə burada emal, istehsal, tikinti müəssisələri işləyir, əhalinin xeyli hissəsi işlə təmin olunub, amma işsizlik problemi yenə də vardır. Sizin bu qərarınızdan sonra işsizliyin aradan götürülməsinə çox böyük təkan veriləcəkdir. Mingəçevirin iqtisadi potensialı güclənəcək, şaxələnəcəkdir. Mingəçevirlilər ulu öndərə sadiq olduqları kimi, həmişə Sizinlə olacaqlar və gələcəkdə bütün işlərini Sizin tələbləriniz səviyyəsində qurmağa çalışacaqlar. Ulu Tanrıdan Sizə, ailə üzvlərinizə Azərbaycanın çiçəklənməsində, inkişafında yeni-yeni nailiyyətlər və uğurlar arzulayırıq. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun, doğrudan da Mingəçevirin gələcək inkişafı üçün əsas məsələ yeni iş yerlərinin açılmasıdır. Çünki şəhərdə quruculuq-abadlıq işləri çox yaxşı gedir, yeni parklar salınır, ictimai yerlər yaradılır, eyni zamanda, bütün infrastruktur layihələri uğurla icra edilir. Mənə verilən məlumata görə, qazlaşdırma Mingəçevirdə 94 faizə çatmışdır. Ümumi ölkə üzrə qazlaşdırma hələ ki, o səviyyədə deyil. İçməli su, elektrik enerjisi ilə heç bir problem yoxdur. Təbii ki, Mingəçevir bütün ölkəmiz üçün elektrik enerjisi istehsal edir.

Yolların çəkilişi son illər ərzində çox yaxşı gedib – şəhər yolları abadlaşıb, gözəlləşib, indi yeni layihələr icra edilir. Belə gözəl obyektlər tikilir. Bu gün Gənclər evi də açılacaqdır. Yəni

sosial infrastrukturla bağlı dediyim kimi, xəstəxana, Olimpiya Mərkəzi tikiləcəkdir. Ona görə yeganə əsas məsələ iş yerləridir və bu istiqamət üzrə biz daha da fəal işləyəcəyik ki, gələcəkdə Mingəçevirdə də işsizliyin səviyyəsi ölkədə olduğu kimi olsun. Çünki son illər ərzində Azərbaycanda işsizlik böyük dərəcədə aşağı düşmüşdür və statistikaya görə cəmi 5,2 faiz təşkil edir. Mingəçevirdə isə bu göstərici əfsuslar olsun ki, daha böyükdür. Ona görə biz əsas yükü verəcəyik bu məsələlərə. Verilən göstərişlər və hazırlanan layihələr əminəm ki, yaxın zamanlarda Mingəçevirdə bir neçə iri müəssisənin yaradılmasına gətirib çıxaracaqdır. Dövlət, əlbəttə ki, öz üzərinə düşən vəzifəni icra edəcək. Bu layihələr dövlət dəstəyi ilə icra ediləcəkdir və eyni zamanda, biznes qurumlarını da biz yeni müəssisələrin yaradılması üçün Mingəçevirə istiqamətləndirəcəyik. Bu gün Azərbaycanda şirkətlərin böyük hissəsi dövlət tərəfindən dəstək görür və Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə bu il 250 milyon manat güzəştli kreditlər veriləcəkdir. Yəni dövlətin kifayət qədər imkanı var ki, istənilən coğrafi məntəqəyə bu investisiyaları yönəltsin. Əlbəttə, Mingəçevir burada ön planda olacaq, çünki buna böyük ehtiyac vardır. Əminəm ki, gələcək illərdə Mingəçevirin böyük sənaye şəhəri kimi şöhrəti yenə də yüksək səviyyədə olacaqdır. Bir daha sizə təşəkkür edirəm, sağ olun.

* * *

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyevə Müşfiq Mirzəyev adına «Dostluq» parkında aparılan yenidənqurma işləri ilə bağlı məlumat verildi. Qeyd olundu ki, parkda tikinti işlərinə bu ilin yanvarında başlanılıb. Ümumi ərazisi 6 hektar olan parkda müasir işıqlandırma sistemi və fəvvarə quraşdırılmış, geniş yaşıllıq zolaqları salınmış, dekorativ ağac və kollar əkilmişdir. İndi parkda yay konsert səhnəsi tikilir. Burada açıq havada şəhər əhəmiyyətli müxtəlif tədbirlər və konsert proqramları təşkil olunacaqdır. Parkda müxtəlif istirahət guşələri, həmçinin uşaqların əylənmələri üçün hər cür şərait*

*yaradılacaq, müasir attraksionlar və uşaq yelləncəkləri quraşdırılacaqdır. Artıq 100 müasir oturacaq qoyulub.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ətrafdakı fərdi evlər və digər binalarda da əsaslı təmir işləri aparılacaqdır. Yaşıllaşdırılan ərazidə avtomatik suvarma sistemi artıq quraşdırılmışdır. Bir sözlə, müasir standartlar səviyyəsində inşa olunan park şəhər əhalisinin və qonaqların ən sevimli istirahət mərkəzlərindən birinə çevriləcəkdir. Azərbaycan prezidenti yeni parkın tikintisi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Bayraq Meydanı ilə tanışlıq

*Prezident İlham Əliyev aprelin 16-da Mingəçevirə səfəri çərçivəsində şəhərin girişində salınan Bayraq Meydanı ilə tanış olmuşdur.*

*Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağımızın yenidən ölkəmizin müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında müstəsna xidmətlərindən biridir. İlk dəfə Naxçıvan Muxtar Respublikası ərazisində dalğalanan bayrağımız indi mühüm beynəlxalq tədbirlərdə, mötəbər mərasimlərdə, ictimai-siyasi toplantılarda öz görkəmli yerini qoruyub saxlayır. Üçrəngli bayrağımız müxtəlif mədəniyyət tədbirlərində və idman yarışlarında qaldırılaraq milli birliyimizi təcəssüm etdirir, bütün soydaşlarımızın qəlbini qürur hissi ilə doldurur. Azərbaycan prezidentinin dövlət atributlarına olan ehtiramının nəticəsidir ki, bu gün hər bir azərbaycanlı bayrağımızı özünün qürur mənbəyi hesab edir. Dövlət atributlarının qorunmasına və təbliğinə prezidentin həssas münasibətini 2009-cu il 9 noyabr tarixinin Azərbaycanda Dövlət Bayrağı Günü kimi təsis edilməsi də təsdiqləyir. Paytaxt Bakı ilə yanaşı, son illərdə bölgələrdə yaradılan bayraq meydanları da gənc nəslin vətənpərvərlik hisslərinin daha da gücləndirilməsinə xidmət edən mühüm amillər sırasındadır. Bu baxımdan Mingəçevirdə salınan Bayraq Meydanı və burada ucaldılan Dövlət bayrağı da möhtəşəmliyi ilə diqqəti cəlb edir.*

Dövlətimizin başçısına məlumat verildi ki, Mingəçevirdə Bayraq Meydanının inşasına ötən ilin iyununda başlanılıb, bu ilin martında başa çatdırılmışdır. Meydan şəhərin giriş hissəsində, Heydər Əliyev prospektində yerləşir. Bayraq dirəyinin hündürlüyü 42 metrdir. Bayrağın ətrafında Azərbaycanın xəritəsi, Dövlət himni və gerbi əks olunub. Meydanda inşa olunan fəvvarə buranı daha da gözəlləşdirir. Bayraq Meydanının ərazisində geniş abadlıq işləri aparılmış, yaşıllıq zolağı salınmışdır. Burada müxtəlif adda gül və bəzək kolları əkilmiş, meydanda müasir işıqlandırma sistemi quraşdırılmışdır. Şəhər sakinlərinin istirahəti üçün meydanda hər cür şərait yaradılıb. Prezident İlham Əliyev Bayraq Meydanında yaradılmış şəraitdən məmnunluğunu bildirdi.

## Gənclər evinin açılışı mərasimi

Azərbaycan prezidenti İlham Əliyev aprelin 16-da Mingəçevirdə Gənclər evinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısı Gənclər evinin rəmzi açılışını bildirən lenti kəsdi. Gənclər və İdman naziri Azad Rəhimov Azərbaycan prezidentinə məlumat verdi ki, dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Bölgələrdə müasir tələblərə cavab verən sosial infrastruktur obyektlərinin və gənclər mərkəzlərinin, o cümlədən Mingəçevirdə Gənclər evinin yaradılması da bu məqsədə xidmət edir.

Bildirildi ki, üçmərtəbəli binanın tikintisinə ötən ilin martında başlanılmış, bu ilin aprelində başa çatdırılmışdır. Ümumi sahəsi 980 kvadratmetr olan Gənclər evinin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətinin müxtəlif məqamlarını, həmçinin gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Mərkəzdə gələcəkdə rayon gəncləri arasında intellektual oyunların keçirilməsi nəzərdə tutulub.

Qeyd olundu ki, gənclərimizin vətənpərvərlik ruhunda böyüməsi prioritet məsələlərdən biridir. Bunun üçün burada «Vətənpərvərlik klubu» yaradılmışdır. İnformasiya guşəsindən isə gənclər ən son məlumatları əldə edəcəklər. Ayrıca yaradılmış internet otağında bütün kompüterlər internetə qoşulub. Gənclər evində kompüter bilikləri və xarici dil üzrə xüsusi kursların təşkili də planlaşdırılır. Masaüstü oyunlar zalında gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Sərgi salonunda isə hazırda dünyanın müxtəlif ölkələrindən olan gənc rəssamların əl işləri sərgilənir. «ART studiya»da ən son texnologiyalar quraşdırılıb. Burada gənclər müxtəlif növ verilişlər hazırlamaq imkanı əldə edəcəklər. Gənclər evində istedadların hazırlığı laboratoriyası fəaliyyət göstərəcəkdir. Bu layihə Dövlət Proqramı çərçivəsində Gənclər və İdman Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Əsas məqsəd yeniyetmələr arasında elmi-texniki biliklərin təbliği, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, bu sahədə istedadlı gənclərin üzə çıxarılmasıdır. «Texnika və ixtiralar klubu» da gənclər üçün mühüm əhəmiyyətə malikdir. Burada gənclərə həm yeni ixtiralar, həm ən son texnikalar haqqında məlumat veriləcəkdir. Gənclər onları maraqlandıran bütün suallara «qaynar xətt» xidmətindən cavab ala biləcəklər. Konfrans zalında gənclərlə bağlı müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulur. Gənclər evində, həmçinin «yaşıl şəhər» ekologiya dərnəyi, kitabxana və karyera mərkəzi fəaliyyət göstərəcəkdir. Gənclər evi gənclərin asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayacaqdır.

Prezident İlham Əliyevə ölkəmizdə inşa olunan və tikintisi nəzərdə tutulan idman qurğuları, 2015-ci ildə Bakıda keçiriləcək Avropa oyunları ilə bağlı görülən işlər barədə də məlumat verildi.

## Mingəçevir Su Anbarının təhlükəsizlik sistemi ilə tanışlıq

*Prezident İlham Əliyev aprelin 16-da Mingəçevir Su Anbarının perimetr və aquatoriya sərhədlərində qurulan inteqrə olunmuş təhlükəsizlik sistemi ilə tanış olmuşdur.*

*Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Ali Baş Komandan, prezident İlham Əliyevə raport verdi. Bildirildi ki, Azərbaycan prezidentinin 2011-ci il fevralın 25-də imzaladığı fərmana əsasən Fövqəladə Hallar Nazirliyinin nəzdində yaradılmış Su Ehtiyatları Dövlət Agentliyinin səlahiyyətlərinə dövlət əhəmiyyətli su anbarlarının etibarlı mühafizəsini təmin etmək, ölkədə qurğuların texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirən, yerüstü, yeraltı su ehtiyatlarının, su obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqlərini aparmaq daxil edilmişdir. Bu çərçivədə Mingəçevir Su-Elektrik Stansiyasında təhlükəsizliyin təmin edilməsinin strateji məsələ olması diqqətdə saxlanılmış və 16 milyard kubmetr su ehtiyatına malik anbarın kənar müdaxilələrdən qorunması üçün müasir avadanlıqdan istifadə edilərək mükəmməl təhlükəsizlik sistemi qurulmuşdur. Bu təhlükəsizlik sistemi stansiyanın perimetrini, su bəndini və xüsusi əhəmiyyətli 3 mühəndis qurğusunu kənar müdaxilələrdən qoruyur. Stansiyaya mükəmməl təhlükəsizlik cihazlarına malik 4 nəzarət-buraxılış məntəqəsindən girmək mümkündür. Bütün postlar və nəzarət binası texnologiyanın son nailiyyətləri olan təhlükəsizlik sistemləri ilə təchiz edilib. Su-Elektrik Stansiyasının perimetri boyunca 4350 metr xəbəredici və 3950 metr əsas elektron qoruyucu çəpər çəkilmişdir. Çəpər boyunca hər 50 metrdən bir qurulan dayaqlarda 240 statik videokamera vasitəsilə perimetrə nəzarət olunur. Həmin dayaqlarda 55 səsləndirmə sisteminin səsucaldanları quraşdırılıb ki, bunların köməyi ilə əraziyə xəbərdarlıq və ya həyəcan anonsları verilir. Bundan başqa, strateji nöqtələrdə qurulan 360 dərəcə fırlanan, yaxınlaşdıran sürətli-hərəkətli 20 video kameradan, 19 termal kameradan istifadə olunmuşdur ki, bunlarla da hər hansı hadisəni*

*və obyekti tam analiz etmək mümkündür. Bu mühüm ərazidə ümumilikdə 852 kvadratmetr yeni tikinti işləri aparılmış, 300 kvadratmetrdən çox isə yenidənqurma işləri görülmüş, ərazi boyunca 11 min kvadratmetr yola asfalt örtüyü çəkilmişdir. Binalar yanğın siqnalizasiya və avtomatik qazla söndürmə sistemləri ilə təchiz olunub. Məqsəd obyektin ərazisində xüsusi rejim formalaşdırmaq və təhlükəsizliyin təmin edilməsidir.*

*Vurğulandı ki, obyektin girişləri 8 şlaqbaum və 4 antitaran maneə ilə qorunur. Buraxılış məntəqəsinə yaxınlaşan avtomobilin nömrəsi və sürücünün üzünün görüntüsü haqda məlumatlar bazada toplanır və identifikasiya edilir, şlaqbaumla antitaran maneə arasında avtomobil yoxlanılır. Xaricdə istehsal olunmuş antitaran maneə isə 50 tona qədər zərbənin qarşısını ala bilir. Obyektə daxil olan piyadaların sifətini identifikasiya etmək üçün nəzarət-buraxılış məntəqəsində xüsusi kamera quraşdırılıb. Buraxılış məntəqəsinə daxil olan şəxs «feys-inspektor» sistemindən keçir, üzün identifikasiyası aparılır, xüsusi plastik kartı turniketə yaxınlaşdıraraq keçidə icazə alır. Təhlükəsizlik sisteminin bir özəlliyi də ondan ibarətdir ki, 4 nəzarət buraxılış məntəqəsinin hər biri vahid mərkəzdən idarə olunur.*

*Prezident İlham Əliyev Mingəçevir Su Anbarının mühafizə sisteminin sxeminə və maketinə baxdı. Dövlətimizin başçısı növbə rəisinin otağında Mingəçevir Su Anbarının perimetr və aquatoriya sərhədlərində qurulan inteqrə olunmuş təhlükəsizlik sistemi haqda filmə baxdı. Bildirildi ki, növbə rəisinin otağından su anbarı da daxil olmaqla, bütün obyekti monitor və ya canlı şəkildə – pəncərədən izləmək mümkündür. Sonra prezident İlham Əliyev əraziyə şərti müdaxiləyə qarşı əməliyyatı izlədi. Məlumat verildi ki, təhlükəsizlik sisteminin ən mühüm elementi çəpərlərdir. Bu çəpərlər xüsusi materialdan hazırlanıb. Stansiyanın qorunan ərazisi bir-birindən bəzi yerlərdə 2 metr, bəzi yerlərdə isə 15–20 metr məsafədə yerləşən ikiqat məftil çəpərlə əhatələnib. Birinci çəpər tikanlı məftillə təchiz edilmişdir ki, onu keçmək və üstündən aşmaq mümkün olmasın. Bu çəpər qorunan əraziyə adamların və*

*heyvanların təsadüfi keçidinin qarşısını* almaq *üçün nəzərdə* tutulub. *Birinci çəpərdə həyat üçün təhlükəli* olan *hər hansı* elektrik *cərəyanı və digər elementlər yoxdur. İkinci çəpərin üzərində yüksək həssaslığa* malik, *titrəyişlə işləyən mühafizə detektorları quraşdırılıb. Çəpərə hər hansı müdaxilə* – toxunuş haqda *məlumat* bu detektorların *köməyi ilə dərhal mərkəzə ötürülür və aşkar* olunur. *Bundan əlavə,* birinci *və* ikinci *çəpərlər arasındakı dəhlizdə radiodalğalı hərəkət detektorları quraşdırılıb.*

*Təhlükəsizlik sistemində ən mühüm elementlərdən* biri *də sərhəd* boyunca *hər 50 metrdən* bir *quraşdırılan 5 və ya 7* metr *hündürlüyündəki dayaqlardır.* Bu dayaqlarda *quraşdırılan* avadanlıq *vasitəsilə* tam *qaranlıq şəraitdə 1* kilometr *məsafəni müşahidə etmək mümkündür. 360 dərəcə fırlanaraq müşahidə* aparan *kameranın 50 dərəcə* soyuq *və* isti havada *işləmək imkanı vardır.* Görüntünü *43 dəfə yaxınlaşdıran* bu cihaz *və xüsusi* futlyarda *yerləşdirilmiş* statik videokameralar *gecə-gündüz* müşahidə *aparır.* Dayaqlar *üzərində* perimetr boyunca *yerləşdirilmiş* işıqlandırma *projektorları* perimetrin daimi olaraq *mühafizə çəpəri* boyunca *işıqlandırılmasına* imkan verir. *Belə yüksək həssaslıq* qabiliyyətinə malik *təhlükəsizlik sistemlərindəki əsas fəsadlardan* biri *təbii təsirlərin təhlükəli müdaxilələrdən fərqləndirilməsi sahəsindədir.* Belə ki, bu *cür fərqləndirmə* mexanizm*lərinin olmaması «aldadıcı həyəcan siqnalları»nın* tez-tez *baş verməsinə səbəb* olur. *Onların* qarşısını almaq *üçün 800 metrdən* bir *yerləşdirilmiş* dayaqlarda *meteostansiyalar quraşdırılıb.* Bu *meteostansiyanın köməyi sayəsində çəpər-mühafizə* sistemini aldatmaq *mümkün* olmur. *Hətta* hava *şəraiti* haqqında *bütün* sinoptik *məlumatlar qəbul edən* stansiya bu *informasiyanı mütəmadi* olaraq *mühafizə panelinə ötürür. Bütün təhlükəsizlik sistemində ən mühüm* element mini radiolokasiya *stansiyasıdır.* Bu sistem *ən çətin və ən mürəkkəb* hava *şəraitində müşahidəyə* imkan verir, *axtarış-*xilasetmə *işlərində naviqasiyanın təhlükə*sizliyini *təmin* edir. *Dayaqlarda səsucaldan qurğular* da *yerləşdirilmişdir*

*ki, bu avadanlıq xəbərdaretmə və təxliyələrin idarə olunması üçündür.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, Mingəçevir Su-Elektrik Stansiyasının ən mühüm təhlükələrdən qorunması zəruri olan hissələri su səddi deyilən mühəndis qurğularıdır. Su-Elektrik Stansiyasına su bu qurğular vasitəsilə ötürülür və onlar müşahidə cihazları ilə təchiz olunub. Bütün məlumatlar inteqrə olunmuş və mərkəzləşdirilmiş sistem sayəsində mərkəzi nəzarət binasının server otaqlarında toplanır. Ehtiyac olarsa, məlumatlar fiber-optik kabel vasitəsilə Fövqəladə Hallar Nazirliyinə ötürülə bilir. Prezident İlham Əliyev mərkəzi mühafizə məntəqəsində istirahət üçün yaradılan şəraitlə də tanış oldu. Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Kür çayı sahilindəki istirahət kompleksinin yenidənqurmadan sonrakı vəziyyəti ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 16-da Mingəçevirə səfəri çərçivəsində Kür çayı sahilindəki istirahət kompleksinin yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, dövlətimizin başçısının tapşırığı ilə regionlarda parkların və turizm obyektlərinin əsaslı şəkildə yenidən qurulması və yeni məkanların salınması, sakinlərin və bölgələrə gələn qonaqların rahatlığı üçün müasir standartlara uyğun istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. Bildirildi ki, bu ərazidən əvvəllər də istirahət məkanı kimi istifadə olunub. Ancaq son zamanlarda bu istirahət mərkəzi tamamilə yararsız vəziyyətdə idi. Yeni yaradılan sahilyanı istirahət kompleksinin ərazisi 1,5 hektardır. Yenidənqurma işlərinə bu ilin əvvəlində başlanılıb. Burada həm şəhər sakinlərinin, həm də qonaqların istirahəti üçün hər cür şərait yaradılıb. Kompleksdə ən müasir kölgəliklər quraşdırılıb, voleybol meydançası inşa olunub. Uşaqların istirahəti də nəzərə alınıb, onlar üçün müxtəlif attraksionlar qoyulub.*

*Diqqətə çatdırıldı ki, suda həm böyüklər, həm də balacalar üçün xüsusi təhlükəsizlik zonaları yaradılmışdır. Kompleksdə Fövqəladə Hallar Nazirliyinin xüsusi xilasedici qrupları fəaliyyət göstərir. Buraya gələn insanların avtomobilləri rahat saxlamaları üçün ayrıca dayanacaq da vardır. Müasir işıqlandırma sisteminin qurulduğu istirahət kompleksində geniş yaşıllıq işləri həyata keçirilmişdir. Yay mövsümü başlayanda burada insanlara çoxsaylı əyləncələr təqdim olunacaq və yüksək səviyyəli xidmət göstəriləcək. Gələcəkdə kompleksin ərazisində müasir iaşə obyektləri də inşa olunacaqdır. Bununla da Kür sahilində yerləşən bu kompleks mingəçevirlilərin yay aylarında ən çox üz tutduqları məkana çevriləcəkdir.*

*Daha sonra prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Mingəçevir şəhərində Xüsusi Riskli Xilasetmə Xidməti, Mülki Müdafiə Qoşunlarının alayı və Su Ehtiyatları Dövlət Agentliyinin idarəsi üçün binaların layihələrini əks etdirən stendlərə baxdı. Dövlətimizin başçısı işlərin yüksək keyfiyyətlə aparılması ilə bağlı tapşırıqlarını verdi.*

## Yenidənqurma işlərinin aparıldığı Sahil parkı ilə tanışlıq

*Prezident İlham Əliyev aprelin 16-da Mingəçevirdə yenidənqurma işlərinin aparıldığı Sahil parkı ilə tanış olmuşdur. Parkın yenidənqurmadan əvvəlki vəziyyətinin şəkillərindən ibarət stendə baxan dövlətimizin başçısına məlumat verildi ki, bu istirahət mərkəzinin ərazisi uzun illər baxımsız vəziyyətdə olduğundan yararsız hala düşmüşdü və şəhərin ümumi görünüşünə xələl gətirirdi. Sahil parkının yenidən qurulmasına ötən ilin martında başlanılıb, bu ilin aprelində başa çatdırılıb. Tikinti işləri ən yüksək standartlar səviyyəsində aparılmışdır. Ümumi ərazisi 3 min kvadratmetr olan parka gələn insanların avtomobilləri rahat saxlamaları üçün xüsusi dayanacaq da inşa edilmişdir. İstirahət guşəsində geniş ərazidə yaşıllıq işləri aparılıb, müxtəlif ağac və gül kolları əkilib. Xüsusi güldanlar parkın görünüşünə əlavə yaraşıq verir. Bu-*

*rada hər cür hava şəraitinə davamlı materiallardan hazırlanan 200 oturacaq qoyulub. Parkın işıqlandırma sistemi ən müasir səviyyədə qurulmuşdur. Böyük monitorda kütləvi-mədəni tədbirlər zamanı müxtəlif videogörüntüləri izləmək mümkün olacaqdır.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, hazırda Kür çayı üzərində sərnişin daşıyan asma kanat liftinin quraşdırılması prosesi gedir. Uzunluğu 212 metr olacaq kanat yolu gün ərzində 1000 nəfərin daşınmasına imkan verəcəkdir. Parkda balacaların istirahəti diqqət mərkəzində saxlanılmış, onlar üçün hər cür şərait yaradılmışdır. Burada müasir attraksionlar və uşaq yelləncəkləri quraşdırılmış, məşəl kompleksi isə xüsusi zövqlə hazırlanmışdır.*

*Parka üz tutan qonaqlar, eləcə də yerli sakinlərin istirahəti hərtərəfli düşünülüb. İstirahət məkanındakı iaşə obyektləri, fəvvarələr xüsusi zövqlə inşa olunub. Mərmər üzlüklə bəzənən bu fəvvarələr parkın ümumi görünüşünü daha da zənginləşdirir. Yaşıllaşdırılan ərazidə avtomatik suvarma sistemi quraşdırılıb. İstirahət guşəsinin ətrafındakı kommunal binaların dam örtükləri təmir edilib. İndi tamamilə yeni görkəm alan Sahil parkı şəhər sakinlərinə dəyərli hədiyyə olmaqla yanaşı, həm də Mingəçevirin görkəminə xüsusi yaraşıq verir. Dövlətimizin başçısı işlərin yüksək keyfiyyətlə aparılması ilə bağlı tapşırıqlarını verdi.*

## 502 məcburi köçkün ailəsi üçün yeni salınan çoxmərtəbəli yaşayış binalarının sakinləri ilə görüş

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 16-da Mingəçevirdə 502 məcburi köçkün ailəsi üçün yeni salınan çoxmərtəbəli yaşayış binalarından ibarət məhəllədə yaradılan şəraitlə tanış olmuşdur. Dövlətimizin başçısı yeni məhəllənin sxeminə və Mingəçevirdəki məktəb binaları və uşaq bağçalarında müvəqqəti məskunlaşan məcburi köçkün*

*ailələrinin yaşayış şəraitini əks etdirən fotolardan ibarət stendlərə baxdı.*

*Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov məlumat verdi ki, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması hər zaman Azərbaycan dövlətinin diqqət mərkəzində olub. Prezident İlham Əliyevin apardığı siyasətin təməl prinsiplərindən olan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin nəticəsində bu gün ölkəmizdə çadır şəhərciyi qalmamış, bu insanların hamısı müasir tipli qəsəbələrə köçürülmüşlər. Onların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilmiş, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülmüşdür. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Mingəçevirdə 502 məcburi köçkün ailəsi üçün salınan yeni məhəllədə yaradılan şərait bunu bir daha təsdiqləyir.*

*Bildirildi ki, bu kateqoriyadan olan insanlara göstərilən diqqət və qayğının təzahürüdür ki, 1993-cü ildən başlayaraq ulu öndər Heydər Əliyev 81 fərman və sərəncam imzalamış, Nazirlər Kabineti 307 qərar vermiş, Milli Məclis 24 qanun qəbul etmişdir. 2003–2012-ci illərdə isə bu sahədə prezident İlham Əliyevin 49 fərman və sərəncamı olmuşdur. Ötən dövrdə 2 Dövlət Proqramı və onlara əlavələr təsdiq edilmiş və bu proqramlar uğurla icra olunmuşdur. 2001–2012-ci illərdə Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılan vəsait hesabına 31 min ailə və ya 140 min nəfərdən çox məcburi köçkün üçün 77 qəsəbə, hündürmərtəbəli evlərdən ibarət məhəllə və fərdi evlər tikilmişdir. Bu dövrdə 134 məktəb, 5 musiqi məktəbi, 48 uşaq bağçası, 51 tibb müəssisəsi, 2 Olimpiya İdman Kompleksi, 37 rabitə evi inşa olunmuş, minlərlə kilometr uzunluğunda su, elektrik və qaz xətləri çəkilmişdir. Ümumilikdə məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə 1993–2012-ci illərdə 5,4 milyard dollar vəsait xərclənib. 2012-ci ildə Dövlət Neft Fondundan 300 milyon manat vəsait ayrılmışdır ki, bu da 2011-ci illə müqayisədə 2,2 dəfə çoxdur və*

*bu vəsait hesabına 4 min ailə, yəni 20 min məcburi köçkün üçün ümumi sahəsi 260 min kvadratmetr olan 8 qəsəbə və məhəllə salınacaqdır. Bu il ümumilikdə məcburi köçkünlərin sosial problemlərinin həllinə 590 milyon manat vəsaitin ayrılacağı nəzərdə tutulub. Dövlətimizin başçısı Ağdam rayonundan məcburi köçkün, şəhid ailəsi Səidə İbrahimovanın mənzilində yaradılmış şəraitlə maraqlandı. Qeyd edildi ki, ailə üzvlərinin sayı 5 nəfərdən ibarət olan Səidə İbrahimovanın mənzili dördotaqlıdır. Burada ailənin yaşaması üçün hər cür şərait yaradılıb. Mənizlin sahibi məcburi köçkünlər üçün yaradılan gözəl şəraitə görə Azərbaycan prezidentinə təşəkkürünü bildirdi.*

**S ə i d ə İ b r a h i m o v a:** Möhtərəm Prezident, Siz bizə elə bir hədiyyə etmisiniz ki, sevincimizin həddi-hüdudu yoxdur. Biz Sizi həmişə dəstəkləyirik. Gün o gün olsun, bu cür evləri Qarabağda tikəsiniz. Biz həmişə Sizi dəstəkləyirik. Allah Sizə, ailənizə cansağlığı versin. Biz Sizə minnətdarıq. Siz qaçqınlara, köçkünlərə, şəhid ailələrinə, veteranlara böyük qiymət verirsiniz.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, sizi təbrik edirəm, gözəl mənzildir. Burada rahat yaşamaq mümkün olacaqdır. Təkcə son 3 ay ərzində Azərbaycanda 3 böyük şəhərcik istifadəyə verilmişdir – Müşfiqabadda, Masazırda və Mingəçevirdə. Hər birində də 2000–3000 köçkün məskunlaşıb. Əlbəttə ki, bu, həmişə deyirəm, müvəqqəti bir yerdir, ancaq rahat yerdir. Əsas məsələ o vaxt həll olunacaq ki, işğal altındakı torpaqlarda biz bundan da gözəl binalar tikəcəyik. O gün də gələcəkdir. Bu il 20 min köçkün yeni evlərə köçürüləcəkdir. Yəni orta hesabla hər il Azərbaycanda 1 şəhər salınır. Burada bütün imkanlar vardır, şərait yaxşıdır, otaqlar genişdir, məktəb, uşaq bağçası, tibb məntəqəsi vardır. Burada rahat yaşamaq olar. Ancaq, əlbəttə, biz çalışırıq ki, siz hamınız tezliklə öz doğma vətəninizə – Ağdama qayıdasınız.

**S ə i d ə İ b r a h i m o v a:** Sizin sayənizdə.

**İ l h a m  Ə l i y e v:** Mən də çalışıram ki, bunu tezləşdirək. Bir daha sizi təbrik edirəm, sizə cansağlığı arzulayıram.

* * *

*Daha sonra vurğulandı ki, bu məhəllə prezident İlham Əliyevin 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na Azərbaycan prezidentinin 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilən əlavələrin müvafiq bəndlərinə əsasən inşa olunmuşdur. Buraya 502 ailə və ya 2006 məcburi köçkün köçürüləcəkdir. Həmin ailələrin 471-i Ağdam, 25-i Kəlbəcər, 3-ü Füzuli, 3-ü isə Şuşadandır. Məhəllənin ərazisi 9 hektardır və mənzillərin 36-sı birotaqlı, 261-i ikiotaqlı, 180-i üçotaqlı, 27-si isə dördotaqlıdır. Burada klub-icma mərkəzi, inzibati bina, təcili yardım stansiyası və poçt şöbəsi tikilib. Su, elektrik və qaz təchizatı şəbəkələri Mingəçevir şəhərinin kommunikasiyalarına qoşulmuşdur. Yeni məhəllə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə inşa olunub. Məhəllənin tikintisinə 2012-ci ilin aprelində başlanılmış, bu ilin martında tam başa çatdırılmışdır.*

*Prezident İlham Əliyev məhəllədə tikilən 480 yerlik Ağdam rayon 52 saylı tam orta məktəbi ilə də tanış oldu. Məktəbin foyesində ulu öndər Heydər Əliyevin təhsilə qayğısını və Ağdamdan olan məcburi köçkünlərlə görüşünü əks etdirən fotostendlər yaradılıb. Burada, həmçinin indiyədək istifadəyə verilən yeni qəsəbələrin fotostendləri də qurulub.*

*Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilmişdir. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət edir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə bənzərsizliyi ilə seçilib. Bu məhəllə qaçqın və məcburi köçkünlər üçün indiyədək salınan sayca 79-cu yaşayış məntəqəsidir.*

*Dövlətimizin başçısı yaradılan şəraiti yüksək qiymətləndirdi.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Ölkənizin cənub-şərqində baş vermiş zəlzələnin doğurduğu ağır nəticələr barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2013-cü il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin qərbində baş vermiş zəlzələnin doğurduğu ağır nəticələr barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2013-cü il*

## VENESUELA BOLİVAR RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAS MADURO MOROSA

Hörmətli cənab Maduro!

Venesuela Bolivar Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Venesuela arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Venesuela xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2013-cü il*

## ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ TOMAS MELİAN VƏ ABŞ BEYNƏLXALQ İNKİŞAF AGENTLİYİ ADMİNİSTRATORUNUN MÜAVİNİ XANIM ALEKSANDER PEYC İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də ABŞ Dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müşaviri Tomas Melianı və ABŞ Beynəlxalq İnkişaf Agentliyi Administratorunun Avropa və Avrasiya üzrə müavini xanım Aleksander Peyci qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Azərbaycan Silahlı Qüvvələrinin Beynəlxalq sülhməramlı missiyanın tərkibində uğurlu fəaliyyəti qeyd edildi, əməkdaşlığımızın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# ÇEXİYA RESPUBLİKASININ DEPUTATLAR PALATASININ SƏDR MÜAVİNİ YAN HAMAÇEKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Çexiya Respublikası Deputatlar Palatasının sədr müavini, Çexiya–Azərbaycan dostluq qrupunun sədri Yan Hamaçekin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə xidmət edən qarşılıqlı səfərlərin və görüşlərin önəmini vurğuladı. Enerji sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu deyən prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini bundan sonra da verməkdə davam edəcəkdir. Ölkələrimizin istər ikitərəfli, istərsə də Avropa İttifaqı çərçivəsində uğurlu əməkdaşlıq etdiyini söyləyən dövlətimizin başçısı Çexiyada bu əməkdaşlığa mane olan addımların atıldığını da təəssüflə qeyd etdi.*

*Prezident İlham Əliyev bildirdi ki, Çexiyanın Xarici İşlər naziri Karel Şvarsenberqin Azərbaycan və Xocalı soyqırımı ilə bağlı həqiqəti əks etdirməyən və heç bir əsası olmayan, qərəzli bəyanatlar verməsi Çexiya–Azərbaycan əlaqələrinin genişləndirilməsinə mane olan addımlardandır. Bu cür bəyanatların qəbuledilməz olduğunu deyən dövlətimizin başçısı Çexiya rəhbərliyinin ikitərəfli əlaqələrin inkişafına xələl gətirən bu cür hallara münasibət bildirəcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Çexiya–Azərbaycan dostluq qrupunun sədri kimi, Yan Hamaçekin Azərbaycana bu səfərinin par-*

lamentlərarası əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Çexiya Respublikası Deputatlar Palatasının sədr müavini, Çexiya–Azərbaycan dostluq qrupunun sədri Yan Hamaçek ölkələrimiz arasında ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində daha da genişləndirməyin əhəmiyyətini qeyd etdi. O, Çexiya parlamentinin Deputatlar Palatasının xarici əlaqələr komitəsinin Xocalı faciəsinin 21-ci ildönümü ilə əlaqədar müdafiəsiz dinc əhaliyə qarşı törədilmiş etnik təmizləməni, kütləvi qırğın və soyqırımını qətiyyətlə pisləyən qətnamə qəbul etdiyini vurğuladı.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Texas ştatındakı mineral gübrə istehsalı zavodunda baş vermiş partlayış nəticəsində insanların həlak olması və xəsarət alması, eləcə də dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 aprel 2013-cü il*

## AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ TEATRININ BİNASININ ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*18 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Azərbaycan Dövlət Musiqili Teatrının binasının əsaslı bərpa və yenidənqurma işlərindən sonra rəsmi açılışı mərasimində iştirak etmişdir.*

*Ölkə həyatının bütün istiqamətlərində olduğu kimi, mədəniyyət sahəsi də yüksək səviyyədə dövlət qayğısı ilə əhatə olunub. Mədəniyyət və incəsənətin inkişafına, bu sahədə çalışan insanlara göstərilən diqqət və qayğı, həmçinin ölkəmizin beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməsi bunun əyani təsdiqidir. Dövlətimizin başçısının mədəniyyətimizə himayəsi Azərbaycan incəsənətində yaradıcılıq əhval-ruhiyyəsini artırıb. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, son illərdə çoxsaylı tarixi abidələr, monumental binalar, maddi-mədəniyyət ocaqları əsaslı təmir edilmiş və yenidən qurulmuşdur. Onların sırasında Azərbaycan Dövlət Musiqili Teatrının binası da vardır.*

*Azərbaycan Dövlət Musiqili Teatrı yarandığı vaxtdan etibarən incəsənət tariximizə bir çox qiymətli səhnə əsərləri bəxş etmişdir. Teatr ölkəmizin zəngin ənənələrə malik qabaqcıl sənət ocaqlarından birinə çevrilərək bu gün də tamaşaçıların dərin rəğbətini qazanmaqdadır. Heydər Əliyev Fondunun da bu istiqamətdə həyata keçirdiyi layihələri xüsusi qeyd etmək lazımdır. Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun gördüyü işlər ölkəmizin mədəni irsinin daha da zənginləşdirilməsinə və dünyada geniş təbliğinə, gənc istedadların yetişməsinə böyük töhfələr verir.*

*Prezident İlham Əliyevə Azərbaycan Dövlət Musiqili Teatrının binasında və ətrafda görülən işlər barədə məlumat verildi. Sonra Azərbaycan prezidenti teatrın yenidənqurma işlərində iştirak edən xarici mütəxəssislərlə görüşdü.*

*Qeyd edildi ki, 1883-cü ildə Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə Bakıda ilk teatr binası tikilib. 1908-ci il yanvarın 25-də isə müsəlman Şərqində opera janrının əsasını qoyan Üzeyir Hacıbəylinin «Leyli və Məcnun» əsərinin ilk tamaşası bu teatrın binasında olub. 1922-ci ildən binada Akademik Milli Dram Teatrı, 1960-cı ildən isə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı fəaliyyət göstərmişdir. 1988-ci ildə uçmaq təhlükəsi olduğuna görə həmin bina sökülmüş və yeni binanın inşasına başlanılmışdır. Teatr binasının tikilib istifadəyə verilməsinə xüsusi diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyev 1995-ci ildə tikinti işləri ilə tanış olmuş, öz tövsiyələrini vermişdir. Ulu öndər 1998-ci ilin oktyabrında teatr binasının rəsmi açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin 2010-cu ildə imzaladığı sərəncama əsasən, Azərbaycan Dövlət Musiqili Teatrının binasında geniş yenidənqurma işləri həyata keçirilib. Yenidənqurma işləri zamanı əvvəlki memarlıq üslubunun qorunub saxlanılmasına xüsusi diqqət yetirilib.*

*Prezident İlham Əliyev teatrın tamaşa zalı ilə tanış oldu.*

*Bildirildi ki, 460 yerlik zal ən müasir avadanlıqla təchiz olunub. Oturacaqlar və mebel yeniləri ilə əvəzlənmiş, 360 dərəcə fırlanan səhnə tamamilə yenidən qurulmuşdur. Burada ən müasir səs-akustika sistemi quraşdırılıb. Səhnənin işıq sistemləri də müasir layihə və texnologiyalar əsasında yenilənmişdir. Binanın bütün xidməti və qrim otaqlarında əsaslı təmir işləri aparılıb. Yenilənmiş havalandırma sistemi ən müasir standartlara uyğundur. Əsaslı bərpa işlərindən sonra teatrdakı səsyazma studiyası və kiçik tamaşa zalı da yeni görkəm almışdır.*

*Teatrla tanışlıqdan sonra dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA**

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin inkişafı yolunda atdığımız qarşılıqlı addımlar dostluq əlaqələrimizin və əməkdaşlığımızın daim genişlənməsi və möhkəmlənməsi üçün yeni imkanlar açacaqdır.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 aprel 2013-cü il*

**NİDERLAND KRALİÇASI**
**ÜLYAHƏZRƏT BEATRİKSƏ**

Ülyahəzrət!

Ölkənizin milli bayramı – Kraliça Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Azərbaycan–Niderland münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. Əminəm ki, ölkələrimiz arasında münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edərək xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu tarixi gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Niderland xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 aprel 2013-cü il*

# BAKIDA SU İDMANI SARAYININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*19 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Bakıda Su İdmanı Sarayının təməlqoyma mərasimində iştirak etmişdir.*

*2012-ci il avqustun 30-da prezident İlham Əliyev Azərbaycanda su idmanı növlərinin inkişaf etdirilməsi, yerli və beynəlxalq səviyyəli yarışların təşkili məqsədi ilə Bakıda müasir standartlara cavab verən Su İdmanı Sarayının tikilməsinə dair sərəncam imzalamışdır. Su İdmanı Sarayının layihələndirilməsi və tikintisi üçün 2012-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Gənclər və İdman Nazirliyinə ilkin olaraq 5 milyon manat ayrılıb. Koreya Respublikasının «Securo CO.LTD» şirkəti sarayın layihələndirmə işlərini qısa müddətdə başa çatdırıb.*

*Prezident İlham Əliyev tikintidə iştirak edəcək yerli və xarici mütəxəssislərlə görüşdü. Dövlətimizin başçısı Su İdmanı Sarayının layihəsi ilə tanış oldu. Gənclər və İdman naziri Azad Rəhimov məlumat verdi ki, sarayın inşası üçün 6 hektar torpaq sahəsi ayrılıb. Ümumi sahəsi 46 min kvadratmetr olan saray ən müasir standartlar səviyyəsində tikiləcək və Beynəlxalq Üzgüçülük Federasiyanın tələblərinə tam cavab verəcəkdir.*

*İspaniyanın «Pujol Arquitectura» şirkətinin rəhbəri Yoakim Puyol bildirdi ki, sarayda 3 üzgüçülük hovuzu tikiləcəkdir. Uzunluğu 50, eni 25, dərinliyi 3 metr olacaq hovuz yarışlar üçün nəzərdə tutulmuşdur. İkinci hovuzda isə məşqlər keçiriləcəkdir. Hündürlükdən suyatullanma hovuzunun uzunluğu 25, eni 20, dərinliyi isə 6 metrdir. Bundan başqa, sarayda fitnes zalları, restoran, konfrans zalı, ofislər, soyunub-geyinmə otaqları və digər işçi və köməkçi otaqlar fəaliyyət göstərəcəkdir. Su İdmanı Sarayının*

*ərazisində köməkçi bina və qurğular, 500 avtomobil yerlik yerüstü dayanacaq olacaqdır. Sarayda keçiriləcək idman yarışlarını 6 min tamaşaçı izləyə biləcəkdir. Burada idmançıların məşq etmələri, respublika və beynəlxalq səviyyəli yarışların təşkili məqsədi ilə hər cür şərait yaradılacaqdır. Su İdmanı Sarayı, həmçinin paytaxt Bakının ümumi görünüşünə əlavə yaraşıq verəcəkdir.*

*Dövlətimizin başçısı metal gilizi bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunun düyməsini basdı.*

*İnşaatçılarla görüşən dövlətimizin başçısı onları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Ölkəmiz, şəhərimiz üçün yeni idman mərkəzi – Su İdmanı Sarayı tikilir. Gözəl hadisədir. Əlbəttə, bu böyük layihənin icrasında Azərbaycan şirkətlərinin iştirakı əsas şərtdir.

Əvvəlki illərdə Azərbaycanda bu cür obyektləri daha çox xarici şirkətlər tikmişlər. Ancaq indi bizim öz təcrübəmiz vardır. Xarici şirkətlər də, əlbəttə ki, iştirak edirlər və burada bir beynəlxalq əməkdaşlıq formatı yaranır. Yerli şirkətlərimiz indi nəinki Azərbaycanda, başqa ölkələrdə də iş görürlər.

Bu obyektin istifadəyə verilməsi həm Avropa oyunlarının keçirilməsi üçün, həm şəhərimiz üçün, həm də sakinlər üçün lazımdır. Uşaqlar, yeniyetmələr gəlib burada məşq edəcəklər, üzgüçülüklə məşğul olacaqlar. Adi vətəndaşlar da istifadə edəcəklər. Çünki Bakıda faktiki olaraq belə böyük hovuz yoxdur. İndi biz bütün şəhərlərdə yeni hovuzlar tikirik. Əminəm ki, bu işlərə böyük məsuliyyətlə yanaşacaqsınız. Sizə uğurlar arzulayıram.

*Prezident İlham Əliyev Su İdmanı Sarayının inşasının yüksək səviyyədə aparılması üçün tapşırıq və tövsiyələrini verdi.*

## KEÇMİŞ YUQOSLAVİYA RESPUBLİKASI MAKEDONİYANIN BAŞ NAZİRİ NİKOLA QRUEVSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da keçmiş Yuqoslaviya Respublikası Makedoniyanın Baş naziri Nikola Qruevskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Nikola Qruevskinin Azərbaycana səfərinin uğurlu olacağına və ikitərəfli münasibətlərimizin inkişafına dair məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirdi.*

*Baş nazir Nikola Qruevski ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu vurğuladı. Baş nazir siyasi əlaqələrlə yanaşı, ölkəsinin Azərbaycan ilə iqtisadi və digər sahələrdə də əlaqələri genişləndirməkdə maraqlı olduğunu dedi.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığa dair imzalanacaq sənədin önəmi vurğulandı, əlaqələrimizin enerji, turizm, sərmayə qoyuluşu və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Siçuan vilayətində baş vermiş zəlzələnin doğurduğu ağır nəticələr barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Çin xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 aprel 2013-cü il*

## BİLƏCƏRİDƏKİ MƏDƏNİYYƏT-İSTİRAHƏT PARKININ ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*22 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Binəqədi rayonunun Biləcəri qəsəbəsindəki Mədəniyyət-istirahət parkının əsaslı bərpa və yenidənqurmadan sonra açılışı mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyev Bakıətrafı kənd və qəsəbələrdə abadlıq və quruculuq işlərinə dair verdiyi tapşırıqların icrası ilə yerində tanış olmaq məqsədilə 2011-ci il aprelin 11-də Binəqədi rayonunun Biləcəri qəsəbəsində olmuşdur. O zaman sakinlər vaxtilə qəsəbənin ən böyük istirahət mərkəzlərindən olan Dəmiryolçular parkının yenidən qurulması xahişi ilə dövlətimizin başçısına müraciət etmişdilər. Parkdakı mövcud vəziyyətlə tanış olan Azərbaycan prezidenti sakinlərin istirahəti üçün tələb olunan müasir infrastrukturun yaradılması və bütövlükdə bu istirahət guşəsinin əsaslı şəkildə yenidən qurulması ilə bağlı müvafiq göstərişlərini vermişdi. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən aparılan bərpa və yenidənqurma işləri artıq başa çatdırılıb. Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün dünya standartlarına uyğun istirahət guşələrinin yaradılması istiqamətində son illər paytaxtda ardıcıl tədbirlərin davamı olaraq yenidən qurulan bu park ən yüksək standartlara cavab verir. Bu istirahət guşəsinin yeni formada istifadəyə verilməsi yeni-yeni parklar və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir iaşə obyektləri, bağlarda və xiyabanlarda ən müasir tələblərə cavab*

*verən infrastrukturun yaradılması və nəhayət, Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərin davamlılığından xəbər verir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezident İlham Əliyevə məlumat verdi ki, parkda əsaslı təmir işləri dövlətimizin başçısının 2011-ci il 13 aprel tarixli Sərəncamı əsasında həyata keçirilmiş, yüksək keyfiyyətlə aparılmışdır. Burada sakinlərin və qonaqların istirahəti üçün lazımi şərait yaradılıb.*

*Dövlətimizin başçısı parkdakı Mədəniyyət Mərkəzində yaradılmış şəraitlə tanış oldu. Qeyd edildi ki, Mədəniyyət Mərkəzinin binası yenidən tikilib. Mərkəz sakinlərin rahat istirahəti üçün lazımi avadanlıqla təchiz edilib.*

*Parkla tanışlıq zamanı bildirildi ki, ərazisi 4 hektar olan bu istirahət məkanında geniş abadlıq-quruculuq işləri yüksək zövqlə həyata keçirilib. Burada 20 min kvadratmetrlik ərazidə yerli şəraitə uyğun müxtəlif ağac və gül kolları əkilib. Yaşıllaşdırılan ərazidə avtomatik suvarma sistemi quraşdırılıb.*

*İstirahət məkanında ən müasir işıqlandırma sistemi qurulmuş, fəvvarə quraşdırılmış, idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün süni örtüklü meydança yaradılmışdır. Parkda abadlıq və yenidənqurma işləri davam etdiriləcək, müasir iaşə obyektləri tikiləcəkdir.*

*Parkla tanışlıqdan sonra dövlətimizin başçısı qəsəbə sakinləri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Mən çox şadam ki, biz Biləcəridə belə gözəl parkı yenidən qura bildik. Mən buraya 2 il əvvəl gəlmişdim. Yaxşı bilirsiniz ki, o vaxt parkın vəziyyəti o qədər də yaxşı deyildi. Qərara gəldik ki, gözəl bir park yaradılsın. Artıq bu park deyə bilərəm ki, Bakının ən gözəl parklarından biridir. Çox gözəldir, rahatdır.

Mədəniyyət Mərkəzi də yenidən qurulub. İstirahət üçün yaxşı şərait vardır. Bu onu göstərir ki, Bakı sürətlə inkişaf edir. Bakının bütün yerləri, bütün qəsəbələri də inkişaf edir. Təkcə Mərkəzdə deyil, bütün qəsəbələrdə quruculuq, abadlıq işləri

aparılır. Bakı indi parklar şəhəridir. Bakıda olan parklar deyə bilərəm ki, ən yüksək səviyyədədir. Gözəlliyi ilə seçilən parklar, ictimai yerlər, bağlar salınıbdır, bərpa edilibdir. Bizim, əlbəttə, ən böyük parkımız Bulvardır. Bulvar dünyanın ən böyük parklarından biridir. Bulvarın genişləndirilməsi prosesi davam edir. Bundan başqa, ilk növbədə şəhərin mərkəzində parkların yenidən qurulmasını həll etdik. İndi isə bütün başqa yerlərdə də belə gözəl parklar salınır. İstər mərkəz olsun, istər qəsəbə olsun, Azərbaycanın hər bir yerində, bax, belə gözəl şərait olmalıdır. Bu, artıq Azərbaycan standartlarıdır. Biz Azərbaycan standartlarını tətbiq edirik. Xüsusilə ictimai yerlərdə, istirahət zonalarında gözəl şərait olmalıdır.

Ümumiyyətlə, Biləcəri qəsəbəsində gedən quruculuq işləri məni çox sevindirir. Evlər bərpa edilir, küçələr genişləndirilir, quruculuq işləri aparılır. Yəni bütün ölkəmizdə olduğu kimi, Bakıda və qəsəbələrində bu işlər sürətlə gedir.

Bildiyiniz kimi, Bakının inkişafı ilə bağlı müxtəlif dövrlərdə proqramlar qəbul edilib. Bakının inkişafı ilə bağlı infrastruktur layihələri icra edilir. Bakıətrafı qəsəbələrdə quruculuq işləri aparılır ki, bunlar da ilin sonuna qədər başa çatmalıdır. Hər bir qəsəbədə bütün lazımi şərait yaradılmalıdır və yaradılır, o cümlədən istirahət üçün. Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**Yaqub Vəliyev** *(qəsəbə sakini):* Möhtərəm Prezident! İcazə verin, Sizi Biləcərinin 70 minlik, Binəqədi rayonunun 250 mindən çox sakinləri adından təbrik edim, Sizə «Xoş gəlmisiniz!» – deyim. Siz 2011-ci il aprelin 11-də Biləcəri ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdünüz. Orada dediniz ki, kimin nə təklifi var söyləsin. Mən sizin təkliflərinizi eşitməyə gəlmişəm. O zaman mən çıxış etdim və dedim ki, Biləcəridə köhnə bir park var. Çox bərbad vəziyyətdədir və bərpasına ehtiyac var. O zaman Siz dediniz ki, gedək o parka baxaq. Parka baxıb getdiniz, cəmi 2 gün sonra Biləcəridəki mədəniyyət və istirahət parkının təmir edilməsi və bunun üçün vəsait ayrılması haqqında sərəncam verdiniz. İndi Siz o parkı

açırsınız. Bu, artıq park deyil, gözəl istirahət məkanıdır. Buraya çox əmək, çox zəhmət çəkilib. Bunun üçün Sizə minnətdarlığımızı bildiririk.

Azərbaycan çox sürətlə inkişaf edən bir ölkədir. Sizin rəhbərliyiniz sayəsində Azərbaycanın inkişafı dünyada çox böyük sürət götürüb. Azərbaycanın iqtisadiyyatı 3 dəfə artıb. Bu, 300 faiz deməkdir. Biz əminik ki, bu temp davam edəcək. Büdcəsində 10 milyon pulu olmayan bir ölkənin indi ehtiyat fondu, valyuta fondu 50 milyarda yaxınlaşır. Bunun dünyada analoqu yoxdur.

Cənab Prezident, Binəqədi Bakının ən böyük rayonlarından biridir. Burada çox sürətli inkişaf gedir. Yalnız bura yox, parkın ətrafında da bütün küçələrə, dalanlara səki daşları düzülüb, asfalt döşənib. Qəsəbənin mərkəzi tamamilə yenilən qurulub, küçə genişləndirilib. Bütün kommunikasiya xətləri təzələnibdir. Rayonun ərazisində metronun 3 stansiyası istifadəyə verilibdir. Birinin – «Avtovağzal» stansiyasının isə, inşallah, yaxın vaxtlarda açılışı olacaqdır. Rayonumuzun ərazisində Moskva Dövlət Universitetinin Bakı filialı üçün kompleks tikilib. «Azəryol» voleybol kollektivinin həm inzibatı binası, həm hoteli, həm meydançası istifadəyə verilibdir. Neçə-neçə məktəb, sağlamlıq mərkəzi, uşaq bağçası inşa olunub. Bunlar hamısı bizi sevindirir. Ona görə də biz Sizə çox-çox minnətdarıq. Siz ulu öndərimizin, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin yolunu çox gözəl davam etdirirsiniz.

**İlham Əliyev:** Doğrudan da böyük işlər görülür, o cümlədən Bakı şəhərinin hər yerində çox böyük quruculuq işləri aparılır. Çox şadam ki, Binəqədi rayonunda son vaxtlar çox böyük işlər görülməyə başlanmışdır. Siz də o günü xatırlatdınız, keçən dəfə mən burada olanda sizin təklifinizlə parka gəldim, tanış oldum, dərhal göstəriş verdim. İndi burada gözəl park yaradılıb. Bu onu göstərir ki, nəinki Bakının, ölkəmizin hər bir yerində iş görmək mümkündür və lazımdır. Sadəcə, iradə olmalıdır, hər bir insanın öz doğma Vətəninə məhəbbəti və əlbəttə ki, peşəkarlıq yüksək səviyyədə olmalıdır. İndi Bakı

dünya miqyasında ən gözəl şəhərlərdən biridir. Bunu Bakıya gələn hər bir qonaq qeyd edir, vurğulayır. Bakının tarixi gözəlliyi var. Bakının öz ab-havası, öz memarlıq əlamətləri var. Ancaq hər bir başqa şəhər kimi, Bakı da inkişaf edir. Bakıda yeni binalar əvvəllər tikilmiş binalarla bir vəhdət təşkil edir. Onların arasında heç bir ziddiyyət yoxdur, Bakının gözəlliyi yerləşməsindədir. Eyni zamanda, Bakıda gözəl ictimai yerlər salınır, parklar, istirahət zonaları, binalar bərpa edilir.

Bakı təkcə mərkəzdən ibarət deyildir. Bakıda vətəndaşlar hər bir rayonda, hər bir qəsəbədə yaşayırlar. Onların şəraiti yaxşı olmalıdır. Onlar üçün gözəl imkanlar yaradılmalıdır. Ona görə Bakının kənarında yerləşən qəsəbələrdə xüsusi proqramlar icra edilir. Yəni bu yerlərə xüsusi diqqət göstərilməlidir. Xüsusilə Binəqədi kimi böyük rayonun inkişafı üçün xüsusi tədbirlər planı icra edilir. Bu rayonun planlı şəkildə inkişafı, əlbəttə ki, bütün problemlərin həlli üçün imkan yaradacaqdır. Siz qeyd etdiniz, yeraltı infrastruktur işlərinin – kommunikasiyalar, xətlər, qazlaşdırma, elektrik enerjisi, su, kanalizasiya və s. – bütün bu işləri biz paralel şəkildə görürük. Əlbəttə ki, vətəndaşların rahat yaşaması, istirahəti, sağlamlığının bərpası üçün belə gözəl parklar lazımdır. Mən çox şadam ki, bu gün Biləcəri qəsəbəsində belə gözəl parkın açılışında biz sizinlə görüşürük.

Mənim bölgələrə, qəsəbələrə səfərlərimin əsas məqsədi ondan ibarətdir ki, sizdən eşidim, əlavə nə etmək lazımdır. Əgər bütün qəsəbələrdə, bütün kəndlərdə bütün problemlər həll olunarsa, deməkl, ölkədə mövcud olan problemlər öz həllini tapar.

Əlbəttə, biz problemləri bilirik, onların həlli ilə məşğuluq. Problemlərin həlli üçün bizdə bütün imkanlar – siyasi iradə, maliyyə imkanlarımız, artıq gözəl, peşəkar kadrlarımız, dəyərli vətəndaşlarımız vardır. Yəni əsas məsələ ondan ibarətdir ki, biz problemləri aşkarlayaq və həll edək.

## İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, bu tarixi hadisə münasibətilə Sizə ən xoş arzularımı yetirirəm.

Bu gün Azərbaycan–İtaliya münasibətləri dinamik inkişaf yolundadır. Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi xalqlarımız və ölkələrimiz arasındakı ənənəvi dostluq əlaqələrinin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İtaliya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 aprel 2013-cü il*

**MONTENEQRONUN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FİLİP VUYANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Monteneqronun prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Monteneqro əlaqələri müvəffəqiyyətlə inkişaf etməkdədir. Dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi yolunda atdığımız qarşılıqlı addımlar əməkdaşlığımızın bütün sahələrdə ahəngdar inkişafı üçün daha da geniş imkanlar açır.

Bu yaxınlarda qonaqpərvər ölkənizə etdiyim səfəri məmnunluqla xatırlayıram. Ümidvaram ki, birgə infrastruktur layihələrinin gerçəkləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Monteneqro xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 aprel 2013-cü il*

## «COMMERZBANK AG» BANKININ İDARƏ HEYƏTİNİN SƏDRİ MARTİN BLESSİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də «Commerzbank AG» bankının İdarə Heyətinin sədri Martin Blessinqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycana ilk dəfə 5 il əvvəl səfər* etdiyini xatırladan Martin Blessinq ötən dövr ərzində ölkəmizdə gedən sürətli iqtisadi inkişaf proseslərinin şahidi olduğunu qeyd etdi. O, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində Azərbaycanda həyata keçirilən məqsədyönlü tədbirlərin önəmini vurğuladı.

Dövlətimizin başçısı «Commerzbank AG» bankının İdarə Heyətinin sədri Martin Blessinqin ölkəmizə səfərinin əməkdaşlığın inkişafı ilə bağlı görülən işlərin və bu əməkdaşlığın perspektivlərinin nəzərdən keçirilməsi üçün yaxşı fürsət yaratdığını dedi. Azərbaycanda son illər sürətli iqtisadi inkişafa nail olunduğunu deyən prezident İlham Əliyev ölkəmizdə iqtisadi, sosial, infrastruktur layihələrinin uğurla həyata keçirildiyini vurğuladı.

Görüşdə «Commerzbank AG» bankı ilə ölkəmiz arasında qeyri-neft sektorunda, xüsusilə kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, kənd təsərrüfatının müasir texnika ilə təmin olunması və məhsuldarlığın artırılması üzrə məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# «MDB MÜSƏLMANLARI SÜLH VƏ SABİT İNKİŞAF NAMİNƏ» MÖVZUSUNDA BAKIDA KEÇİRİLƏN KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də «MDB müsəlmanları sülh və sabit inkişaf naminə» mövzusunda Bakıda keçirilən konfransın iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Bilirəm ki, siz burada konfransda iştirak edirdiniz. Bu konfransda iştirak etdiyinizə görə çox sağ olun. Çox mühüm və aktual mövzu idi. Sizin iştirakınız, əlbəttə, bu konfransa xüsusi əhəmiyyət verdi. Tədbirin möhtərəm şeyximizin rəhbərliyi ilə Bakıda keçirilməsi və sizin dəstəyiniz xalqlarımız arasında qardaşlığın, qarşılıqlı münasibətlərin və ümumi məqsədimizin göstəricisidir. Çünki hamımız istəyirik ki, bütün dünyada, bizim regionda, Qafqazda sülh olsun, müharibələr, əzablı günlər olmasın. Bir daha demək istəyirəm ki, belə bir mövzu düzgün seçilmişdi: «Müsəlmanlar sülh naminə». Biz hamımız sülh istəyirik, hamımız buna can atırıq. Əlbəttə, bizim müqəddəs yerləri ziyarət etməyiniz sevindiricidir. İndi yenə Bakıdasınız. Əminəm ki, biz hələ gələcəkdə də tez-tez görüşəcəyik. Əlbəttə ki, ünsiyyət, görüşlər, beynəlxalq tədbirlərdə iştirak, səylərin cəmləşdirilməsi – bütün bunlar çox müsbət haldır.

Mən hamınızı salamlayıram, bizim burada və başqa yerlərdə keçirdiyimiz tədbirlərdə fəal iştirakınıza görə təşəkkür edirəm. Bütün bunlar bizim ümumi köklərimizə, tariximizə və ümumi məqsədimizə əsaslanan əməkdaşlığın baş tutmuş formatıdır. Bir daha xoş gəlmisiniz!

**A l l a h ş ü k ü r  P a ş a z a d ə** *(Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam):* Hörmətli cənab Prezident həzrətləri! Mən istərdim ki, Qafqazın şeyxülislamı kimi, Sizə minnətdarlığımı bildirim. Sizin bu gün bizi qəbul etməyiniz bir daha dinə, mənəviyyata olan münasibətinizin göstəricisidir.

Allah-Taala Heydər Əliyev həzrətlərinə rəhmət etsin. Onun qoyduğu yol bu gün də davam etdirilir. Azərbaycan inkişaf edir. Heydər Əliyev həzrətlərinin prezident seçiləndən sonra ilk addımlarından biri peyğəmbər əleyhissalamın mövludu günü Təzəpir məscidinə gəlməsi oldu. Yəni bu yol müqəddəs məkandan keçir və bu gün də davam edir.

Bu gün Sizin Azərbaycan üçün gördüyünüz işlər göz qabağındadır. Siz Azərbaycanda və onun hüdudlarından kənarda məscidləri, kilsələri bərpa etdirirsiniz. Bakıya gələn din xadimləri də bunu xüsusi vurğulayırlar. Azərbaycan həm maddi, həm də mənəvi cəhətdən sürətlə inkişaf edir. Biz Prezidentimiz ilə, Azərbaycanımız ilə fəxr edirik.

Bu konfransın Bakıda keçirilməsi və mənim MDB Müsəlmanları Məşvərət Şurasına ikinci dəfə 5 illiyə sədr seçilməyim Sizə, Azərbaycana yüksək hörmət və ehtiramın göstəricisidir. Biz – müxtəlif dinlərin xadimləri birlikdə sülh və qardaşlıq üçün öz təcrübələrimizdən istifadə etmək istəyirik. Biz Ümrə ziyarətində olduq. Peyğəmbərin məzarının yanında hamımız Heydər Əliyev həzrətlərinin və Zərifə xanımın ruhuna dua etdik və mən Quran oxudum.

Demək istəyirəm ki, bu konfrans başqa yerlərdə də keçirilə bilərdi. Ancaq tədbirin Bakıda keçirilməsi, Sizin və digər dövlət başçılarının, dini liderlərin konfransımıza təbriklər göndərməsi Azərbaycana verilən önəmin və hörmətin təsdiqidir. Bu Sizin apardığınız siyasətin düzgünlüyünü təsdiq edən bir faktdır. Ona görə də hamımızın adından Sizə təşəkkürümü bildirirəm.

**İ s m a y ı l  B e r d i y e v** *(Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi, Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Şurasının sədri):* Bizim hamımızın böyük hörmət etdiyimiz, sovet dövründə isə Siyasi Büronun üzvü olması

ilə fəxr etdiyimiz Sizin atanızın 90 illiyi ərəfəsində Bakıya gəlmişik. Biz burada Sizin atanızın, ananızın ruhuna Quran oxuduq, dualar etdik. Allah ruhlarını şad etsin. Sizə gəlincə, Siz də hər şeyi xalqınız üçün edirsiniz. Sizin qəlbinizdə iman işığı vardır. Şeyxin dediyi kimi, atanız Sizi özü ilə ilk dəfə məscidə ziyarətə aparıb və hamısı da bundan başlayıb. Biz Sizin Həcc ziyarətində olmağınızın kadrlarını görmüşük. Bütün bunlar sübut edir ki, Sizin qəlbinizdə iman və inam vardır. Allah sizi qorusun!

*Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirdi. Ulu öndərlə birlikdə müqəddəs ocaqları ziyarətlərini məmnunluqla xatırladan dövlətimizin başçısı həmin səfərlərlə bağlı xatirələrin daim qəlbində yaşadığını qeyd etdi və din xadimləri arasında daimi təmasların və müntəzəm görüşlərin önəmini vurğuladı.*

**İ l h a m  Ə l i y e v:** Biz həmişə bir yerdəyik, ünsiyyətdəyik. Mən sizin rolunuzu çox yüksək qiymətləndirirəm. Həm də müsəlman dünyasında böyük nüfuzu olan şeyximizin rolunu yüksək dəyərləndirirəm. Sizin respublikaların rəhbərləri ilə görüşlərimiz, onların ölkəmizə səfərləri və sizin Azərbaycanda keçirilən tədbirlərdə iştirakınız, digər təşəbbüslər sıx əlaqələrimizin sübutudur. Bir sözlə, biz bütün istiqamətlərdə əməkdaşlığı davam etdiririk. Bizim islam ölkələri ilə birlikdə beynəlxalq fəaliyyətimizdə və beynəlxalq münasibətlər çərçivəsində, burada keçirdiyimiz forumlar sırasında sizin konfransınız da müstəsna əhəmiyyətə malikdir.

*Dövlətimizin başçısı dünyada cərəyan edən mürəkkəb proseslər fonunda tolerantlığın, dinc yanaşı yaşamanın və qarşılıqlı etimadın möhkəmləndirilməsinin əhəmiyyətindən də danışdi:*

– Təəssüf ki, bizim bütün səylərimizə baxmayaraq, dünyada həyəcanlı proseslər gedir. Antiislam, islamofobiya təbliğatı aparılır. Biz nə qədər çalışsaq da, hər halda, kütləvi informasiya vasitələrində bu terminlər işlədilir. Terrorçuları «islamçı» adlandırırlar. Terrorçunun nə milləti, nə də dini vardır.

*Azərbaycanda milli mənəvi dəyərlərin möhkəmləndirilməsi işinə dövlət səviyyəsində daim diqqət yetirildiyini, dini-tarixi abidələrin bərpası və mühafizəsi sahəsində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran prezident İlham Əliyev Azərbaycan dövlətinin ölkəmizin hüdudlarından kənarda da müxtəlif dinlərə məxsus məbədlərin bərpasında və tikintisində fəal iştirak etdiyini və bu işlərin bundan sonra da davam etdiriləcəyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın ən qədim məscidi olan Şamaxı «Cümə» məscidində gedən bərpa işlərindən də danışdı:*

– Bu, tarixi məsciddir. Bu, Azərbaycanın ən qədim məscididir. Bu məscid 743-cü ildə inşa edilib. Onu zəlzələlər dağıtmışdı. Şamaxı şəhəri zəlzələdən zərər çəkəndə paytaxt Bakıya köçürüldü. Sonra isə artıq XX əsrdə məscid erməni vandalizminə məruz qaldı, ermənilər tərəfindən yandırıldı. Bütün bunlar sənədləşdirilib. 1918-ci il bizim xalqımız üçün çox ağır il idi. O vaxt Bakıda, Şamaxıda, Qubada və digər regionlarda minlərlə azərbaycanlı qətlə yetirildi. Biz bütün tarixi və dini abidələrimizi bərpa edirik, onları əziz tutur, qoruyuruq. Biz xalqlarımızın rifahı naminə birlikdə çalışacağıq.

*Rusiya Federasiyası Çeçenistan Respublikasının müftisi Sultan Mirzayev Bakıda keçirilən konfransın əhəmiyyətinə toxundu və MDB dövlətləri ilə yanaşı, digər ölkələrin nümayəndələrinin də ilk dəfə bu tədbirdə iştirakını əlamətdar hadisə kimi dəyərləndirdi. Bakının artıq nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrildiyini söyləyən Çeçenistanın müftisi budəfəki konfransın da səmərəli nəticələr verəcəyinə əminliyini ifadə etdi. O daha sonra gənclərin mənəvi cəhətdən formalaşmasının cəmiyyətin ümumi inkişafına göstərdiyi təsirdən danışdı. Sultan Mirzayev ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafındakı müstəsna xidmətlərindən danışdı və bu siyasətin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğuladı.*

**Sultan Mirzayev:** Heydər Əliyev ikinci dəfə Azərbaycanda hakimiyyətə gələndə çox ağır dövr idi. O, Azərbaycanı

ayağa qaldırdı, ölkəni inkişaf etdirməyin yolunu göstərdi. Çox sağ olun ki, Siz də bu yolla gedirsiniz, olanları qoruyursunuz, inkişaf etdirirsiniz, genişləndirirsiniz.

Bu gün Çeçenistanda sülh, sabitlik hökm sürür. Bu da Şimali Qafqazda çox mühüm rol oynayır. Bütün Şimali Qafqaz regionunun müftiləri bunu təsdiq edə bilərlər.

**İ l h a m Ə l i y e v:** Mən tez-tez bu barədə deyirəm. Cəmiyyətimizin əsasında mənəvi-tərbiyəvi prinsiplər durur. Əgər biz bunu itirsək cəmiyyət olmayacaqdır. Onda biz bünövrəni itirmiş olarıq. Biz həm dinimizi, həm dilimizi, həm ədəbiyyatımızı, həm də incəsənətimizi qoruyub saxlamışıq. Müstəqillik illərində də bu mövqeləri möhkəmləndirmişik. Gənclər də milli ruhda tərbiyə olunmalı, savadlı olmalıdırlar.

*Ukraynanın müftisi Təmim Əhməd Azərbaycan dövləti tərəfindən tolerantlığa, dini etiqada, mənəvi dəyərlərə göstərilən yüksək qayğının cəmiyyətin ümumi inkişafına verdiyi töhfələrdən söhbət açdı.*

**T ə m i m Ə h m ə d:** Mən demək istəyirəm ki, bizim Ukraynada ən azı MDB-nin, demək olar ki, bütün millətlərinin nümayəndələri yaşayırlar. Buna görə də bütün ölkələrdə sülh və əmin-amanlıq olanda bizdə də sülh və əmin-amanlıq olur. Ukrayna MDB ölkələri üçün çox mühüm strateji yerdir. Biz müxtəlif ənənələrə və mədəniyyətlərə malik bütün müsəlmanlarla birlikdə çalışırıq.

*Təmim Əhməd Kiyevdə ilk məscidin inşasına Azərbaycan dövlətinin göstərdiyi köməyə görə minnətdarlığını bildirdi.*

*Ukrayna müftisi prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

*Serbiyanın müftisi Muhammed Yusifpahiç Azərbaycanda sülhün və əmin-amanlığın mövcudluğundan məmnunluq hissi keçirdiyini vurğuladı. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlı olduğunu bildirdi.*

*Muhammed Yusifpahiç münaqişənin həlli ilə bağlı prezident İlham Əliyevin müdrik siyasət apardığını söylədi. Serbiyanın müftisi Azərbaycan dövlətinin başçısına Belqradda ölkənin*

*qədim tarixi abidələrindən olan məscidin bərpasına, həmçinin pravoslav kilsəsinin təmirinə göstərilən yardıma görə təşəkkür etdi. O, Bakıda keçirilən konfransın əhəmiyyətindən də danışdı.*

*Serbiyanın müftisi prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

*Sonra Beynəlxalq İslam Missiyasının prezidenti, Qafqaz Müsəlmanları İdarəsinin Moskvadakı səlahiyyətli nümayəndəsi Şafik Pşixaçev çıxış etdi.*

**Ş a f i k P ş i x a ç e v:** Möhtərəm Prezident! Biz Sizin münasibətinizə uyğun olaraq yenə də, artıq bu dəfə belə bir formatda «MDB müsəlmanları sülh və sabit inkişaf naminə» adlı konfransı keçirmək üçün Bakıya toplaşmışıq. Biz hamımız Sizin atanızın bu xoş münasibətlərin əsasını qoymasını çox əziz tuturuq. Biz müqəddəs yerlərdə dua etmişik. Biz Sizin valideynləriniz üçün dua etmişik. Xalqına böyük nemətlər bəxş edən və ölkənizin tərəqqisi üçün yol göstərən Heydər Əliyevin ruhuna dua oxumuşuq. Bu bizim «MDB müsəlmanları sülh və sabit inkişaf naminə» adlı ikinci konfransımızdır. İlk konfrans 2009-cu ildə Moskvada keçirilmişdi. İndi Bakıda toplaşmışıq. Buranı seçməyimiz təsadüfi deyildir. Mənim həmkarlarımın, qardaşlarımın fikirlərinə qoşuluram ki, Bakı islam mədəniyyətinin mərkəzlərindən biridir. Bu Sizin xoş məramınızdır, Sizin iradənizdir. Biz Sizə çox minnətdarıq. Biz dua edirik ki, Allah-Taala Sizə həmişə kömək olsun və uğurlarınız daha da artsın.

*Prezident İlham Əliyev Məşvərət Şurası çərçivəsində əməkdaşlığın gələcəkdə də genişləndirilməsi işində Şura üzvlərinə uğurlar arzuladı.*

## LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERZİNŞİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*24 aprel 2013-cü il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Latviya Respublikasının Prezidenti Andris Berzinşin aprelin 24-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Latviya prezidenti Andris Berzinşi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Latviya prezidentinə raport verdi.*

*Latviyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Andris Berzinşə, Latviya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERZİNŞ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*24 aprel 2013-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Andris Berzinşin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Yüksək səviyyəli səfərlərin Azərbaycan ilə Latviya arasında əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.*

*Dövlət başçıları ölkələrimiz arasında iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu bildirdilər. Bu səfərin həmin sahələrin müəyyənləşdirilməsi işinə töhfələr verəcəyi qeyd edildi.*

*Görüşdə Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı çərçivəsində ölkəmizin Latviya ilə münasibətlərinin genişləndirilməsi məsələləri müzakirə olundu.*

*Əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olunduğu görüşdə ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 aprel 2013-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Andris Berzinşin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfərin çox yaxşı nəticələri olacaqdır və Latviya–Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcəkdir.

Bizim aramızda çox yaxşı əməkdaşlıq vardır. Bu əməkdaşlıq, demək olar ki, bütün sahələri əhatə edir. Həm siyasi, həm də iqtisadi əlaqələrimiz inkişafdadır. Beynəlxalq təşkilatlarda da biz çox fəal əməkdaşlıq edirik və bir-birimizi dəstəkləyirik. Yəni iki ölkə arasında heç bir problem yoxdur, yalnız birgə səylərimizi gücləndirib daha da yaxşı əməkdaşlığa nail olmalıyıq. Əminəm ki, səfər zamanı aparılan danışıqlar və keçirilən fikir mübadiləsi bütün məsələlərin həlli üçün yaxşı zəmin yaradacaqdır.

Bir daha xoş gəlmisiniz!

**A n d r i s B e r z i n ş:** Cənab Prezident, bizim nümayəndə heyətimiz burada olmağından olduqca şaddır. Bizim bu səfərə xüsusi marağımız vardır. Marağımız o qədər yüksəkdir ki, biz xüsusi olaraq böyük təyyarəni sifariş etdik. Buraya səfər zamanı və səfərdən öncə mən Sizin ölkəniz haqqında bir çox məlumatları toplamağa başladım. Məhz son 20 il ərzində

ölkənizin keçdiyi inkişaf yolunu öyrəndim. Bu, sözün əsl mənasında, böyük təəssürat bağışlayır.

Aramızda qurulmuş diplomatik münasibətlərin 20 illiyini bu yaxınlarda qeyd edəcəyik.

Hesab edirəm ki, biz artıq bütün məsələlər üzrə bütün sahələrdə çox yaxşı münasibətlər qurmuşuq. Münasibətlərimiz çox yüksək səviyyədədir. Bu özü-özlüyündə gələcəkdə bizim daha sıx iqtisadi əməkdaşlığımız üçün yaxşı əsasdır.

## LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERZİNŞ İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Prezident sarayı*

*24 aprel 2013-cü il*

*Nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş başa çatdıqdan sonra aprelin 24-də Azərbaycan prezidenti İlham Əliyevin və Latviya prezidenti Andris Berzinşin mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Bir daha Sizi səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Bu gün keçirdiyimiz danışıqlar, aparılan fikir mübadiləsi bir daha göstərir ki, Latviya–Azərbaycan əlaqələri yüksək səviyyədədir. Bizim aramızda çox fəal siyasi dialoq aparılır. Siyasi müstəvidə aramızda heç bir problem yoxdur. Biz beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Əlbəttə, çalışırıq ki, bütün sahələrdə əlaqələr siyasi səviyyədəki əlaqələrə uyğun olsun. Mən ilk növbədə iqtisadi sahəni qeyd etmək istərdim. Baxmayaraq ki, son illər iqtisadi sahədə böyük irəliləyiş vardır, amma hələ ki, ticarət dövriyyəsi bizi qane edə bilməz. Hesab edirəm ki, biz ticarət dövriyyəsinin artırılmasına birgə səylərlə nail olmalıyıq və bunun üçün imkanlar vardır. Bu gün keçiriləcək biznes-forum biznes qurumları arasındakı əlaqələrin inkişafına da öz töhfəsini verməlidir. Hesab edirəm ki, biz

iqtisadi sahədə investisiya layihələrinə baxmalıyıq. Artıq ilkin təkliflər vardır. Demək istəyirəm ki, Azərbaycan artıq öz investisiyalarını xarici bazarlara qoymağa başlayıb. Bunun artıq gözəl nəticələri vardır. Konkret layihələr üzərində iş aparılmalıdır ki, ticarət dövriyyəsini artıra bilək.

Eyni zamanda, Latviya şirkətlərinin Azərbaycandakı fəaliyyətini genişləndirmək üçün əlavə imkanlar yaradıla bilər. Hesab edirəm ki, biznes-forum çərçivəsində bu imkanlar da təqdim oluna bilər. Azərbaycanda son illər ərzində böyük inkişaf müşahidə olunur, çoxlu layihələr icra edilir. Əlbəttə, biz istərdik ki, Latviya şirkətləri podratçı, kontraktor kimi Azərbaycanda daha da fəal iştirak etsinlər.

Biz bu gün eyni zamanda, energetika məsələlərinə də toxunduq. Azərbaycan Avropa İttifaqı üçün enerji təhlükəsizliyi baxımından tərəfdaş ölkəyə çevrilmişdir. Bunu təsdiqləyən sənədlər də vardır. Azərbaycanın zəngin neft-qaz resursları dünya bazarlarına müxtəlif yollarla çatdırılır. Hesab edirəm ki, növbəti illərdə bu sahədə Avropa İttifaqı ilə əməkdaşlıq yeni müstəviyə qalxa bilər. İkitərəfli formatda da energetika məsələlərinin həlli üçün yaxşı imkanlar vardır.

Bu gün nəqliyyat infrastrukturunun yaradılması və nəqliyyat sahəsində əməkdaşlıq haqqında da fikir mübadiləsi aparıldı. Bu layihələrin həyata keçirilməsi nəticəsində geniş mənada regional əməkdaşlıq məsələləri öz həllini tapa bilər. Xəzər dənizi, Qara dəniz, Baltik dənizi ölkələri arasındakı əlaqələr bir çox hallarda nəqliyyat infrastrukturundan asılıdır. Azərbaycan öz tərəfindən bu məsələlərin həlli üçün çalışır. Bizim təşəbbüsümüzlə həyata keçirilən böyük nəqliyyat layihələri öz bəhrəsini verməkdədir.

Biz xarici siyasətlə bağlı fikir mübadiləsi apardıq. Bir daha görürük ki, bu məsələlərlə bağlı heç bir fikir ayrılığı yoxdur. Ümumiyyətlə, bu gün artıq həm təkbətək görüşdə, həm nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə geniş mənada məsələlər müzakirə edildi. Humanitar sahəni qeyd

etmək istəyirəm. Təhsil, səhiyyə məsələlərinin həlli üçün qarşılıqlı əməkdaşlığa ehtiyac vardır.

Cənab Prezident, ümumiyyətlə, hesab edirəm ki, səfəriniz Sizin üçün xoş keçəcəkdir. Bu Sizin Azərbaycana ilk səfərinizdir. Mən Latviyada dəfələrlə olmuşam. Əminəm ki, səfərin yaxşı nəticələri olacaqdır. Siz vətənə xoş təəssüratlarla qayıdacaqsınız. Bir daha xoş gəlmisiniz!

## Latviya prezidenti Andris Berzinşin bəyanatı

Sağ olun, cənab Prezident!

Ölkənizə səfər etmək üçün yaratdığınız fürsətə görə minnətdaram!

Latviya Azərbaycanı Cənubi Qafqazda çox mühüm və etibarlı tərəfdaş hesab edir. Əslində verdiyiniz olduqca geniş təsvirə görə təşəkkür edirəm. Biz ölkələrimiz arasında diplomatik münasibətləri qurduqdan sonra gələcək irəliləyiş üçün yaxşı əsaslar yarandı. Fikrimcə, biz öz siyasi və iqtisadi münasibətlərimizdə mühüm bir potensial səviyyəsinə çatmışıq və bu inkişaf sürətlə gedir.

Mən Latviya adından demək istərdim ki, biz enerji məsələsinin müzakirəsindən başqa, digər sahələri də qeyd etdik, təhsil sahəsinə toxunduq. Çünki burada bizim, həmçinin təhsil sahəsinin nümayəndələri vardır və təhsil sahəsində əməkdaşlıq imkanlarını geniş şəkildə müzakirə edə bilərik. Latviyada 97 azərbaycanlı tələbə təhsil alır. Bu da həmçinin bizim digər sahələrdə, o cümlədən iqtisadi sahədə münasibətlərimizin gücləndirilməsi üçün yaxşı zəmin yaradır. Bizim həmçinin burada Səhiyyə nazirimiz də vardır. Bu da əslində Latviya üçün olduqca mühüm bir sahədir. Bu məhz insanların sağlamlığı, səhhəti ilə bağlı olan sahədir. Biz bu sahədə, həmçinin humanitar yardım göstərmək sahəsində də çox fəalıq. Bu baxımdan hesab edirəm ki, aramızda mübadilələr aparıla bilər. Həmçinin biz digər sahələrdə təcrübə mübadiləsini – tutaq ki, Avropa İttifaqı və Avropa təsisatları ilə iş sahəsində əldə

etdiyimiz təcrübə ilə, sosial müdafiə sahəsindəki əldə etdiyimiz imkanlarla böyük məmnunluqla mübadilə edə bilərik. Həmçinin pensiya sisteminin təkmilləşdirilməsinə və onun inkişafına dair fikir mübadiləsi apara bilərik. Digər sahələrə gəldikdə, zənnimcə, sərhədlərə nəzarət, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə, insan alverinə qarşı mübarizə sahələrində də yaxşı təcrübə mübadiləsi baş tuta bilər.

Mən nəqliyyat sahəsinə toxunaraq aydın şəkildə qeyd etmək istərdim ki, Latviyada aviasiyanın inkişafı öz növbəsində, bizim bu sahədəki qarşılıqlı apardığımız əməliyyatlara töhfə verə bilər. Bildiyiniz kimi, digər ticarət marşrutları vardır, biri «Zubr» adlanır. Bu əslində konteyner daşıyan qatardır ki, bizim Baltik dənizi regionundan Qara dəniz regionuna çıxışımızı təmin edir. Bu da zənnimcə, ən maraqlı fürsətlərdən biri ola bilər. Hesab edirəm ki, bu, Latviyanın potensialının açılmasında, onun daha cəlbedici olmasında irəliyə doğru atılmış bir addımdır.

2014-cü ildə Latviyanın paytaxtı Riqa Avropa mədəniyyəti şəhəri olacaqdır. Mən hesab edirəm ki, bu da mədəniyyət sahəsində əməkdaşlıq üçün müstəsna əhəmiyyət kəsb edir. Mənim fikrimcə, mədəniyyət sahəsi bizim üçün yaxşı potensial imkanlar açır. Zənnimcə, biz bütün dünyada özümüzü daha güclü şəkildə təmsil edə, mövqelərimizi gücləndirə bilərik.

Beləliklə, əlaqələrimizi inkişaf etdirmək üçün istərdik ki, cənab Prezidenti yenidən Latviyaya səfərə dəvət edək, bununla da aparacağımız ikigünlük işin nəticələrini daha da gücləndirək. Fikrimizcə, bu yolla biz bütün səviyyələrdə əlaqələrimizi daha da genişləndirə bilərik.

İqtisadiyyat sahəsində əlaqələrimiz çox geniş vüsət alıb. Hesab edirəm ki, dünyada təhlükəsizlik və ölkələrimizin təhlükəsizliyi üçün gördüyümüz işlər çox vacibdir. Hesab edirəm ki, bu baxımdan bizim bir çox potensial imkanlarımız vardır. Biz birgə işləyərək yaxşı səylərlə böyük nəticələr əldə edə bilərik. Mən öz tərəfimdən Azərbaycan tərəfindən iştirak edən bütün şəxslərə, həmçinin xüsusi olaraq, cənab Prezident, Sizə

minnətdarlığımı bildirirəm. Biz bilirik ki, nümayəndə heyətimiz səfərini artıq sabah başa çatdıracaqdır. Biz istərdik ki, səfərimizi konkret fikirlərlə və ideyalarla başa çatdıraq, daha sonra ölkəmizə qayıdaq. Çünki bilirik ki, bəzi məsələlər kifayət dərəcədə, yəni istədiyimiz sürətlə inkişaf etməsə də, hesab edirik ki, biz bunu öz aramızda, cənab Prezident, əlaqələndirəcəyik. Çox sağ olun!

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**İ v o  Y u r k a n s** (*Latviya Müstəqil Televiziyası*): **Mənim sualım Azərbaycan prezidentinədir. Latviya üçün qaz təchizatı yollarının şaxələndirilməsi olduqca vacibdir. Biz çox arzu edirik ki, Nabukko layihəsi həyata keçirilsin. Sizin fikrinizcə, Rusiya bu layihəyə gəldikdə nə dərəcədə güclü rəqib kimi çıxış edəcəkdir? Biz bilirik, sizin nəhəng həcmdə qaz ehtiyatlarınız vardır və əslində, Avropa İttifaqı üçün də çox böyük qaz təchizatı lazımdır. Rusiyanın bu baxımdan mövqeyini necə hesab edirsiniz?**

**İ l h a m  Ə l i y e v:** İlk növbədə, hesab edirəm ki, bu günə qədər Azərbaycan tərəfindən görülmüş işlər deməyə əsas verir ki, Azərbaycan «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsində də böyük uğurlara nail olacaqdır. Dediyiniz kimi, bizim çox böyük qaz ehtiyatlarımız vardır və təsdiq edilmiş qaz resurslarımız hazırda 2,6 trilyon kubmetr həcmindədir. Ancaq çox güman ki, bu rəqəm artacaqdır. Çünki yeni kəşf edilmiş yataqlardan daha da çox qaz ehtiyatları gözlənilir. Beləliklə, uzun illər, onilliklər bundan sonra Azərbaycan qaz ixrac edən çox önəmli ölkəyə çevrilməlidir. Əlbəttə, buna nail olmaq üçün müxtəlif, yəni çoxşaxəli qaz kəmərləri lazımdır. Hazırda Azərbaycan öz qazını müxtəlif istiqamətlər üzrə dünya bazarlarına çıxarır. Azərbaycan öz qazını Ermənistan istisna olmaqla, bütün başqa qonşularımıza nəql edir. Əlbəttə,

gələcəkdə Avropa bazarına çıxmaq üçün yeni imkanlar yaradılmalıdır. Azərbaycan tərəfindən həyata keçirilən layihələr, hesab edirəm ki, uğurla nəticələnəcəkdir. Onların arasında son müddət ərzində ən yaddaqalanı TANAP layihəsidir. TANAP layihəsini Azərbaycan təşəbbüs kimi irəli sürmüşdür. TANAP layihəsinin həyata keçirilməsi nəticəsində Azərbaycan qazı Avropa sərhədlərinə qədər çatdırılmalıdır və ondan sonra Avropanın qaz şəbəkəsinə daxil olacaqdır.

Bizim bütün təşəbbüslərimiz Avropa İttifaqı tərəfindən dəstəklənir. 2 il əvvəl bu salonda Avropa Komissiyasının sədri cənab Barrozu ilə biz strateji əməkdaşlıq haqqında memorandum imzaladıq. Bu memorandum enerji məsələlərinə aid idi və ondan sonra fəal iş başlamışdır. Ona görə, bazar Avropa bazarıdır, resurslar Azərbaycandan gələcəkdir. Tranzit ölkələri ilə uğurlu əməkdaşlıq aparılır və bu əməkdaşlığın çox gözəl tarixçəsi də vardır. Biz öz qonşularımızla – Gürcüstan və Türkiyə ilə artıq böyük neft-qaz layihələrinin həyata keçirilməsində yaxşı uğurlara nail olmuşuq. Ona görə, mən heç bir maneə görmürəm. Nəzərə alsaq ki, Avropa məkanı qaz təchizatının şaxələndirilməsində maraqlıdır, hesab edirəm ki, burada heç bir əngəl ola bilməz. O ki qaldı rəqabət məsələlərinə, biz heç kimlə rəqabət aparmaq fikrində deyilik və sadəcə olaraq, öz təbii resurslarımızı bizim üçün məqbul sayılan bazarlara nəql etməyə çalışırıq. Bu məsələlərdə Avropa İttifaqı tərəfindən qəbul edilmiş prinsiplər əsas rol oynamalıdır. Bu da sərbəst və ədalətli rəqabət prinsipləridir və bazar iqtisadiyyatı prinsipləridir. Avropa bazarı liberal bazardır, qanunlarla tənzimlənən bir bazardır, bizim üçün çox böyük və cəlbedici bazardır. Burada həm Avropanın, həm Azərbaycanın maraqları üst-üstə düşür və məhz buna görə biz öz münasibətlərimizi enerji sahəsində strateji tərəfdaşlıq kimi qiymətləndiririk. Yəni burada təchizatçı ölkə Azərbaycan, tranzit ölkələri Gürcüstan və Türkiyə, istehlakçı ölkələr Avropa İttifaqına üzv olan ölkələrdir. Bu ölkələr arasında enerji təchizatı və enerji təhlükəsizliyi ilə bağlı heç bir fikir ayrılığı yoxdur. Sadəcə olaraq, müəyyən dövrdə bəzi ləngimələr olmuşdur. Bu boşluğu doldurmaq üçün Azərbaycan, bir

daha demək istəyirəm ki, Trans–Anadolu (TANAP) layihəsini irəli sürmüşdür. Əminəm ki, bu layihənin icrasında da biz həmişə olduğu kimi, böyük uğurlar qazanacağıq.

**A l b i n a  A t l ı x a n o v a** (*Azərbaycan Dövlət Teleqraf Agentliyi*): **Sualım Latviya prezidentinədir. Bu gün Bakıda hər iki ölkənin iş adamlarının iştirakı ilə Azərbaycan–Latviya biznes-forumu keçiriləcəkdir. Cənab Prezident, bilmək istərdik, Siz forumun nəticələrindən nə gözləyirsiniz və ümumiyyətlə, bu forum əməkdaşlığımızın genişləndirilməsi işinə nə kimi töhfələr verə bilər? Çox sağ olun.**

**A n d r i s  B e r z i n ş:** Hesab edirəm ki, biznes-foruma Latviya tərəfindən böyük maraq vardır. Biznes-forumda Latviyanın işgüzar dairələrinin, iqtisadiyyatının çox müxtəlif sahələrini təmsil edən 80-dən artıq iş adamı iştirak edəcək. Bu o deməkdir ki, onlar həm ümumi yığıncaqda, həm özəl görüşlərdə azərbaycanlı həmkarları ilə görüşəcəklər.

Biz Azərbaycan prezidenti ilə bu haqda danışdıq və əslində qeyd etdik ki, bu, iqtisadi əməkdaşlıq üçün vacib bir əsasdır. Biz elə bir səviyyəyə gəlib çatmışıq ki, məhz yerli işgüzar dairələr öz qarşılarına qoyduqları məqsədlərə artıq nail olublar. Yəni artıq bizim müəssisələr Baltik dənizi regionunda öz mövqelərini tutublar. Bu o deməkdir ki, biz nəzərimizi növbəti bazarlara yetirmişik. Ona görə bizim bir neçə istiqamətimiz vardır. Bu 22 il ərzində bizim mübadilə olunacaq təcrübəmiz vardır. Bu təcrübə həmin müəssisələrin təcrübəsidir. Fikrimcə bu, yaxşı bir məqam olardı ki, biz əslində öz biznes mübadilələrimizi iki ölkə arasında daha da artıraq.

O ki qaldı digər məsələlərə, məhz nəqletmə sahəsinə, Latviya hər hansı bir tranzit sahəsində, xüsusən də aviasiya ilə yüklərin daşınması sahəsində maraqlıdır. Hesab edirəm ki, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq çox yaxşı dərəcədə inkişaf edə bilər. Bizim həmçinin hava nəqliyyatı sahəsində və onun əlaqələndirilməsində çox yaxşı imkanlarımız vardır. Bu sahədə də göstəriləcək səyləri əlaqələndirə bilərik. Enerji

layihələrinə gəldikdə, biz artıq elə bir səviyyədəyik ki, alternativ təchizat mənbələri haqqında danışa bilərik. Biz burada arzularımızı və fikirlərimizi bölüşürük. Təbii ki, bu həm Latviyanın, həm Baltik dənizi regionunun marağındadır. Bir sözlə, informasiya mübadiləsi faydalıdır. Elə bir nəticəyə gəlmişik ki, bu sahədə müsbət inkişaf olacaqdır.

Digər tərəfdən, real layihələr haqqında da danışmaq olar. Məsələn, biz Latviyanın kənd təsərrüfatı sahəsində əldə etdiyi təcrübə üzrə də işləyə bilərik. Çox sağ olun.

## AZƏRBAYCAN–LATVİYA BİZNES-FORUMUNDA İŞTİRAK

*Bakı Biznes Mərkəzi*

*24 aprel 2013-cü il*

*Aprelin 24-də Bakı Biznes Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Andris Berzinşin iştirakı ilə Azərbaycan–Latviya biznes-forumu keçirilmişdir.*

*Dövlət başçıları biznes-forumda çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizi bir daha Azərbaycanda salamlamaq istəyirəm. Bu gün bizim cənab Prezidentlə çox yaxşı görüşümüz oldu. Biz ikitərəfli münasibətlərimizə aid olan bir çox mühüm məsələləri müzakirə etdik. Əlbəttə ki, iqtisadi məsələlər müzakirə etdiyimiz ən vacib məsələlərdən biri idi. Bizim yaxşı uğurumuz və irəliləyişimiz vardır. Əgər ticarət dövriyyəsinin artımının faiz nisbətinə baxsaq, görərik ki, irəliləyiş vardır. Lakin rəqəmlərə baxsaq, bunlar bizi razı sala bilməz.

Bizim əvvəllər də biznesə aid görüşlərimiz olub. Ölkələrimiz, şirkətlərimiz arasındakı iqtisadi fəaliyyət və əməkdaşlıq əsasən bu görüşlər sayəsində mümkün olmuşdur. Hesab edirəm ki, bugünkü forum xüsusi əhəmiyyət kəsb edir. Çünki mənə məlumat verilib ki, artıq mühüm razılaşmalara nail olunub, memorandumlar imzalanıb və əməkdaşlığın, çox ehtimal ki, yeni sahələri müəyyən edilib.

Çox güman ki, Azərbaycan tərəfi artıq Latviyanın işgüzar dairələrinə ölkədə iqtisadi inkişaf sahəsində gedən proseslər barədə məlumat verib. Bununla belə, fərəhləndiyimiz və gələcək üçün planlaşdırdığımız işlər barədə sadəcə, bir neçə söz söyləmək istərdim. Biz olduqca sürətli iqtisadi artıma nail olmuşuq. Bu isə əsasən nəhəng neft və qaz yataqlarının aşkar edilməsi və işlənilməsi ilə şərtlənir. Bunun sayəsində biz maliyyə vəsaitlərini toplaya bildik və bu onları inkişaf etdirmək istədiyimiz sahələrə yönəltməyə imkan yaratdı. Bu sahələr əsasən insan kapitalı, təhsil, sosial proqramlar və infrastruktur sahələridir.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi bizim bir nömrəli məqsədimizdir. Hesab edirəm ki, biz düzgün istiqamətdə addımlayırıq. Çünki enerji sektorundan asılılıq ildən-ilə azalır. Bu da bizim elə əsas məqsədimizi təşkil edir. Çünki biz davamlı iqtisadiyyat qurmaq fikrindəyik ki, o, neft qiymətlərindən asılı olmasın.

2013-cü ilin birinci rübünün nəticələrinə baxsanız, görərsiniz ki, qeyri-neft sektorunda 11 faizdən çox artım olub. Bu islahatlar şaxələndirmə siyasətimizin nəticəsidir. Avropada şaxələndirmə haqqında danışdıqda, insanlar əsasən enerji resurslarının təchizat yollarının şaxələndirilməsi haqqında düşünür. Bunu da tam anlamaq olar. Şaxələndirmə bizim üçün enerji resursları sahəsində ixrac imkanlarının və qeyri-enerji iqtisadiyyatının inkişafı deməkdir. Bu səbəbdən gələcəklə bağlı planlarımız strateji hesab etdiyimiz sahələrə sərmayələri cəlb etməkdir.

Məsələn, biz keçən əsrin 90-cı illərinin ortalarında sərmayələri neft və qaz sektoruna cəlb edə bildik. Çünki münbit investisiya iqlimi yarandı. Bu əslində elə bizim iqtisadi inkişafımıza səbəb oldu. Hazırda bizim xarici şirkətlərlə əməkdaşlığımızın artıq yerli mexanizmləri mövcuddur. Azərbaycan İnvestisiya Şirkəti bizim üçün strateji olan bəzi layihələrdə həmsərmayədar kimi iştirak edir. Biz xarici sərmayələrə və

onların qorunmasına aid daxili qanunvericiliyimizi təkmilləşdirməkdə davam edirik.

Sizə deyə bilərəm ki, Azərbaycan uzun illərdir MDB və Mərkəzi Avropada adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə aparıcı ölkədir. Əgər əvvəlki illərdə biz əsasən neft-qaz sərmayələri haqqında danışırdıqsa, indi digər iqtisadi sahələrdə də sərmayələri müşahidə edirik. Bunlar xidmətlər, digər sahələr və kənd təsərrüfatıdır. Bütün bunlar bizə gələn illər ərzində uğurla inkişaf etmək imkanı yaradacaqdır. Təbii ki, iqtisadiyyatın enerji sahəsi əsas mövqedə qalacaqdır. Bu tamamilə aydındır, çünki nəhəng neft və qaz ehtiyatlarını, şaxələndirilmiş təchizat marşrutlarını və enerji resurslarını – mən burada əsasən təbii qazı nəzərdə tuturam – nəhəng ehtiyatların Avropa istehlakçılarına çatdırılması ilə bağlı hazırda həyata keçirdiyimiz yeni planları nəzərə alsaq, bu, enerji sektorundakı şirkətlər üçün əlavə imkanlar yaradacaqdır. Lakin qeyri-neft iqtisadiyyatı birmənalı olaraq paralel şəkildə artacaqdır.

Biznes fəaliyyətinin təşviq edilməsi üçün Dövlət Proqramı həyata keçirilir. Azərbaycanın rayonlarındakı infrastruktur layihələrinin əksər hissəsi ya başa çatdırılıb, yaxud da ki, həyata keçirilmənin sonuncu mərhələsindədir. Biz regionların inkişafına dair 2 proqram qəbul etmişik. Hər biri 5 illik müddət üçün nəzərdə tutulub. İkinci proqram cari ilin sonunda yekunlaşır. Gələn illər ərzində biz informasiya-kommunikasiya texnologiyaları, xidmətlər, turizm və sənaye kimi sektorların inkişafına daha çox diqqət yetirəcəyik. Çox güman ki, bizim sənaye zonalarının yaradılması ilə bağlı xüsusi planlarımız haqqında qonaqlara məlumat verilib. Bu planlar həyata keçirilmək üzrədir. Bunun nəticəsində biz ağır sənaye sahəsində çox üstünlükləri olan qaydalar, güzəştli vergi rejimi ilə yeni ixrac imkanları yaradacağıq. Bunun sayəsində ixrac imkanlarımızı artıra biləcəyik, həmçinin ixrac strukturunun şaxələndirilməsinə nail olacağıq, çünki hazırda ixracımızın əsas hissəsi enerji ilə bağlıdır. Eyni zamanda, yerli istehsalın

artırılması ilə bağlı planlarımız həyata keçirilməkdədir. Özəl sektorun stimullaşdırılması üçün fond kimi mexanizm sayəsində fermerlərə, kiçik və orta sahibkarlara maliyyə yardımı göstərilir.

Fikrimcə, gələn illər ərzində Azərbaycanda iqtisadi inkişaf, ümumən uğurlu olacaqdır. Bu həmçinin beynəlxalq maliyyə təsisatları tərəfindən qeyd olunur. Məsələn, Dünya Bankının «Doing Business» hesabatında Azərbaycanın yaxşı irəliləyiş əldə etdiyi bildirilir. Dünya İqtisadi Forumu iqtisadiyyatın rəqabətə davamlılığı baxımından Azərbaycanı 46-cı yerdə göstərir. Maliyyə və iqtisadi böhran illərində «Standard & Poors», «Fitch» və «Moodys» reytinq agentlikləri bizim kredit reytinqimizi yaxşılaşdırmışdır. Hesab edirəm ki, şirkətlərimiz arasında müxtəlif istiqamətlər üzrə gələcək əməkdaşlıq yaxşı nəticə verə bilər. Hazırda Azərbaycan öz hüdudlarından kənarda böyük sərmayələr yatırır. Biz Avropada böyük sərmayələr qoyuruq və bu proses davam edəcəkdir.

Əlbəttə, ölkənizdəki layihələr bizim üçün çox cəlbedici ola bilər. Biz diqqət yetirəcəyimiz sahələri daha dəqiq şəkildə müəyyən edə bilərik. Burada iştirak edən və yenicə qoşulmuş Latviya şirkətləri həyata keçirdiyimiz müxtəlif layihələrdə podratçı qismində fəal şəkildə iştirak edə bilər. Həmçinin fikrimcə, birgə istehsalat imkanlarından həm Azərbaycanda, həm də Latviyada istifadə oluna bilər. Çünki bizim böyük qarşılıqlı marağımız vardır. Mən çox şadam ki, cənab Prezident, Sizi çoxsaylı latviyalı işgüzar adamlar müşayiət edir. Bu həmin marağı göstərir. Bizim də Sizin ölkəyə eyni marağımız vardır. Əla siyasi münasibətlərimiz mövcuddur. Biz bir çox sahələrdə tərəfdaşıq. Bu gün cənab Prezidentlə müzakirə etdiyimiz kimi, bizim münasibətlərdə həll olunmamış heç bir məsələ yoxdur. Bundan başqa, Azərbaycan Latviyanın üzv olduğu təşkilatlarla fəal şəkildə əməkdaşlıq edir. Bu da ikitərəfli münasibətlərimizi gücləndirir. Fikrimcə, bu biznes-forumun çox yaxşı nəticələri ola bilər. Qarşılıqlı maraq, siyasi dəstək vardır, hökumətlərarası komissiya fəaliyyət göstərir. Təbii ki, biznes dairələrimizin fəaliyyəti çox müsbət nəticələr verəcəkdir.

Beləliklə, gələcəkdə biz bundan bəhrələnərək xalqlarımızın rifahı naminə ölkələrimiz arasında güclü iqtisadi tərəfdaşlıq quracağıq.

Cənab Prezident və hörmətli qonaqlar, Sizi ölkəmizdə bir daha salamlamaq istəyirəm. Sizə uğurlu səfər arzulayıram və ən xoş arzularımı çatdırıram. Sağ olun.

## Latviya prezidenti Andris Berzinşin çıxışı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Çox sağ olun, cənab Prezident, Siz, demək olar ki, bütün mövzuları əhatə etdiniz. Sadəcə, bir neçə məsələni qeyd etmək istərdim. Bu mənim Sizin ölkənizə ilk səfərimdir. Məndə müəyyən məlumat var idi, amma reallıq mənim gözləntilərimi xeyli üstələdi və müstəqilliyinizin 22 ili ərzində nə qədər böyük yol keçdiyinizi gördükdə çox məmnun oldum.

Biz burada bir sıra yerləri ziyarət etdik və gördük ki, keçmişdə çox oxşarlıqlarımız olub. Xalqlarımız arasında çox sıx münasibətlər mövcud olub. Biznesə gəldikdə, biz rəqabət aparan tərəflər deyilik. Əslində, bizim biznes işində tamamilə fərqlənən sahələr vardır. Əldə etdiyimiz təcrübə də çox fərqlidir. 22 il ərzində Latviya bundan çox bəhrələnib. Yəni Avropa İttifaqı ilə fərqli tərzdə yeni qaydaların tətbiqi sahəsində müzakirələr aparılıb. Lakin fikrimcə, bu həmçinin çox müsbət təcrübədir. Bu elə bir sahədir ki, biz qarşılıqlı surətdə yararlana bilərik. Biznes fəaliyyətinə gəldikdə, hər iki ölkə müəyyən sabitliyə nail olub, lazımi yerli və bəzi beynəlxalq təcrübə toplayıb.

Latviya kiçik ölkədir və biz bir-birimizə söykənən tərəfdaş olmalıyıq. Bu bizim irəliyə getməyimiz üçün gözəl əsasdır. Əlbəttə, biz gələn illər ərzində əsas diqqətimizi elm, təhsil və sahibkarlıq sahələrinə yönəldəcəyik. Təhsil, həmçinin ixrac etdiyimiz resurslardan biri olacaqdır.

Biz fərqli sənaye sahələrində güclüyük. Səylərimizi birləşdirib uğurlar qazana bilərik. Gələcək biznes əlaqələrimiz bu

yolla genişlənə bilər. Səhiyyə və sosial sahələr çox böyük sahələrdir. Bizneslə birbaşa bağlı olmasa da, ölkələrimizin gələcəyi üçün bu sahələr də çox vacibdir. Bu gün səhər bizim çox dostcasına, çox açıq şəraitdə keçən müzakirələrimiz oldu. Tam əminəm, hər iki tərəf belə bir razılığa gəlib ki, biz ölkələrimizdə fəaliyyət göstərən şirkətlərimizi lazım olan dərəcədə dəstəkləyək. Bu cür lazımi əsas hər iki tərəf üçün mütləqdir. Bu əslində qısa müddət ərzində sizinlə işgüzar əlaqələrin gücləndirilməsinə yönəlmiş biznes icmamızın atdığı ikinci addımdır. Tam əminəm ki, bir neçə ildən sonra nəticələr çox yüksək, Sizin inşaat sənayenizin uğuru qədər böyük olacaqdır. Sağ olun.

* * *

*Forumdan sonra prezidentlər İlham Əliyev və Andris Berzinş Dənizkənarı Milli Parkı gəzdilər, paytaxtın mənzərəsini seyr etdilər.*

*Latviya prezidentinə son illərdə sürətlə inkişaf edən Azərbaycanın paytaxtında görülən abadlıq və quruculuq işləri barədə ətraflı məlumat verildi.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*24 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından aprelin 24-də Latviya Respublikasının Prezidenti Andris Berzinşin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha salamlayır və «Xoş gəlmisiniz!» – deyirəm.

Bu Sizin ölkəmizə ilk rəsmi səfərinizdir. Mən isə Latviyada 2 dəfə səfərdə olmuşam. Məmnuniyyətlə xatırlayıram ki, son 8 ildə ölkə başçıları səviyyəsində 5 səfər olmuşdur. Bu faktın özü bizim ikitərəfli əlaqələrə münasibətlərimizin göstəricisidir. Əminəm ki, qarşılıqlı səfərlər Latviya və Azərbaycan arasında istər ikitərəfli və çoxtərəfli müstəvidə, istərsə də Avropa strukturları çərçivəsində əməkdaşlığımızın daha da inkişafına və genişlənməsinə təkan verəcəkdir.

Azərbaycan və Latviya arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. İqtisadi əlaqələrimiz sürətlə inkişaf etsə də, hələlik ölkələrimizin potensialına tam cavab vermir. Ticarət dövriyyəsi son 5 ildə 3 dəfəyə yaxın artıb. Bir neçə il ərzində iki ölkənin şirkətlərinin və iş adamlarının iştirakı ilə 6 biznes-forum keçirilib. 2006-cı ildə Azərbaycan ilə Latviya arasında hökumətlərarası komissiya yaradılıb. Düşünürəm ki, əməkdaş-

lığımızın daha da yüksək səviyyəyə qaldırılması üçün səylərimizi bundan sonra da davam etdirməliyik.

İnanıram ki, səfəriniz zamanı ikitərəfli münasibətlər ətrafında Sizinlə apardığımız səmərəli danışıqlar, əldə olunan razılaşmalar və keçirilən biznes-forum əlaqələrimizin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

Azərbaycan ilə Latviya arasında əlaqələrin tarixi kökləri vardır. XX əsrin əvvəllərində Bakıda «Latış» cəmiyyəti fəaliyyət göstərirdi. Cəmiyyətin 100-ə yaxın tanınmış üzvü var idi. Latviyanın məşhur yazıçıları Ernest Birznieks–Upitis, Pavils Rozitis, Yanis Vainovskis, Auqusts Bertse, rəssam və yazıçı Yanis Yaunsudrabinş, diplomat Antons Balodis, Bakı Opera Teatrının dirijoru, dahi latış bəstəkarı Yazeps Medinş, memar Ervins Paumbats və başqaları bu cəmiyyətdə təmsil olunurdular. 2013-cü ilin mart ayında Bakıda cəmiyyətin fəaliyyətinin yenidən bərpa edilməsini həmin ənənənin davamı kimi yüksək qiymətləndiririk.

Azərbaycan Latviya ilə beynəlxalq və regional təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq edir. Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avroatlantik strukturlarla münasibətlər mühüm yer tutur. Avropa İttifaqının və NATO-nun üzvü olan Latviya Azərbaycanın bu təşkilatlarla əməkdaşlığına önəm verən ölkələrdən biridir. «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində qarşılıqlı fəaliyyətimiz də faydalıdır. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biridir. Azərbaycan bu istiqamətdə etibarlı tərəfdaş olduğunu nümayiş etdirıb. Regionun əsas iqtisadi mərkəzinə çevrilmiş Azərbaycan Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunması üçün bundan sonra da öz töhfəsini verməyə hazırdır.

Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin, inkişafın və əməkdaşlığın tərəfdarıdır. Lakin regionun ən ağrılı problemi – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirilmiş və bütün

insan hüquqları kobudcasına pozulmaqla 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq normalara uyğun ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Parlamenti, Avropa Şurası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Hörmətli cənab Prezident, Sizi Bakıda qəbul etməyimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim rifah arzulayıram.

## Latviya prezidenti Andris Berzinşin çıxışı

Çox hörmətli cənab Prezident, Zati-aliləri!

Xanımlar və cənablar!

Latviya ilə olduqca sıx dostluq əlaqələri olan Azərbaycanda qonaq olmağım məni həqiqətən də çox sevindirir. Latviya nümayəndə heyətinə möhtəşəm ölkənizdə göstərdiyiniz istiqanlılıq və qonaqpərvərliyə görə dərin təşəkkürümü bildirirəm.

Qarşıdakı ilin ilk aylarında Latviya–Azərbaycan diplomatik münasibətlərinin qurulmasının 20 illiyini qeyd edəcəyik. Arxaya dönüb baxsaq, bu illər ərzində yalnız prezidentlər səviyyəsində deyil, eləcə də müxtəlif sahələrin nümayəndələri və sahibkarlar arasında səmərəli görüşlərin keçirildiyinin məmnunluqla şahidi olarıq. Bu cür görüşlərin keçirilməsi Latviya tərəfinin Azərbaycan ilə əməkdaşlığı yüksək qiymətləndirməsinə bariz sübutdur. Ümidvar olduğumu bildirirəm ki, Latviya nümayəndə heyətinin tərkibinə daxil olan xarici işlər, nəqliyyat, səhiyyə, kənd təsərrüfatı nazirləri, eləcə də digər nazirliklərin nümayəndələri öz azərbaycanlı həmkarları ilə danışıqlarda institusional bazanın təkmilləşdirilməsi və

gələcəkdə konkret layihələrin həyata keçirilməsinə nail olacaqlar. Biz eyni zamanda, sahibkarlarımızın fəaliyyətlərinin intensivləşməsinə böyük ümidlə baxırıq.

Bu yaxınlardakı böhranı, həmçinin dünya iqtisadi məkanında şəraitin dəyişməsini nəzərə alaraq sahibkarlıq fəaliyyətinin və investisiya mühitinin yaxşılaşdırılması, eləcə də ixrac bazarının şaxələndirilməsi Latviyanın qarşısında duran prioritet məsələdir. Səfər zamanı məni geniş tərkibdə sahibkarlar heyətinin müşayiət etməsi və Latviya–Azərbaycan biznes-forumunun keçirilməsi bunu bir daha təsdiq edir. Əminəm ki, şəxsi görüşlər, konkret təkliflər və yeni ideyaların doğulması ikitərəfli investisiyaların cəlb olunmasına və iqtisadi əməkdaşlıq sahəsinin genişlənməsinə imkan yaradır. Hər iki ölkənin coğrafi mövqeyi nəqliyyat, logistika sahəsində, xüsusilə aviasiya münasibətlərindəki inkişaf artıq ciddi əməkdaşlığın olduğunu göstərir. Fürsətdən istifadə edərək diqqətinizi artıq yaxın zamanda ticarət dəhlizinin də yaradılacağına çəkmək istərdim. Bundan başqa, informasiya texnologiyaları, kənd təsərrüfatı, ərzaq məhsullarının istehsalı və digər sahələrdə hər iki ölkə üçün faydalı olacaq ikitərəfli layihələrin yaradılacağına ümid edirəm.

Cənab Prezident, Azərbaycan regional sabitliyin təmin olunmasında əhəmiyyətli rol oynayır. Latviya Avropa İttifaqının və NATO-nun üzvü kimi, Azərbaycanın bu təşkilatlarla əməkdaşlığını yüksək qiymətləndirir. Bizim ümumi tarixi təcrübəmiz, Latviyanın islahatlar yolu, Azərbaycanın geosiyasi təcrübəsi əlaqələrimizin daha geniş formatda inkişafına şərait yaradır. Lakin uğurlu ikitərəfli əməkdaşlığın təməlində nəinki siyasi dialoq və iqtisadi mənfəət durur, eyni zamanda, xalqlarımızın bir-birinə rəğbəti və marağı xüsusi yer tutur. Ona görə də ali məktəblər arasındakı əməkdaşlıq, tələbə mübadiləsi proqramlarının inkişaf göstəriciləri olduqca fərəhləndiricidir. Bütün bunlar təhsilin səviyyəsinin artmasına, mədəniyyətlərarası anlaşmanın inkişafına gətirir ki, bu da öz

növbəsində əməkdaşlıq layihələrinin gələcəkdə də həyata keçirilməsinə zəmin yaradır.

Mən yenidən bərpa olunmuş «Bakı Latış» cəmiyyətini salamlamaqdan qürur duyuram. Cəmiyyətə dinamik inkişaf arzu edərdim. İstərdim ki, bu cəmiyyət XX yüzilliyin əvvəlində 100-dən çox fəal latışın bir araya gəlməsi tarixindən ilham alsın. Eləcə də Latviyada 2 mindən çox azərbaycanlı yaşayır ki, onların xalq təsərrüfatı və mədəniyyət sahəsindəki əməyi ölkəmizdə yüksək qiymətləndirilir. Azərbaycanlılar da Latviyanı özünə yaşayış məskəni seçən digər insanlar kimi, dövlət və insanların həyatı üçün vahid məsələləri müzakirə etdiyimiz milli azlıqlar üzrə Şuranı layiqincə təmsil edirlər.

Çıxışımın sonunda Sizin hamınızı, Latviyanın paytaxtının «Avropanın mədəniyyət paytaxtı» titulu qazanacağı 2014-cü ildə Riqaya dəvət edirəm. Bütün ilboyu əyləncəli mədəni tədbirlər keçiriləcəkdir. Ən əsası xarici qonaqlarımızın qayğısına qalacağıq. Çox sağ olun.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*24 aprel 2013-cü il*

*Latviya Respublikasının Prezidenti Andris Berzinş aprelin 24-də Heydər Əliyev Fondu ilə tanış olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ali qonağa xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.*

*Bildirildi ki, Fond ulu öndərin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək edir.*

*Latviya prezidenti ümummilli lider Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldu.*

*Fondla tanışlıq zamanı prezident Andris Berzinşə məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.*

*Latviya dövlətinin başçısı Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Ali qonağa Heydər Əliyev Fondunun xatirə hədiyyəsi təqdim edildi.*

*Prezident Andris Berzinş Fonddan zəngin təəssüratla ayrıldı.*

# RUMINİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ TİTUS KORLATEANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Rumıniya Respublikasının Xarici İşlər naziri Titus Korlateanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Əməkdaşlığımızın daha da genişləndirilməsi üçün möhkəm hüquqi bazanın mövcud olduğunu, ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında imzalanmış sənədin önəmini xüsusi vurğulayan dövlətimizin başçısı ölkələrimiz və xalqlarımız arasında münasibətlərin əsl dostluq və strateji tərəfdaşlıq münasibətləri olduğunu bildirdi. Prezident İlham Əliyev Rumıniyanın Xarici İşlər naziri Titus Korlateanın Azərbaycana bu səfərinin ikitərəfli və regional əməkdaşlığın perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.*

*Titus Korlatea Rumıniya prezidenti Trayan Baseskunun və Baş nazir Viktor Pontanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin Azərbaycan ilə ikitərəfli əməkdaşlığı bütün sahələrdə genişləndirməkdə maraqlı olduğunu dedi.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin iqtisadi, enerji, Avropa İttifaqı çərçivəsində əməkdaşlıq və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Trayan Baseskunun və Baş nazir Viktor Pontanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rumıniyanın prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.*

*Ekmələddin İhsanoğlu ölkəmizə hər gəlişi zamanı böyük inkişaf prosesinin şahidi olduğunu dedi. O, Azərbaycanın təşkilatçılığı ilə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin əmək nazirliklərinin yüksək səviyyəli rəsmilərinin iclasının Bakıda keçirilməsini əməkdaşlığımızın yaxşı nümunəsi kimi dəyərləndirdi. Baş katib təşkilata üzv olan ölkələr arasında əməkdaşlığın inkişaf etdirilməsində Azərbaycanın rolunu xüsusi qeyd etdi.*

*Azərbaycanda gedən sürətli inkişaf proseslərinə toxunan dövlətimizin başçısı bu baxımdan son illərdə Bakıya və respublikanın digər regionlarına sərmayə qoyuluşunun artmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev qeyri-neft sektorunda əldə edilən nailiyyətlərin əhəmiyyətini xüsusi vurğuladı. Dövlətimizin başçısı İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin əmək nazirliklərinin yüksək səviyyəli rəsmilərinin iclasının Bakıda keçirilməsini təşkilata üzv olan dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Görüşdə Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın bütün istiqamətlərdə uğurlu inkişafından məmnunluq ifadə olundu, Azərbaycanın bu təşkilatın bütün strukturlarında fəal əməkdaşlıq etməsinin əhəmiyyəti qeyd edildi, bu əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI ƏMƏK NAZİRLƏRİNİN BAKIDA KEÇİRİLƏN KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də İslam Əməkdaşlıq Təşkilatı əmək nazirlərinin Bakıda keçirilən konfransının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli qonaqlar, nümayəndə heyətlərinin rəhbərləri!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Xoş gəlmisiniz! İslam Əməkdaşlıq Təşkilatının konfransında iştirak etmək üçün Azərbaycana gəlmiş bütün qonaqları salamlayıram. Çox şadam ki, İslam Əməkdaşlıq Təşkilatının əmək nazirlərinin konfransı Bakıda keçirilir. Əminəm ki, konfransın çox yaxşı nəticələri olacaqdır. Onu da qeyd etmək istəyirəm ki, son bir neçə il ərzində bu, İslam Əməkdaşlıq Təşkilatının nazirlər səviyyəsində Bakıda keçirilmiş beşinci konfransıdır. Bundan əvvəl xarici işlər, təhsil, mədəniyyət, turizm nazirlərinin konfransları da Azərbaycanda keçirilmişdir. Bu özlüyündə bir göstəricidir və onu göstərir ki, Azərbaycan nəinki İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür, eyni zamanda, təşkilatın xətti ilə Azərbaycanda çox mötəbər tədbirlər keçirilir. Onu da qeyd etmək istəyirəm ki, 2009-cu ildə Bakı şəhəri «İslam mədəniyyətinin paytaxtı» elan edilib. Bu çox böyük hörmətin əlaməti idi. Bu şərəfli adı Bakı şəhəri uğurla daşıyır.

Müzakirə olunan məsələlər hər bir ölkə, o cümlədən Azərbaycan üçün çox böyük əhəmiyyət daşıyır. Bilirəm ki, mövzulardan biri işsizliyin aradan qaldırılmasıdır, yoxsulluğun azaldılmasıdır. Bu məsələlər bir-biri ilə sıx bağlıdır. Deyə bilərəm ki,

Azərbaycanda son illər ərzində bu məsələlərin həllində böyük işlər görülüb. Son 10 ildə bizim ən böyük uğurlarımızdan biri də ondan ibarətdir ki, yoxsulluğun səviyyəsi 50 faizdən 6 faizə, işsizliyin səviyyəsi isə 5,2 faizə düşüb.

Bu onu göstərir ki, son illər ərzində Azərbaycanda yaşanan tərəqqi və inkişaf insanların rifah halının yaxşılaşmasına bilavasitə öz müsbət təsirini göstərmişdir. Azərbaycanda sosial sahədə infrastruktur məsələlərinin həllində böyük layihələr icra edilir. Bu layihələrin icrası, əlbəttə ki, müsbət nəticələrə gətirib çıxarır və gələcək planlarımız da çox aydındır, açıqdır. Əminəm ki, Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil ediləcəkdir. Buna nail olmaq üçün bütün imkanlar vardır.

Qeyd etdiyim kimi, biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Hesab edirəm ki, İslam Əməkdaşlıq Təşkilatının Bakıda Əmək Mərkəzinin yaradılması da məqsədəmüvafiq ola bilər. Son illər ərzində Azərbaycanda işsizliyin aradan qaldırılması istiqamətində aparılan islahatlar və qazanılan təcrübə hesab edirəm ki, maraqlı ola bilər. İslam Əməkdaşlıq Təşkilatının Bakıda bir qurumunun yaradılması da bizim birliyimizi daha da möhkəmləndirə bilər.

Bütövlükdə deyə bilərəm ki, Azərbaycan islam həmrəy-liyinin inkişafı üçün öz rolunu oynayır. Azərbaycan 2011-ci ildə böyük səs çoxluğu ilə dünyanın ən ali qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir və islam ölkələrinin dəstəyi xüsusi məna daşıyır. Biz tam əmin idik ki, bu dəstəyi qardaş ölkələrdən alacağıq və aldıq. Hazırda ikinci ildir nəinki özümüzü, hesab edirik ki, bütün müsəlman aləmini də BMT Təhlükəsizlik Şurasında təmsil edirik. Digər müxtəlif addımlar atılmışdır. Hesab edirəm ki, bu addımların islam aləminin birləşməsinə böyük töhfəsi olmuşdur. Biz bundan sonra da bu dəstəyi göstərəcəyik.

Bizim haqq işimizi dəstəkləyən bütün müsəlman ölkələrinə öz minnətdarlığımı bildirmək istəyirəm. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində müsəlman ölkələrinin

mütləq əksəriyyəti bizim yanımızdadır, bizi fəal dəstəkləyir, haqq-ədaləti dəstəkləyir. Hələ ki erməni işğalından əziyyət çəkən soydaşlarımız kifayət qədər çoxdur. Ermənistan Azərbaycana qarşı etnik təmizləmə siyasəti aparıb. Azərbaycanlılar öz tarixi dədə-baba torpaqlarından didərgin salınıb. Bizim bütün tarixi abidələrimiz, dini abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıb. Bu vəhşiliyi təsdiqləyən kifayət qədər faktlar, sənədlər, videosənədlər, fotoşəkillər vardır. Ermənilər azərbaycanlılara qarşı soyqırımı törətmişlər. 1992-ci ilin fevral ayında Xocalı soyqırımı törədilmişdir və 613 nəfər – onlardan 100-dən çoxu qadın, 63-ü uşaqdır – ermənilərin bizə qarşı törətdikləri soyqırımının qurbanı olmuşdur. Bu, misli görünməmiş vəhşilik idi, bu, erməni faşizminin təzahürü idi.

Beynəlxalq hüquq bizim mövqemizi dəstəkləyir. BMT Təhlükəsizlik Şurası erməni silahlı birləşmələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnamə qəbul etmişdir. Ancaq əfsuslar olsun ki, bu qətnamələr icra edilmir. İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, digər təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı qərarlar, qətnamələr qəbul etmişlər. Ancaq hələ ki, bu məsələ öz həllini tapmır. Torpaqlarımızın 20 faizi işğal altındadır və 1 milyondan artıq azərbaycanlı bu işğaldan bu gün də əziyyət çəkir.

Mən bütün qardaş ölkələrə bizə göstərilən dəstəyə görə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Əziz qonaqlar, konfransın işinə uğurlar arzulayıram. Xahiş edirəm ki, mənim salamlarımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

*Səudiyyə Ərəbistanının Əmək nazirinin müavini Mofarrej əl-Hoqubani Azərbaycanda yüksək inkişafın şahidi olduğunu deyərək ölkəmizdə gördüklərinin digər dövlətlər üçün nümunə olduğunu diqqətə çatdırdı. O, İslam Əməkdaşlıq Təşkilatı əmək nazirlərinin Bakıda keçirilən konfransının əməkdaşlıq baxımından vacib olduğunu deyərək bu tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə nazirlər adından prezident İlham Əliyevə təşəkkür etdi.*

**M o f a r r e j  ə l - H o q u b a n i:** Hörmətli cənab Prezident, İslam Əməkdaşlıq Təşkilatının əmək nazirlərinin II iclasında iştirak edən həmkarlarım adından Sizə və Azərbaycan tərəfinə bu konfransın yüksək səviyyədə təşkilinə görə minnətdarlığımızı bildirirəm. Bu gözəl ölkənizdə bizi qəbul etdiyinizə və mehriban qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Azərbaycan Asiyanın və Qafqazın mirvarisidir və Sizin ölkənizdə bütün sahələrdə əldə olunmuş nailiyyətlər digər ölkələr üçün nümunədir. Əlbəttə ki, əldə olunmuş bütün bu nailiyyətlərdə Sizin, Zati-alinizin böyük rolu, böyük əməyi vardır. Biz Azərbaycanda olduğumuz müddətdə özümüzü ölkəmizdəki kimi hiss edirik.

Mən Azərbaycan xalqına da dərin təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan xalqı çox tolerant xalqdır, tolerantlığın nümunəsidir. Biz burada özümüzü dostlarımız, qardaşlarımızın arasındakı kimi hiss edirik. Bir daha bu gözəl təşkilatçılığa görə Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Bir daha Səudiyyə Ərəbistanı Krallığı və bütün islam ölkələri adından bildirmək istəyirəm ki, biz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycana dəstəyimizi heç zaman əsirgəməyəcəyik, həmişə Azərbaycanı dəstəkləyəcəyik.Mən Səudiyyə rəsmiləri adından, Səudiyyə kralı adından da Sizə salamları çatdırmaqdan şərəf duyuram.

Çox sağ olun.

*Sonra Türkiyənin Əmək və Sosial Müdafiə naziri Faruk Çəlik çıxış etdi. O bu konfransın əməkdaşlıq əlaqələrini daha da genişləndirəcəyini dedi. Bildirdi ki, konfransın müzakirə etdiyi işsizlik və yoxsulluğun aradan qaldırılması mövzuları hazırda dünyanı narahat edən məsələlər sırasındadır. Azərbaycanda isə bu sahədə həyata keçirilən uğurlu tədbirlər məmnunluq doğurur. Faruk Çəlik ölkəmizdə gedən inkişafın onda böyük təəssürat yaratdığını diqqətə çatdırdi.*

**F a r u k  Ç ə l i k:** Əvvəlcə hörmətli prezidentimiz Abdullah Gülün və Baş nazirimiz Rəcəb Tayyib Ərdoğanın salamlarını çatdırmağı özümə borc bilirəm. İslam Əməkdaşlıq

Təşkilatının əmək nazirləri olaraq ikinci dəfə Bakıda bir araya gəlmişik. Bu gözəl ev sahibliyi üçün bütün yoldaşlar adından çox təşəkkür edirəm.

Təbii, iş həyatı özündə bütün dünyanı maraqlandıran məsələləri ehtiva etməkdədir. Hər hansı bir ölkənin işsizlik və iş həyatının digər sahələri kimi məsələlərə biganə qalmasından söhbət belə, gedə bilməz. Meydana gələcək mənfi hallar bütün dünya dövlətlərini də maraqlandırır. Bu mənada «G-20» ölkələrinin nəzdində əmək nazirləri olaraq bir araya gəlirik. İslam ölkələri olaraq – Sizin də ifadə etdiyiniz kimi – qardaş ölkələr olaraq əmək və digər nazirlərin bir araya gəlməsi baxımından bu gözəl toplantı formalaşdırılmışdır. Təbii ki, bu konfransın və onun nəticələrinin, Bakıda qəbul ediləcək qərarların yolumuzu daha da aydınladacağına inanıram.

Sözlərimi bitirmədən əvvəl bunu da demək istəyirəm ki, cənab Prezident, mən Bakıya çox tez-tez gəlirəm, 6 ay əvvəl də burada idim. Bakıdakı, eləcə də Azərbaycandakı müsbət dəyişikliyin, inkişafın həqiqətən, çox yaxından şahidiyəm. Bu inkişafı yaxından görmək imkanımız vardır və bundan böyük məmnunluq duyduğumuzu ifadə etmək istəyirəm. Digər nazir yoldaşlarımızın Bakıya tez-tez gəldiklərini bilmirəm, amma mən bu dəyişikliyi çox qısa müddətdə hərtərəfli və dinamik şəkildə gördüyümü bildirmək istəyirəm. Bunu təbii ki, Sizin uğurlu rəhbərliyinizin nəticəsi olaraq gördüyümüzü ifadə etməliyik. Təbii ki, hər ölkənin, hər islam ölkəsinin problemləri vardır. Bu problemlərimizdə kədərlərimizi bir-birimizin kədəri, sevinclərimizi də bir-birimizin sevinci olaraq görürük və bu anlayışla fəaliyyət göstəririk. Sizi üzən şeylərin bizi də üzdüyünü, sizi sevindirən bütün məsələlərin bizi də sevindirdiyini və kədərlərinizi bölüşməyə hazır olduğumuzu bildirmək istəyirəm. Bu yüksək qəbulunuza görə bir daha Sizə çox təşəkkür edir, hörmətimi bildirirəm.

*Ölkəmizə səfərindən məmnun olduğunu deyən Küveyt dövlətinin Əmək və Sosial Məsələlər naziri Zikra əl-Rəşidi Azərbaycanda gedən inkişafın onda da böyük təəssürat yaratdığını*

*dedi. Nazir bildirdi ki, son illərdə Azərbaycan yüksək templərlə inkişaf edir və təbii ki, bu da dost Küveyt dövləti tərəfindən məmnunluqla qarşılanır. Zikra əl-Rəşidi son illərdə ölkəmizin beynəlxalq miqyasda əldə etdiyi uğurlara görə prezident İlham Əliyevi təbrik etdi.*

**Zikra əl-Rəşidi:** Möhtərəm cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Əlbəttə ki, biz, şəxsən mən Azərbaycana səfər etməyimdən çox məmnunam. Azərbaycandakı gözəllik və ölkənizin inkişafı, yüksək qonaqpərvərlik bizi valeh etdi. Azərbaycanda bütün sahələrdə əldə olunmuş inkişafdan çox məmnun olduq. Bu bizi çox sevindirir.

Küveyt Dövlətinin Əmiri başda olmaqla biz də Azərbaycan-da keçirilən tədbirdə iştiraka çox böyük əhəmiyyət veririk və ona görə də bu gün bu tədbirdə yüksək səviyyədə iştirak edirik. Küveyt Dövləti olaraq bir daha qeyd etmək istərdim ki, biz Azərbaycanı bütün sahələrdə həmişə dəstəkləmişik və dəstəkləyəcəyik. O ki qaldı Azərbaycana, əlbəttə, Azərbaycan bir çox beynəlxalq təşkilatların fəal üzvüdür və islam ölkələrinin üzləşdiyi problemlərin həllində çox böyük rola malikdir.

Cənab Prezident, mən ölkənizdə əldə olunmuş nailiyyətlərə görə bir daha Sizi təbrik edirəm. Bu Sizin sayənizdə əldə olunub. Çox sağ olun, cənab Prezident!

*Fələstinin Əmək naziri Əhməd Məcdalani çıxışında Bakıda keçirilən konfransın mövzuların aktuallığı baxımından diqqəti cəlb etdiyini bildirdi. Qeyd etdi ki, bu tədbir islam ölkələrində işsizliyin aradan qaldırılmasında və bu sahədə səylərin birləş-dirilməsində mühüm rol oynayacaqdır. Əhməd Məcdalani ölkə-mizdə iqtisadi inkişaf baxımından qazanılan uğurların prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət nəticəsində əldə olunduğunu vurğuladı. Fələstinə verdiyi dəstəyə görə Azərbaycan xalqına təşəkkür etdi.*

**Əhməd Məcdalani:** Möhtərəm cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə çox böyük minnətdarlığımızı

bildiririk. İlk növbədə qardaşınız, Fələstin prezidenti Mahmud Abbasın salamlarını Sizə çatdırmaqdan şərəf duyuram və Fələstinin Baş nazirinin də salamlarını Sizə çatdırıram. Onların minnətdarlığını Sizə çatdırmaq istəyirəm ki, Azərbaycan hər zaman Fələstin xalqının yanında olmuşdur və hər zaman Fələstin xalqını dəstəkləyir. Əlbəttə ki, keçən ilin noyabr ayında BMT Təhlükəsizlik Şurasında keçirilmiş səsvermədə bizə göstərdiyiniz dəstəyə görə Sizə öz minnətdarlığımızı bildiririk.

İyun ayında donor ölkələrin konfransı da Azərbaycanda keçiriləcəkdir. Bu da çox mühüm bir konfransdır. Bu konfransın təşkilinə görə Azərbaycan tərəfinə öncədən minnətdarlığımızı bildirmək istəyirik. Yaxın günlərdə Azərbaycan Respublikasının Xarici İşlər naziri Fələstində səfərdə olmuşdur. Bu səfər zamanı iki ölkə arasında siyasi məsləhətləşmələr aparılmışdır. İki ölkə arasında qardaşlıq və dostluq münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub. Fürsətdən istifadə edərək mən ölkənizdə həm iqtisadi, həm ictimai sahələrdə əldə olunmuş bütün nailiyyətlərə, uğurlara görə Sizi təbrik etmək istəyirəm. Bunlar hamısı Sizin sayənizdə əldə olunmuş nailiyyətlərdir.

Hazırda keçirilən islam ölkələrinin əmək nazirlərinin II iclası böyük əhəmiyyət kəsb edir. İslam ölkələrində işsizliyin aradan qaldırılması eyni zamanda, bir çox digər problemlərin həllində böyük əhəmiyyət kəsb edir. Biz hesab edirik ki, bəzi ölkələr tərəfindən həyata keçirilən ikili standartlar hər zaman qınanmalıdır. Bu baxımdan mən qeyd etmək istəyirəm ki, Azərbaycan da bir çox hallarda ikili standartlarla üzləşir və Azərbaycanın da torpaqları işğala məruz qalıbdır. Biz bu problemin də tezliklə həll olunmasını arzu edirik. Bir daha Sizə təşəkkürümü bildirirəm.

**İlham Əliyev:** Çox sağ olun. İlk növbədə, Azərbaycan haqqında, Azərbaycanda gedən işlər haqqında dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Əminəm ki, Bakı ilə yaxından tanış olmaq üçün sizin imkanınız olacaqdır. Onu da qeyd etməliyəm ki, sizin çıxışlarınızda səslənən fikirlər bizim təşkilatımızı daha da sıx birləşdirəcəkdir. Çünki təşkilatımızın təməlində islam aləminin birləşməsi, sıx əməkdaşlıq dayanır.

Əlbəttə ki, qarşılıqlı siyasi dəstək ön planda olmalıdır. Azərbaycan əlindən gələni əsirgəmir ki, bütün müsəlman ölkələri arasında əməkdaşlıq ən yüksək səviyyədə qurulsun. Ölkəmiz bu işə öz tərəfindən töhfəsini verməyə davam edəcəkdir. Aramızda olan birliyi möhkəmləndirmək üçün iqtisadi əlaqələr də daha fəal olmalıdır. Bu məsələlərin həllində müvafiq qurumlar, nazirliklər, müştərək birgə komissiyalar öz rolunu oynayır. Əlbəttə, nazirlər səviyyəsində yaradılan təmaslar, əməkdaşlıq, işbirliyi bizim gücümüzü artıracaqdır.

İqtisadi əməkdaşlığa gəldikdə, burada investisiya layihələrinin həyata keçirilməsi nəzərdə tutula bilər. Təcrübə mübadiləsi, ticarət dövriyyəsinin artırılması da hesab edirəm ki, birliyimizi daha da möhkəmləndirəcəkdir. Biz bu birliyi müxtəlif amillərlə möhkəmləndirməliyik. Qeyd etdiyim kimi, siyasi dəstək ön planda olmalıdır. Biz beynəlxalq təşkilatlarda bir-birimizin mövqeyini daim dəstəkləməliyik. İkili standartlara qarşı birgə mövqemizi ortaya qoymalıyıq. Biz iqtisadi əməkdaşlığı dərinləşdirməklə ölkələrimizdə mövcud olan problemləri – işsizliyi, yoxsulluğu daha asanlıqla həll edə bilərik. Yəni qarşılıqlı dəstək bu deməkdir – həm siyasi, həm iqtisadi dəstək. Eyni zamanda, hesab edirəm ki, hər birimiz üçün çox ağrılı problem bəzi ölkələrdə artan islamofobiya meyilləridir, islama qarşı mənfi münasibətin formalaşdırılmasıdır. Tam əminliklə deyə bilərəm ki, bu münasibət qəsdən formalaşdırılır. İslam ölkələrini mənfi şəkildə təqdim etmək üçün böyük kampaniyalar aparılır. Biz də öz tərəfimizdən ilk növbədə, bu kampaniyaya tutarlı cavabımızı verməliyik.

Son illər ərzində İslam Əməkdaşlıq Təşkilatı dünya miqyasında çox böyük nüfuza malik olan təşkilata çevrilib. Müsəlman ölkələrində təhsil, səhiyyə, sosial məsələlər daha da sürətlə həll edilməlidir. Burada iqtisadi əməkdaşlıq ön plandadır. Çünki bu əməkdaşlıq hesabına ölkələrimiz daha da böyük uğurlara nail ola bilərlər.

Bir daha sizi ürəkdən salamlayıram və sizə ən xoş arzularımı çatdırıram.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Moskva ətrafında psixonevroloji klinikada yanğın nəticəsində insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirmişdir.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 aprel 2013-cü il*

## GÖRKƏMLİ OFTALMOLOQ-ALİM, AKADEMİK ZƏRİFƏ XANIM ƏLİYEVANIN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*Azərbaycan Dövlət Musiqili Teatrı*

*27 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Azərbaycan Dövlət Musiqili Teatrında görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı yubiley mərasimində nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün yubiley tədbirində iştirak etmək üçün Azərbaycana gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Zərifə xanım Əliyeva böyük həkim, böyük alim idi. Onun 90 illik yubileyini dövlət səviyyəsində qeyd etmək üçün mən prezident kimi, müvafiq sərəncam imzalamışdım. Sərəncam əsasında müxtəlif tədbirlər keçirilib. Bu tədbirlərin çox böyük mənası var idi. Çünki bu tədbirlərdə, elmi simpoziumlarda oftalmologiya elmində gedən proseslər bir daha təhlil edilmiş, çox dəyərli fikirlər səslənmiş və bu tədbirlər oftalmologiya sənətinə, oftalmologiya elminə yeni bir töhfə olmuşdur.

Zərifə xanım sözün əsl mənasında, böyük həkim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini verib, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərib.

İnsanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən, insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir.

Alim kimi, Zərifə xanım çox böyük zirvələrə çata bilib. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir. Bir alim kimi, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilib, Sovet İttifaqının oftalmologiya elmində ən yüksək mükafat olan Averbax mükafatına layiq görülüb.

Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda, çox xeyirxah insan idi və hər bir həkimdə bu iki amil birləşməlidir. Çünki həkim peşəkar olmalıdır, insanlara xidmət etməlidir. Eyni zamanda, həkim xeyirxah insan olmalıdır. Zərifə xanımın bu məsələlərlə də bağlı fikirləri, məqalələri var idi. Həkimin etik davranışı ilə bağlı onun çox dəyərli fikirləri olub. Hesab edirəm ki, bu fikirlər bu gün də hər bir həkim üçün əsas olmalıdır.

Zərifə xanım böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər bizi də tərbiyə edirdi. Yəni ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Keçən əsrin 70-ci illərində – Heydər Əliyev Azərbaycanda Birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının, əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – Birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi.

Bir daha demək istəyirəm ki, heç vaxt heç bir sözü, addımı ilə göstərmirdi ki, onun cəmiyyətdə hansısa xüsusi statusu vardır və bu da təbiidir, əslində belə də olmalıdır. Ancaq biz bilirik ki, bir çox hallarda belə deyil və müəyyən statusa malik

olan insanlar, yaxud da ki, onların yaxınları özləri üçün xüsusi imtiyazlar tələb edirlər. Zərifə xanımın bu sahədəki hərəkətləri, davranışı da nümunə olmalıdır. Zərifə xanım çox yüksək mədəniyyətə malik olan, çox istedadlı, bilikli insan idi. Nəinki öz peşəsində, hərtərəfli istedadlı bir insan idi və bəziləri üçün o, necə deyərlər, son ümid yeri, ümid ünvanı idi. Hətta tanımadığı adamlar belə, müxtəlif xahişlərlə, müxtəlif şikayətlərlə onun iş yerinə gəlirdilər. O çalışırdı ki, hər kəsə kömək etsin. Tanımadığı adamların xahişlərini gəlib atama çatdırırdı və o məsələlərin böyük əksəriyyəti öz həllini tapırdı. Yəni daim insanlara xidmət etmək, kömək göstərmək arzuları, amalları ilə yaşayırdı.

Əlbəttə, onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır. Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, yüksək mədəniyyət, alicənablıq – bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onları təcəssüm etdirirdi.

Bununla bərabər, çox istedadlı insan idi, hərtərəfli istedadlı idi, musiqini çox sevirdi, istənilən melodiyanı, istənilən mahnını notlarsız çox böyük məharətlə, ustalıqla pianoda ifa edə bilirdi. Teatrı çox sevirdi və yadımdadır ki, ötən əsrin 70-ci illərində onunla bərabər dəfələrlə Azərbaycan teatrlarında olmuşam, bütün tamaşalara baxmışam. Elə tamaşalar var idi ki, biz o tamaşalara bir neçə dəfə bir yerdə baxardıq.

Bu teatrı da çox sevirdi. O vaxt bu teatrın adı Musiqili Komediya Teatrı idi və demək olar ki, hər həftə bu teatra gəlirdik. Elə bir tamaşa yox idi ki, biz onu görməyək. Elə tamaşalar da var idi ki, o tamaşaları bir neçə dəfə seyr edirdik. Bəlkə də bu gün Zərifə xanımın yubileyinin məhz bu teatrda, yenidən əsaslı təmirdən çıxmış teatrda keçirilməsi də rəmzi xarakter daşıyır.

Hər bir insan üçün onun valideynləri, onun anası əzizdir, müqəddəsdir. Bu da təbiidir. Hər bir insan doğmalarını öz qəlbində yaşadır. Zərifə xanımın adı əbədiləşdirilib, onun adına

küçə vardır, yaşadığı küçə onun adını daşıyır. Onun böyük töhfəsi olan Oftalmologiya Mərkəzi onun adını daşıyır və Mərkəzlə üzbəüz onun abidəsi ucaldılıbdır. Əlbəttə ki, onun xatirəsi, onun obrazı onu tanıyanların qəlbində yaşayır. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur. Ancaq əfsuslar olsun ki, biz onu tez itirdik. Vaxtından əvvəl həyatdan getdi, hələ çox iş görə bilərdi.

Ancaq həyat belədir ki, heç kim deyə bilməz nə vaxt nə baş verəcəkdir. Biz bu gün yubiley tədbirlərini keçirməklə bərabər, ölkəmizdə səhiyyə sahəsində aparılan işlərə bir daha nəzər salırıq. Xüsusilə nəzərə almalıyıq ki, bu gün bizim qonaqlarımızın arasında görkəmli alimlər, həkimlər iştirak edirlər. Son illər ərzində Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi üçün böyük işlər görülmüşdür, islahatlar aparılmışdır. Səhiyyənin maddi-texniki bazası böyük dərəcədə möhkəmləndirilib. Təkcə onu demək kifayətdir ki, son 10 ildə Azərbaycanda 500-dən çox tibb müəssisəsi tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir. Həm Bakıda, həm bütün bölgələrdə indi lazımi tibb xidməti almaq üçün bütün şərait vardır. Bakıda bizim, demək olar ki, bütün əsas tibb ocaqları ya yenidən tikilmiş, ya da orada təmir-bərpa işləri aparılmışdır.

Oftalmologiya Mərkəzi yenidən tikilib və artıq dünya miqyaslı bir mərkəzdir. Onkologiya Mərkəzinin yeni korpusları da tikilmişdir. Uroloji xəstəxana yenidən qurulmuşdur – neyrocərrahiyyə, cərrahiyyə mərkəzləri, Perinatal Mərkəz, Talassemiya Mərkəzi, keçmiş «Semaşko» xəstəxanası, indi Kliniki Xəstəxana adlandırılır. Mərkəzi Kliniki Xəstəxana yenidən bərpa edilmişdir. Bu xəstəxananın yeni böyük korpusu tikilməkdədir. Uşaq xəstəxanaları əsaslı şəkildə təmir olunubdur. Bakıda son illər ərzində görülmüş işlər səhiyyənin maddi-texniki bazasını xeyli gücləndirib. Hazırda tikilməkdə olan Bakı Sağlamlıq Mərkəzi bir neçə böyük xəstəxananı birləşdirəcəkdir. Biz ilin sonuna qədər Bakı Sağlamlıq Mərkəzinin açılışını qeyd edəcəyik.

Bölgələrdə səhiyyə müəssisələrinin yaradılması, tikilməsi prosesi gedir. Hər bir şəhərdə ya diaqnostika mərkəzi, ya mərkəzi rayon xəstəxanası tikilib, yaxud da ki, təmir edilibdir. Hazırda 7 şəhərdə təmir işləri gedir. Qarşıya vəzifə qoyulmuşdur ki, biz 1-2 il ərzində Azərbaycanda hər bir yaşayış məntəqəsində, hər bir şəhərdə, hər bir rayonda ən yüksək tibbi xidmətə nail olmalıyıq. Azərbaycana ən müasir avadanlıq gətirilir. Dövlət öz tərəfindən lazımi işləri görür. Təkcə onu demək kifayətdir ki, son 10 il ərzində səhiyyə xərclərinə ayrılan vəsait 11 dəfə artıb. Həkimlərin maaşı 6 dəfə artıb. Halbuki bu gün də o maaşların səviyyəsi bizi qane edə bilməz. Bu məsələlərin gələcəkdə daha da səmərəli şəkildə həlli üçün indi hökumət işləyir. Maaşlar daim qaldırılacaqdır. Ancaq biz bu dinamikanı görürük. Çox müsbət dinamikadır. Azərbaycanın ümumi inkişafına uyğun olan dinamikadır. Biz burada dövlət siyasətinin təzahürlərini də əyani şəkildə görürük. Çünki bizim siyasətimizin mərkəzində – bunu mən dəfələrlə demişəm – insan amili, Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı sağlam olmalıdır. Gənc nəsil sağlam böyüməlidir. Bunu etmək üçün ilk növbədə yüksək səviyyəli tibbi xidmət olmalıdır.

Biz indi iqtisadi cəhətdən güclənmişik. Yenə də deyirəm, siyasətimizin əsasında, mərkəzində Azərbaycan vətəndaşı dayandığı üçün biz maliyyə resursları cəlb etmişik. Ancaq təkcə maliyyə resurslarının cəlb edilməsi ilə iş bitmir, peşəkarlıq da artmalıdır. Kadrların hazırlanması sahəsində daha da böyük işlər görülməlidir. Hazırda bu işlər inkişafdadır. Azərbaycan həkimlərinin bir qrupu xaricdə təlim keçir. Xaricdən gələn görkəmli mütəxəssislər, alimlər Azərbaycanda fəaliyyət göstərirlər. Biz gələcəkdə bu işlərə daha da çox vəsait ayıracağıq ki, peşəkarlıq artsın, Azərbaycanda səhiyyənin nəinki maddi-texniki bazası, eyni zamanda, səviyyəsi, ümumiyyətlə, dünya standartlarına cavab versin.

Hesab edirəm ki, buna nail olmaq üçün bizim bütün imkanlarımız vardır. Son illər ərzində Azərbaycanda uşaq ölümü kəskin şəkildə aşağı düşüb. Statistik göstəricilər də,

onların dinamikası da çox müsbətdir. Həkimlər yaxşı bilir, əfsuslar olsun ki, bütün dövrlərdə Azərbaycanda körpə ölümü yüksək idi, Sovet İttifaqı dövründə digər respublikalarla müqayisədə həmişə yüksək idi. İndi uşaq ölümü kəskin şəkildə azalıb. İnsanların orta yaş göstəricisi artır, bu da hər bir ölkənin ümumi inkişafını şərtləndirən bir amildir. Çox sevindirici haldır ki, bu proses də müsbət istiqamətdə gedir. Azərbaycanda əhali artır. Son 10 il ərzində Azərbaycanda əhalinin sayı 1 milyondan çox artıb. Azərbaycanda əhalinin artım templəri Avropa qitəsində ən yüksəkdir.

Əlbəttə, bütün bu amillər tələb edir ki, səhiyyə sahəsində daha da ciddi islahatlar aparılsın. Həm struktur islahatları aparılmalı, həm də peşəkarlıq artmalıdır. Əminəm ki, əgər biz bundan sonra da bu templərlə inkişaf etsək, bu məsələlər də öz həllini tapacaqdır.

Azərbaycanda bu sahədə görülən işləri beynəlxalq təşkilatlar da qiymətləndirir. Bir müddət bundan əvvəl Bakıda Dünya Səhiyyə Təşkilatı Avropa Komitəsinin konfransı keçirilmişdir və orada qeyd edilmişdir ki, Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsində çox böyük inkişaf və tərəqqi vardır.

Yəni bu reallıqdır. Ancaq o da reallıqdır ki, hələ bəzi hallarda tibbi xidmət lazımi səviyyədə deyildir. Bəzi həkimlərin peşəkarlığı bizi qane edə bilməz və elə tibb müəssisələri var ki, orada əsaslı təmirə ehtiyac vardır. Ancaq əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda bütün bu məsələlər ardıcıllıqla və yüksək templə öz həllini tapır. Bu məsələlərin həlli, bir daha demək istəyirəm ki, dövlət siyasətimizin əlamətidir. Sosial məsələlərin həlli bizim üçün prioritetdir və həmişə prioritet olaraq qalacaqdır.

Bu gözəl yubiley bir daha imkan verir ki, biz bu məsələlərə toxunaq, fikirlərimizi bildirək və böyük ümidlərlə gələcəyə baxaq. Çünki gələcəkdə Azərbaycan hər bir istiqamət üzrə inkişaf etmiş ölkəyə çevrilməlidir.

Zərifə xanımın nurlu obrazı həmişə bizim ürəyimizdədir. Onu tanıyanlar və tanımayanlar, haqqında kitablarda, məqa-

lələrdə oxuyanlar da hesab edirəm ki, onun nurlu obrazını daim öz ürəyində saxlayır. Zərifə xanım böyük həkim, böyük alim, böyük insan idi. Onun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır. Sağ olun.

**O q t a y Ş i r ə l i y e v** *(Səhiyyə naziri):* Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Tariximizdə silinməz iz qoymuş, Azərbaycanın ən parlaq və tanınmış simalarından olan görkəmli alim və həkim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 90-cı ildönümüdür.

Özü cismən aramızda olmasa da, xalq onu sonsuz hörmət və məhəbbətlə xatırlayır. Bu mötəbər tədbir də alimin xatirəsinə dövlətin, xalqın, tibb ictimaiyyətinin, elm adamlarının sonsuz ehtiramının ifadəsidir.

Belə bir fikir vardır: əzmlə işləyən insanların günləri qısa, ömürləri uzun olur. Bu mənada Zərifə xanım Əliyevanı uzunömürlü hesab etmək olar. Onun elmi əsərləri, tədqiqatları, çoxsaylı kitabları yaşadığı 62 illik ömrünə sığmır. İşıqlı xatirəsi bu gün də insanların yaddaşında, təkcə yaxınlarının və həmkarlarının deyil, həm də gözlərinə rəngarəng dünyanın nurunu bağışladığı xəstələrinin qəlblərində yaşayır. Həyatda belə böyük sevgi qazanmaq, özündən sonra belə əziz duyğular, nurlu xatirələr qoyub getmək – belə xoşbəxtlik çox az adamın taleyinə yazılır. Akademik Zərifə Əliyevanın ömür kitabında Azərbaycan naminə misilsiz xidmətləri olan görkəmli dövlət xadimlərinin taleyi yaşayır.

Sözsüz ki, Zərifə xanımın zəngin daxili aləminin formalaşmasında ailəsinin, valideynlərinin çox böyük rolu olmuşdur. Tanınmış alim və həkim, keçmiş SSRİ-də böyük nüfuz qazanmış dövlət xadimi Əziz Əliyevin qızı məhz Zərifə xanım kimi olmalı idi. Akademik Mustafabəy Topçubaşovun adi həkim deyil, bütün cəmiyyətin loğmanı adlandırdığı Əziz Əliyev böyük ürək sahibi,

geniş biliklərə, yüksək mənəviyyata malik şəxsiyyət idi. Övladlarının ona sevgisi onların sənət seçiminə də təsir etmişdir. Bu ailənin 3 övladı – Tamerlan, Zərifə və Cəmil həkimlik sənətini seçmişlər.

1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra Zərifə xanım bütün ömrünü oftalmologiyaya həsr etdi, seçdiyi sənətin fədaisi oldu. Onun ilk elmi-tədqiqat işlərinin mövzusunu da elə həyatın özü verdi – Azərbaycanda o dövrdə çox geniş yayılmış traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi. Bütün ölkə ərazisini əhatə edən bu tədqiqatların nəticələri gənc alimin uğurla müdafiə etdiyi namizədlik dissertasiyasında öz əksini tapdı.

İşinə həvəslə yanaşan, yeniliklər axtarışında olan Zərifə xanımın sonrakı elmi tədqiqatları da böyük praktiki əhəmiyyət daşıyırdı. Onun elmi irsində peşə ilə bağlı görmə problemi xüsusi yer tutur. İlk dəfə olaraq o, sənaye obyektlərində müxtəlif maddələrin gözə təsiri sahəsində elmi tədqiqatlar aparır, dünyada peşə patologiyasını araşdıran ilk elmi-tədqiqat laboratoriyası yaradır və nəticədə elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyur.

Uzun illər apardığı müşahidələr, kliniki tədqiqatlar əsasında Zərifə xanım Əliyeva 1976-cı ildə dünyanın ən nüfuzlu oftalmoloji mərkəzlərindən biri olan Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyasını müdafiə edir.

Məhz peşə xəstəliklərinin elmi araşdırmalarının uğurlu nəticələrinə görə professor Zərifə Əliyeva oftalmologiya sahəsində ən mötəbər mükafata – SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görüldü. Diqqətəlayiqdir ki, o bu mükafatla təltif olunan ilk qadın alim idi.

Zərifə xanımın tədqiqatları elmin yalnız bir istiqamətini əhatə etmirdi, o, oftalmologiyanın ən müxtəlif mövzularını işıqlandırır, tam fərqli xəstəliklərin səbəbini araşdırırdı. Qlaukoma, peşə oftalmologiyası, göz travmatizmi, görmə orqanının virus zədələnməsi, bədxassəli şişlər, göz yaşı yolu xəstəlikləri – bu və

digər istiqamətlərdə aparılan tədqiqatların nəticələri 200-ə qədər məqalə, məruzə, monoqrafiyada öz əksini tapmışdı. Görkəmli alimin zəngin elmi irsi bu gün də aktualdır. Onun bir çox əsərləri, dərslikləri oftalmoloqların stolüstü kitabları kimi daim vərəqlənir, oxunur, praktiki fəaliyyətlə məşğul olan göz həkimləri tərəfindən çox yüksək qiymətləndirilir.

Zərifə Əliyeva elm qarşısında böyük xidmətlərinə, çoxillik elmi tədqiqatlarına görə Əməkdar elm xadimi fəxri adı ilə təltif olunmuş, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdi.

Akademik Zərifə Əliyeva təkcə öz adını tibb tarixinə yazmadı, eyni zamanda, Azərbaycan oftalmologiyasının adını bütün dünyada ucaltdı. 1977-ci ildə onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Dünya şöhrətli alimlərin iştirak etdiyi bu mötəbər tədbir Azərbaycan elminin gələcəyi, onun inkişafı naminə ən tanınmış elmi mərkəzlərlə birgə tədqiqatların aparılması, peşəkar kadrların hazırlanması üçün böyük imkanlar yaratdı.

Zərifə xanımın ən böyük xidmətlərindən biri də pedaqoji fəaliyyəti idi. Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru, oftalmologiya kafedrasının müdiri kimi, o, həkimlərin biliyinin artırılması üçün qüvvəsini və vaxtını əsirgəmirdi. Tələbələrinə oftalmologiyanın incəliklərini öyrədən alim böyük oftalmoloqlar nəsli yetişdirdi.

Zərifə xanım həkim-xəstə münasibətlərində də gənc həkimlərə bir nümunə idi. O, həkim etikası və tibbi deontologiya kimi çox həssas sahələrə xüsusi diqqət yetirirdi. Həkimin cəmiyyətdə roluna, onun peşəkar fəaliyyətinə həsr etdiyi çoxsaylı məqalə və çıxışları, eləcə də «Yüksək əqidə» adlı kitabı cəmiyyətimizdə həkim şəxsiyyətinin formalaşması prosesinə dəyərli töhfələr vermişdi.

Görkəmli alimin həkimlik fəaliyyətində bir məqam da qırmızı xətlə keçir. O, sadə, adi insanlara hər zaman xüsusi

diqqətlə, məhəbbətlə yanaşır, onların problemlərini dinləyib, ümidsiz qoymurdu.

Zərifə xanım əsl ziyalı qadın idi. Bu ziyalılıq bir tərəfdən, onun biliyində və savadında, digər tərəfdən, simasındakı nurla, xasiyyətindəki təmkin və nəcibliklə özünü göstərirdi. Onun ən gözəl cəhətləri bəşəriyyətə və insanlara sevgisi, sevimli işinə hədsiz bağlılıq və ailəsinə vurğunluq idi!

Tale Zərifə xanıma onu sevən, ona dəyər verən, yolunda hər cür fədakarlığa hazır olan qüdrətli bir insanı – müasir müstəqil Azərbaycanın qurucusu, bütün ömrü boyu xalqına, Vətəninə sədaqətlə xidmət etmiş Heydər Əliyevi bəxş etdi. Bu iki insanı bir-birinə təkcə sonsuz məhəbbət hissi bağlamırdı, onlar ruhən də çox yaxın idilər. Zərifə xanım Heydər Əliyev kimi bir dahi üçün təkcə sədaqətli ömür-gün yoldaşı olmamışdı, həm də mənəvi dayağa, əsl dosta çevrilmişdi. Həyatının sonunadək onu qorumuşdu.

Ulu öndər Heydər Əliyevin düz 12 il əvvəl, 2001-ci il aprelin 28-də Zərifə xanımın xatirəsinə həsr olunmuş gecədə çox kövrəkliklə söylədiyi bir fikri xatırlatmaq istəyirəm: «...Mənim üçün o, birinci növbədə böyük insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban ana, mənim ailəmi, uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır...»

Bir-birini üzvi surətdə tamamlayan bu iki parlaq şəxsiyyətin ailə həyatı bütün cəmiyyət üçün milli dəyərlərimizi əks etdirən nümunədir. Onlar çətinliklərin öhdəsindən birgə gəlib, uğurlara birgə sevinirdilər. İki ləyaqətli övlad böyütdülər.

Zərifə xanım Azərbaycana cənab İlham Əliyev kimi prezident bəxş edən bir ana olaraq hər zaman tarixdə qalacaqdır. Ölkəmizin sürətli inkişafı, dünyadakı nüfuzu, möhtəşəm uğurları ilə fəxr edərkən, Azərbaycan prezidentinin bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində ulu öndər Heydər Əliyev ilə yanaşı, sözsüz ki, Zərifə xanımın da təsirini görürük.

Bu gün Azərbaycan siyasi və iqtisadi cəhətdən qüdrətlənir, öz inkişaf templərinə görə dünyada qabaqcıl yerlərdən birini tutur. Bakının çox böyük uğurla ev sahibliyi etdiyi ən mötəbər siyasi, iqtisadi, elmi, mədəni tədbirlər Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsindən xəbər verir, eyni zamanda, dünya ictimaiyyətinin diqqətini tariximizə, mədəniyyətimizə, incəsənətimizə cəlb edir.

Dövlət rəhbərinin sosialyönümlü siyasəti nəticəsində səhiyyə sahəsində də əhəmiyyətli nailiyyətlər vardır. Azərbaycan dövləti insanların sağlamlığını prioritet məsələ kimi daim diqqətdə saxlayır. Yeni tikilən, əsaslı təmir olunan, ən müasir avadanlıqla təchiz edilən tibb mərkəzləri, tibb işçilərinin təkmilləşməsinə verilən diqqət, gündən-günə yaxşılaşan sağlamlıq və demoqrafik göstəricilər bunun sübutudur.

Səhiyyə sahəsində qazanılan nailiyyətlərdə Heydər Əliyev Fondunun, onun prezidenti Mehriban xanım Əliyevanın da böyük zəhməti vardır. Ümumiyyətlə, onun ölkəmizdə təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı üçün gördüyü işlər, ulu öndərin adını daşıyan Fondun həyata keçirdiyi humanitar layihələr xalqımız tərəfindən yüksək qiymətləndirilir, ona böyük hörmət və ehtiram qazandırır.

Bu yubiley ilində Zərifə xanımın xatirəsi müxtəlif tədbirlərlə yad edilir, konfranslar, simpoziumlar, görüşlər keçirilir. Dünən Bakıda oftalmologiya üzrə Beynəlxalq elmi-praktiki konfrans da Zərifə xanımın xatirəsinə, onun elmi fəaliyyətinə həsr olunmuşdu. Konfransın işində Rusiya, Türkiyə, Almaniya, Yaponiya, Litva və digər ölkələrin alimləri iştirak edirdilər. Qonaqlarımızı konfransın keçirildiyi Zərifə xanımın adını daşıyan Milli Oftalmologiya Mərkəzi ilə tanış edərkən xatırladıq ki, vaxtilə xaricdə tibb ocaqlarının şəraitinə, müasir avadanlığına həsədlə baxırdıq. İndi isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük qayğısı və diqqəti nəticəsində biz öz səhiyyəmizi fəxrlə təqdim edirik.

Bütün bunlara görə, icazə verin, cənab Prezident, tibb ictimaiyyəti adından Sizə öz dərin minnətdarlığımızı bildirək.

Bu gün bu mötəbər tədbirdə Zərifə xanımın ömür yoluna nəzər salarkən bir daha şahid olduq ki, o, əfsanəvi bir həyat yaşayıb. Çox təəssüf ki, taleyin Zərifə xanıma yazdığı ömür payı qısa oldu, o, müstəqil Azərbaycanı – sürətlə inkişaf edən, gələcəyə inamla baxan, gündən-günə gözəlləşən, müasirləşən Vətənimizin bu gününü görmədi. Lakin qəlbimizdə bu təəssüflə yanaşı, bir inam da vardır: səhiyyəmizin tərəqqisi, tibb elmində qazanılan uğurlar görkəmli alimin xatirəsinə ucaldılan ən möhtəşəm abidədir.

Əsl yaradıcılıq, əsl elm daimidir. Akademik Zərifə xanım Əliyevanın işıqlı obrazı heç zaman ürəklərdən silinməyəcəkdir. Diqqətinizə görə minnətdaram.

**L a r i s a M o ş e t o v a** *(Rusiya Tibb Elmləri Akademiyasının akademiki, tibb elmləri doktoru, professor):* Çox hörmətli cənab Prezident!

Çox hörmətli ali mərasim iştirakçıları!

Mən ilk növbədə, belə ali məclisdə iştirak və çıxış etməyə dəvət olunduğuma görə minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun!

Akademik Zərifə Əliyeva! Bu ad tədbirdə iştirak edənlərə son dərəcə əzizdir və çox təəssüf ki, biz bu gün Zərifə xanımı yubiley münasibətilə təbrik edə bilmirik, yalnız onun haqqında xoş xatirələrimizi danışır, hörmət və ehtiramımızı bildiririk. XX əsrin böyük qadını, müdrik, savadlı, gözəl ziyalısı olan Zərifə xanım görkəmli oftalmoloq-alim, bununla yanaşı, həm də sadə və çox ünsiyyətcil insan idi. Mən taleyimə minnətdaram ki, bəxtim gətirib, bu böyük qadınla ünsiyyətdə olmuşam və həyat yolumun müəyyən hissəsini onunla yanaşı keçmişəm. Zərifə xanımla tanışlığa qədər mən onun barəsində həmkarlarımdan və öz müəllimlərimdən xeyli xoş sözlər eşitmişdim. Sonralar Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun və Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun 2 kafedrasının rəhbərlərinin xoş münasibətləri bu iki kollektivin sıx dostluq etmələri üçün təməl oldu. Biz Bakıda birgə məşğələlər keçirirdik. Çox yaxşı yadımdadır, o vaxt mən gənc pedaqoq idim və çox

həyəcanlanırdım. Çünki mühazirələrdə Azərbaycan kafedrasının zəngin təcrübəli pedaqoqları iştirak edirdilər və çox vaxt Zərifə xanım da gəlirdi. Amma özünün dövlət statusuna baxmayaraq, o gənc pedaqoqlara münasibətdə son dərəcə diqqətli və xeyirxah idi. Biz Bakıda unudulmaz günlər keçirdik, gündən-günə yaxşılaşan bu gözəl şəhər haqqında çox şey öyrəndik.

Zərifə xanımla bilavasitə tanışlıq isə bizim gələcək elmi əməkdaşlığımızın bünövrəsini qoydu, birgə monoqrafiyalar dərc edildi, əcnəbi dillərə tərcümə olunan oftalmologiyanın, terapevtik oftalmologiyanın aktual məsələləri işıq üzü gördü. Zərifə xanım nəşrlərin keyfiyyətinə son dərəcə həssaslıqla yanaşırdı. Bu məsələdə Heydər Əliyev bizə çox kömək edirdi. Mən onlarla həmin kitablar üzərində işi başa çatdırmaq üçün Bakıya gələndə görüşdüm. Bu, unudulmaz, xeyirxah və son dərəcə peşəkar görüşlər idi. Mənim yadımda Zərifə xanımın Helmqolts adına Göz Xəstəlikləri İnstitutunda Oftalmoloqların Moskva Elmi Cəmiyyətində çıxışı qalıb. O, gənclərin hazırlığı və tərbiyəsi haqqında çıxış edirdi. Bu, siyasi xadimin, pedaqoqun, müdrik ziyalının çıxışı idi və biz hamımız – gənclər də, zəngin təcrübəli pedaqoqlar və alimlər də nitqin gözəlliyinə, məruzənin dərin məzmununa və ifadə tərzinin səlisliyinə heyran qalmışdıq.

Təəssüf ki, Zərifə xanımın ömür yolu çox qısa oldu, yaddaşımızda onunla vidalaşmanın kədərli günləri qaldı. İllər keçdi, lakin Azərbaycan və Rusiya oftalmoloqlarının xoş münasibətləri yeni keyfiyyət kəsb etdi. Hazırda elmi kadrlar birgə hazırlanır, elmi konfranslar, praktik məsləhətləşmələr keçirilir. Elə dünən keçirilmiş gözəl konfrans buna nümunə ola bilər. Azərbaycanın Həkimləri Təkmilləşdirmə İnstitutu həqiqətən, elmi, praktik həkim kadrlarının hazırlanması üzrə böyük məktəbə çevrilib. Bu gözəl instituta daxil olarkən özünü saraydakı kimi hiss edirsən. Bizim Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu isə artıq akademiyaya çevrilib. Həmin akademiyanın rektoru və oftalmologiya kafedrasının müdiri

kimi, mən münasibətlərimizin tarixinə çox doğma yanaşır və onları maksimum dərəcədə inkişaf etdirməyə çalışıram.

*Larisa Moşetova iki təhsil müəssisəsi arasında əməkdaşlıq haqqında müqavilənin imzalandığını qeyd edərək, bu sənədin gələcək əlaqələr, MDB Ölkələri Həkimlərin Təkmilləşdirmə İnstitutları Assosiasiyasının yaradılmasına əsas ola biləcəyini dedi. Larisa Moşetova Zərifə xanım Əliyevanın diplomdan sonrakı tibbi təhsilə verdiyi önəmi diqqətə çatdıraraq dedi:*

– Tibbi kadrların hazırlanması sahəsində əməkdaşlığımız – mən tamamilə əminəm ki, təbabət sərhədsizdir, hansı dildə danışmalarından asılı olmayaraq – bizim bütün pasiyentlərimiz üçün yəqin ki, çox faydalı olardı. Çox təəssüf ki, bunları mənə çox əziz olan iki insan – nə Zərifə xanım, nə də Heydər Əliyev görmürlər. Mən onların ruhu qarşısında baş əyirəm. Hazırda həyatda olanların vəzifəsi onları yadda saxlamaq və xatirələrini gələcək nəslə çatdırmaqdır. Mən Azərbaycan xalqına və Sizə, Azərbaycan prezidenti İlham Əliyevə yeni uğurlar, tərəqqi və bir səhiyyə işçisi kimi, cansağlığı arzulayıram. Çox sağ olun!

**Alevtina Brovkina** *(Rusiya Tibb Elmləri Akademiyasının akademiki, tibb elmləri doktoru, professor):* Əziz dostlar! Bu gün mən sizə müraciət etmək istərdim! Belə müraciət forması Zərifə Əziz qızına daha çox xas idi. Bu gün Zərifə xanımın elmə töhfələri haqqında çox danışdıq, amma nədənsə kiçik bir nüansı nəzərdən qaçırdıq. Həmin uzaq sovet dövründə Bakıda məişət kondisionerləri zavodu var idi. Zərifə xanım həmin müəssisədə işləyən pasiyentlərdə müşahidə olunan bəzi oftalmoloji simptomlara diqqət yetirmişdi. Təsadüfi deyildir ki, o vaxt Zərifə Əziz qızı göz yaşı ifrazının pozulması, göz yaşı ifraz edən orqanların xəstəlikləri məsələləri ilə məşğul olmağa başlamışdı. Uzun müddət belə halların mahiyyətini və səbəblərini anlamaq qeyri-mümkün idi. Biz yalnız bu gün bilirik ki, quru göz sindromu deyilən bir əlamət vardır. O illərdə isə bu haqda heç nə eşitməmişdik. Amma bu, alimin öncəgörmə qabiliyyətidir. Bu keyfiyyət məhz istənilən istiqamətdə yaradıcılıqla işləyən insanlara xasdır.

*Akademik Zərifə Əliyevanın Göz Xəstəlikləri İnstitutunun fəaliyyətinə verdiyi önəmi vurğulayan və bu institutla bağlı xatirələrini bölüşən Alevtina Brovkina dedi:*

– Bu səfərimdə bu gün buraya gələndə institutu gördüm. Bilirsinizmi, Zərifə Əziz qızı haqqında keçmiş zamanda danışmaq istəməzdim. O, yenə vardır, orada – Oftalmologiya İnstitutundadır! Bu çox mühüm məqamdır.

*Zərifə xanım Əliyevanın daxilən çox ziyalı insan olduğunu qeyd edən Alevtina Brovkina onun təvazökarlığını xüsusi vurğuladı, Zərifə xanımın insanlarla çox gözəl, səmimi ünsiyyət qurduğunu, qayğıkeş ana, təəssübkeş olduğunu qeyd edərək bildirdi:*

– İlham Heydər oğlu, burada Sizin və ailənizin ünvanına çox xoş sözlər deyildi. Ümumiyyətlə, mən hesab edirəm ki, Siz çox xoşbəxt insansınız, çünki Sizin bu cür ananız və atanız olmuşdur. Sağ olun.

**S u n a y  D u m a n** *(Türkdilli Ölkələrin Oftalmologiya Cəmiyyətinin sədri):* Hörmətli Prezident!

Hökumətin hörmətli üzvləri!

Dəyərli qonaqlar, hörmətli xanımlar və cənablar, əziz həmkarlarım!

Sizə, dost və qardaş Azərbaycan xalqına ölkəmin ən səmimi duyğularını, sevgilərini, salamlarını çatdıraraq çıxışıma başlamaq və məni bu toplantıya dəvət etdiyinizə görə təşəkkürlərimi bildirmək istəyirəm.

Akademik Zərifə Əliyevanın adının niyə bir çox müəssisəyə verildiyi, xatirəsinə hər il nə üçün beynəlxalq yubiley tədbirləri keçirildiyi, xalqının onu niyə bu qədər sevib millətinin anası qəbul etdiyi onun həyat hekayəsindəki yaşadıqlarındadır.

Zərifə xanım hələ orta məktəbdə oxuyarkən traxomadan əziyyət çəkən insanların iztirabını hiss edir və onun öhdəsindən gəlməyi qarşısına məqsəd qoyur. Tibb İnstitutunu müvəffəqiyyətlə bitirir. Məzun olduqdan sonra yalnız xəstəxanada çalışmır, respublikanın ən ucqar yerlərinə qədər gedib

traxomanın öhdəsindən gəlmək üçün bir sıra araşdırmalar aparır və nəticədə bu xəstəliyə qalib gəlməyi bacarır.

Bununla yanaşı, Zərifə xanım sənaye müəssisələrində zərərli amillərin insan gözlərinə təsiri ilə də məşğul olur. Bu sahədəki uğurlu işləri nəticəsində Averbax mükafatı ilə təltif edilir. Bu mövzuda yazdığı elmi əsərləri ona böyük nüfuz qazandırır və 1983-cü ildə akademik seçilir.

Sizdə də, bizdə də istifadə edilən belə bir atalar sözü vardır: «Yuvanı quran ana quşdur», ya da «Hər bacarıqlı kişinin arxasında bacarıqlı bir qadın vardır». Atatürk «Qadının ən böyük dühası dünyaya övlad gətirmək və böyütməkdir» – demişdir. Böyük zəka və düha sahibi olan Zərifə xanım da analıq vəzifəsini ən yüksək səviyyədə yerinə yetirmiş, övladları ilə dost olmuş, istedadlı gəncliyin yetişməsinə çalışmış, onlarla elm xadimi yetişdirmişdir.

Təvazökarlığı və xalqına qucaq açması ilə vətənin anası olmuş, könüllərdə taxt qurmuş Zərifə Əliyeva 62 illik qısa ömrünə elə şeylər sığdırmışdır ki, heyranlıq duymamaq mümkün deyildir. Vəfatından bu yana 28 il keçməsinə baxmayaraq, Azərbaycan xalqını Zərifə Əliyevanın xatirəsinə göstərdiyi qədirbilənliyə görə ürəkdən təbrik edirəm. Qəbri nurla dolsun.

Təəssüf ki, Zərifə xanım ilə tanış ola bilmədik. Ancaq böyük dövlət xadimi, möhtərəm Heydər Əliyev ilə 2000-ci ildə tanış olduğum üçün özümü çox şanslı sayıram. Mərkəzi Klinik Xəstəxananın açılışında, çox soyuq bir havada hörmətli Prezidentin sevgiyə, hörmətə, etimada çağıran, qəlbləri isidən, insanları coşduran bir saatdan çox çıxışında tez-tez təkrarladığı «bir millət – iki dövlət» kəlamı hələ də qulaqlarımdadır. Bu kəlam dostluq və qardaşlığımızın ən gözəl ifadəsidir. Hörmətli sabiq Prezidentin ruhu şad olsun.

*Azərbaycan prezidenti İlham Əliyevin elmin inkişafına, elm adamlarına yüksək qayğı göstərdiyini vurğulayan Sunay Duman Heydər Əliyev Fondunun gördüyü işlərin dünyada böyük maraq doğurduğunu bildirərək dedi:*

– Həmkarımız Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi xidmətləri dünyada izlənməkdə və çox təqdir qazanmaqdadır. Fondun dəstəyi ilə Milli Oftalmologiya Mərkəzinin səyyar klinikasının fəaliyyəti ilə Zərifə Əliyevanın arzuları gerçəkliyə çevrilmişdir. Hazırda Milli Oftalmologiya Mərkəzi Cənubi Qafqazın ən böyük müayinə, müalicə və müasir cərrahiyyə mərkəzidir.

Son 10 ildə Azərbaycan oftalmologiya sahəsində dünya ilə inteqrasiya istiqamətində ciddi addımlar atıb. Azərbaycanda rezidentura təhsilinin 3-4 ilə çatdırılması və təhsili Tibb Universiteti ilə Milli Oftalmologiya Mərkəzinin verməsi çox sevindirici haldır. Beləliklə də Azərbaycan dünya ilə paralelliyi təmin edib.

*Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətlərinə toxunan Sunay Duman əlaqələrimizin təməlində fədakarlıq, qarşılıqlı dəstək və vətənpərvərlik hisslərinin durduğunu vurğulayaraq bildirdi:*

– Biz bir millət – iki dövlətik. Xocalı qətliamı bizim də içimizi yandırır. Dağlıq Qarabağ münaqişəsi ortaq problemimizdir. Türkiyə türk dünyasının ürəyi, Azərbaycan bu ürəyin şah damarıdır. Ulu öndər Atatürkün dediyi kimi, Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir. Dünən belə idi, bu gün də belədir, sabah da belə olacaqdır. Yaşasın Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı! Hamınıza təşəkkür edirəm.

* * *

*Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın 90 illik yubileyi münasibətilə Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olundu.*

*Daha sonra prezident İlham Əliyev akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinin əks olunduğu fotosərgiyə baxdı.*

## PAYTAXTIN FÜZULİ VƏ MİRZAĞA ƏLİYEV KÜÇƏLƏRİNİN ARASINDA YARADILAN YENİ İSTİRAHƏT KOMPLEKSİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*27 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də paytaxtın Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında inşa olunan yeraltı avtomobil dayanacağının üstündə salınan park, bağ və fəvvarələr kompleksində aparılan inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Son illər Bakı şəhərinin infrastrukturunun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində genişmiqyaslı tədbirlər ardıcıl olaraq davam etdirilir. Paytaxtımızın park və xiyabanları müasir şəkildə qurulur, yaşıllıq zolaqları salınır, yeni istirahət guşələri yaradılır. Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında yeraltı avtomobil dayanacağının üstündə müasir park-kompleksinin inşası Bakı şəhərinin simasının daha da yeniləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Dövlətimizin başçısı kompleksdə həyata keçirilən inşaat işlərini daim nəzarətdə saxlayır, burada aparılan tikintinin gedişi ilə mütəmadi olaraq maraqlanır.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına inşa olunan park-kompleksi layihəsi əsasında məlumat verdi. Bildirildi ki, yeni salınan bu park kompleksi şəhərin içərisində ən böyük parkdır. Ərazisi 7 hektar olan parkın 20 min kvadratmetrlik sahəsinə qranit və keramit plitələr döşənib. Park-kompleksinin 6 min kvadratmetrlik sahəsinə, eləcə də ətrafdakı küçə və prospektlərə asfalt örtüyü çəkilir. Kompleksin 35 min kvadratmetrlik ərazisindən 32 min kvadratmetr hissəsində artıq yaşıllıq zolağının salınması işləri başa çatdırılıb. Həmin əraziyə 35 min kubmetr münbit torpaq töküldüyü bildirildi. Burada*

2000-ə yaxın ağac, 10 mindən çox isə bəzək kolu, çoxlu sayda gül və çiçəyin əkiləcəyi, ərazinin bütünlüklə yaşıl otlarla örtüləcəyi qeyd olundu. Yaşıllaşdırma işlərinin 90 faizi artıq icra olunub.

Bildirildi ki, parkda inşa olunan və ən müasir tələblərə cavab verən 5 fəvvarədə tamamlama işləri aparılır. Texniki mərtəbədə fəvvarələr üçün ayrıca stansiya quraşdırılıb. Yaşıllıq zolaqları avtomatik sistemlə suvarılacaq. Park-kompleksində yeni yarımstansiyanın quraşdırıldığı və ən müasir işıqlandırma sisteminin böyük bir hissəsinin başa çatdığı qeyd olundu. Parkda 3 yay kafesi fəaliyyət göstərəcək. Kompleksin ətrafındakı binalarda və ərazilərdə də əsaslı şəkildə abadlıq və quruculuq işlərinin davam etdirildiyi bildirildi.

Prezident İlham Əliyev Füzuli küçəsindəki 39 saylı binanın sürüşdürülərək köçürülmə prosesi ilə də tanış oldu. Qeyd edək ki, 1908-ci ildə Hacınski qardaşları tərəfindən inşa etdirilən bu bina tarixi memarlıq abidələri sırasına daxildir. Dövlətimizin başçısının tarixi memarlıq abidələrinin qorunması və bərpa edilməsi ilə bağlı sərəncamına uyğun olaraq 18 min ton ağırlığında olan bu tarixi memarlıq binasının əvvəlki görkəmi saxlanmaqla 10,5 metr sürüşdürmə yolu ilə yerinin dəyişdirilməsi prosesi aprelin 23-də başlanmışdır. Sürüşdürülmə prosesini dünyada bu sahədə ən qabaqcıl təcrübəyə malik olan Hollandiyanın «Bresser» şirkəti həyata keçirir.

Proses barədə prezident İlham Əliyevə məlumat verildi. Bildirildi ki, binanın köçürüləcəyi yeni ərazidə möhkəm təməl qoyulub. Bu da tarixi binanın davamlılığının uzun müddət üçün artırılmasına kömək edəcəkdir. Sürüşdürülmə prosesinin bu gün axşam saatlarında başa çatdırılacağı qeyd olundu.

Prezident İlham Əliyev sürüşdürülmə prosesini izlədi.

Sonra dövlətimizin başçısı park, bağ və fəvvarələr kompleksində aparılan inşaat işlərinin gedişi ilə yaxından tanış oldu, müvafiq tapşırıq və tövsiyələrini verdi.

## 2015-ci İLDƏ BAKIDA KEÇİRİLƏCƏK AVROPA OYUNLARI KOORDİNASİYA KOMİTƏSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da 2015-ci ildə Bakıda keçiriləcək Avropa oyunları Koordinasiya Komitəsinin üzvlərini qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz!

Cənab Prezident! Əziz dostlar və qonaqlar! Sizi Azərbaycanda görməkdən çox şadam. Xoş gəlmisiniz! Ümid edirəm ki, ölkəmizdə olmağınızdan məmnun qalacaqsınız. Bu, Koordinasiya Komitəsinin ilk görüşüdür. Sözsüz ki, siz artıq başlanmış hazırlıq işlərinin şahidi olacaqsınız. Bu, böyük məsuliyyətdir. Çünki bu birinci Avropa oyunlarıdır, böyük sınaqdır. Ümidvaram ki, birgə səylər nəticəsində olimpiya hərəkatı tarixində ən yaxşı oyunlardan birini təşkil etmək hədəfinə nail ola biləcəyik. Bu bizim məqsədimizdir. Çox fəal şəkildə çalışırıq, bu gün və sabah təqdimatlar keçiriləcək. Əlbəttə, sizin tövsiyələriniz yüksək qiymətləndiriləcək. Bildiyiniz kimi, Olimpiya oyunları kimi böyük tədbirin təşkilində bizim təcrübəmiz yoxdur. Baxmayaraq ki, keçmişdə biz dünya və Avropa çempionatlarına ev sahibliyi etmişik, Avropa oyunları fərqli səviyyəli və sözsüz ki, xüsusi diqqət tələb edən oyunlardır. Bir daha xoş gəlmisiniz və Bakıda xoş günlər keçirməyinizi arzu edirəm.

**Patrik Hikki** *(Avropa Olimpiya Komitəsinin prezidenti):* Cənab Prezident, çox təşəkkür edirəm. Həmkarlarım adından qeyd etmək istəyirəm ki, burada olmaqdan son dərəcə məmnunuq. Mən 2001-ci ildə Sizin Milli Olimpiya Komitəsinə çox fəal rəhbərlik etdiyiniz bir dövrdə ilk dəfə Azərbaycana

səfərimi yaxşı xatırlayıram. Biz fəxr edirik ki, Siz indi də Azərbaycan Milli Olimpiya Komitəsinə rəhbərlik edirsiniz. Həmin vaxt Jak Roqq Avropa Olimpiya Komitəsinin prezidenti, mən isə vitse-prezidenti idim. Siz həmin vaxt İcraiyyə Komitəsinin toplantısına ev sahibliyi etdiniz. Biz o zaman Bakıda çox xoş günlər keçirdik. Bu gün biz yenidən Bakıdayıq.

Cənab Prezident, tam əminliklə deyirəm ki, biz burada tarix yazırıq. Bu çox nadir bir hadisədir. Əminəm ki, Sizin və bütün azərbaycanlı həmkarlarımın səyləri nəticəsində ilk Avropa oyunları ölkənizdə, sözün əsl mənasında, uğur qazanacaqdır. Biz isə öz növbəmizdə mümkün olan bütün vasitələrlə bu işə köməyimizi göstərməyə hazırıq. Avropada bu oyunlara böyük maraq vardır. Düşünürəm ki, hər iki tərəfin birgə əməkdaşlığı nəticəsində böyük uğurlar qazanacağıq. Fürsətdən istifadə edərək Koordinasiya Komitəsinin Yunanıstandan olan sədri Spiros Kapralosu təqdim etmək istərdim. O burada iştirak edənlərdən yeganə şəxsdir ki, Olimpiya oyunlarında qalib gəlib.

*Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos prezident İlham Əliyevə ilk Avropa oyunlarına ev sahibliyi etməyə qərar verdiyinə görə təşəkkür etdi. «Bu Sizin ölkəniz üçün çox əlamətdar hadisə olacaqdır» – deyən Spiros Kapralos I Avropa oyunlarına ev sahibliyi etməyin əhəmiyyətinə toxundu.*

**S p i r o s K a p r a l o s:** Bu çox məsuliyyətli tədbirdir. Çoxnövlü idman oyunlarına ev sahibliyi etmək çox çətindir. Hazırlıq işləri üçün vaxtımız olduqca məhduddur. Oyunları yüksək səviyyədə təşkil etmək bizim ümumi məqsədimizdir. Çünki prezident Hikkinin də söylədiyi kimi, bu, tarixdə qalacaqdır. Biz, bu masa ətrafında əyləşən bütün ekspertlər Azərbaycan tərəfinə bu möhtəşəm oyunları təşkil etmək işində öz köməyimizi əsirgəməyəcəyik.

*Azərbaycan prezidenti Avropa olimpiya ailəsinə bu beynəlxalq idman tədbirinin Bakıda keçirilməsi barədə verdikləri qərara görə minnətdarlığını bildirdi, bunun çox əhəmiyyətli və rəmzi qərar olduğunu vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Biz bunu Azərbaycan tərəfinə göstərilən yüksək etimad kimi qiymətləndiririk. Düşünürük ki, Azərbaycan bu cür yüksək səviyyəli beynəlxalq tədbiri təşkil etmək iqtidarındadır. Siz düzgün olaraq qeyd etdiniz ki, vaxtımız çox məhduddur. Yay Olimpiya oyunlarına hazırlıq işləri 6-7 il çəkirsə, bizim cəmi 2 ilimiz var. Lakin biz bu oyunları Yay Olimpiya oyunları səviyyəsində təşkil etmək əzmindəyik. Biz bu oyunları yüksək səviyyədə təşkil etməyə çalışacağıq və sözsüz ki, bu, Avropa olimpiya ailəsi tarixində ilk oyunlar kimi yadda qalacaqdır. Bu, gələcək oyunlar üçün müəyyən meyarlar formalaşdıracaqdır. Ümid edirəm ki, birgə səylərimiz nəticəsində məqsədimizə çatacağıq.

**P a t r i k H i k k i***:* Cənab Prezident! Bu oyunlara göstərdiyiniz diqqətə və davamlı dəstəyinizə görə bir daha təşəkkür edirəm. Bilirəm ki, siz olimpiya hərəkatında çox böyük təcrübəyə malik olan insansınız, bütün işlərin qaydasında olmasına daim nəzarət edirsiniz.

**A l e k s a n d r K o z l o v s k i** *(Avropa Olimpiya Komitəsinin vitse-prezidenti):* Cənab Prezident! I Avropa oyunlarının Bakıda keçirilməsi ilə bağlı məmnunluğumu ifadə etmək istərdim. Qeyd edim ki, Bakı son illər ərzində inanılmaz dərəcədə dəyişib. Bu gün Bakı Avropanın, eləcə də dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Buraya gələrkən yolda biz hər yerdə böyük tikinti işlərinin aparıldığının şahidi olduq. Əminəm ki, bir neçə ildən sonra Bakının daha da inkişaf etməsinin şahidi olacağıq.

*Aleksandr Kozlovski Bakıda keçiriləcək Avropa oyunlarının proqramına sambo idman növünün daxil edilməsi ilə bağlı prezident İlham Əliyevə müraciət etdi. Dövlətimizin başçısı qeyd etdi ki, sambo Azərbaycanda da çox populyardır və bu növdə ölkəmizin bir neçə qat dünya çempionları vardır. Prezident İlham Əliyev bu məsələnin nəzərdən keçiriləcəyini diqqətə çatdırdı. Daha sonra dövlətimizin başçısı dedi ki, Azərbaycanda mövcud olan və yaradılan idman infrastrukturu yarışların yüksək səviyyədə keçirilməsinə imkan verəcəkdir. Bildirdi*

*ki, bu proses bir neçə il əvvəl başlanıb və artıq Gimnastika Mərkəzi, Su İdmanı Növləri Mərkəzi, Olimpiya stadionunun tikintisinin aparılması, əvvəldən inşa olunmuş komplekslərin hazırda yenidən qurulması yarışların keçirilməsində heç bir çətinliyin olmayacağından xəbər verir.*

**İ l h a m Ə l i y e v:** Avropa oyunlarının Bakıda keçirilməsi Avropa irsinin burada əsrlər boyu mövcudluğunu göstərir. Eyni zamanda, onu göstərir ki, nəinki «Eurovision» mahnı müsabiqəsi, eləcə də Avropa oyunları Azərbaycanda keçirilə bilər. Bizim əsas məqsədlərimizdən biri şəhərdə elə bir atmosfer yaratmaqdır ki, Bakıya ilk dəfə təşrif buyuran istər idmançı, istər qonaq, istərsə də turist özünü evindəki kimi rahat, təhlükəsiz hiss etsin və bu möhtəşəm beynəlxalq tədbirdən zövq alsın.

*Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Sloveniya Olimpiya Komitəsinin prezidenti Janez Kocijançiç çıxış edərək ilk dəfə ölkəmizdə keçiriləcək Avropa oyunlarının əhəmiyyətini qeyd etdi və bu oyunların yüksək səviyyədə təşkilində Azərbaycan tərəfinə uğurlar arzuladı.*

**P a t r i k H i k k i:** Cənab Prezident! Biz fəxr edirik ki, Sizin həyat yoldaşınız, birinci xanım təşkilat komitəsinə rəhbərlik edir. Bu bizim üçün çox əhəmiyyətlidir.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Onun «Eurovision» mahnı müsabiqəsinin təşkilat komitəsinə sədrliyi uğurlu olub. Avropa Yayım Birliyi, eləcə də bu cür tədbirlərin təşkilatçılarının fikirlərinə görə müsabiqə çox uğurlu şəkildə təşkil edilib, bu son illərdə ən yaxşı müsabiqələrdən biri olub. Onun yaxşı təcrübəsi vardır. O da Olimpiya ailəsinin üzvüdür. 10 ildən artıqdır Azərbaycan Milli Gimnastika Federasiyasının prezidenti, Milli Olimpiya Komitəsinin üzvüdür. Fəxr edirəm ki, ölkənin prezidenti olmamışdan 6 il əvvəl, 1997-ci ildən Milli Olimpiya Komitəsinin prezidentiyəm. Bu onu göstərir ki, mən prezident kimi, öz vəzifəmdən istifadə edərək Olimpiya Komitəsinin rəhbəri olmamışam. Mən olimpiya ailəsindən bu vəzifəyə gəlmişəm. Açığını desəm, çox şadam ki, mən hələ də

bu vəzifədəyəm, bu, necə deyərlər, bizim siyasətin istiqamətini göstərir və həmçinin müəyyən mənada idmançılarda əlavə inam yaradır. Onlar görürlər ki, ölkənin prezidenti həm də Milli Olimpiya Komitəsinin rəhbəridir. Eyni zamanda, mən Avropa Olimpiya Komitəsinin prezidenti ilə şəxsi dostluq münasibətlərimizi yüksək qiymətləndirirəm. Biz bir-birimizi 10 ildən artıqdır tanıyırıq. Mən həmçinin Koordinasiya Komitəsinin bu cür geniş tərkibdə təşkilindən məmnunluq duyuram. Bu bizim tərəfdaşlığımızın yaxşı göstəricisidir və praktiki nöqteyi-nəzərdən düşünürəm ki, bu, əhəmiyyətli beynəlxalq tədbirin təşkilində önəmli rol oynayacaqdır. Bir daha xoş gəlmisiniz!

## İSPANİYANIN «ATLETİKO MADRİD» FUTBOL KLUBUNUN HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da ölkəmizdə səfərdə olan İspaniyanın «Atletiko Madrid» futbol klubunun heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Sizi böyük nümayəndə heyətində görmək xoşdur. Əminəm ki, Bakıda vaxtınızı yaxşı keçirirsiniz. Yəqin ki, Azərbaycan haqqında yaxşı məlumatınız vardır, əsasən də son dövrlərlə bağlı. Klubunuzun Azərbaycanın təqdimatı ilə bağlı gördüyü işlərdən məmnunluğumu bildirmək istərdim. Əlbəttə ki, bir dəfə görmək, on dəfə eşitməkdən daha yaxşıdır. Səfərinizin qısamüddətli olmasına baxmayaraq, əminəm ki, Azərbaycanı daha yaxından tanımaq və insanlarla daha yaxın ünsiyyət qurmaq üçün imkan tapacaqsınız.

Sizin klub dünyada çox tanınır və deyə bilərəm ki, Azərbaycanda çoxlu azarkeşiniz var. Bildiyimə görə, siz burada yerli komanda ilə görüş keçirəcəksiniz. Bu, dostluq görüşü olacaq. Amma ümid edirəm ki, bir gün siz rəsmi matçda görüşəcəksiniz. Ümidvaram ki, bizim klubların şansları və göstərdikləri oyun səviyyəsi artacaq və bir gün sizi Bakıda rəqib qismində qəbul edəcəyik. Amma yenə də düşünürəm ki, əsas olan dostluq münasibətləri və bir-birini tanımaqdır. Əminəm ki, bu səviyyədə əməkdaşlıq sizin ölkəmizi daha yaxından tanımağa, bir çox sahədə daha sıx əlaqələr qurmağa yardım edəcəkdir.

Bir daha xoş gəlmisiniz! Azərbaycanda xoş vaxt keçirməyinizi arzulayıram.

*«Atletiko Madrid» klubunun prezidenti Enrikio Cerezo prezident İlham Əliyevə nümayəndə heyətini qəbul etdiyinə görə təşəkkür etdi. Ölkəmiz və Bakı haqqında təəssüratlarını bölüşdü.*

**E n r i k i o C e r e z o:** Mən Bakıya gəlib çox təsirləndim. Doğrudan da çox gözəl şəhəriniz var. Şadıq ki, ölkənizlə aramızda əməkdaşlıq yaranır. Azərbaycan xalqını tanımağıma çox şadam. Burada olmaqdan şərəf hissi duyuruq.

*«Atletiko Madrid» futbol klubu barədə məlumat verən Enrikio Cerezo son illər böyük inkişaf əldə edildiyini bildirdi və klubun gələcək planlarından danışdı.*

**İ l h a m Ə l i y e v:** Xoş sözlərə görə sizə minnətdaram. Mən bilirəm ki, «Atletiko Madrid» futbol komandasının çox böyük tarixi vardır. Nəinki İspaniyada, dünya miqyasında sizin komandanızın xüsusi yeri vardır. Əlbəttə, bu əməkdaşlıq bizə imkan verəcəkdir ki, Azərbaycanda futbolun səviyyəsi daha da qalxsın və əlaqələrimiz daha da geniş olsun.

*Dövlətimizin başçısı «Atletiko Madrid» klubunun Azərbaycana gəlməsinin ölkəmizin komandaları ilə əməkdaşlığın genişləndirilməsi baxımından faydalı olacağına əminliyini bildirdi və bu səfərin idmançıların ölkəmizi daha da yaxından tanımaları üçün yaxşı imkan yaratdığını vurğuladı:*

– Mən çox şadam ki, siz indi Bakıdasınız, ölkəmizlə tanış olursunuz. Ümid edirəm ki, bu təmaslar bundan sonra da davam edəcəkdir.

*«Atletiko Madrid» klubunun prezidenti Enrikio Cerezo Azərbaycan ilə rəhbərlik etdiyi klub arasındakı əlaqələrin beynəlxalq idman aləmində real əməkdaşlığa çevriləcəyinə əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı «Atletiko Madrid» klubunun və ümumilikdə ispan futbol komandalarının əldə etdiyi uğurlar münasibətilə təbriklərini çatdırdı:*

– Deyə bilərəm ki, Azərbaycanda idman sürətlə inkişaf edir və çox yaxşı nəticələr vardır. I Avropa oyunları 2015-ci ildə Bakıda keçiriləcək. Londonda keçirilmiş son Olimpiya

oyunlarında da Azərbaycan çox yaxşı nəticə göstərmiş, 2-si qızıl olmaqla 10 medal qazanmış və ölkələr sırasında 30-cu yerdə olmuşdur.

**Arturo Fernandes** *(Madridin Ticarət Palatasının prezidenti):* Cənab Prezident! Biz bilirik ki, İspaniya ilə Azərbaycan arasında o qədər də çox işgüzar əlaqələr yoxdur. İndi isə «Atletiko Madrid» komandası ölkənizə səfər etmək imkanı qazanıb. Düşünürəm ki, ispan şirkətləri ilə ölkəniz arasında çox işlər görmək olar. Bu səfərdən sonra mən İspaniyaya, Madridə qayıdacağam. Bilirsiniz ki, Madriddə 7 milyon insan yaşayır və orada çoxlu şirkət fəaliyyət göstərir, onlar bizneslə məşğul olmaq istəyirlər və Azərbaycan da sahibkarlıqla məşğul olmaq üçün gözəl yerdir. Gözəl şəhərinizi, ölkənizi, buradakı inkişafı gördük. Ölkənizlə fəxr etməlisiniz. Bunu Madridə qayıtdıqda hər kəsə çatdıracağam ki, biz bizneslə məşğul ola bilərik, bizim üçün yaxşı imkanlar mövcuddur, biz şirkətlərimizi Sizin gözəl ölkənizə cəlb etməyə hazırıq. «Atletiko Madrid»ə və şəxsən mənim üçün buraya səfər etmək imkanı yaradıldığına görə təşəkkürümü bildirirəm.

**İlham Əliyev:** Çox sağ olun. Bəli, ölkələrimiz arasında əməkdaşlıq lazımi səviyyədə deyil, ola bilsin bu, məlumat azlığından irəli gəlir. Əminəm ki, İspaniyada o qədər də çox insan Azərbaycan haqqında məlumatlı deyildir. Azərbaycanda, əlbəttə ki, ölkənizi tanıyırlar, lakin İspaniyaya gedənlərin sayı çox deyil. Şübhəsiz, iş adamları bu istiqamətdə daha çox iş görməlidirlər. Bizim Avropa ölkələri ilə çox fəal əlaqələrimiz vardır və Avropa İttifaqı bizim bir nömrəli ticarət tərəfdaşımızdır. Bizim ixracın əksər hissəsi Avropa İttifaqınadır. Əlbəttə ki, Avropanın aparıcı ölkələrindən biri olan İspaniya şirkətləri bu işdə daha fəal ola bilərlər.

Azərbaycanda tikinti, infrastruktur, enerji və digər sahələrlə bağlı çoxlu layihələr həyata keçirilir. Lakin əfsuslar olsun ki, ispan şirkətlərinin bu layihələrdə iştirakı yetərli deyil və bu baxımdan sizin əlaqələriniz, Azərbaycan haqqında çatdıracağınız məlumat daha çox ispan şirkətlərinin ölkəmizə

gəlməsinə və birlikdə iş görməyimizə təkan verə bilər. Azərbaycanda yaxşı biznes imkanları, sərmayə mühiti mövcuddur. İqtisadiyyat daim inkişaf etməkdədir, böyük imkanlar vardır. Beləliklə, biz Azərbaycanda sizin ölkənizin daha çox şirkətlərini görmək istərdik.

**A r t u r o F e r n a n d e s:** Biz artıq enerji və digər sahələri əhatə edən 20–25 ispan şirkətinin nümayəndələrindən ibarət ticarət nümayəndə heyəti ilə ölkənizə səfərə gəlməyi planlaşdırırıq. Çox güman ki, təmsil etdiyim Ticarət Palatasının dəstəyi ilə səfər bu ilin noyabr–dekabr aylarında həyata keçiriləcəkdir. Biz əlaqələr qurmağa başlaya bilərik. Bilirəm ki, sizin İtaliya, Fransa, İngiltərə və digər ölkələrlə iş birliyiniz vardır. Əfsuslar olsun ki, İspaniya hələ də bu ölkələr sırasında deyildir. Mən səylərimi əsirgəməyəcəyəm ki, İspaniya da Azərbaycanda təmsil olunsun. Belə ki, ölkənizdə gözəl imkanlar mövcuddur. Azərbaycan çox cəlbedici ölkədir.

*Prezident İlham Əliyev Azərbaycanın Avropanın aparıcı ölkələri ilə fəal iqtisadi işbirliyi qurduğunu vurğulayaraq İspaniya ilə də iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi və Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini diqqətə çatdırdı. Bildirdi ki, son 10 ildə Azərbaycan iqtisadiyyatı 300 faiz, yəni 3 dəfə artıb. «Gələcək inkişafla bağlı çoxlu planlarımız vardır» – deyən dövlətimizin başçısı Azərbaycanın tərəfdaş kimi daha çox xarici şirkətlərlə əlaqələr qurmaq əzmində olduğunu vurğuladı. Prezident İlham Əliyev onu da bildirdi ki, bu baxımdan ispan şirkətləri ilə artıq başlanan iqtisadi işbirliyinin bundan sonra daha da genişləndirilməsi ölkələrimizin iqtisadi maraqlarına cavab verə bilər.*

**A r d a T u r a n** *(«Atletiko Madrid» futbol klubunun oyunçusu):* Cənab Prezident, əvvəlcə bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm. Biz «Azərbaycan» sözünü sinəmiz üstündə gəzdirdik. İspaniyada Azərbaycanın sponsorluğu ilə oynamaq bizim üçün, bir türk oyunçu olaraq xüsusilə mənim üçün çox böyük şərəfdir. Çünki bu gün Şəhidlər xiyabanını ziyarət edərkən söylədim ki, özümü həm bir türk, həm də bir

azərbaycanlı olaraq hiss edirəm. Təbii ki, biz eyni millətik, eyni kökdənik. Bakını bu qədər gözəlləşdirdiyiniz üçün Sizə minnətdaram. Bakıda əvvəllər də olmuşam. İndi daha möhtəşəm görünür. Gənc ölkə olmağınıza baxmayaraq, Azərbaycanın inkişafı çox möhtəşəmdir. Ona görə də Sizə çox təşəkkür edirəm.

Prezident olaraq ölkəni bu dərəcədə inkişaf etdirdiyiniz, insanlara qayğı göstərdiyiniz, bizi yüksək səmimiyyətlə, xoş münasibətlə qarşıladığınız üçün Sizə çox təşəkkür edirəm. Mən bir türk, bir azərbaycanlı olaraq həqiqətən, ev sahibi sayılıram. Ona görə çox şərəf duyuram. Bir daha təşəkkürümü bildirirəm.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun! Sizi görməyimə çox şadam. Əminəm ki, səfəriniz xoş keçəcək.

Bizim xüsusi münasibətlərimiz, xüsusi duyğularımız vardır. Bizi birləşdirən həm tarix, həm də bu gün vardır. Türkiyə–Azərbaycan, sözün əsl mənasında, iki dost, qardaş ölkədir. Sizin bu komandada iştirakınız bizi sevindirir. Çünki biz Türkiyənin uğurlarını öz uğurlarımız kimi qəbul edirik. Ümidvaram ki, Azərbaycana bundan sonra daha tez-tez gələcəksiniz.

*** * ***

*Futbolçular prezident İlham Əliyevə xatirə hədiyyələri təqdim etdilər.*

## YUNANISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ DİMİTRİOS AVRAMOPOULOSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Yunanıstan Respublikasının Xarici İşlər naziri Dimitrios Avramopoulosun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, turizm sahələrində inkişaf etdirilməsi, həmçinin Avropa İttifaqı və NATO çərçivəsində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

# BEYNƏLXALQ HAVA NƏQLİYYATI ASSOSİASİYASININ BAŞ DİREKTORU TONİ TAYLER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 aprel 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının baş direktoru Toni Tayleri qəbul etmişdir.*

*İqtisadiyyatın sürətli inkişafında aviasiya nəqliyyatının rolunu qeyd edən Toni Tayler dünyada bu sahənin tərəqqisinin vacibliyini bildirdi. O, Azərbaycanda dövlətin aviasiya nəqliyyatının inkişafına göstərdiyi diqqəti yüksək dəyərləndirdi.*

*Prezident İlham Əliyev Azərbaycanda aviasiya nəqliyyatına dövlətin daim qayğı göstərdiyini vurğuladı. Son illər dövlət vəsaiti hesabına ölkəmizin müxtəlif regionlarında müasir hava limanlarının inşa olunduğunu və yeni təyyarələrin alındığını qeyd edən dövlətimizin başçısı ölkənin biznes, turizm imkanlarının artırılmasında aviasiya nəqliyyatının önəmini vurğuladı.*

*Görüşdə Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası ilə «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti arasında əməkdaşlığın genişləndirilməsi, aviasiya nəqliyyatı sahəsində yeni tərəfdaşlıq əlaqələrinin qurulması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ NƏQLİYYAT KOMANDANLIĞI KOMANDANI UİLYAM FREYZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də ABŞ Nəqliyyat Komandanlığının komandanı Uilyam Freyzerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlərin ikitərəfli və çoxtərəfli formatda uğurlu inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin müxtəlif istiqamətlər üzrə tərəfdaşlıq xarakteri daşıdığı qeyd olunaraq müdafiə sahəsində əməkdaşlığın da yüksək səviyyədə olduğu vurğulandı.*

*ABŞ Nəqliyyat Komandanlığının komandanı Uilyam Freyzer Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyada birbaşa və daşımalar yolu ilə iştirakını yüksək qiymətləndirdi, bu sahədə fəal əməkdaşlığa görə prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.*

## AVROPA PARLAMENTİNİN AVROPA MÜHAFİZƏKARLAR VƏ İSLAHATÇILAR SİYASİ QRUPUNUN SƏDRİ MARTİN KALLANANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Avropa Parlamentinin Avropa Mühafizəkarlar və İslahatçılar Siyasi Qrupunun sədri Martin Kallananın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev özünün Brüsselə və Avropa İttifaqının prezidenti Herman Van Rompuyun və Avropa Komissiyasının prezidenti Joze Manuel Barrozunun, Avropa İttifaqının ali nümayəndəsi Ketrin Eştonun Azərbaycana uğurlu səfərlərini məmnunluqla xatırlatdı. Əməkdaşlığımızın yüksək səviyyədə olduğunu deyən dövlət başçısı bu əməkdaşlığı daha da genişləndirməyin önəmini vurğuladı.*

*Avropa Parlamentinin Avropa Mühafizəkarlar və İslahatçılar Siyasi Qrupunun sədri Martin Kallanan öz növbəsində Avropa İttifaqının əlverişli strateji mövqedə yerləşən Azərbaycan ilə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın perspektivlərindən, regional əlaqələrdən və digər məsələlərdən danışıldı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## ABŞERON VƏ QOBUSTAN RAYONLARINA SƏFƏR

*1 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Abşeron rayonunun Hökməli qəsəbəsində «AzFP CO LTD» MMC-nin tərkibində fəaliyyət göstərən birdəfəlik plastik qablar, priforminqlər, polistirol və polipropilen kisələr, süd məhsulları və dondurma istehsalı zavodlarının açılışında iştirak etmişdir.*

*«AzFP CO LTD» MMC-nin sədri Manuçehr Əhədpur Xangah dövlət başçısına məlumat verdi ki, 2006-cı ildən fəaliyyət göstərən şirkət tərəfindən Abşeron rayonunda yaradılan bu zavodlar və meyvə-tərəvəz soyuducu anbarları sahibkarlığın inkişafına göstərilən diqqətin bariz nümunəsidir. Müəssisələrdə 1500 nəfər işlə təmin olunub. Bu zavodların fəaliyyətə başlaması heyvandarlığın inkişafına müsbət təsir edəcəkdir. Zavodların yerləşdiyi ərazi ümumilikdə 8 hektardır. Müəssisələr ən son texnologiyalar əsasında yaradılmış, ərazidə geniş yaşıllıq işləri görülmüşdür.*

*Azərbaycan pezidenti birdəfəlik plastik qablar, priforminqlər istehsalı zavodunu işə saldı.*

*Prezident İlham Əliyev zavodun istehsal prosesi ilə tanış oldu. Bildirildi ki, zavodun tikintisinə 45 milyon manat vəsait sərf olunmuşdur. Müəssisənin gündəlik istehsal gücü 50 tondur. Burada 150 növdən çox polistirol, polipropilen xammalından qida məhsulları üçün istehlak taraları və priforminqlər istehsal olunur. Hazırda zavodda ilk mərhələdə 200 nəfər çalışır. İstehsal prosesi tam kompüterləşdirilib. Bütün proses vahid mərkəzdən idarə olunur.*

*Dövlət başçısı burada istehsal olunan hazır plastik qablara baxdı. Qeyd olundu ki, artıq sifarişlərin qəbuluna da başlanılıb.*

*Prezident İlham Əliyev polistirol və polipropilen kisələr istehsalı zavodunun fəaliyyəti ilə tanış oldu.*

*Diqqətə çatdırıldı ki, bu müəssisənin yaradılmasına 5 milyon manat investisiya qoyulub. Burada istehsal sahəsi 2 hissədən ibarətdir. Birinci hissə yarımməmulat xəttindən, ikinci hissə isə məmulat xəttindən ibarətdir. Müəssisə gün ərzində 13 çeşiddə 125 min kisə istehsal etmək gücünə malikdir.*

*Sonra prezident İlham Əliyev süd məhsulları və dondurma istehsalı zavoduna gəldi.*

*Bildirildi ki, «Milla» brendi altında fəaliyyət göstərən zavoda 49 milyon manat investisiya qoyulmuşdur. Bu istehsal müəssisəsi ən müasir standartlara cavab verir. Müəssisədəki texnoloji avadanlıq Avropadan dəvət olunan mütəxəssislər tərəfindən quraşdırılıb. Hazırda zavod yüksək keyfiyyətli «Milla» ticarət markası altında 56 növ süd məhsulları istehsal edir. Azərbaycan prezidenti südün emalı və qablaşdırılması prosesi ilə tanış oldu. Bildirildi ki, burada ultrayüksək temperaturda pasterizə edilmiş süd və süd məhsulları qablaşdırılır. «Milla» Azərbaycanda ilk dəfə laktozaya qarşı həssas insanlar üçün laktozasız süd istehsal edir. Zavodda, həmçinin müxtəlif çeşidli meyvəli yoğurt, dondurma, qatıq, xama, ayran, süzmə və qaymaq istehsal olunur. Zavodda ağartı məhsullarının tərkibinin və keyfiyyətinin standartlara uyğunluğunu müəyyənləşdirən müasir laboratoriya fəaliyyət göstərir.*

*Dövlət başçısı süd və dondurma istehsalı zavodunda buraxılan məhsulların nümayiş etdirildiyi stendlə tanış oldu.*

*Məlumat verildi ki, müəssisənin gündəlik istehsal gücü 250 ton təşkil edir. Müəssisədə kəsmik, pendir, kərə yağı, qatıq və müxtəlif çeşidli digər məhsulların da istehsalı üçün hazırlıq işləri aparılır. Zavodun xammalla təmin edilməsi üçün müəssisənin nəzdində respublikanın ayrı-ayrı bölgələrində heyvandarlıq kompleksləri yaradılmışdır.*

*Prezident İlham Əliyev müəssisənin fəaliyyəti ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## QOBUSTAN RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*1 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Qobustan rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin xatirəsini yad edərək Qobustan şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Rayon icra hakimiyyətinin başçısı Adil Məmmədov prezident İlham Əliyevə ümummilli liderin abidəsinin yerləşdiyi Heydər Əliyev parkında yaradılan şərait barədə məlumat verdi.*

### Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Qobustanda Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı Gənclər Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi və mərkəzlə tanış oldu.*

*Bildirildi ki, gənclərin ilkin sənət və peşə vərdişlərinə yiyələnmələrini təmin etmək və bütövlükdə onların intellektual səviyyələrinin yüksəldilməsi məqsədilə tikilmiş mərkəzdə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin gənclərlə görüşlərini əks etdirən fotoguşə yaradılıb. Yetişməkdə olan nəslin daha çox maraq göstərdiyi peşələrin sirlərinə yiyələnmələri üçün mərkəzdə müxtəlif kurslar və studiyalar fəaliyyət göstərəcəkdir. Kompüter kursları, rəqs və rəsm studiyaları, atıcılıq klubu üçün xüsusi otaqlar ayrılmışdır. Buradakı internet-kafe və 3D kinozalı gənclərin asudə vaxtlarını mənalı keçirmələrini təmin edəcəkdir. Mərkəzin binasının sahəsi 882 kvadratmetrdir. Burada bütün işçi və yardımçı otaqlar ən zəruri avadanlıqla təchiz olunmuşdur.*

*Ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində belə bir mərkəzin istifadəyə verilməsinin dərin rəmzi vardır. Çünki ümummilli lider Azərbaycan gənclərinin inkişafına, onların sosial məsələlərinin həllinə, gəncliyin savadlı və intellektual səviyyədə yetişməsinə xüsusi diqqətlə yanaşırdı. Ulu öndərin formalaşdırdığı dövlət gənclər siyasəti bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2003-cü ildən bu sahədə kompleks tədbirlər reallaşdırılır. Belə ki, 2005–2009-cu illəri əhatə edən «Azərbaycan Gəncliyi» Dövlət Proqramının uğurlu icrası bu baxımdan çox mühüm rol oynamışdır. «Azərbaycan Gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı indiyədək həyata keçirilən işlərin davamlı xarakter daşıdığını göstərir. Dövlət gənclərimizin intellektual və yaradıcı potensialının üzə çıxarılması və ümummilli məsələlərə yönəldilməsi, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü iş aparır. Respublikamızın bölgələrində, o cümlədən Qobustanda yaradılan və müasir tələblərə cavab verən Gənclər Mərkəzi də bu qəbildən reallaşdırılan tədbirlər sırasındadır.*

## Bayraq Meydanında yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev mayın 1-də Qobustana səfəri çərçivəsində rayon mərkəzindəki parkda Bayraq Meydanında yaradılmış şəraitlə tanış olmuşdur.*

*Ölkəmizdə dövlət rəmzlərimizə hörmət və məhəbbət ulu öndərin xalqımıza ən böyük əmanətlərindən biridir. Müstəqilliyimizin hər bir atributunun Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilməsi prezident İlham Əliyevin Bakıda möhtəşəm Bayraq Meydanının yaradılması barədə qərarından qaynaqlanır. İndi ölkənin hər bir bölgəsinin ən uca, ən baxımlı yerində üçrəngli, ay-ulduzlu bayrağımız dalğalanır. Qobustan rayonunun mərkəzində yaradılmış Bayraq Meydanı da sakinlərin ən çox üz tutduqları məkanlardan biridir.*

*Məlumat verildi ki, 2 hektar ərazini əhatə edən meydanda ucaldılmış bayraq dirəyinin hündürlüyü 50 metrdir. Bayrağın*

*eni 10, uzunluğu 20 metrdir, 6 ay müddətində inşa olunmuş Bayraq Meydanında geniş abadlıq işləri aparılmışdır.*

*Yaradılmış şəraiti yüksək qiymətləndirən dövlət başçısı tapşırıq və tövsiyələrini verdi.*

## Bağ-Bağat Mərkəzində yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev mayın 1-də Qobustan Bağ-Bağat Mərkəzində yaradılmış şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısı elektromobillə mərkəzin ərazisini gəzdi.*

*Məlumat verildi ki, paytaxt Bakı ilə yanaşı, ölkəmizin bütün regionlarında beynəlxalq standartlara cavab verən istirahət mərkəzləri və hotellər tikilib istifadəyə verilir. Onlardan biri də Qobustan Bağ-Bağat Mərkəzidir. Burada Qobustan sakinlərinin və qonaqların istirahətinin səmərəli təşkili üçün gözəl şərait yaradılmışdır.*

*Bildirildi ki, 2 il əvvəl istifadəyə verilmiş bu mərkəz rayon sakinlərinin və qonaqların mənalı istirahət yerinə çevrilib. Ərazidə 3 istirahət meydançası yaradılmış, müxtəlif attraksionlar quraşdırılmışdır. Buradakı 2 süni göl istirahətin maraqlı keçməsinə xidmət edir. Zövqlə əkilmiş gözoxşayan ağac və gül kolları mərkəzdə istirahət edənlərdə xoş təəssürat yaradır. Mərkəzdə gecələmək və yaxud istirahət etmək istəyənlər üçün dördmərtəbəli hotel tikilir. İnşası başa çatmaqda olan bu hotel ən müasir standartlara cavab verəcəkdir.*

*Qobustan Bağ-Bağat Mərkəzində yaradılmış şəraitdən məmnunluğunu bildirən dövlət başçısı tapşırıq və tövsiyələrini verdi.*

## Qobustan–Xilmilli avtomobil yolunda aparılan yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev mayın 1-də Qobustan–Xilmilli avtomobil yolunda aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Azərbaycan prezidenti yol ilə bağlı məlumatları və fotoşəkilləri əks etdirən stendə baxdı.*

*Dövlət başçısının tapşırıqlarına əsasən regionlarda yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və müasirləşdirilməsi son illərdə daha geniş vüsət almışdır. Hazırda respublikamızda kənd yollarının inşası da diqqət mərkəzindədir. Bu çərçivədə Qobustan–Xilmilli yolunun yenidən qurulması artıq başa çatdırılmışdır.*

*Məlumat verildi ki, yolun tikintisinə 2011-ci ilin sentyabrında başlanılmışdır. Bu yol 13 min nəfərin yaşadığı 6 kəndi rayon mərkəzi ilə birləşdirir. Qobustan–Xilmilli yolunun ümumi uzunluğu 23 kilometrdir. Azərbaycan prezidentinin sərəncamına əsasən vacib əhəmiyyət kəsb edən həmin infrastruktur obyektinin reallaşdırılmasına 2011-ci ildə 2 milyon, ötən il isə 5,3 milyon manat vəsait ayrılmışdır. Yeni yol Qobustan rayonunun Xilmilli, Sündü, Bəklə, Nabur, Cəyirli və Çalov kəndlərinin sakinlərinin rahat gediş-gəlişinə hərtərəfli imkan yaradır.*

*Dövlətimizin başçısı sakinlərlə görüşdü, yeni yolun açılışı münasibətilə onları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Xoş gördük. Sizi salamlayıram. Yol çəkilibdir, rahatdır, yaxşı istifadə etmək olar. Yol olan yerdə inkişaf və rahatlıq da vardır. Bu, 6 kəndi birləşdirən bir yoldur. Özü də yüksək keyfiyyətlə tikilmişdir. Azərbaycan dövləti insanların rahatlığı üçün nə lazımdırsa, onu da edir.

**S a k i n l ə r:** Çox sağ olun, cənab Prezident. Allah Sizdən razı olsun. Sizə minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Əvvəlki yolun vəziyyətini siz hamıdan yaxşı bilirsiniz, gediş-gəliş çox çətin idi, əziyyət verirdi. Amma

indi rayon mərkəzinə, Bakıya, digər şəhərlərə rahat gedib-gəlmək olar. Yol tikintisi Azərbaycanda sürətlə gedir. Əlbəttə ki, biz ilk növbədə əsas şəhərləri birləşdirən yolların tikintisi ilə məşğul olmuşuq. Bakı–Şamaxı yolu yenidən tikilmişdir, indi isə genişləndirilir, dördzolaqlı yol olacaqdır. Yəni indi Bakı ilə Şamaxı arasında məsafə vaxt baxımından daha da qısalacaqdır. Çünki rahat getmək olacaqdır. Əlbəttə, magistral yolların təmiri və tikintisindən sonra biz kənd yollarının inşası ilə məşğul olmağa başlamışıq və bu yol da bunun gözəl nümunəsidir.

**S a k i n l ə r:** Gözəldir. Çox sağ olun, cənab Prezident. Sizə minnətdarıq. Allah Sizdən razı olsun, işinizi avand etsin. Sizə təşəkkür edirik, çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Qobustanda 30 yaşayış məntəqəsi vardır. Bu yol 6 kəndi birləşdirir. Biz digər dağ kəndlərinə gedən yolları təmir edəcəyik ki, bütün camaat razı qalsın. Sizi bir daha təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun. Allah sizə cansağlığı versin. Allah işinizi avand etsin. Həmişə Siz gələsiniz.

*Azərbaycan prezidenti yeni yolda avtomobili özü idarə etdi. Xilmilli kəndinin sakinləri ilə də görüşən prezident İlham Əliyev onların həyat şəraiti ilə maraqlandı.*

**İ l h a m Ə l i y e v:** Necə yaşayırsınız?

**S a k i n:** Əla yaşayırıq. Çox sağ olun. Bizi hər şeylə təmin edirsiniz. Qazımız gəlir, işığımız, suyumuz var.

**İ l h a m Ə l i y e v:** Daha da yaxşı olacaqdır. Yol çəkdirmişik, rahat gedib-gəlmək olar. Dolanışığınız necədir?

**S a k i n:** Lap yaxşıdır. Yaxşı dolanırıq. Hər şeyimiz var. Allah Sizdən razı olsun. Biz yaxşı yaşayırıq.

**İ l h a m Ə l i y e v:** Yerli hakimiyyət sizə necə baxır?

**S a k i n:** Lap yaxşı baxır. Cənab Prezident, Allah canınızı sağ eləsin, Sizə uzun ömür versin. Təkcə problem yolumuz idi. Yolumuzu, qazımızı çəkdirmisiniz. Çox sağ olun.

## Qobustan İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev mayın 1-də Qobustan İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı kompleksin rəmzi açılışını bildirən qırmızı lenti kəsdi. Gənclər və İdman naziri Azad Rəhimov Azərbaycan prezidentinə məlumat verdi ki, paytaxt Bakı ilə yanaşı, regionlarda da inşa olunan nəhəng idman obyektləri ölkəmizin idman potensialının nümayişinin, gənclərimizin bu sahəyə meylinin artmasının göstəricisidir. Bütün bunlar isə ilk növbədə, dövlət başçısının idmanın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Təsadüfi deyildir ki, bu gün Azərbaycan nəhəng idman hərəkatının yaşandığı məkana çevrilib. Çoxlu sayda olimpiya idman komplekslərinin, ixtisaslaşmış idman obyektlərinin istifadəyə verilməsi bu prosesin dinamikasını göstərən əsas amillərdir. Dövlətin qarşıya qoyduğu əsas məqsədlərdən biri fiziki və mənəvi cəhətdən sağlam nəslin yetişməsi üçün hər yerdə idman, sağlamlıq komplekslərinin yaradılmasıdır. Dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin bölgələrdə bir-birinin ardınca istifadəyə verilən nəhəng idman qurğularının açılışında iştirakı bu sahəyə verilən əhəmiyyətin əyani təsdiqidir.*

*Qeyd olundu ki, kompleksdə müxtəlif idman yarışlarının, təlim-məşq toplantılarının və digər tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır. Foyedə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb.*

*Bildirildi ki, kompleksin ərazisi 2,67 hektar, binanın ümumi sahəsi isə 3,5 min kvadratmetrdir. Ümumi smeta dəyəri 5 milyon manat olan kompleks Gənclər və İdman Nazirliyinin sifarişi əsasında inşa edilmişdir. Burada idmanın müxtəlif növləri ilə məşğul olmaq istəyən gənclərin məşqləri və yarışların*

*keçirilməsi üçün hər cür şərait vardır. Kompleksdə, həmçinin 900 nəfərlik zal, müxtəlif iş və yardımçı otaqlar mövcuddur.*

*Prezident İlham Əliyev yeni idman qurğusunun futbol, basketbol, tennis meydançalarına baxdı.*

*Qeyd edildi ki, burada yaradılan şərait müxtəlif yerli və beynəlxalq tədbirləri ən yüksək səviyyədə keçirməyə imkan verir. Kompleksin ərazisi başdan-başa yaşıllaşdırılmış, burada minə yaxın müxtəlif növ ağac əkilmişdir.*

*Dövlət başçısına Lənkəran və Tərtər olimpiya idman komplekslərinin eskiz layihələri təqdim olundu.*

*Sonra prezident İlham Əliyev Qobustan rayon ictimaiyyətinin nümayəndələri və idmançılarla görüşdü.*

## QOBUSTAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*1 may 2013-cü il*

Yenidən Qobustan rayonunda olmağımdan çox məmnunam. Çox şadam ki, rayonda işlər yaxşı gedir, quruculuq-abadlıq işləri aparılır, rayonun siması dəyişilir və Qobustan rayonunda gözəl obyektlər istifadəyə verilir. Bu gün biz həm Gənclər Mərkəzinin, həm də idman kompleksinin açılışını qeyd edirik. Çox gözəl, əlamətdar hadisədir. İdman kom-pleksinin açılışı, ümumiyyətlə, çox gözəl hadisədir. Çünki idmanla məşğul olmaq üçün burada bütün imkanlar olacaqdır. Xüsusilə uşaqlar, yeniyetmələr, gənc idmançılar burada məşğul olacaqlar, öz sağlamlıqlarını qoruyacaqlar. Ümid edirəm ki, bu mərkəzdə məşğul olacaq uşaqlar gələcəkdə peşəkar idmançılar kimi böyüyəcəklər. Çünki bu gün Azərbaycan idman dövlətidir. İdmanın bütün növləri inkişaf edir, çox gözəl nəticələrimiz vardır. Azərbaycan idmançıları müxtəlif beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil edirlər. Əlbəttə ki, ən böyük idman yarışı olan Olimpiya oyunlarında da Azərbaycan yüksək yerlərdədir. Keçən il keçirilmiş Olimpiadada idmançılarımız 10 medal qazanmışlar – bu, tarixi bir nailiyyət idi – və dünya miqyasında 30-cu yerə layiq görülmüşlər. Avropada isə 15-ci yeri tutmuşuq.

Bəlkə də buna görə və əlbəttə, başqa amillər burada öz rolunu oynamışdır ki, birinci oyunlar – Avropa oyunları 2015-ci ildə Azərbaycanda keçiriləcəkdir. Bax, bu günlərdə Avropa Olimpiya Komitəsinin bütün rəhbərliyi Bakıdadır, görüşlər, təqdimatlar keçirilir. Artıq Avropa Olimpiya Komitəsi Koordinasiya Komitəsi yaratmışdır ki, Azərbaycanla bərabər, Avropa oyunlarına hazırlıq işlərini yüksək səviyyədə görsün. Yəni biz idman ölkəsiyik və əlbəttə bütün bölgələrdə, bütün

şəhərlərdə idmanla məşğul olmaq üçün gözəl şərait yaradılmalıdır.

Biz 2000-ci ildən bu proqramı başlamışıq və o vaxtdan bu günə qədər 35 idman mərkəzi, Olimpiya Mərkəzi tikilmişdir, bu mərkəz 36-cıdır. Qobustanın inkişafı üçün bu mərkəzin, ümumiyyətlə, böyük əhəmiyyəti vardır. Yaxınlıqda Gənclər Mərkəzi yerləşir. Bu da son illər ərzində bütün ölkəmizdə geniş vüsət almış bir təşəbbüsdür. Hər şəhərdə Gənclər mərkəzləri yaradılır. Onların çox gözəl imkanları vardır, funksional cəhətdən də çox əhəmiyyətlidir ki, gənclər burada öz asudə vaxtlarını mənalı şəkildə keçirsinlər. Beləliklə, həm idman, həm gənclər siyasəti Azərbaycanda çox uğurla inkişaf edir.

O ki qaldı rayon qarşısında duran digər vəzifələrə, bu vəzifələr də icra edilir. Rayonda qazlaşdırma proqramı aparılır və artıq 70 faiz qazlaşdırma təmin edilmişdir, 100 faiz olmalıdır. Dağ kəndlərinə də qaz xətləri çəkilməlidir. Su layihələri icra edilir. Bu yaxınlarda kanalizasiya layihəsinin icrası başlanacaqdır. İnfrastruktur layihələrinin icrası prioritetdir. Kənd yolları təmir edilir. Vaxtilə rayon sakinləri müraciət etmişdilər. Vəsait ayrıldı, indi bir neçə kəndi birləşdirən yol istifadəyə verilmişdir. O kəndlərdə 13 minə qədər əhali yaşayır. Digər kəndlərə də yollar çəkiləcəkdir. Bütün bu məsələlər regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulur. Bu da çox vacib məsələdir. İndi hər bir yerdə kənd yollarına böyük vəsait ayrılır ki, biz bu məsələni də həll edək. Ümid edirəm ki, yaxın 2-3 il ərzində Azərbaycanda bütün kənd yolları yüksək keyfiyyətlə yenidən qurulub istifadəyə veriləcəkdir. Bu yollar, əlbəttə ki, ölkəmizin ümumi inkişafına təkan verəcəkdir.

Əlbəttə, kənd yollarının tikintisi mühüm sosial məna daşıyır. Çünki vətəndaşlar normal şəraitdə yaşamalıdırlar. Yəni Qobustanda, demək olar ki, bütün infrastruktur layihələri icra edilir.

Keçən dəfə burada olarkən biz elektrik stansiyasının açılışını qeyd etmişdik. Bu stansiya nəinki Azərbaycanda, bütün bölgədə bərpa olunan enerji istehsal edən birinci hibrid stansiyadır.

Orada həm külək, həm günəş qurğuları ilə elektrik enerjisi istehsal olunur. Ümid edirəm ki, gələcəkdə Qobustan rayonunun enerjiyə olan bütün tələbatını bərpa olunan enerji növləri təmin edəcəkdir. Bu bir pilot layihədir. Əminəm ki, bu layihə uğurlu olacaq və gələcəkdə biz bu təcrübəni başqa rayonlarda da tətbiq edəcəyik.

Bilirəm ki, problemlər də vardır. O problemlər tədricən öz həllini tapır. Məktəblər tikilir, ancaq hələ də qəzalı vəziyyətdə olan məktəblər vardır və onlar da təmir olunmalıdır. Biz rayon mərkəzi xəstəxanasının layihəsinə gərək yenidən baxaq. Çünki vaxtilə qəsəbə xəstəxanası kimi tikilmişdir. Bu məsələyə də baxılacaqdır. Digər kəndlərə gedən yolların tikintisi üçün əlavə vəsait ayrılacaqdır. Yəni bu işlər nəzərdə tutulur. Nəzərdə tutulmayan işləri biz Dövlət Proqramına əlavə edəcəyik ki, Qobustanın bütün infrastruktur və sosial məsələləri öz həllini tapsın. İşin gedişatı onu göstərir ki, biz buna nail olacağıq. Çünki ölkə üzrə hər bir yerdə, hər bir şəhərdə quruculuq-abadlıq işləri, böyük layihələr icra olunur.

Azərbaycan sürətlə inkişaf edir. Bizdə olan inkişaf templəri dünya miqyasında ən yüksəkdir. Son 10 ilin tarixi bunu göstərir və biz bundan sonra da yüksək templərlə inkişaf edəcəyik. Baxmayaraq ki, indi dünyada, Avropada böhran dərinləşir, insanlar öz işlərini itirirlər, iş yerləri ixtisar olunur, maaşlar kəsilir və görürük ki, bu nə qədər böyük problemlərə gətirib çıxarır. Ancaq Azərbaycanda biz bunun tam əksini görürük. Böhran bizə heç bir təsir etməmişdir. Çünki bizim çox düşünülmüş siyasətimiz vardır. Həm iqtisadi sahədə, həm sosial məsələlərin həllində müstəqil siyasətimiz vardır. Bax, bu müstəqil siyasətimiz bizi həmin problemlərdən qorudu.

Biz, əlbəttə ki, dünya iqtisadiyyatına inteqrasiya edirik və etmişik. Bazar iqtisadiyyatını tam şəkildə tətbiq etmişik. İqtisadi sahədə bizim tam müstəqil siyasətimiz vardır. Bu siyasət özünü həm iqtisadi islahatlarda göstərir, eyni zamanda, maliyyə-kredit siyasətimiz də tam müstəqildir, milli valyutanın məzənnəsi sabitdir, 1-2 il əvvəl bölgənin bir çox ölkələrində milli

valyuta devalvasiyaya uğramışdı, yəni qiymətdən düşmüşdü və insanlar bundan böyük əziyyət çəkmişlər. Ancaq Azərbaycanda manatın məzənnəsi gündən-günə güclənir və indi 1 manat 1 avroya bərabərdir. Yəni bu nailiyyətlərə çatmaq üçün, əlbəttə, düşünülmüş siyasət və müstəqil xətt olmalıdır. Bax, bunlar Azərbaycanda vardır. Ölkəmizin bundan sonra da uğurlu inkişafı üçün bütün proqramlar vardır və qəbul edilmişdir. Bu ilin sonunda regionların inkişafına dair ikinci Dövlət Proqramı başa çatır. İndi hökumət üçüncü proqram üzərində işləyir. Üçüncü beşillik proqram bütün rayonlarda görüləcək işləri əhatə edəcək və 2018-ci ilə qədər bir dənə də olsun nə iqtisadi, nə sosial, nə infrastruktur problemi qalmayacaqdır.

Qobustan rayonunun timsalında, böyüklüyündən, kiçikliyindən asılı olmayaraq hər bir rayonun inkişafı bizim üçün prioritetdir. Qobustan əhalisinin sayı baxımından o qədər də böyük rayon deyil. Ancaq burada yaşamaq, işləmək üçün bütün şərait yaradılır və bundan sonra da yaradılacaq. Belə gözəl idman və gənclər mərkəzləri bunun bariz nümunəsidir. Bu gözəl hadisə və əldə edilmiş uğurlar münasibətilə sizi təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram.

**B a b ə k A l ı b a b a y e v** *(rayon sakini):*Möhtərəm cənab Prezident, rayonumuza xoş gəlmisiniz!

İcazə verin, Qobustan ictimaiyyəti və idmançıları adından Sizi salamlayım. Bu gün istifadəyə verilən bu möhtəşəm idman kompleksi bizə çox böyük bir hədiyyədir. 8-10 il bundan qabaq bütün Azərbaycan gəncləri kimi, belə bir kompleksin olmasını yalnız arzu edə bilərdik. İndi isə belə mərkəzlər respublikamızın hər yerində tikilir. Bu möhtəşəm kompleksə görə gənclərimizin, idmançılarımızın dərin minnətdarlığını Sizə çatdırıram. Sizin rəhbərliyinizlə ölkəmizdə idman gündən-günə inkişaf edir. İdmanın maddi-texniki bazası güclənir, uğurlarımız artır. Məhz bunun nəticəsində elə bir mötəbər idman tədbiri yoxdur ki, orada Azərbaycanın himni səslənməsin, bayrağımız yüksəlməsin.

Azərbaycan həm də dünyada mötəbər tədbirlərin keçirildiyi bir mərkəzə çevrilmişdir. Avropa oyunlarının 2015-ci ildə

tarixdə ilk dəfə ölkəmizdə keçiriləcəyi bizə qürur verir. Bu Sizin misilsiz əməyinizin nəticəsidir, cənab Prezident! Qobustan idmançıları respublika yarışlarında uğurla çıxış etmişlər. Düzdür, rayonumuzda Olimpiya, Avropa, dünya çempionları yoxdur. Lakin Sizin bu gün bizə bəxş etdiyiniz bu möhtəşəm kompleks Qobustan idmanında bir məşəl olacaqdır. Bu məşəli bizə Siz verdiniz, cənab Prezident. Sizi əmin edirik ki, bu kompleksdə yeni olimpiya, dünya çempionları yetişəcəkdir.

Bu gün Gənclər Mərkəzi də istifadəyə verildi.

Möhtərəm cənab Prezident, Siz ulu öndər Heydər Əliyevin siyasətini bütün sahələrdə uğurla davam etdirirsiniz. İnsanlarımızın yaxşı yaşaması, işləməsi, onların rahat istirahəti üçün hər cür şərait yaradılır. Qobustan da bu inkişafdan kənarda qalmamışdır. 2007-ci ildə Sizin Qobustana ilk gəlişiniz rayonumuzda yeni bir inkişaf mərhələsi oldu. Susuz səhranı xatırladan bu yerlərdə indi Qobustan şəhəri saldınız. Şəhərimiz gündən-günə abadlaşır, gözəlləşir. Bu, təkcə şəhərlərimizlə əhatə olunmur. Ən ucqar kəndlərimizdə belə, bu gün asfalt işləri görülür, qaz, su çəkilir. İnsanları narahat edən bütün problemlər öz həllini tapır. Qobustanlılar bunu görür və yüksək qiymətləndirirlər.

Bütün bunlara görə Sizə və Mehriban xanıma rayonumuzun ictimaiyyəti adından dərin təşəkkür və minnətdarlığımızı bildiririk. Bu gün Azərbaycan Respublikasında gənclərimiz üçün hər bir şərait yaradılmışdır. Onlar diqqət və qayğı ilə əhatə olunmuşlar. Məhz bunun nəticəsidir ki, ölkəsini, dövlətini sevən, onunla fəxr edən gənc bir nəsil yetişir. Bu gənc nəsil bu gününü, sabahını, gələcəyini yalnız və yalnız Sizinlə görür. Sizə möhkəm cansağlığı, uzun ömür diləyir və bildiririk ki, Azərbaycan gəncliyi, Azərbaycan idmançıları daim Sizinlədir.

## KƏND TƏSƏRRÜFATI KREDİTLƏRİ ÜZRƏ BEYNƏLXALQ KONFEDERASİYANIN 43-cü KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Kənd Təsərrüfatı Kreditləri üzrə Beynəlxalq Konfederasiyanın 43-cü konfransının iştirakçılarını səmimi-qəlbdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

Müxtəlif ölkələri təmsil edən və kənd təsərrüfatını kreditləşdirən 100-dən çox bank və maliyyə təşkilatının birləşdiyi Beynəlxalq Konfederasiyanın növbəti toplantısının Bakıda keçirilməsini əhəmiyyətli hesab edirəm.

Dünyada ərzaq təhlükəsizliyi məsələlərinə həssaslıqla yanaşıldığı bir dövrdə kənd təsərrüfatını kreditləşdirən maliyyə institutlarının bir araya gələrək bu sahədə təcrübə mübadiləsi aparması, mövcud problemləri müzakirə etməsi və onların həlli yollarını araması təqdirəlayiqdir.

Azərbaycan Respublikası iqtisadiyyatın şaxələndirilməsini iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Belə bir vəzifənin reallaşdırılması ilk növbədə aqrar-sənaye kompleksinin inkişaf etdirilməsini, bu sahənin maliyyə resursları ilə təminatının yaxşılaşdırılmasını tələb edir. Ölkəmizdə kənd təsərrüfatı dövlət tərəfindən davamlı olaraq dəstəklənir, fermerlərə subsidiyalar və güzəştli kreditlər ayrılır, aqrar infrastrukturun yaradılmasına hər cür köməklik göstərilir. Müasir aqrobiznesin inkişafı həm də texnoloji yeniləşmənin, innovativ dəyişikliklərin maliyyə qurumları tərəfindən dəstəklənməsindən, fermerlərin kredit əldəetmə imkanlarının genişləndirilməsindən asılıdır.

Ümidvaram ki, konfrans aqrar sahə üzrə layihələrə iri maliyyə institutlarının diqqətinin cəlb edilməsi, qarşılıqlı faydaya əsaslanan birgə fəaliyyətin həyata keçirilməsi, kənd təsərrüfatının kreditləşdirilməsi sahəsində beynəlxalq təcrü-

bənin öyrənilməsi və ərzaq təhlükəsizliyi sahəsində qlobal çağırışların nəzərə alınması baxımından əhəmiyyətli olacaq.

Konfransın işinə bir daha müvəffəqiyyətlər, sizə isə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 may 2013-cü il*

# AVROPA İTTİFAQININ GENİŞLƏNMƏ VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI ŞTEFAN FÜLENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Avropa İttifaqının Genişlənmə və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Ştefan Fülenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkəmizlə Avropa İttifaqı arasında uğurlu əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, münasibətlərimizin genişlənməsində qarşılıqlı səfərlərin önəmi qeyd edildi, enerji və terrorizmə qarşı mübarizə sahələrində əməkdaşlığımızın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif sahələrdə yaxşı nəticələr verdiyi bildirildi, əməkdaşlığımızın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## *bp* ŞİRKƏTİNİN PREZİDENTİ ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də bp şirkətinin prezidenti Robert Dadlini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında uzunmüddətli uğurlu əməkdaşlığın mövcud olduğu bildirilərək əməkdaşlığımızın strateji xarakter daşımasından məmnunluq ifadə edildi.*

*bp şirkətinin prezidenti Robert Dadli «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Söhbət zamanı «Şahdəniz» yatağında işlərin uğurla həyata keçirildiyi vurğulandı, əməkdaşlığımızın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Yüz illər boyu yüksək mənəvi-əxlaqi dəyərlərin və etnik-dini tolerantlıq ənənələrinin qorunub saxlandığı Azərbaycan cəmiyyətində ayrı-ayrı xalqlar, dinlər və etiqadlar arasında qarşılıqlı hörmət, etimad və qardaşlıq münasibətləri mövcud olmuşdur. Biz bunu milli dövlətçiliyimizin böyük uğuru kimi qiymətləndirir, tarixi-mənəvi irsin və etnik-mədəni müxtəlifliyin qorunmasını, multikulturalist ənənələrə söykənən ictimai münasibətlərin təbliğini və təşviq edilməsini fəaliyyətimizin başlıca istiqamətlərindən biri hesab edirik.

Çoxmillətli və çoxkonfessiyalı cəmiyyətimizdə xristian icmasının özünəməxsus yeri vardır. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları, o cümlədən pravoslav xristianlar öz hüquq və azadlıqlarından lazımınca yararlanmaqla, ölkəmizdə gedən böyük inkişaf və quruculuq prosesində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirirlər.

Yeniliyin, əmin-amanlığın, həmrəylik və mərhəmət duyğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Qoy bu nurlu bayram ailələrinizə sevinc, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 may 2013-cü il*

## CÜDO FEDERASİYASININ VƏ BEYNƏLXALQ AVTOMOBİL FEDERASİYASININ PREZİDENTLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Cüdo Federasiyasının prezidenti Marius Vizeri və Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Jan Todu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda idmana göstərilən yüksək dövlət qayğısından danışıldı, idmanın bütün sahələrinin inkişafı üçün yaradılan infrastruktur layihələrinin önəmi qeyd olundu, ölkəmizdə avtomobil idmanı növlərinin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.*

*Azərbaycandakı müvafiq qurumlarla Beynəlxalq Avtomobil Federasiyası arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı Cüdo Federasiyasının prezidenti Marius Vizerin və Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Jan Todun Azərbaycana səfərinin bu təşkilatlarla ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*3 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Sumqayıt şəhərinə gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov prezident İlham Əliyevə abidənin ətrafında görülmüş abadlıq işləri barədə məlumat verdi.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Sumqayıta səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı əvvəlcə Mərkəzin yerləşdiyi Heydər Əliyev parkında yaradılmış şəraitlə tanış oldu.*

*Parkın girişində ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb. Prezident İlham Əliyevə məlumat verildi ki, park sakinlərin istirahəti üçün üz tutduqları ən sevimli məkanlardan biridir. Burada şəhər sakinlərinin və qonaqların asudə vaxtlarını mənalı və maraqlı keçirmələri üçün hər cür şərait yaradılmışdır. İstirahət məkanında balacalar üçün xüsusi attraksionlar quraşdırılmışdır. Kompleks yenidənqurma, abadlaşdırma və yaşıllaşdırma işləri bu istirahət məkanını Sumqayıtın ən gözəl yerlərindən birinə çevirmişdir.*

*Prezident İlham Əliyev parkda inşa olunmuş Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Diqqətə çatdırıldı ki, Mərkəzin yaradılması ilk növbədə sumqayıtlıların dahi rəhbərin xatirəsinə yüksək ehtiramını*

*nümayiş etdirir. Yeni Mərkəz həm də ulu öndərin zəngin və çoxşaxəli irsinin öyrənilməsində və təbliğində mühüm rol oynayır. Mərkəzdəki eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən tərəqqi mərhələsinə qədəm qoyması və hazırda ölkəmizin hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması məhz ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır.*

*Bildirildi ki, ümumi sahəsi 1040 kvadratmetr olan Mərkəzdə dünya şöhrətli siyasi xadim Heydər Əliyevə aid kitablar və sənədlər sərgilənir. Fotolarda ulu öndərin uşaqlıq, yeniyetməlik, tələbəlik, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi dövr, hakimiyyətdə olduğu illərdə Sumqayıta səfərləri əks olunmuşdur.*

*Mərkəzdə prezident İlham Əliyevin Sumqayıta səfərləri ilə bağlı fotoguşə də yaradılmışdır. Burada konfrans zalı, inzibati hissə, rəsm və dizayn studiyası, elektron kitabxana, virtual sinif və kompüter kursu otaqları fəaliyyət göstərir. Bütövlükdə Mərkəz Heydər Əliyev irsinin dərindən öyrənilməsi və gənclərin intellektual səviyyələrinin yüksəldilməsində mühüm əhəmiyyətə malik olacaqdır. Heydər Əliyev Mərkəzi həm də şəhərin görünüşünə əlavə gözəllik verir.*

*Prezident İlham Əliyev Mərkəzdə yaradılmış şəraitdən razılığını bildirdi.*

## Bayraq Meydanında yaradılan şəraitlə tanışlıq

*Prezident İlham Əliyev mayın 3-də Sumqayıtdakı Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısına məlumat verildi ki, burada təmir işlərinə 2012-ci ildə başlanılıb. Meydanda 72 metr hündürlükdə dalğalanan bayrağın uzunluğu 20, eni isə 10 metrdir. Bundan başqa, əraziyə bitişik park da gözəl tərtibatda yenidən qurulub. Ətrafda geniş abadlıq-quruculuq və yaşıllıq işləri görülüb. Burada 18 min kvadratmetr sahəyə daş plitə döşənib, müasir işıqlandırma sistemi qurulub.*

*Prezident İlham Əliyev Bayraq Meydanında görülmüş işlərdən razılığını bildirdi.*

## Cümə məscidində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev mayın 3-də Sumqayıtdakı Cümə məscidində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısı Cümə məscidinin yenidənqurmadan əvvəlki vəziyyətini əks etdirən fotolara baxdı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ibadətgahın təməli 1989-cu ildə qoyulmuşdur. 2003-cü ildə istifadəyə verilən məscidin ərazisi 4,5 hektardır. Burada eyni zamanda, 500 nəfər ibadət edə bilər. Məscid 2011-ci ilin iyulunda Azərbaycan prezidenti İlham Əliyev burada olarkən verdiyi tapşırığa müvafiq olaraq əsaslı təmir edilmişdir. Burada 34 metr hündürlüyündə minarə ucaldılıb. Mehrab yenidən qurulmuş, günbəzin daxilinə «Qurani-Kərim»dən ayələr həkk olunmuş, döşəmə əsaslı təmir edilmişdir. Məscidin istilik və elektrik sistemləri də tamamilə yenilənmiş, divarları üzlük daşlarla üzlənmiş, hasarı yenidən qurulmuşdur.*

*Azərbaycan prezidenti məscidin axundu ilə söhbət etdi.*

**Rauf Sərdarov** *(məscidin axundu):* Cənab Prezident, şəhərimizə xoş gəlmisiniz! Sizi ikinci dəfə şəhərimizin Cümə məscidində görməyimiz bizi çox sevindirir, xoşhal edir. Siz 2 il əvvəl bu məscidə baxmışdınız. Layihə hazırlanması, bərpa işləri görülməsi üçün tapşırıq vermişdiniz.

Allaha şükürlər olsun ki, əsaslı surətdə bərpa olunan, yeni minarəsi tikilən məscidimiz bu gün möminlərin ixtiyarına verilir. Bu bizi çox sevindirir. Bu Sizin dinimizə olan məhəbbətiniz və sayğınızdır. Sizə minnətdarıq.

Cənab Prezident! Sizin bu gün buraya gəlişiniz bir neçə cəhətdən bizim üçün bayramdır. Əvvəla, ölkənin rəhbəri şəhərimizə, məscidimizə gəlib. Bu bizim üçün bayramdır. Bu gün həm də məscidimizin açılışı olacaqdır. Bu, ikinci bayramdır.

Üçüncü bayram isə məscidimizin adı ilə bağlıdır. Bu, «Cümə» məscidi adlanır. Siz də çox gözəl gündə, cümə günündə buraya gəlmisiniz. Cümə günündə də yüz minlərlə insan bir araya yığışıb ibadət, dua edirlər. Cümə Allahın rəhminin yerdə nazil olan günüdür.

Bundan əlavə, cənab Prezident, sonuncu peyğəmbərimiz, islam dininin banisi həzrəti Rəsulullahın qızı Fatimeyi-Zəhranın doğum günüdür. Bu da bir gözəl gündür.

*Axund Rauf Sərdarov Sumqayıtdan olan zəvvarların Həcc ziyarətinin təşkilinə görə prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdi. Azərbaycanda dini-mənəvi dəyərlərin qorunması, məscidlərin, ziyarətgahların inşası və bərpası istiqamətində ulu öndər Heydər Əliyevin həyata keçirdiyi böyük işlərin davam etdirilməsinə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi:*

– Bütün bunlar üçün biz Sizə təşəkkür edir, ulu öndərə rəhmət diləyirik. Allah Sizi qorusun. Allah Sizə, ailənizə xoşbəxtlik, səadət nəsib etsin. Qoy bu əmin-amanlıq, abadlıq ölkəmizdən heç vaxt əskik olmasın. Cənab Prezident, Allah Sizi hifz etsin.

*Dövlət başçısına «Qurani-Kərim» hədiyyə olundu.*

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Doğrudan da əlamətdar bir gündür. Mən 2 il bundan əvvəl bura gəlmişdim. Tikinti işlərinə bərabər baxdıq. İndi məscid ən yüksək səviyyədə tikilibdir. Həm xarici görünüşü, həm daxili tərtibatı gözəldir. Faktiki olaraq, yenidən tikilibdir. Minarəsi tikilibdir. Bütün lazımi şərait vardır. İstilik, kondisioner, böyük həyət vardır. Yəni burada ibadət üçün bütün imkanlar vardır. Bu məscid bir sənət, memarlıq əsəridir. Elə də olmalıdır. 2 minə yaxın məscid vardır. Onların böyük əksəriyyəti müstəqillik dövründə tikilibdir. İndi qədim vaxtlardan bizə miras qalan məscidlərin bərpası ilə də məşğuluq. Bu yaxınlarda Azərbaycanın ən qədim məscidi olan Şamaxı Cümə məscidinin də açılışını edəcəyik. Bu məscid 743-cü ildə tikilibdir. İndi onun yenidən tikilməsi başa çatır. Orada köçürülmələr də var idi, yollar genişləndirildi.

Bakıda dini, tarixi abidələrimizin bərpasından da dəfələrlə söhbət aparmışıq. Təzəpir məscidi, Bibiheybət məscidi, Əjdərbəy məscidi.

Binəqədidə ölkəmizin ən böyük məscidi tikilib. Bu həm bizim müqəddəs dinimizə olan münasibətimizdir, eyni zamanda, islam aləmində Azərbaycan indi çox görkəmli yer tutur. İslam Əməkdaşlıq Təşkilatının xətti ilə mötəbər tədbirlər keçirilir. Müsəlman aləmində Azərbaycan çox böyük hörmətə malik olan bir ölkədir. Nəinki Azərbaycanda, müsəlman aləmində islam həmrəyliyinin gücləndirilməsi üçün biz əlimizdən gələni əsirgəmirik. Belə gözəl, dini, tarixi abidələrin tikintisi, bərpası bundan sonra da davam etdiriləcəkdir.

## «Gilan» Tekstil parkının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev mayın 3-də Sumqayıtda «Gilan» Tekstil parkının açılışında iştirak etmişdir.*

*Müəssisə ilə tanışlıq zamanı dövlət başçısına məlumat verildi ki, 20 hektar ərazidə tikilən «Gilan» Tekstil parka parça toxuma, boyama və tikiş fabriklərindən ibarət yüngül sənaye müəssisələri daxildir. Ümumi dəyəri 46 milyon manat olan «Gilan» Tekstil parkının ərazisində 3 fabrikin tikintisinə İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumilikdə 15 milyon manat güzəştli kredit vəsaiti ayrılmışdır. Parkın tikintisinə 2011-ci ildə başlanılıb.*

*Qeyd edildi ki, ümumi sahəsi 7 min kvadratmetr olan parça toxuma fabriki 3 əsas istehsal və köməkçi sexlərdən ibarətdir. Prezident İlham Əliyev fabriki işə saldı və istehsal prosesi ilə tanış oldu.*

*Bildirildi ki, fabrik pambığı xammaldan hazır məhsula çevirmək üçün müasir tələblərə tam cavab verir. Avropa istehsalı olan dəzgahlarla təchiz olunan fabrik geniş çeşiddə və yüksək keyfiyyətli parça istehsalına imkan verəcəkdir. Fabrikdə 100 faiz pambıqdan və həmçinin pambıq-polyester qarışığından*

ibarət məhsullar istehsal edilir. Müəssisədə nəmliyin qorunub saxlanması xüsusi havalandırma sistemi ilə həyata keçirilir.

Vurğulandı ki, toxuma prosesində ipliyin möhkəmliyini artırmaq üçün ona nişasta vurulur. İstehsal olunan parçaların tələbata və təyinatına uyğun olaraq boyanması məqsədi ilə kompleksin tərkibində ayrıca fabrik inşa edilmişdir.

Azərbaycan prezidenti boyama fabriki ilə tanış oldu.

Dövlət başçısına texnoloji proses barədə məlumat verildi. Qeyd edildi ki, boyama prosesində Almaniyadan idxal olunan boyalardan istifadə edilir. Bu boyalar insan orqanizmi üçün zərərsizdir. Burada, həmçinin parçaların yuyulması, ağardılması və qurudulması da həyata keçirilir. Bir sözlə, fabrikdə ən müasir texnologiyanın tətbiqi beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli parça istehsalına imkan verir. Hazır məhsulların daxili tələbatı ödəməklə yanaşı, xarici ölkələrə ixracı da nəzərdə tutulub. Artıq İtaliya, Rusiya və Ukrayna ilə ilkin razılaşmalar əldə olunub. İstehsal olunan parçaların bir hissəsi parkın tərkibində inşa edilmiş modern tikiş fabrikində istehsala yönəldilmişdir.

Dövlət başçısı laboratoriya ilə də tanış oldu.

Diqqətə çatdırıldı ki, laboratoriyada həm yerli, həm də xaricdən alınan parçaların keyfiyyətinə nəzarət olunur.

Fabrikdə yorğan istehsalı üçün ayrıca xətt yaradılıb. Bu xətt ayda 18 min yorğan istehsal etmək gücünə malikdir. Yüksək səviyyəli texnoloji avadanlıqlarla hazırlanan məhsulların keyfiyyətinə zəmanət verilir. Yataq dəsti istehsal xətti də tam avtomatlaşdırılıb.

Prezident İlham Əliyev tikiş fabrikinə gəldi. Məlumat verildi ki, ümumi sahəsi 6 min kvadratmetr olan tikiş fabriki ən son texnoloji avadanlıqla təchiz edilmişdir. Fabrikdə ayda şərti olaraq 50 min kişi, qadın və uşaq üst geyimləri, NATO standartlarına uyğun hərbi və xüsusi geyimlər istehsal olunur.

Dövlətimizin başçısı müəssisənin işçilərini və fabrikin kollektivini salamladı.

**İ l h a m Ə l i y e v:** Görürəm ki, müəssisədə iş şəraiti yaxşıdır. Müasir fabriklərdir. Burada iş yerləri yaradılıbdır, 1000 nəfər işləyir. Böyük investisiyalar qoyulubdur. Həm özəl sektor öz vəsaitini qoyub, həm dövlət kömək göstərib. Azərbaycanda belə gözəl müəssisələr yaradılır ki, vətəndaşlarımız işlə təmin olunsunlar. Əgər belə getsə, Sumqayıtda yaxın zamanlarda, ümumiyyətlə, işsizlik olmayacaqdır.

**F a b r i k i n i ş ç i s i:** Cənab Prezident, xoş gəlmisiniz! Sizi fabrikimizdə görmək bizim üçün böyük xoşbəxtlikdir. Bu gün ölkəmizin hər yerində yeni müəssisələr açılır. Eləcə də Sumqayıtda açılan bu müasir fabrik bizi çox sevindirdi. Bu şəraitə, göstərdiyiniz diqqət və qayğıya görə çox sağ olun.

**M ü ə s s i s ə n i n d i g ə r i ş ç i s i:** Cənab Prezident, biz Sizinlə fəxr edirik, qürur duyuruq. Siz xalqımız, dövlətimiz üçün çox böyük işlər görürsünüz. Ölkəmizdə gördüyünüz bütün işlərə, Sumqayıtın gözəlləşdirilməsinə görə Sizə minnətdarıq.

**F a b r i k i n d a h a b i r i ş ç i s i:** Cənab Prezident! Siz yorulmadan ölkəmiz üçün çox işlər görürsünüz, çox çalışırsınız. Biz Sizin səfərlərinizə, çıxışlarınıza baxarkən çox sevinirik. Çox fəxr edirik ki, bizim belə rəhbərimiz var. Sizə, ailənizə möhkəm cansağlığı, uzun ömür arzulayırıq. Biz Mehriban xanımı da çox sevirik, cənab Prezident! Bütün qadın kollektivimiz adından ona salamlarımızı çatdırırıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Sumqayıt doğrudan da gözəlləşir, müasirləşir. Gözəl parklar salınır, binalar təmir olunur. İstirahət yerləri, bulvar salınır, müasir şəhərə çevrilir. Sumqayıt böyük sənaye mərkəzi kimi, artıq inkişaf yolundadır. Burada həm ağır, həm yüngül sənaye, kimya sənayesi ənənəvi olaraq inkişaf edir. Belə gözəl müəssisələrin yaradılması ölkəmizin gücünü göstərir.

Mən çox şadam ki, burada gözəl iş şəraiti vardır, maaş da yüksəkdir. Yəni işləmək üçün bütün şərait vardır. Sizə yeni uğurlar arzulayıram.

* * *

Daha sonra müəssisə ilə tanışlığı davam etdirən dövlət başçısına məlumat verildi ki, parça toxuma, boyama və tikiş fabriklərinin kompleks formada yaradılması və ən müasir texnologiyaların tətbiq edilməsi yüksək keyfiyyətli trikotaj məhsullarının istehsalına, eyni zamanda, parça və trikotaj məhsullarının maya dəyərinin aşağı salınmasına şərait yaradır. Belə müasir kompleksin Qafqazda ilk dəfə Azərbaycanda inşa olunması respublikamızda gedən uğurlu sənayeləşmə siyasətinin göstəricisidir. Sənaye parkında işçilərin rahat çalışmaları üçün hər bir şərait mövcuddur.

Prezident İlham Əliyev müəssisənin yeməkxanası ilə də tanış oldu. Vurğulandı ki, məhsul istehsalının həcminin və çeşidinin artırılması məqsədilə tekstil parkında iplik, toxuma və hörmə fabriklərinin tikintisinə başlanılmışdır. Bu müəssisələr işə düşdükdən sonra əlavə 2 min yeni iş yeri açılacaqdır. Ümumilikdə «Gilan» Tekstil parkında 4 min nəfərin işlə təmin olunması nəzərdə tutulub.

Sumqayıt şəhərinin sənaye potensialının inkişafına 83 milyon manat dövlət güzəştli kreditlərinin verildiyi dövlət başçısının diqqətinə çatdırıldı.

Prezident İlham Əliyev Sumqayıtla yanaşı, Mingəçevir şəhərinin də sənaye potensialının gücləndirilməsinin vacibliyindən danışdı. Qeyd olundu ki, artıq Mingəçevirdə də sənaye parkının yaradılması istiqamətində tədbirlərə başlanılmış və bununla əlaqədar müvafiq layihələr üzərində iş aparılır.

Dövlət başçısı «Gilan» Tekstil parkının sərgi zalında müəssisədə istehsal olunan məhsulların nümunələrinə baxdı.

# Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Sumqayıt «ASAN xidmət» mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev mayın 3-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Sumqayıt «ASAN xidmət» mərkəzinin açılışında iştirak etmişdir.*

*Mərkəzlə tanış olan dövlət başçısına Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov məlumat verdi ki, burada ilk dəfə ölkədə tətbiq olunan elektron ərizə doldurma aparatı yerləşdirilib. Mərkəzə müraciət edən vətəndaş elektron ərizəni dolduraraq eyni vaxtda çap etdirə bilər. «ASAN xidmət» mərkəzinin əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıqdır. Mərkəz internetə daim açıq olan kompüterlərlə təchiz edilmiş və vətəndaşların burada bütün növ elektron xidmətlərdən yararlanması üçün hər cür şərait yaradılmışdır. «ASAN xidmət» mərkəzində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər – bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, uşaq əyləncə guşəsi, internet-kafe, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir.*

*Qeyd edildi ki, binada əlillər üçün də bütün zəruri şərait yaradılıb. Binanın girişində onlar üçün xüsusi lift quraşdırılıb. Gözdən əlillərin sərbəst hərəkəti üçün isə hər bir mərtəbənin döşəməsinə xüsusi örtüklər vurulmuş və lövhələr onların oxuya biləcəkləri müvafiq hərflərlə hazırlanmışdır.*

*Mərkəzdə həmçinin vətəndaşların qəbulunun elektron növbə əsasında həyata keçirilməsi üçün ən müasir avadanlıq quraşdırılıb. Elektron lövhələr və işarələr vətəndaşların məlumat əldə etməsini asanlaşdıracaqdır. Vətəndaşlara könüllülük prinsipi əsasında xidmət göstərmək üçün 30 gənc seçilmiş və onlar təlimlərə cəlb olunmuşlar.*

*Dövlət başçısı könüllülərlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Artıq Bakıdan 3 ay sonra «ASAN xidmət» Sumqayıta da gəldi. Keçən dəfə Sumqayıtda olarkən demişdim ki, Sumqayıtda Bakı şəhərinə xas olan bütün standartlar tətbiq olunmalıdır. Həm infrastruktur layihələri o səviyyədə icra edilməlidir, həm də ictimai yerlər, xidmət sektoru o səviyyədə olmalıdır.

İndi Sumqayıtda gözəl parklar salınır. Bu gün Heydər Əliyev parkının vəziyyəti ilə tanış oldum. Sumqayıt doğrudan da ölkəmizin çox gözəl şəhərinə çevrilir və Bakıdan sonra Cənubi Qafqazda ikinci böyük sənaye şəhəridir. Sumqayıtın əhalisi də artır, iş yerləri açılır. İndi yeni yaradılan sənaye müəssisələri, texnoparklar kənar bölgələrdən də işçi qüvvəsini Sumqayıta gətirəcəkdir. Yəni burada iş çox olacaqdır və bu mərkəz nəinki Sumqayıt, Abşeron, həm də Siyəzən, Şabran və Xızı rayonlarının sakinlərinə də xidmət göstərəcəkdir.

Bu sizin üçün də gözəl təcrübədir. İlk növbədə, gələcək fəaliyyətiniz üçün, hesab edirəm ki, çox vacib olan təcrübədir. Digər tərəfdən, bu valantyorluq sizin niyyətinizi göstərir, onu ifadə edir. Yəni siz cəmiyyətin fəal üzvlərisiniz. Əgər siz könüllü şəkildə vətəndaşlara və dövlətə təmənnasız kömək etmək istəyirsinizsə, deməli, sizin niyyətiniz çox xoşməramlıdır və ölkəmizin ümumi inkişafına tam uyğundur. Belə gənclər olmalıdır, Vətəni sevən, insanlara xoş münasibət bildirən, peşəkar, bilikli və müasir. Mən sizə uğurlar arzulayıram. Sizə, bax, bu təşəbbüsə görə minnətdarlığımı bildirmək istəyirəm.

*Sonra Azərbaycan prezidentinə məlumat verildi ki, mərkəzdə yerləşdirilən xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkün olacaqdır. Mərkəzin «Çağrı» xidməti vasitəsilə vətəndaş mərkəzə gəlmədən internet və ya telefonla bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala və növbə tuta bilər. Mərkəzdə videomüşahidə kameraları və rüsumların məbləğlərini əks etdirən rüsum tablosu da quraşdırılıb. «ASAN xidmət» mərkəzində 9 dövlət orqanı – ədliyyə, daxili işlər, vergilər nazirlikləri, Əmlak*

Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Sosial Müdafiə Fondu və Milli Arxiv İdarəsi tərəfindən 25 hüquqi xidmət həyata keçiriləcəkdir. Bundan əlavə, mərkəzdə vətəndaşlara 22 növ funksional yardımçı xidmət göstəriləcəkdir. Korrupsiya hallarının qarşısının alınması, şəffaflığın təmin edilməsi məqsədilə mərkəzdə xidmət prosesi fasiləsiz videokamera vasitəsilə qeydiyyata alınacaqdır. Xidmət prosesi müasir «İP telefon» və «İP şəbəkə sistemi» ilə təmin edilib. Xidmətlərin tənzimlənməsi məqsədilə elektron monitor və elan tabloları qurulub. Xidmətin «asan.gov.az» internet saytı vasitəsilə vətəndaşlar üçün «online» növbəyə yazılma, elektron ərizələr doldurma, sənədləri müvafiq orqanlara elektron qaydada göndərmə və digər imkanlar yaradılıb. «ASAN xidmət» mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının istisna edilib, müasir texnologiyaların, «bir qapı» prinsipinin tətbiqi, dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni düşüncə tərzinin – «dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir» yanaşmasının formalaşdırılmasıdır.

Prezident İlham Əliyevə mərkəzin səyyar avtobusları ilə bağlı məlumat verildi.

Vurğulandı ki, «ASAN xidmət»in avtobusunda səyyar xidmət konsepsiyasının əsas komponentləri – alternativ enerji mənbələrindən istifadə olunması, nağdsız hesablaşmaların və şəffaflığın təmin edilməsi, vətəndaşların dövlət orqanlarına etimadının gücləndirilməsi əksini tapıb. Bölgələrdə səyyar fəaliyyət göstərmək üçün «ASAN xidmət»in şəxsi heyəti və hərəkət vasitələri şimal və cənub qruplarına bölünəcəkdir. Səyyar qrupların hər biri şəhər və rayonlarda 15 gündən 1 ayadək vətəndaşlara xidmət göstərəcəkdir. Qrup müvafiq şəhər və rayona daxil olarkən xidmətlərin həyata keçirilməsi üçün 2 iş günü ərzində nəzərdə tutulmuş xüsusi məkanlarda yerləşdiriləcəkdir.

Dövlət başçısı səyyar xidmət avtobusu ilə tanış oldu.

*Qeyd edildi ki, agentliyin xüsusi sifarişi əsasında Türkiyədə yığılan «*Mercedes*» markalı* avtobus *keyfiyyətli xidmətin göstərilməsi üçün yüksək zövqlə və* bu *qəbildən* olan *nəqliyyat vasitələrindən fərqli şəkildə hazırlanıb. İş prosesində sərf* olunacaq *elektrik enerjisini* avtobusun *üzərində quraşdırılan Günəş* panelləri *təmin edəcəkdir.* Avtobusun *üzərində quraşdırılmış böyük* monitorda *rüsumlar, növbələr, müxtəlif görüntülər, xidmətlər barədə məlumatlar nümayiş etdiriləcəkdir.* Avtobusda «*ASAN xidmət*»in 11 *əməkdaşının* eyni vaxtda *vətəndaşlara xidmət göstərməsi üçün hər cür şərait yaradılıb. Həmçinin vətəndaşların yağışlı və* ya *günəşli* havada *növbə tutmaları üçün* avtobusda *rahat çadır* da *vardır.* Avtobusun *qoşqusunda isə «ASAN xidmət» əməkdaşlarının istirahəti və qidalanmaları üçün yüksək şərait yaradılıb.*

Prezident *İlham Əliyev mərkəzin həyatində* innovasiyalar *mərkəzinin* yeni *texnologiyaları ilə tanış* oldu.

*Azərbaycan* prezidenti *İlham Əliyevə innovasiyalı mərkəzləşdirilmiş* parklanma sistemi *barədə məlumat* verildi.

*Diqqətə çatdırıldı ki,* bu sistemin *əsas məqsədi* avtomatlaşdırılmış park sistemini *tətbiq etməkdir.* Bu *sistemdən ABŞ və bəzi* Avropa *ölkələrində artıq istifadə* olunur.

## İSRAİL DÖVLƏTİNİN KEÇMİŞ BAŞ NAZİRİ EHUD BARAK İLƏ GÖRÜŞ

*4 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də İsrail Dövlətinin keçmiş Baş naziri Ehud Barakı qəbul etmişdir.*

*Görüşdə Bakıda keçiriləcək I Cənubi Qafqaz Forumunun önəmi qeyd olundu və bu tədbirin beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik bildirildi.*

*Söhbət zamanı Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu.*

## ATƏT-in PARLAMENT ASSAMBLEYASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ JOAO SOARESİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də ATƏT-in Parlament Assambleyasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Joao Soaresin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə Azərbaycan ilə ATƏT-in Parlament Assambleyası arasında əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu.*

*Əməkdaşlığımızın perspektivlərinin müzakirə olunduğu görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

## HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA MÜASİR ANQAR VƏ AEROVAĞZAL KOMPLEKSLƏRİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ, BEYNƏLXALQ LOGİSTİKA MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK VƏ YENİ ALINMIŞ SƏRNİŞİN TƏYYARƏLƏRİNƏ BAXIŞ

*6 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Heydər Əliyev Beynəlxalq Aeroportunda «Silkway Technics» şirkətinin yeni inşa olunan anqar kompleksi ilə tanış olmuş, Beynəlxalq Logistika Mərkəzinin açılışında iştirak etmiş və təzə alınmış Airbus A340–500 sərnişin təyyarələrinə baxmışdır. Dövlət başçısı yeni aerovağzal kompleksinin tikintisi ilə də maraqlandı.*

*Azərbaycanda hava yolları ilə sərnişindaşımanın həyata keçirilməsi üçün ilk aerovağzal binası 1933-cü ildə tikilib. Ölkədə beynəlxalq standartlar səviyyəsində aerovağzal kompleksi isə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş və 1999-cu ildə istismara verilmişdir. O vaxtlar cəmi bir neçə il ərzində Bakı aeroportunda uçuş-enmə zolaqları və yönəldici yollar yenidən qurulmuş, uçuşları idarəetmə sistemləri müasirləşdirilmiş, radio-naviqasiya və meteoavadanlıq yenilənmiş, digər silsilə tədbirlər reallaşdırılmışdır.*

*Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasında layiqli mövqe tutmasını başlıca prioritetlərdən biri kimi qarşıya məqsəd qoyan prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sürətli sosial-iqtisadi inkişaf proqramları mülki aviasiyanın inkişafında da mühüm rol oynamışdır. Son illər Azərbaycanın mülki aviasiyası intensiv inkişaf mərhələsinə qədəm qoyub. 2004-cü ildə müasir standartlara cavab verən Naxçıvan Beynəlxalq Aeroportu istifadəyə verilib. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2006–2011-ci illərdə bir-birinin ardınca*

*Gəncə, Zaqatala, Lənkəran və Qəbələdə aeroportlar istismara verilib. Sərnişin və yükdaşımalarının daha müasir səviyyəyə çatdırılması üçün təyyarə və helikopter parkı yenilənib.*

*Hazırda Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyətinin təyyarələri dünyanın 13 ölkəsinə, o cümlədən 20-dən çox şəhərə uçuşlar həyata keçirir. Azərbaycana isə 15 ölkənin 33 şəhərindən 19 şirkət tərəfindən aviareyslər reallaşdırılır. Nəhəng aviaşirkətə çevrilmiş «Azərbaycan Hava Yolları» həm regionda, həm də MDB-də yeni avialaynerlərin sayına görə də liderlərdən biri sayılır.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni aerovağzal kompleksinin tikintisinə başlanması, bu çərçivədə yeni anqar kompleksinin inşasının sona çatdırılması ölkənin baş hava limanının strateji əhəmiyyətini daha da artırır.*

*Prezident İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportunda əvvəlcə «Silkway Technics» şirkətinin yeni tikilmiş anqar kompleksi ilə tanış oldu.*

*Azərbaycan Hava Yolları QSC-nin prezidenti Cahangir Əsgərov dövlət başçısına məlumat verdi ki, tikintisinə 2011-ci ildə başlanan yeni anqar kompleksində hava gəmilərinə texniki xidmət göstərmək üçün hər cür şərait vardır. Burada quraşdırılan avadanlıq texniki xidməti dünya standartları səviyyəsində həyata keçirməyə imkan verir. Ümumi ərazisi 26 min kvadratmetr olan kompleksin anqar hissəsinin sahəsi 16 min kvadratmetrdir. Eni 160, hündürlüyü 23, dərinliyi 95 metr olan anqarda eyni vaxtda ən böyük hava gəmisi olan 2 «Boinq-747» təyyarəsinə, həmçinin dargövdəli 8–10 təyyarəyə texniki xidmət göstərmək üçün bütün zəruri şərait vardır. Ofis, anbar, inzibati bölmə və digər texniki otaqların yerləşdiyi kompleksdə yeni texniki xidmət sahələri də yaradılıb. Anqarda təyyarələrin interyerinə, şassilərinə, akkumulyatorlarına, qəza-xilasetmə avadanlığına xidmət göstərmək mümkündür. Quraşdırılan xüsusi avadanlıq təyyarə gövdəsinin xaricində olan bütün hissələrə rahatlıqla yaxınlaşmağa və xidmət göstərməyə imkan verir.*

*Daha sonra dövlət başçısı aeroportda tikilmiş Beynəlxalq Logistika Mərkəzinin açılışında da iştirak etmişdir.*

*Prezident İlham Əliyev mərkəzi işə saldı.*

*Məlumat verildi ki, mərkəzin ümumi sahəsi 12 min 800 kvadratmetrdir. Burada 2 qaldırıcı konveyerli transportyor, 6 avtomatik qapı, o cümlədən paletləşdirilmiş yüklərin qəbulu və buraxılması üçün konveyerli qapı quraşdırılıb. Beynəlxalq Logistika Mərkəzində 30 və 14 tonluq tərəzilər qoyulub. Burada eyni vaxtda 2200 ton, yaxud 5800 kubmetr paletlərdə yük saxlanıla bilər. Mərkəzin ümumi yük dövriyyə qabiliyyəti gündəlik 1200 ton, yaxud 7000 kubmetr olmaqla, illik 430 min ton və ya 2 milyon 500 min kubmetrə bərabərdir. Cənubi Qafqazda yalnız Azərbaycanda olan bu Beynəlxalq Logistika Mərkəzində mənfi 18 dərəcədən müsbət 20 dərəcəyədək bütün növ xüsusi temperatur rejimi tələb edən tez xarab olan yüklər, o cümlədən bitki və heyvan mənşəli yüklər, tibbi preparatlar saxlanıla və emal edilə bilər. Yüklərin qeydiyyatı və izlənməsi üçün xüsusi məlumat sistemi yaradılıb. Maksimal yük dövriyyəsi nəzərə alınmaqla, hər növbə üzrə burada 44 nəfər çalışacaqdır.*

*Prezident İlham Əliyev yeni alınmış 2 Airbus A340–500 sərnişin təyyarələrinə də baxdı.*

*Məlumat verildi ki, maksimal sürəti saatda 890 kilometr olan bu hava gəmiləri birbaşa 15 min 742 kilometr məsafə qət edə bilir. Bu da öz növbəsində uzaqməsafəli uçuşları daha səmərəli həyata keçirməyə imkan yaradır. Airbus A340–500 təyyarələri bu gün dünyanın ən nüfuzlu aviaşirkətləri tərəfindən istifadə edilir. 237 yerlik avialayner sərnişinlərin rahatlığını təmin və uçuşları maraqlı təşkil etmək üçün bütün zəruri avadanlıqla təchiz olunub. Bildirildi ki, Azərbaycan Hava Yolları aviaparkın daha da müasirləşdirilməsi istiqamətində gələcəkdə də fəaliyyəti davam etdirəcəkdir.*

*Prezident İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportunda inşa olunan yeni aerovağzal kompleksi ilə də tanış oldu.*

*Qeyd edildi ki, yeni kompleksin ümumi sahəsi 65 min kvadratmetrdir. Burada 24 lift, 30 eskalator, 37 xüsusi «X-Ray» aparatı quraşdırılacaqdır. Yeni kompleksdə sərnişinlərin və işçilərin*

rahatlığını təmin etmək üçün bütün zəruri tədbirlər reallaşdırılacaq. Kompleksdə sərnişinlərin qeydiyyatı üçün 41, pasport nəzarəti üçün isə 52 köşk qoyulacaq. Bundan əlavə, kompleksdə kafe, restoran və digər xidmət obyektləri fəaliyyət göstərəcək. Layihənin həyata keçirilməsində məqsəd sərnişin və yükdaşımalarında xidmətin səviyyəsini daha da yüksəltmək, eləcə də təyyarə uçuşlarının təhlükəsizliyini dünya standartlarına uyğunlaşdırmaqdır. Müasir standartlara cavab verəcək aerovağzal kompleksi ildə 3 milyon sərnişinə xidmət göstərmək gücündədir. Üçbucaq formasında inşa ediləcək dördmərtəbəli yeni aerovağzal binası istifadəyə verildikdən sonra buradan beynəlxalq reyslər yerinə yetiriləcəkdir. Mövcud terminal vasitəsilə yerli aviareyslər həyata keçiriləcək. Burada beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki yeniliklər tətbiq ediləcək. Aerovağzal binasının ərazisində eyni vaxtda 13 təyyarəni qəbul edə biləcək teleskopik pilləkən quraşdırılacaqdır.

Görülən işlərlə tanış olan Azərbaycan prezidenti İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİ İDARƏ HEYƏTİNİN HƏMSƏDRİ, MİSİRİN İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU İSMAİL SERAGELDİN, MADRİD KLUBUNUN PREZİDENTİ VƏ ÜZVÜ, NİDERLANDIN KEÇMİŞ BAŞ NAZİRİ VİM KOK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Nizami Gəncəvi Beynəlxalq Mərkəzi İdarə Heyətinin həmsədri, Latviyanın keçmiş prezidenti xanım Vayra Vike-Freyberqanı, Madrid Klubunun üzvü, İsveçrənin keçmiş prezidenti xanım Mişelin Kalmi Reyi, Madrid Klubunun prezidenti, Niderlandın keçmiş Baş naziri Vim Koku, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi İdarə Heyətinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini qəbul etmişdir.*

*Madrid Klubunun Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə birgə Bakıda təşkil etdikləri I Cənubi Qafqaz Forumunun əhəmiyyətinin vurğulandığı görüşdə forumun regionda və beynəlxalq aləmdə gedən siyasi, iqtisadi, mədəni və digər proseslərlə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaradacağına əminlik ifadə olundu.*

## URUQVAYIN KEÇMİŞ PREZİDENTİ LUİS ALBERTO LAKALLEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Uruqvayın keçmiş prezidenti Luis Alberto Lakalleni qəbul etmişdir.*

*Görüşdə I Cənubi Qafqaz Forumunun əhəmiyyətindən danışıldı, Azərbaycan ilə Uruqvay arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.*

## LATVİYA RESPUBLİKASININ KEÇMİŞ PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Latviyanın keçmiş prezidenti Valdis Zatlersi qəbul etmişdir.*

*Görüşdə Bakıda keçiriləcək I Cənubi Qafqaz Forumunun önəmi qeyd olundu.*

*Söhbət zamanı Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin uğurlu inkişafı məmnunluqla vurğulandı.*

## BAKIDA KEÇİRİLƏN I CƏNUBİ QAFQAZ FORUMUNDA İŞTİRAK

*7 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də Bakıda Madrid Klubunun və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən I Cənubi Qafqaz Forumunun rəsmi açılışı mərasimində iştirak etmişlər.*

*I Cənubi Qafqaz Forumunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzi İdarə Heyətinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin açdı, müzakirə olunacaq məsələlər barədə məlumat verdi.*

**İsmail Serageldin:** Bu gün biz buraya bir məqsədlə – «Birgə cəmiyyətlər» mövzusunda I Cənubi Qafqaz Forumunda iştirak etmək üçün toplaşmışıq.

Qeyd etmək istəyirəm ki, forumda sivilizasiyaların toqquşması, müştərək dəyərlər, cəmiyyətlərimizi idarə edən normalar haqqında söhbət açılacaqdır. Əslində, istənilən mövzular haqqında burada suallar verilə bilər. İnsanlar öz aralarında olan mədəniyyət fərqlərinə, gender bərabərliyinə, gələcəkdə davamlı cəmiyyətin formalaşdırılmasına dair məsələləri müzakirə edirlər.

Forumda, demək olar ki, bütün qitələrdən olan liderlər, prezidentlər, baş nazirlər iştirak edirlər. O insanlar öz ölkələrində keçid dövrünü idarə ediblər, yaşayıblar və bu foruma gəliblər ki, təcrübələrini bizimlə bölüşsünlər. Təbii ki, onlar öz fikirlərini forum çərçivəsində ifadə edəcəklər. Bizi qəbul edən şəxs Zati-aliləri, doktor İlham Əliyev Azərbaycan Respublikasının Prezidentidir. Sözü ona veririk.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizin hamınızı ölkəmizdə salamlamaq istəyirəm. Belə bir mühüm tədbirə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Regional inkişaf, islahatlar, regional əməkdaşlıqla bağlı məsələlərin müzakirə edilməsi üçün Bakını seçdiklərinə görə təşkilatçılara olduqca minnətdaram.

Azərbaycan müstəqillik baxımından kifayət qədər gənc ölkədir. Ölkəmizin müstəqil dövlət kimi, cəmi 21 yaşı vardır. Azərbaycan böyük tarixə, adət-ənənələrə və mədəniyyətə malik olan ölkədir. Forumun təşkilatçılarından biri Nizami Gəncəvi Beynəlxalq Mərkəzidir. Bu, dahi Azərbaycan şairi Nizaminin adını daşıyır. Dünən mənim bəzi qonaqlarla görüşlərim olub. Onların bəziləri ölkəmizə ilk dəfədir səfər edirlər. Hesab edirəm ki, ölkəmizi daha yaxından tanımaq onlar üçün daha da maraqlı olacaq. İştirakçılar arasında çoxdankı dostlarımız vardır. Bu forumu Bakıda keçirdiyinə görə Madrid Klubuna xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan gənc müstəqil ölkədir. Lakin XX əsrin əvvəlində dövlətçiliyimizin qısa tarixi olub. Həmin vaxt Azərbaycan Rusiya imperiyasının süqutu nəticəsində müstəqilliyini qazandı. Müsəlman aləmində ilk demokratik respublika məhz Azərbaycanda yaradılıb. İlk demokratik respublika 1918-ci ildən 1920-ci ilə qədər yaşadı. Baxmayaraq ki, bu, kiçik bir dövr idi, lakin bir çox islahatları həyata keçirmək mümkün oldu. Bunlar müasir, müstəqil Azərbaycanın inkişafı üçün zəmin yaratdı. Bu islahatlardan biri qadınlara seçib-seçilmək hüququnun verilməsi oldu. Bu həmçinin Azərbaycan cəmiyyətinin inkişaf səviyyəsini göstərdi. Bundan sonra Sovet İttifaqı dövrü başladı. Bu halda biz müstəqil deyildik. Azərbaycan xalqı 70 il ərzində Sovet İttifaqı daxilində yaşadı. Sovet İttifaqının dağılmasından sonra bizə dövləti yaratmaq üçün ikinci şans nəsib oldu. Həmin vaxt bizim bu şansı itirməyə haqqımız yox idi. Müstəqilliyin ilk illəri – 1991–1993-cü

illər zorakılıq, iqtisadi durğunluq və böhran xalqımız üçün böyük fəlakətə çevrilən Ermənistanın Azərbaycana qarşı təcavüzü və vətəndaş qarşıdurması ilə müşayiət olunurdu.

Həmin dövrün bir çox çətinliklərindən çıxmağımıza və ölkəmiz üçün keçid dövrünün başa çatmasına baxmayaraq, Ermənistanla Azərbaycan arasında həll olunmamış münaqişə nəinki bizim üçün, həmçinin regional inkişaf, sülh və sabitlik üçün ən böyük hədədir. Biz münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə həll edilməsini istəyirik. Biz beynəlxalq ictimaiyyətin tanıdığı ərazi bütövlüyümüzün bərpasını istəyirik. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi, Azərbaycanın qədim torpağıdır. 20 ildən artıqdır ki, nəinki Dağlıq Qarabağ, həmçinin onun ətrafındakı 7 rayon da Ermənistanın işğalı altındadır. Artıq iki 10 illikdən çoxdur ki, bu işğal davam edir. Beynəlxalq təşkilatlar işğalçı qüvvələrin çıxmasını tələb edən qətnamə və qərarlar qəbul edibdir. Onların arasında mən Azərbaycan ərazilərindən erməni qoşunlarının qeyd-şərtsiz və dərhal çıxmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etmək istəyirəm. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilməyib. Burada biz beynəlxalq təşkilatların və qətnamələrin effektivliyi kimi mühüm məqama gəlib çıxırıq. Təəssüflər olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri 20 ildən çoxdur ki, yerinə yetirilməyib.

Biz ölkəmizi gücləndirməkdə davam edəcəyik. Siyasi və iqtisadi islahatların həyata keçirilməsini davam etdirəcəyik. Nə qədər güclü olsaq, münaqişəni bir o qədər tez həll edə bilərik. Sülh bundan sonra regionda bərqərar ola bilər. Bu gün Cənubi Qafqaz haqqında danışdıqda deyə bilərik ki, Gürcüstan ilə Azərbaycan arasında gözəl əməkdaşlıq nümunəsi vardır. Lakin Cənubi Qafqazın digər dövləti ilə çox mənfi münasibətlərimiz mövcuddur. Buna görə regionda davamlı inkişafı təmin etmək üçün, əlbəttə ki, Cənubi Qafqaz daha çox inteqrasiya olunmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll edilmədən və Azərbaycanın beynəlxalq səviyyədə tanınan əraziləri azad olunmadan bu, mümkün deyildir.

Bu çətinliyə və Ermənistanın təcavüzü nəticəsində dəymiş ziyana baxmayaraq, biz güclü ölkə qurmaq və insanlarımızın rifahını yaxşılaşdırmaq kimi məqsədlərə sadiq qalmışıq. Bir sözlə, keçən əsrin 90-cı illərinin ortalarından biz diqqətimizi siyasi və iqtisadi islahatlara yönəltdik. Bu proses davam edir. Siyasi baxımdan Azərbaycan inkişaf edir, çünki müstəqilliyimizi qazandıqdan əvvəl heç bir siyasi sistem mövcud deyildi. Hazırda bizim bütün siyasi təsisatlarımız vardır, beynəlxalq ictimaiyyətin üzvüyük. Biz siyasi islahatları həyata keçiririk və cəmiyyətimizin daha da demokratikləşməsi bizim üçün əsas prioritetdir.

Biz tam əminik ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparmalıyıq. Uzunmüddətli inkişafa nail olmaq üçün bu islahatlar bir-birini dəstəkləməlidir. İqtisadi islahatlara gəldikdə, biz müstəqillik vaxtlarından böyük irəliləyişə nail olmuşuq. Yalnız son 10 ildə ümumi daxili məhsul 300 faiz artıb. Fikrimcə bu, dünya rekordudur. Biz yoxsulluğu 50 faizdən 6 faizə qədər azalda bildik. İşsizliyi 5 faizə qədər azaltdıq. Azərbaycanda 1 milyondan çox iş yeri yaradılıb. Həmçinin iqtisadiyyatımızı şaxələndirdik. Azərbaycanın iqtisadi nailiyyətləri beynəlxalq maliyyə təsisatlarının diqqətindən yayınmamışdır.

Əsas beynəlxalq maliyyə təsisatlarının verdiyi qiymət çox müsbətdir. Hətta iqtisadi və maliyyə böhranı illərində «Fitch», «Standard & Poors», «Moodys» kimi beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqini artırıb. Davos İqtisadi Forumu qlobal rəqabətqabiliyyətliliyi indeksinə görə Azərbaycanı 46-cı yerdə yerləşdirib. Bu, islahatların təcəssümüdür. Biz əsas iqtisadi islahatları həyata keçirə bildik və artıq qeyd etdiyim kimi, iqtisadi inkişaf baxımından keçid dövrü başa çatıb. Hazırda iqtisadiyyatımızın 83 faizi özəl sektor tərəfindən təmin edilir. Özəl sektor çox güclüdür və iqtisadi baxımdan Azərbaycanın gələcək inkişafı çox cəlbedici görünür.

Hazırda əsas diqqətimizi qeyri-enerji sektoruna yönəldirik. Bildirdiyim kimi, iqtisadiyyatın şaxələndirilməsi bir nömrəli hədəfdir. Böyük məmnunluqla bəyan edə bilərəm ki, 2013-cü ilin ilk 3

ayında qeyri-enerji sektorunda inanılmaz artım müşahidə olunub. Bu artım 11 faizdən çoxdur. Bu o deməkdir ki, kənardan və daxildən cəlb etdiyimiz sərmayələr iqtisadiyyatın şaxələndirilməsinə yönəldilib. Çünki şaxələndirmə olmadan uğur qazana bilmərik. Biz müasir texnologiyalara böyük investisiyalar yatırırıq. Bu il mühüm hadisə baş verdi. Azərbaycanın ilk «Azərspace-1» peyki fəzaya buraxıldı. Bu, Azərbaycanda kosmos sənayesinin başlanğıcıdır. «Azərspace-1» o deməkdir ki, «Azərspace-2», «Azərspace-3» və digərləri olacaqdır. Biz Azərbaycanda güclü kosmos sənayesinin qurulması üçün beynəlxalq tərəfdaşlarımızla işləyirik. Enerji sektoru iqtisadiyyatımızın mühüm hissəsi olaraq qalır.

Bu da təbiidir. Uzun illər və onilliklər ərzində Azərbaycan neft ölkəsi kimi tanınıb. Hazırda isə Azərbaycan qaz hasilatçısı kimi tanınır. Enerji sektoruna qoyulan investisiyalar bizə Azərbaycanda olduqca müsbət sərmayə mühitini yaratmağa imkan verdi. Adambaşına xarici sərmayələrin həcminə görə Azərbaycan regionda ən yüksək göstəriciyə malikdir.

Azərbaycana sərmayə yatıran şirkətlər üçün çox güzəştli şərtlər tətbiq olunur. Bütövlükdə investisiya mühiti çox müsbətdir. Fikrimcə, enerji hasilatından əldə etdiyimiz gəlirlərdən düzgün şəkildə istifadə etdik ki, öz enerji sektorunda işə başladıqdan sonra bəzi ölkələrin üzləşdiyi çətinliklər bizdə yaşanmasın. Buna görə Azərbaycanın Dövlət Neft Fondu kimi maliyyə vəsaitlərinin idarə edilməsi üzrə çox mühüm mexanizm yaradıldı. Bu fond bütün dünyada mövcud olan suveren fondlar arasında ən şəffaf qurumlardan biridir.

Beləliklə, biz varlıların daha da varlanması, yoxsulların isə daha da kasıblaşması ilə xarakterizə olunan vəziyyətdən sığortalandıq. Buna görə yoxsulluğun və işsizliyin azaldılması qarşıya əsas məqsəd kimi qoyulmuşdu.

Sərvətlərin ədalətli bölüşdürülməsi, infrastruktura, insan kapitalına, əsasən təhsil sahəsinə sərmayələrin qoyulması vacib vəzifə olaraq qalır. Təhsil uğurun əsas şərtidir. Uğur qazanan ölkələrin tarixi və təcrübəsi göstərir ki, bu, enerji resursları ilə deyil, intellektual potensialla bağlı olan məsələdir. Gələn illər

ərzində intellektual potensial bütün məsələlərin həllində, siyasi və iqtisadi inkişafda daha mühüm rol oynayacaqdır. Qlobal xəritədə ölkələrin oynadığı rol insanların intellektual potensialından daha çox asılı olacaqdır. Buna görə biz insan kapitalına böyük sərmayələr yatırırıq. 10 il əvvəl bəyan etdik ki, biz qara qızılı insan qızılına – insan kapitalına çevirəcəyik.

İqtisadiyyatın şaxələndirilməsi, sosial və infrastruktur layihələrin icrası və Azərbaycanda gördüyümüz dəyişikliklər göstərir ki, bizim keçid dövründə yaxşı təcrübəmiz olub. Yəni totalitar cəmiyyətdən demokratik cəmiyyətə, dövlətin planlı iqtisadiyyatından bazar iqtisadiyyatına keçiddə yaxşı təcrübəmiz vardır. Bu halda adi insanlar üçün çətinliklər yaranmadı. Çünki radikal islahatlar hər zaman adi insanlar üçün problemlər yaradır. Buna görə biz çox səmərəli sosial siyasət həyata keçirdik.

Bu gün Azərbaycan güclü maliyyə potensialına və artıq şaxələndirilmiş daşıma marşrutlarına, müasir infrastruktura malik olan, tam öz gücünə arxalanan ölkədir. Böhran bizə böyük təsir göstərmədi. Əlbəttə ki, enerji amili gələcəkdə öz rolunu oynayacaq və daha böyük inkişafa çatmaqda bizə yardımçı olacaqdır. Hazırda isə deyə bilərəm ki, Azərbaycanın enerji resursları, həmçinin regional əməkdaşlıq üçün mühüm rol oynayır. Yeri gəlmişkən, Azərbaycan neft hasil edən ilk ölkə olub. Azərbaycan, həmçinin dünya miqyasında dənizdə nefti hasil edən ilk ölkə olub. Azərbaycan xarici şirkətləri və sərmayələri Xəzər dənizinə cəlb edən və bu dənizi beynəlxalq neft əməliyyatlarına açıq edən yenə də ilk ölkə olub. Xəzər dənizindən gedən ilk boru kəmərlərini Azərbaycan öz tərəfdaşları ilə tikib, Gürcüstan və Türkiyəyə boru kəmərləri çəkilib. Bu nəinki Cənubi Qafqazın, daha geniş regionun enerji xəritəsini tam dəyişir. Bu gün enerji təhlükəsizliyi sahəsində 100 ildən artıq dövrə kifayət edən böyük enerji potensialımızı reallaşdırmaq məqsədi ilə dostlarımız və tərəfdaşlarımızla, xüsusən də Avropa təsisatları və əlbəttə ki, qonşularımızla çox fəal işləyirik. Trans–Anadolu boru kəməri layihəsi kimi bu yaxınlarda başladığımız layihə enerji sektorunda əsl islahat deməkdir və o bizə hasil etdiyimiz qədər nəql imkanı yaradacaqdır. Tranzit və ist-

ehlakçılar bundan bəhrələnə biləcək və şaxələndirilmiş təchizat mənbələrinə malik olacaqlar. Buna görə hasilatçı və istehlakçı ölkələrdə şaxələndirmə uğuru təmin edən ilk şərtlərdən biridir.

Biz olduqca məhsuldar regional əməkdaşlıq formatını qurmuşuq və çalışırıq ki, hasilatçıların, tranzit ölkələrin və istehlakçıların maraqlarını tarazlaşdıraq. Çalışırıq yersiz rəqabətə yol verməyək. Enerji siyasətimiz rəqabətə deyil, əməkdaşlığa, hamının bəhrələndiyi vəziyyətə əsaslanır. Hesab edirəm ki, son onillik tarix aydın şəkildə göstərir ki, bu yanaşma çox səmərəlidir. Buna görə bu potensialdan istifadə, inkişaf proqramlarımız və olduqca fəal xarici siyasət, fikrimcə, gələn illər ərzində Azərbaycanın uğurlu inkişafını müəyyən edəcəkdir.

Bu gün qonaqlarımız arasında tanınmış siyasətçilər, dövlət xadimləri vardır. Onlar beynəlxalq münasibətlərdə mühüm rol oynayıblar və bundan sonra da oynayacaqlar. Bu haqda bir neçə söz demək istərdim. Bizim çox fəal xarici siyasətimiz vardır. Azərbaycanın yürütdüyü xarici siyasət hətta gözləniləndən də artıq fəal siyasətdir. Bu fəaliyyətin nəticəsi onunla izah olunur ki, biz beynəlxalq təşkilatlarda mühüm rol oynayırıq. Biz dünyada nadir ölkələrdən biriyik ki, eyni zamanda həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüyük. 2 ildən az müddət öncə Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilib. Bu çox mühüm hadisə idi və müstəqilliyimizin 20-ci ildönümü ilə üst-üstə düşdü. 20 il ərzində gördüyümüz işlər nəticəsində biz 155 ölkənin dəstəyini qazana bildik. Bu da bizim qlobal arenada oynadığımız rolun təcəssümü idi. Beynəlxalq təşkilatlara üzvlük məsələsinə qayıtsaq, yəni Avropa Şurası ilə İslam Əməkdaşlıq Təşkilatına üzvlüyümüz haqqında danışsaq, mən öz fikirlərimizi belə bir ideya ilə yekunlaşdırmaq istərdim. Bu, sırf coğrafi formatla, xarici siyasi fəaliyyətimizlə bağlı deyildir. Bu həmçinin xalqımızın qədim tarixindən və köklərindən gələn məsələdir. Əsrlər boyu Azərbaycan dinlərin, etnik qrupların sülh şəraitində, yan-yana yaşadığı məkan olub. Etnik, mədəni və dini müxtəliflik Azərbaycanın ən böyük sərvətlərindən biridir. Hesab edirəm ki,

uğuru təmin edən əsas səbəblərdən biri Azərbaycanda çoxmədəniyyətli cəmiyyətin olmasıdır. Biz multikulturalizmi çox yüksək dəyərləndiririk. Çox güman ki, bu məsələ bu gün sessiya zamanı müzakirə ediləcəkdir. Mən sadəcə, bildirmək istəyirəm: Azərbaycanın təcrübəsi göstərir ki, multikulturalizmin böyük gələcəyi var və onun alternativi yoxdur. Multikulturalizmin alternativi özünü təcridetmə, ayrı-seçkilik və irqçilikdir. XXI əsrdə biz belə mənfi meyillərin baş qaldırmasına imkan verə bilmərik. Bizi narahat və məyus edən bəzi məsələlər vardır. Lakin biz bu məsələdə çox aydın davranmalıyıq, çox açıq və aydın olmalıyıq. Sivilizasiyaların dialoqu sadəcə, yaxşı şüar olmamalı, bu, bəşəriyyətin inkişaf etmək, daha geniş beynəlxalq əməkdaşlığı qurmaq, qarşılıqlı anlaşmanın və tolerantlığın səviyyəsini artırmaq zərurətidir. Fikrimcə, bu, bəşəriyyətin sülh şəraitində inkişaf etməsi üçün ilkin şərtlərdən biridir.

Hörmətli dostlar, hörmətli qonaqlar! Sizin hamınıza Azərbaycana gəldiyinizə görə bir daha təşəkkürümü bildirirəm. Ümidvaram ki, ilk səfər edənlər üçün ölkəmizi daha yaxşı tanımaq fürsəti olacaqdır. Çoxdankı dostlar isə bir-birləri ilə görüşə biləcək və əməkdaşlığı davam etdirəcəklər. Foruma uğurlar arzulayıram. Sağ olun.

**Ü l y a h ə z r ə t  N u r** *(İordaniya kraliçası):* Cənab Prezident, icazə verin Sizə dərin təşəkkürümü bildirim.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubuna təşəkkürümü bildirmək istəyirəm ki, məni bu gün Bakıya dəvət ediblər. Məni bu çox gözəl və möhtəşəm şəhərlə, deyərdim ki, Şərqin Parisi ilə tanış etdiyinizə görə dərin minnətdarlığımı bildirirəm. İçərişəhərin qədim memarlığı və müasir tikililər məni valeh etmişdir.

Azərbaycan həm əhali, həm ərazi baxımından İordaniyaya çox yaxındır. Ancaq sərvət baxımından təbii ki, biz bu sərvətləri yalnız arzu edə bilərik. Coğrafi, fəlsəfi baxımdan ölkələrimiz mədəniyyətləri bir-birinə qovuşdurmağa müvəffəq olmuşdur. Bu səbəbdən özümü sanki evdə hiss edirəm.

*Madrid Klubunun və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin təqdirəlayiq olduğunu deyən İordaniya kraliçası Nur Nizami Gəncəvinin qeyri-adi şair olduğunu, əsərlərinin bu gün də aktuallığını itirmədiyini dedi. Nizami Gəncəvi yaradıcılığının təkcə Azərbaycanla yox, bütün dünya ədəbi fikir tarixi ilə bütövləşdiyini qeyd edən kraliça Nur dahi şairin mədəniyyətlərarası anlaşmaya böyük töhfələr verdiyini bildirdi.*

*Daha sonra kraliça dünyanı narahat edən qlobal məsələlərə nəzər salaraq iqtisadi və maliyyə böhranı şəraitində insanları narahat edən problemlərin həllinin vacibliyini diqqətə çatdırdı. Hər il müxtəlif münaqişələr nəticəsində dünyada minlərlə insanın itkin düşdüyünü, onların axtarılıb tapılmasının günümüzün vacib məsələsi olduğunu vurğulayan kraliça Nur dedi:*

– Zənnimcə, biz bu haqda danışmalıyıq. Dağlıq Qarabağ münaqişəsi nəticəsində 4600 insanın itkin düşməsindən də söhbət açmalıyıq. Münaqişənin nizamlanması itkin düşmüş həmin insanların taleyinə aydınlıq gətirə bilər.

Xanımlar cəmiyyətdən təcrid olunmamalıdır. Xanımların müxtəlif proseslərə cəlb olunması ancaq tərəqqiyə xidmət edir. Qadınların cəmiyyətdəki statusu cəmiyyətin inkişafına və tərəqqisinə müstəsna xidmət edir. Azərbaycan bunu çoxdan dərk etmişdir. Cənab Prezident bayaq qeyd etdiyi kimi, islam ölkəsi olmasına baxmayaraq, Azərbaycan 1918-ci ildə qadınlara bərabər hüquqlar şamil edib. Bu gün qadınların hüququ ən əhəmiyyətli məsələlərdən biridir.

«Bu gün biz sülhməramlı fəaliyyətə üstünlük verməliyik» – deyən kraliça Nur müasir dünyada qadınların və gənclərin potensialından geniş istifadə edilməsinin əhəmiyyətinə toxundu, bu məsələdə müasir texnologiyalardan istifadənin zəruri olduğunu bildirdi.

*Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi İdarə Heyətinin həmsədri xanım Vayra Vike-Freyberqa Sovet İttifaqının tərkibində olmuş respublikaların müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yolunda qarşılaşdıqları çətinliklərdən danışdı. Bildirdi ki, həmin ölkələrin keçmişin*

*stereotiplərindən azad olmaları üçün dövlət başçıları səylərini artırmalıdırlar. «Hər bir ölkənin, hər bir xalqın azad olmağa mənəvi haqqı vardır» – deyən Latviyanın sabiq prezidenti ölkələrin ərazi bütövlüyünün müasir dünyada əsas məsələlərdən olduğunu vurğuladı.*

**V a y r a V i k e - F r e y b e r q a:** Bir xalq digər xalqdan üstün tutulmalı deyildir. Xalqlar arasında bərabər imkanlar, fürsətlər təmin edilməlidir ki, biz dünyada olan böyük bir ailəni formalaşdıra bilək. BMT-dəki kimi, onun bütün üzvləri eyni, bərabər vəziyyətdə olsunlar. Bu baxımdan bəzi belə fikirlər irəli sürülür ki, peyk rolunu oynayan dövlətlər vardır və onlar böyük dövlətlərin təsirindən qurtulmağı arzulayırlar. Ona görə biz bu barədə kollektiv şəkildə düşünməliyik ki, milli sərhədlərə, ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşılsın.

Hesab edirik ki, BMT sırf sülhməramlı əməliyyatları aparmaqla kifayətlənməli deyil, qəbul edilmiş qətnamələr, qərarlar həyata keçirilməlidir. Ərazi bütövlüyü pozulmuş ölkələrin suverenliyi bərpa edilməlidir.

Dünyanın istənilən yerində baş verən münaqişələrdən insanlar əziyyət çəkirlər. Biz hesab edirik ki, zorakılığa yol verilməməlidir. Zorakılığın qarşısını almaq üçün müvafiq tədbirlər görülməlidir. Bilirik ki, ümumiyyətlə, fərdin və xalqın zorakılıqlardan zədələnmiş hisslərini tam bərpa etmək o qədər asan məsələ deyildir. Biz özümüzü beynəlxalq birliyin bir hissəsi hesab etsək də, milli mənsubiyyətimizi, milli mədəniyyətimizi itirməməliyik.

*Dünyada mövcud olan problemlərin, münaqişələrin həllində mədəniyyətin müstəsna roluna toxunan xanım Freyberqa gənc nəslin də keçmişdən gələn ənənələrə sadiq qalacağına əminliyini ifadə etdi.*

*Latviyanın keçmiş prezidenti bu mötəbər tədbirin təşkilinə görə bir daha minnətdarlığını bildirdi:*

– Bu gün bu foruma mötəbər insanlar toplaşıbdır. Mən prezident İlham Əliyevə bizə göstərilən bu səmimi qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Əslində, biz bunu çoxdan hiss etmişik.

Biz ümid edirik ki, dəyişikliklər üçün imkanlar vardır. Biz bundan istifadə etməliyik. Ölkənizə gəldikdə, görürəm ki, dəyişiklik mümkündür. Biz bu dəyişikliklərə doğru daim irəliləməliyik. Bu, sadə bir siyasi şüar deyildir. Hər hansı bir fərdin və ölkənin irəli sürdüyü sadə bir bəyanat deyildir. Yəni işlərimiz elə bu məcrada getməlidir. Biz bu istiqamətdən kənara çıxa bilmərik. Biz bunu gözəl şəkildə anlamalıyıq və bu dəyişikliklərdə öz rolumuzu görməliyik.

*Niderlandın keçmiş Baş naziri, Madrid Klubunun prezidenti Vim Kok Bakıya gəlməkdən və dünyanın tanınmış liderləri ilə bir arada olmaqdan məmnun qaldığını dedi. Bildirdi ki, sabiq liderlərin üzv olduğu Madrid Klubunun əsas məqsədi demokratik ideyaları təbliğ etməkdir. Vim Kok ölkəmizin Cənubi Qafqazda özünəməxsus yer tutduğunu vurğuladı.*

**V i m K o k:** Biz bilirik, bura elə bir məkandır ki, burada müxtəlif dillərdə danışan qruplar, müxtəlif mədəniyyətlərə, müxtəlif dinlərə mənsub olan şəxslər bir yerdə yaşayırlar. Bu mənada Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə belə bir forumu burada keçirmək barədə Azərbaycan hökumətinin təklifini alqışlayırıq. Ona görə də mən həm Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə, həm də Azərbaycan hökumətinə belə bir forumun keçirilməsinə verdikləri dəstəyə görə minnətdarlığımı bildirirəm.

Mən bir məsələni də böyük məmnuniyyətlə qeyd etmək istəyirəm. Cənab prezident Əliyev, Siz bildirdiniz ki, Azərbaycan hökuməti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubu arasında əməkdaşlıq daha intensiv davam etdiriləcəkdir.

*Vim Kok gələcəkdə hansı ideyaların həyata keçirilməsi ilə bağlı məsləhətləşmələrin davam etdirilməsinin zəruriliyindən danışdı. «Hər bir şəxs cəmiyyətdə öz rolunu görməlidir» – deyən Niderlandın keçmiş Baş naziri cəmiyyətin sağlam təməllər üzərində formalaşmasında diqqəti qadınların və gənclərin roluna yönəltdi və Cənubi Qafqaz Forumunun əhəmiyyətinə toxundu:*

– Belə bir forumun keçirilməsi aktual bir təşəbbüsdür. Hesab edirik ki, gələcək fəaliyyətimiz üçün biz ümumi məqamları da müəyyən edə biləcəyik.

Sonda bir daha Azərbaycan tərəfinə bu forumu təşkil etdiyinə görə təşəkkürümü bildirirəm. Hesab edirik ki, biz bu yolla ümumi cəmiyyətin formalaşdırılmasına nail olacağıq.

Mən sizə məhsuldar müzakirələr arzu edir və diqqətinizə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Çox sağ olun.

## YUNANISTANIN KEÇMİŞ XARİCİ İŞLƏR NAZİRİ, YUNANISTAN PARLAMENTİNİN ÜZVÜ XANIM TEODORA BAKAYANİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Yunanıstanın keçmiş Xarici İşlər naziri, Yunanıstan parlamentinin üzvü xanım Teodora Bakayanisi qəbul etmişdir.*

*Görüşdə Bakıda keçirilən I Cənubi Qafqaz Forumunun siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı vurğulandı, Azərbaycan ilə Yunanıstan arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Avropa Şurasında uğurlu əməkdaşlığının önəmi qeyd edildi.*

## RUMINİYANIN KEÇMİŞ PREZİDENTİ EMİL KONSTANTİNESKU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Rumıniyanın keçmiş prezidenti Emil Konstantineskunu qəbul etmişdir.*

*Rumıniyanın keçmiş prezidenti Emil Konstantinesku xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini böyük ehtiramla yad etdi.*

*Görüşdə Bakıda keçirilən I Cənubi Qafqaz Forumunun əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Rumıniya arasında əlaqələrin hazırkı vəziyyətindən məmnunluq ifadə olundu.*

## **İORDANİYA KRALİÇASI ÜLYAHƏZRƏT NUR İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*7 may 2013-cü il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev mayın 7-də İordaniya kraliçası Ülyahəzrət* Nuru *qəbul etmişdir.*

*Görüşdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından Bakıda keçirilən I Cənubi* Qafqaz Forumunun *əhəmiyyəti vurğulandı, Azərbaycan və İordaniya xalqları arasında mədəni əlaqələrin inkişaf etdirilməsinin önəmi* qeyd olundu.

## SERBİYANIN SABİQ PREZİDENTİ BORİS TADİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Serbiyanın sabiq prezidenti Boris Tadiç ilə görüşmüşdür.*

*Görüşdə Bakıda keçirilən I Cənubi Qafqaz Forumunun önəmi qeyd edildi. Söhbət zamanı Azərbaycan ilə Serbiya arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvili ilə görüşmüşdür.*

*Görüşdə Bakıda keçirilən I Cənubi Qafqaz Forumunun beynəlxalq əməkdaşlığın möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olundu.*

*Söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq bildirildi.*

## BAKIDA KEÇİRİLƏN I CƏNUBİ QAFQAZ FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ İŞTİRAK

*7 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından mayın 7-də Bakıda keçirilən I Cənubi Qafqaz Forumunun iştirakçılarının şərəfinə ziyafət verilmişdir.*

*Madrid Klubunun və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən I Cənubi Qafqaz Forumunun iştirakçılarının şərəfinə verilən ziyafətdə prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişlər.*

## 9 MAY – QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*9 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 9-da İkinci dünya müharibəsində faşizm üzərində Qələbənin 68-ci ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimdə iştirak etmişlər.*

*Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə böyük töhfə vermişdir. Bu Qələbənin əldə olunmasında çox böyük payı olan xalqımız özünün 640 mindən çox oğul və qızını cəbhəyə yola salmışdı. Onların təxminən yarısı döyüşlərdə həlak olub. Həmin dəhşətli müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılmış 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyalar döyüşlərdə misilsiz igidlik və şücaət göstərərək, adlarını tarixin səhifələrinə qızıl hərflərlə yazıblar. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşmuşdur. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və yüzlərlə digər yaşayış məntəqələri uğrunda cəsarətlə döyüşmüşlər. Həmyerlilərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da iştirak etmişlər.*

*Faşizmə qarşı mübarizədə xalqımız döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də qəhrəmanlıq göstərib. Şanlı Qələbəyə neft Bakısının töhfəsi əvəzsiz olmuşdur. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksək keyfiyyətli mühərrik yağlarının 85–90 faizi Azərbaycanın payına düşürdü. İkinci dünya müharibəsində faşizm üzərində*

*Qələbənin qazanılmasında həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin tam əksəriyyəti Bakı neftçilərinin göndərdiyi yanacaqla hərəkətə gətirilirdi. Xalqımız cəbhə bölgələrinə 7 tondan çox donor qan göndərmiş, əsgərlərin ərzaq və isti geyimlə təchizatında da fəal rol oynamışdır.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə böyük diqqət və qayğı ilə yanaşmışdır. Məhz ulu öndərin diqqəti nəticəsində İkinci dünya müharibəsi iştirakçılarının mənəvi haqları özlərinə qaytarılmış və 1994-cü ildən başlayaraq ölkəmizdə Qələbə Günü qeyd olunur.*

*Ulu öndərimizin bu siyasəti prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Ölkəmizdə müharibə veteranlarına dövlət qayğısı sosial siyasətin əsas istiqamətlərindən biridir. Qələbə bayramı ərəfəsində dövlətimizin başçısının sərəncamı ilə müharibə iştirakçılarına, onların ailələrinə birdəfəlik maddi yardımın edilməsi bu qayğının bariz nümunəsidir.*

*İkinci dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətləri heç vaxt yaddaşlardan silinməyəcək, gənc nəslə əsl vətənpərvərlik nümunəsi olacaqdır. 1941–1945-ci illər müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi önünə toplaşmış müharibə veteranları, ictimaiyyətin nümayəndələri, paytaxt sakinləri prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı ehtiramla qarşıladılar.*

*Burada Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyev Respublika Veteranlar Şurasının sədri Əlövsət Baxışova «Şöhrət» ordenini təqdim etdi. Azərbaycan prezidenti 2013-cü il martın 1-də ölkəmizin ictimai həyatında fəal iştirakına və gənclərin vətənpərvərlik tərbiyəsindəki xidmətlərinə görə Əlövsət Baxışovun «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalamışdı.*

*Dövlət başçısı müharibə veteranlarını səmimiyyətlə salamladı, onların hər birini Qələbə bayramı münasibətilə təbrik etdi. Azərbaycan prezidenti 1941–1945-ci illərin ağır və çətin sınaqlarından keçmiş veteranlara yaxınlaşaraq, onların problemləri, qayğıları ilə maraqlandı. Veteranlar ümummilli liderimiz Heydər Əliyevin onlara göstərdiyi diqqət və qayğını xatırladaraq, onun siyasi xəttini davam etdirən prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Onlar ölkəmizin hərtərəfli inkişaf etdirilməsi üçün çalışan dövlət başçısını bundan sonra da dəstəkləyəcəklərini vurğuladılar.*

*Ali Baş Komandan, prezident İlham Əliyev 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş cəsur sərkərdənin, xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad etdi.*

*Dövlət başçısı İkinci dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdi.*

*Prezident İlham Əliyev mərasimdə iştirak edən Rusiya Dövlət Dumasından olan deputatlardan ibarət nümayəndə heyəti ilə görüşdü.*

*Dövlət başçısı tank qoşunları general-mayoru, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri ilə də görüşdü, onları Qələbə Günü münasibətilə təbrik etdi.*

* * *

*Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ YARADILMIŞ HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ VƏ MƏRKƏZDƏ GÖRÜLMÜŞ BİR SIRA İŞLƏRLƏ TANIŞLIQ

*9 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 9-da Heydər Əliyev Mərkəzində yaradılmış Heydər Əliyev Muzeyi ilə və Mərkəzdə görülmüş bir sıra işlərlə tanış olmuşlar.*

*Xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində Heydər Əliyev Mərkəzində ulu öndərin adını daşıyan muzeyin istifadəyə verilməsi dahi şəxsiyyətin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atılan mühüm addımlardan biridir. Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin, onun xalqımıza yadigar qoyduğu zəngin irsin yüksək səviyyədə təqdim edildiyi muzeydəki hər bir eksponat da təsdiqləyir ki, tarix yaratdığı dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndərin də taleyi əslində bir insanın ömür yolu deyildir. Bu, Azərbaycanın tarixidir. O tarix ki, XX əsrin ikinci yarısında Azərbaycanın ayrılmaz parçası olmuşdur. Ümummilli liderin yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilmişdir. Muzeydə təqdim olunan materiallardan da görünür ki, müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu olan Heydər Əliyevin titanik xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətimizin dəyərlər sisteminin ayrılmaz hissəsinə çevrilmiş, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etmişdir. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratmış, hüquqi dövlət və vətəndaş cəmiyyəti formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlmişdir. Bununla da ulu öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsas-*

*lanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazmışdır.*

*Heydər Əliyev Mərkəzində Azərbaycan mədəniyyətinin zənginliyini nümayiş etdirən bir neçə ekspozisiya zalının istifadəyə verilməsi də bu Mərkəzin fəaliyyətinə daha bir özəllik qatır. Bu ekspozisiyalarda qədim insan məskəni olan Azərbaycanın keçdiyi tarixi dövrlər haqqında geniş məlumat verilir, qədim zamanlardan indiyədək qorunub saxlanılan maddi-mədəniyyət nümunələri təqdim olunur. Bundan başqa, Azərbaycan mədəniyyətinin müxtəlif istiqamətlərindən bəhs edən ekspozisiya zalları, heç şübhəsiz ki, buraya gələn hər kəsdə ölkəmiz haqqında müfəssəl təəssüratın və zəngin informasiyanın yaranmasına imkan verəcəkdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə 1969-cu ildən 2003-cü ilədək ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillərə baxdılar.*

*Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirdi ki, xalqımızın ümummilli liderinin xatirəsinin əbədiləşdirildiyi muzey təşkil olunarkən burada Azərbaycan tarixinin və ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunmasına xüsusi diqqət yetirilib. Muzeydə toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. 3 mərtəbədən ibarət muzeydə ümummilli lider Heydər Əliyevin həyat yolu, ulu öndər barədə maraqlı faktlar foto və videomateriallar vasitəsilə təqdim olunur. Muzey forma ilə yanaşı, məzmun orijinallığı ilə də seçilir. Burada materiallar 2 paralel kontekstdə verilir. Ümummilli lider Heydər Əliyevin 1923-cü ildən 2003-cü ilədək ömür yolu ilə yanaşı, müxtəlif tarixi dövrlərdə Azərbaycanın ictimai-siyasi həyatında, mədəniyyət, iqtisadiyyat, idman sahələrində baş verən önəmli hadisələr ziyarətçilərə çatdırılır. Muzeyin «Şəkillərə həkk olunan ömür», «Azərbaycanın ictimai-siyasi həyatı», «Dövlətçiliyimiz, irsimiz, nailiyyətlərimiz» bölmələrində ulu öndərin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual formada təqdim edilir. Bu da öz*

*növbəsində muzeyin orijinallığını daha da artırır. Hər bir mövzuya aid materiallar səsli formada həm Azərbaycan, həm də ingilis dilində verilir.*

*Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, müasir texnologiyalar əsasında qurulan muzeyin ən maraqlı bölmələrindən biri də ulu öndərin müxtəlif ölkələrin rəhbərləri ilə görüşlərini əks etdirən multimedia zalıdır. Buradakı qlobusda ölkələrin üzərinə toxunmaqla arxa fonda prezident Heydər Əliyevin digər dövlət başçıları ilə görüşlərinin və ulu öndərə bağışlanan hədiyyələrin fotoları əks olunur. Eyni məkanda həmin hədiyyələrin orijinalları da muzeyə gələn qonaqların diqqətinə çatdırılır. Bundan əlavə, zalda ümummilli liderin hərbi və mülki geyimləri, o cümlədən onun iş masası da sərgilənir. Dahi şəxsiyyətin müxtəlif illərdə təltif olunduğu orden və medallar ekspozisiyanın ən qiymətli nümunələri sırasındadır. Bir sözlə, dizaynı və tətbiq edilən yeni texnologiyalarla fərqlənən muzey Heydər Əliyev Mərkəzinin modern üslubu ilə həmahənglik təşkil edir.*

*Heydər Əliyev Mərkəzi paytaxt sakinləri və qonaqlar üçün Azərbaycan tarixini, adət-ənənələrini, milli dəyərlər və mədəni irsimizi öyrənmək, təbliğ etmək istiqamətində bir sıra layihələr həyata keçirmişdir. Mərkəzdə müxtəlif mövzuları əhatə edən sərgilər açılmışdır. Mərkəzin sərgi zalları bölməsinin birinci mərtəbəsində «Azərbaycan inciləri» sərgisi təqdim edilir. Azərbaycan tarixini və mədəniyyətini əks etdirən bu ekspozisiyada ölkənin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsinə dair nadir eksponatlar nümayiş olunur. Bu sərgi Azərbaycan tarixi və mədəniyyətini öyrənmək üçün interaktiv və müasir bir vasitə kimi diqqəti cəlb edir. Onun özəlliyini artıran ən mühüm cəhətlərdən biri tariximizin bütün dövrlərinin bir arada təqdim olunması, mədəniyyətimizin müxtəlif sahələrinə dair eksponatların nümayiş etdirilməsidir. Belə ki, qədim sənət növlərinin, xüsusilə də Azərbaycan xalçaçılıq məktəbinin ən nadir nümunələrinin əks olunduğu sərgidə misgərlik məmulatının təqdimatı da xüsusi maraq doğurur. Qədim musiqi alətlərimiz orijinal qaydada – səsli formada təqdim edilir.*

*Milli geyimlərimizin, qədim sikkələrin təqdim olunduğu sərgidə tolerantlıq ünvanı kimi tanınan Azərbaycanda müxtəlif dinlərə aid müqəddəs kitablar da ziyarətçilərin diqqətinə çatdırılır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Mini Azərbaycan» sərgi zalında da oldular. Bildirildi ki, bu layihə paytaxt Bakı və regionlardakı tarixi memarlıq abidələrinin tanıdılması baxımından xüsusi önəm kəsb edir. Hazırda bu layihə çərçivəsində 24 tarixi bina və memarlıq nümunəsinin maketi təqdim edilir. Ziyarətçilərə hər bir bina, onun memarlıq üslubu haqqında məlumatlar, maraqlı faktlar çatdırılır. «Mini Azərbaycan» layihəsi Azərbaycan tarixi, milli memarlıq sənəti barədə məlumat əldə etmək baxımından sakinlər və qonaqlar üçün qiymətli layihədir. Gələcəkdə Azərbaycanda mövcud olan daha 21 memarlıq abidəsinin maketləri hazırlanacaqdır.*

*Diqqətə çatdırıldı ki, Heydər Əliyev Mərkəzi Heydər Əliyev Fondu ilə birgə layihə çərçivəsində ümummilli liderin 90 illik yubileyi ilə əlaqədar nəşrlər hazırlamışdır.*

*Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, «Azərbaycana xoş gəlmisiniz» ekspozisiya zalı isə Mərkəzin Azərbaycanın tanıdılması layihələri sırasında təqdim edilir. Bu layihə ilə əslində Azərbaycana virtual tur etmək mümkündür. Azərbaycan tarixinin, mədəniyyətinin, incəsənətinin və təbiətinin əks olunduğu bu sərgi bir çox tərəfləri ilə maraq doğurur, layihənin əhəmiyyətini daha da artırır.*

*Digər zalda «Azərbaycanın mətbəx sənəti» fotoların dili ilə təqdim edilir. Bu əslində Heydər Əliyev Mərkəzinin Azərbaycan ənənələrini yaşadan, mədəniyyətimizi dünyaya tanıdan, eləcə də dünya mədəniyyətinin Azərbaycanda təbliğinə xidmət edən mühüm layihələrindən biridir. Burada Fransada yaşayıb-yaradan məşhur amerikalı fotoqraf Peter Lippmanın əsərləri vasitəsilə Azərbaycanın zəngin adət-ənənələr dünyasına səyahət etmək mümkündür.*

*Ekspozisiyada Azərbaycanın adət-ənənələri, süfrə mədəniyyəti ilə foto sənətinin sintezi sərgilənir.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Mərkəzində yaradılmış ikinci konfrans zalındakı şəraitlə tanış oldular. Mərkəzin «Auditorium» bölməsindəki ikinci konfrans zalının ümumi sahəsi 1811 kvadratmetr, hündürlüyü 7, 8 metrdir. Zal müxtəlif yerli və beynəlxalq tədbirlərin keçirilməsi üçün nəzərdə tutulub. Mərkəzdə qonaqların asudə vaxtının təşkili üçün kafe də yaradılmışdır. Binada təbii dekorativ ağac və güllərdən landşaft ərazi salınıb. Bundan əlavə, müxtəlif interaktiv məlumat köşkləri qurulub. Bu məlumat köşklərində qonaqlara Mərkəz və burada keçirilən tədbirlər, müxtəlif layihələr barədə informasiyalar çatdırılır.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, kollektivə uğurlar arzuladı.*

**PARAQVAY RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB LUİS FEDERİKO FRANKO QOMESƏ**

Hörmətli cənab Prezident!

Paraqvay Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Paraqvay arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Paraqvay xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 may 2013-cü il*

## NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Norveç dostluğunun daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi yolunda atdığımız addımlar bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Norveç xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 may 2013-cü il*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2013-cü il*

*Mayın 10-u müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü günüdür. Artıq 10-cu ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.*

*Ulu öndər Heydər Əliyevin 90 illik yubileyi respublikamızın hər yerində olduğu kimi, dünya ölkələrində də geniş qeyd olunur. Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün – Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, ölkəmizi sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə silsilə təbirlər keçirilir, bu dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri yad olunur. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri də ümummilli lider Heydər Əliyevin yubileyi münasibətilə geniş tədbirlər keçirərək görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, xalqımız qarşısındakı xidmətlərini geniş təbliğ edirlər.*

*Ümummilli liderin ad günü ərəfəsində olduğu kimi, mayın 10-da da sübh tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin məzarı önünə təzətər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edirdilər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri, ulu öndərin doğmaları,*

*yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.*

*Burada Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun ruhu qarşısında baş əydi.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Sonra prezident İlham Əliyev və ailə üzvləri oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarlarını ziyarət edərək üzərinə gül dəstələri qoydular.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ PAYTAXTDA TƏŞKİL EDİLMİŞ GÜL BAYRAMINDA İŞTİRAK

*10 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə Bakıda ulu öndərin adını daşıyan sarayın qarşısındakı parkda təşkil edilmiş Gül bayramında iştirak etmişlər.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezident İlham Əliyevə məlumat verdi ki, paytaxt sakinlərinin və qonaqların sevimli istirahət yeri olan bu ərazi bu gün möcüzəli gül bağına çevrilib.*

*Xalqımızın ümummilli liderinin abidəsinin ucaldığı parkda Gül bayramının təşkil olunması dahi dövlət xadiminin xatirəsinə ehtiram əlaməti olmaqla yanaşı, həm də paytaxt sakinlərinin xoş istirahətinin təşkil olunması baxımından da gözəl addımdır.*

*Parkda müstəqil dövlətimizin qurucusu, xalqımızın dahi oğlu, anadan olmasının 90-cı ildönümünü qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin əzəmətli abidəsi xüsusilə diqqət çəkir. Abidənin postamenti güllərlə bəzədilib. Əzəmətli kompozisiyalardan biri də Heydər Əliyev sarayı qarşısında qurulub. Bu məkanı dağın zirvələri fonunda ulu öndərin güllərdən toxunmuş portreti bəzəyir. Parkda müxtəlif çiçəklərdən gül xalıları, maraqlı kompozisiyalar yığılıb.*

*Bakı Şəhər İcra Hakimiyyətinin təşkil etdiyi bu bayramda çiçək və bitkilərdən, yarpaqlardan hazırlanan rəngarəng kompozisiyalar görünüşü və ifadəliyi ilə seçilir, gözəlliyin hədsiz imkanlarını nümayiş etdirir, hər kəsdə xoş ovqat yaradır.*

*Burada rəngbərəng güllərdən hörülən, yazın gəlişinə həsr olunan kompozisiyalar nümayiş etdirilir. Müxtəlif dibçək və kəsilmə güllərdən, qurudulmuş gül və bitki kollarından, gözoxşayan eksponatlardan ibarət sadə və eyni zamanda, orijinal üslublu kompozisiyalar qurulub. Hər tərəf baharın xoş ovqatına bürünüb. Ümummilli lider Heydər Əliyevin xatirəsinin bahar çiçəkləri ilə anılması, əlbəttə ki, ulu öndərin xatirəsinə xalqımızın dərin hörmət və ehtiramını nümayiş etdirir.*

*Builki Gül bayramı daha bir hadisə ilə yadda qalacaqdır. Belə ki, «DufoA» adlı Azərbaycanın Holland Dostları Assosiasiyası yetişdirdikləri xrizantemin (payızgülü) yeni növünə qürurlu, ləyaqətli, cəsarətli olan Azərbaycan xalqının «azeri» adını verməyi qərara almışdır. Bununla bağlı bu gün Gül bayramında xüsusi sertifikatın imzalanma mərasimi keçirilmişdir. Sənədi prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və «DufoA» Assosiasiyasının prezidenti Marion van der Veqt imzaladılar.*

*Xrizantem gülünün bu növünün yetişdirilməsi üçün 5 il vaxt tələb olunur. Beləliklə də, dünyada xalqın adının verildiyi yeganə gül də həyata vəsiqə aldı.*

*Artıq Bakıda ənənə halını alan Gül bayramı dünyanın ən nadir gözəlliklərini bir arada toplamaqla, ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, ümummilli liderin doğum gününün bu cür mötəbər formada keçirilməsi ilə yadda qalır.*

*Dövlət başçısı və xanımı Gül bayramında iştirak edən uşaqlarla səmimi söhbət etdilər, xatirə şəkli çəkdirdilər.*

*Bu il Gül bayramının daha bir maraqlı məqamı ondan ibarətdir ki, yüzlərlə uşaq Heydər Əliyev sarayı qarşısında yürüş etdi.*

## BAKIDA YERALTI AVTOMOBİL DAYANACAĞININ ÜSTÜNDƏ SALINAN PARK, BAĞ VƏ FƏVVARƏLƏR KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*10 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Bakının Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında inşa olunan yeraltı avtomobil dayanacağının üstündə salınan park, bağ və fəvvarələr kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Yeraltı avtomobil dayanacağının üstündə müasir istirahət parkı kompleksi Bakı şəhərinin simasının daha da yeniləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Dövlət başçısı kompleksdə inşaat işlərinin gedişini daim nəzarətdə saxlamışdır.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezident İlham Əliyevə park kompleksi haqqında məlumat verdi. Bildirildi ki, dövlət başçısının Bakıda park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən, bu ərazidə xüsusi layihə əsasında müasir səviyyədə yeni istirahət kompleksi salınmışdır.*

*Diqqətə çatdırıldı ki, bu kompleks şəhərin içərisində ən böyük parkdır. Ərazisi 7 hektar olan parkın uzunluğu 1 kilometr, eni isə 150 metrdir. Parkın 20 min kvadratmetrlik sahəsinə qranit və keramit plitələr döşənmişdir. Burada ən müasir tələblərə cavab verən 5 fəvvarə kompleksi quraşdırılıb. Parkın girişində və çıxışında quraşdırılan fəvvarənin ətrafında oturacaqlar qoyulub. Bu da parkda müxtəlif tədbirlər keçirməyə imkan verəcəkdir. Kompleksdə 7 yeraltı keçid inşa olunub. Keçidlərdə 24 eskalator, hər bir keçiddə də əlillərin hərəkəti üçün xüsusi qurğu quraşdırılıb. Bundan başqa, avtomobillərini yeraltı dayanacaqda saxlayanların parka rahat qalxmaları*

*üçün 14 lift fəaliyyət göstərəcəkdir. Dayanacaqda piyadaların parka çıxışı üçün də 32 keçid vardır. Parkın işıqlandırma sistemi də müasirdir. Bunun üçün yeni yarımstansiya quraşdırılıb. Kompleksin inşası zamanı Səməd Vurğun, Füzuli, Mirzağa Əliyev və Şixəli Qurbanov küçələri genişləndirilib. Parkın ətrafındakı binalarda və ərazilərdə də əsaslı şəkildə abadlıq və quruculuq işləri indi də davam etdirilir. Füzuli küçəsindəki 39 saylı binanın sürüşdürülmə yolu ilə köçürülmə prosesi artıq başa çatmışdır.*

*Qeyd edildi ki, park kompleksinin 35 min kvadratmetrlik ərazisinə münbit torpaq tökülmüş, geniş yaşıllıq zolağı salınmış, 2 minə yaxın ağac, 10 mindən çox bəzək kolu, çoxlu gül və çiçək əkilmişdir. Yaşıllıq zolaqları avtomatik sistemlə suvarılır. Parkda 3 yay kafesi də fəaliyyət göstərəcəkdir. Bütün gün ərzində açıq olacaq yeraltı avtomobil dayanacağının müxtəlif istiqamətlərdən 5 giriş-çıxışı vardır. Buradakı naviqasiya sistemində 3500 detektordan və bir çox başqa elementlərdən istifadə olunmuşdur. Yeraltı avtomobil dayanacağına və texniki xidmət otaqlarına videosistemlə vizual nəzarət olunacaqdır. Bu sistem çərçivəsində 297 gecə-gündüz görmə qabiliyyətli statik kamera quraşdırılmışdır. Yeraltı dayanacaqda avtomatik yanğınsöndürmə və havalandırma sistemləri yaradılmışdır. Beləliklə, yeraltı dayanacaqda avtomobillərin təhlükəsizliyi ən yüksək səviyyədə nəzərə alınmışdır.*

*Vurğulandı ki, aparılan tikinti hesabına Şəmsi Bədəlbəyli küçəsi 770 metr uzadılaraq Azərbaycan Dövlət Dram Teatrının qarşısındakı meydana çatdırılmışdır. Bu yol birtərəfli və üçzolaqlı olacaqdır. Səməd Vurğun küçəsindən Dilarə Əliyeva küçəsinədək olan 212 metrlik ərazi də yenidən qurulmuşdur.*

*Prezident İlham Əliyev kompleksdə yaradılmış şəraitdən razılığını bildirdi.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ İŞTİRAK

*10 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişlər. Dövlət və hökumət nümayəndələrinin, xarici ölkələrin Bakıda akkreditə olunmuş diplomatik korpusunun təmsilçilərinin də iştirak etdiyi təntənəli mərasimdə dövlətimizin başçısı nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin 90 illik yubileyini qeyd edir. Heydər Əliyev böyük azərbaycanlıdır, böyük tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur. O öz ömrünü Azərbaycan xalqına həsr etmiş və bütün dövrlərdə Azərbaycana sədaqətlə xidmət etmişdir.

Şəxsiyyətlərin tarixdəki rolu haqqında müxtəlif dövrlərdə elmi əsərlər, kitablar, bədii əsərlər yaradılmışdır. Bu günə qədər bu məsələ bəzi hallarda mübahisə mövzusudur. Ancaq Heydər Əliyevin timsalında biz əyani şəkildə görürük ki, şəxsiyyətlərin tarixdəki rolu bəzi hallarda əvəzolunmaz olur. Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir.

Əgər biz onun Azərbaycana rəhbərliyə gəldiyi tarixlərə nəzər salsaq görərik ki, həm 1969-cu və həm də 1993-cü illərdə onun rəhbərliyə gəlişindən sonra Azərbaycanda bütün proseslər müsbət istiqamətdə inkişaf etməyə başlamışdır. 1969-cu ilə

qədər Azərbaycan Sovet İttifaqında ən geridə qalmış respublika kimi tanınırdı. Respublikada sənaye potensialı çox aşağı səviyyədə idi. Digər göstəricilər də ən aşağı səviyyədə idi.

Heydər Əliyev kimi güclü liderin Azərbaycanın rəhbərliyinə gəlməsindən sonra köklü dəyişikliklər baş vermişdir. Onun Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində Azərbaycan Sovet İttifaqı çərçivəsində ən inkişaf etmiş və qabaqcıl respublikaya çevrilmişdir. O vaxt Sovet İttifaqında cəmi 2 respublika özünü təmin edirdi və ümumittifaq büdcəsinə töhfələr verirdi. Onlardan biri də Azərbaycan idi. Məhz o illərdə Azərbaycanda güclü sənaye potensialı yaradılmışdır ki, sonra – müstəqillik dövründə bu potensial bizə xeyli dərəcədə kömək etmişdir. Xüsusilə neft sənayesində, energetika sənayesində aparılan işlər müstəqil Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynamışdır. Kənd təsərrüfatının, digər sahələrin – elmin, təhsilin inkişafı o illərdə məhz Heydər Əliyevin adı ilə bağlı idi. Əlbəttə, Azərbaycan müstəqil deyildi və Sovet İttifaqında müəyyən ideoloji çərçivələr də var idi. Ancaq buna baxmayaraq, həm respublikanın sosial-iqtisadi inkişafında, həm milli-mənəvi dəyərlərin təbliğində o illərdə Heydər Əliyev böyük işlər görmüşdür.

Bu işlərin görülməsi nəticəsində keçən əsrin 70-ci illərində Azərbaycanda hər bir istiqamətdə, hər bir sahədə böyük inkişaf özünü büruzə verirdi. 1982-ci ilin sonlarında Moskvaya gedəndə Azərbaycan ən qabaqcıl yerlərdə idi. 1982-ci ilin sonlarında Heydər Əliyevə böyük etimad göstərilmiş, Sovet İttifaqı Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş, Siyasi Büroya üzv seçilmişdi. Bu, Azərbaycan xalqı üçün də böyük nəticə, böyük nailiyyət idi. Bizim nümayəndəmiz, Azərbaycan xalqının nümayəndəsi Kremldə əyləşmişdi. O illərdə ümumi işlərlə məşğul olsa da Azərbaycanı unutmamışdı.

Məhz o illərdə Azərbaycanın gələcək inkişafı ilə bağlı çoxsaylı qərarlar qəbul edilmişdir. Ulu öndər daim Azərbaycana diqqət göstərirdi, işlərlə maraqlanırdı. Demək olar ki, 1987-ci ilə qədər onun nəzarəti və rəhbərliyi nəticəsində Azərbaycanda

proseslər bütövlükdə müsbət istiqamətdə gedirdi. Baxmayaraq ki, artıq o vaxt onun Azərbaycanda yoxluğu hiss edilirdi. Tədricən Azərbaycanda gedən işlər tənəzzülə uğramağa başlamışdır. Həm də iqtisadi-sosial məsələlərin həllində ölkəmiz üçün ən həlledici məqamlarda onun yoxluğu, əlbəttə ki, öz mənfi təsirini göstərmişdir.

Heydər Əliyev kimi parlaq şəxsiyyətin mötəbər kürsüdə əyləşməsi sovet rəhbərliyini də qıcıqlandırırdı. Onun kimi dəmir məntiqə malik olan, öz sözünü deyən, cəsarətli, heç kimdən çəkinməyən şəxsiyyət bəzilərini qane etmirdi. O vaxt ona qarşı aparılan təbliğat, ona qarşı olan paxıllıq, qısqanclıq və əfsuslar olsun ki, Azərbaycandan korrupsiyaya görə cəzalandırdığı adamların donosları nəticəsində o, siyasi rəhbərlikdən uzaqlaşdırılmışdır. Ondan sonra Azərbaycanın problemləri başlamışdır.

Bu salonda əyləşənlərin əksəriyyəti o illəri, günləri yaxşı xatırlayır. Bir daha demək istəyirəm ki, əgər o vaxt Heydər Əliyev Azərbaycanda, yaxud da ki, sovet rəhbərliyində olsaydı, heç vaxt Dağlıq Qarabağ kimi problem meydana çıxmazdı. Heydər Əliyev amili, onun gücü, qüdrəti erməni millətçilərini bu təxribatlardan çəkindirirdi. Təsadüfi deyil ki, 1987-ci ildə onun siyasi rəhbərlikdən getməsindən sonra 2 həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağ məsələsini qaldırmış və Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında məsələ qaldırmışlar. Əlbəttə, o vaxtkı Azərbaycan rəhbərliyi bu təxribatların qarşısında aciz idi, öz qətiyyətli mövqeyini ortaya qoya bilmədi, zəiflik, bəzi hallarda xəyanət etdi. Beləliklə, bu məsələ böyük problemə çevrilmişdir.

Böyük təəssüf hissi ilə deyirəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, bir qarış torpaq da işğal altına düşməzdi. Ondan sonrakı illər bizim üçün ən ağrılı illər olmuşdur. Ölkədə proseslər mənfi istiqamətdə gedirdi. Özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında yaranmış uçurum, digər tərəfdən, Ermənistanın Azərbaycana qarşı iddiaları Azərbaycana böyük problemlər yaratmışdı.

Onların içində ən ağrılısı torpaqlarımızın işğal altına düşməsidir. Qanlı Yanvar hadisəsi ən böyük yara, ən böyük faciədir. Əfsuslar olsun ki, Azərbaycanın o vaxtkı rəhbərliyi Qanlı Yanvar faciəsinin qarşısının alınması üçün heç bir iş görməmiş və günahsız insanları sovet ordusunun qurbanlarına çevirmişdir. Heydər Əliyevin o vaxta qədər fəal siyasətlə məşğul olmaq niyyəti olmamışdır. Ancaq o bu faciəyə biganə qala bilməzdi və dərhal öz münasibətini bildirdi. Azərbaycanın daimi nümayəndəliyinə gəlmiş və orada öz sözünü demişdir. Sovet rəhbərliyini pisləmiş, tənqid etmiş, Azərbaycan xalqının yanında olduğunu bəyan etmişdir.

Ondan sonra ona qarşı təzyiqlər, təxribatlar kampaniyası başlamışdır. Bu kampaniya nəticəsində hətta onu həbs etmək də istəmişlər. O, Azərbaycana üz tutdu. Ancaq ona Bakıda yaşamağa imkan vermədilər. Naxçıvana qayıtdı. Naxçıvanda xalq onu müdafiə etdi. O isə öz növbəsində xalqı müdafiə etdi. Çünki ermənilərin məkrli niyyətləri Naxçıvana da yönəlmişdi. Naxçıvanı işğal etmək onların planlarında idi. O buna imkan vermədi, erməniləri yerinə oturtdu, Naxçıvanı qorudu və müstəqilliyin əldə edilməsi üçün həlledici addımlar atdı. Məhz onun təşəbbüsü ilə ilk dəfə olaraq o illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağı – üçrəngli bayraq Naxçıvanın Dövlət bayrağı elan edilmişdir və Azərbaycan Ali Məclisinə vəsatət göndərilmişdir ki, bu bayraq Dövlət bayrağı kimi qəbul olunsun. O illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirilmiş, «Sovet Sosialist» sözləri çıxarılmışdır və bu da müstəqilliyə doğru atılan çox ciddi bir addım idi. Digər addımlar da atılmışdır. Yəni Azərbaycanın dövlət müstəqilliyinə gedən yol Naxçıvandan başlamışdır, Heydər Əliyevin təşəbbüsü ilə, onun zəhməti, cəsarəti, qətiyyəti hesabına mümkün olmuşdur. Məhz o illərdə Azərbaycanın müasir siyasi sistemi formalaşmış və inkişaf etməyə başlamışdır.

1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması tarixi bir hadisə idi. Müxalifət partiyası kimi

yaradılmış Yeni Azərbaycan Partiyası Azərbaycanda siyasi məsələlərin mədəni, sivil qaydada həll edilməsi üçün xüsusi əhəmiyyətə malik olan bir hadisə idi. Çünki o vaxta qədər Azərbaycanda kiçik qruplar, siyasi dərnəklər daha çox bir-biri ilə savaşmaq üçün yaradılmışdı. Hər siyasətlə məşğul olmaq istəyənin yanında bir qrup adam toplaşaraq özünü partiya adlandırırdı. Amma partiya quruculuğu haqqında heç bir təsəvvürü olmayan qruplar, əlbəttə ki, siyasi sistemin yaradılmasına da əngəl idi. Yeni Azərbaycan Partiyasının yaradılması siyasi sistemin formalaşmasında xüsusi rol oynamışdır. Təsadüfi deyildir ki, qısa müddət ərzində Yeni Azərbaycan Partiyası Heydər Əliyevin rəhbərliyi ilə ölkədə böyük nüfuz qazanmışdır. Bu partiya 1993-cü ildən bu günə qədər iqtidar partiyasıdır. Bu gün nəinki Azərbaycanda, Cənubi Qafqazda ən böyük partiyadır.

Azərbaycanda isə o vaxt Bakıda rəhbərlikdə oturanlar bir-biri ilə savaş içində idilər, vətəndaş müharibəsini başlamışdılar, qardaş qanını axıtmışdılar. Bir tərəfdən, erməni millətçiləri torpaqlarımızı zəbt edir, digər tərəfdən, hakimiyyətdə təmsil olunanlar bir-biri ilə ədavət içində idilər.

1992-ci ilin may ayında Şuşanın, Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi nəticəsində Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə, bağlantı yaradılmışdır ki, bu da münaqişənin həlli və proseslərin gedişatı üçün çox mənfi təsir göstərmişdir. Azərbaycan, demək olar ki, öz müstəqilliyini itirmək ərəfəsində idi. Azərbaycan xalqının əsrlər boyu arzuladığı müstəqillik əldən gedirdi. Ölkə parçalanırdı, idarəolunmaz vəziyyət yaranmışdı.

Azərbaycan xalqı bir daha öz müdrikliyini göstərərək ulu öndərə üz tutdu, ona müraciət etdi və onu hakimiyyətə dəvət etdi. Hətta o vaxt Azərbaycanın rəhbərliyində yüksək vəzifələr tutan və vaxtilə Heydər Əliyevə qarşı təxribatlar törətməyə cəhd edən, Naxçıvana desant göndərmək istəyən antimilli qüvvələr də öz canlarından qorxaraq Heydər Əliyevi dəvət etmişdilər. Çünki onların öz taleyi artıq təhlükə altında idi. Mən o günləri

yaxşı xatırlayıram. Naxçıvanlılar Heydər Əliyevi buraxmırdılar, qoymurdular ki, getsin. Ancaq Vətəni, Azərbaycan xalqını sevən dövlət adamı kimi, onun demək olar ki, seçimi yox idi. O, Bakıya gəldi və o vaxt Bakıda gedən proseslər hamımızın yaxşı xatirindədir. Vətəndaş müharibəsinin dayandırılması birinci məsələ idi. Ona nail oldu. Ondan sonra – Azərbaycanda müəyyən dərəcədə sabitlik yaranandan sonra böyük islahatlara başladı. Demək olar ki, 1993-cü il müasir tariximizdə həlledici dönüş nöqtəsidir. Tam qətiyyətlə deyə bilərəm ki, əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, bugünkü Azərbaycanın mövcudluğu hətta şübhə altına düşə bilərdi.

Bizim xoşbəxtliyimiz, Azərbaycan xalqının xoşbəxtliyi ondan ibarətdir ki, Heydər Əliyev kimi liderimiz olubdur. 10 il ərzində – 1993–2003-cü illər ərzində Azərbaycan böyük və uğurlu yol keçmişdir. Azərbaycanda dövlət quruculuğu prosesi uğurla aparılmış və gözəl nəticələrə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. Qanlı Yanvar faciəsinə hüquqi və siyasi qiymət verilmişdir. Dövlətimizin ideoloji əsasları qoyulmuşdur. Köklü siyasi islahatlar aparılmışdır. İqtisadi sahədə böyük islahatlar aparılmağa başlamışdır. Bazar iqtisadiyyatı əsas prinsip kimi rəhbər götürülmüşdür. Azərbaycan informasiya blokadasını yara və özünü dünyaya təqdim edə bilmişdir. Beynəlxalq təşkilatların üzvü olduq. Sabitlik yarandı. Bütün qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi. Azərbaycan hakimiyyətini 1992-ci ildə qanunsuz, saxta yolla zəbt edən antimilli qüvvələr hərəsi bir tərəfə çəkildi. Onlar o vaxtdan artıq siyasi səhnədən tamamilə silinmiş və bu gün tarixin arxivindədirlər. İnkişaf üçün imkanlar yarandı. O inkişaf ki, bu gün müstəqil Azərbaycanı dünya miqyasında inkişaf edən ölkə kimi təqdim edir. O illərdə Azərbaycana sərmayə gətirmək, investorları sərmayə qoymaq üçün həvəsləndirmək, onları inandırmaq həddindən artıq ağır və çətin məsələ idi. Çünki Azərbaycan çox yüksək riskli bir ölkə idi. Vətəndaş müharibəsi təzəcə qurtarmışdı. Atəşkəs rejimi 1994-cü ilin mayında elan edilmişdi. O vaxtdan bir neçə ay

keçəndən sonra «Əsrin müqaviləsi» bağlandı. «Əsrin müqaviləsi»nin Azərbaycanın müstəqillik tarixində rolu haqqında mən də, başqaları da dəfələrlə öz fikirlərimizi bildirmişik. Bu gün Azərbaycan reallıqları bunu bir daha sübut edir – o vaxt yeganə düzgün addım atılmışdır ki, xarici investisiyaları cəlb edək və Azərbaycanı bu ağır iqtisadi vəziyyətdən çıxara bilək. «Əsrin müqaviləsi»nin imzalanmasından sonra çox gərgin iş başlamışdır.

Bilirsiniz ki, çox ağır geosiyasi vəziyyət hökm sürürdü. Azərbaycan neftini dünya bazarlarına çıxarmaq üçün ulu öndər Heydər Əliyev böyük səylər göstərmiş və öz əlləri ilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməlini qoymuşdur.

1996-cı ildə digər böyük layihə imzalanmışdır. Bu gün Azərbaycanı dünya miqyasında böyük qaz dövləti kimi təqdim etmək üçün «Şahdəniz» layihəsinin əsas rolu vardır. O özü də bilirdi ki, bu layihələrin həyata keçirilməsi 1 il, 2 il deyil, 10 il çəkə bilər. Yəqin bilirdi ki, o, görülən işlərin nəticələrini görməyəcək. Ancaq Vətən sevgisi, xalqa bağlılıq, Azərbaycana məhəbbət onun üçün hər şeydən üstün idi. Onun yaratdığı möhkəm əsaslar bu gün Azərbaycanı qüdrətli dövlət kimi dünyaya tanıtdırır. Onun tərəfindən atılmış cəsarətli addımlar, irəli sürülmüş təşəbbüslər bu gün reallığa çevrilir və bu gün Heydər Əliyev siyasəti davam etdirilir. Biz onun siyasətinə sadiqik, onun siyasətini davam etdiririk. Xarici siyasətlə bağlı onun qoyduğu xətt davam edir. Bu gün Azərbaycan dünyada böyük rəğbətə, hörmətə malik olan bir ölkədir. Biz iqtisadi islahatları davam etdiririk. Əlbəttə ki, həyat yerində durmur, yeni vəzifələr, yeni çağırışlar ortaya çıxır. Amma biz bu çağırışlara hazırıq. Siyasi islahatların davam etdirilməsi də Heydər Əliyevin bizə tapşırdığı bir məsələ idi. Biz onu da uğurla icra edirik.

Bir sözlə, bu gün Heydər Əliyev siyasəti uğurla davam etdirilir. Onun qoyduğu əsaslar üzərində, onun qoyduğu təməl üzərində qüdrətli dövlət qurulur. O dövlət ki, bizimlə hesablaşırlar, məsləhətləşirlər. Bizim razılığımız olmadan

bölgədə heç bir layihə icra edilə bilməz – istər siyasi, istər iqtisadi, istər enerji. İstənilən layihə Azərbaycanın iştirakı və razılığı olmadan icra edilə bilməz. Bu, artıq reallıqdır. Azərbaycan bölgədə sabitləşdirici rol oynayır. Bizim bütün təşəbbüslərimiz regional əməkdaşlığın dərinləşməsinə hesablanıbdır.

Bütün təşəbbüslərimiz və başladığımız bütün işlər uğurla nəticələnir. Heç kim bir dənə də olsun nümunə gətirə bilməz ki, bizim başladığımız təşəbbüs, yaxud da ki, layihə, ya iş uğursuzluqla nəticələnsin. Biz qarşıya hədəf qoyuruq, məqsəd qoyuruq və bu məqsədə çatmaq üçün ardıcıl siyasət aparırıq. Bu gün Azərbaycan, sözün əsl mənasında, öz inkişaf dövrünü yaşayır. Bu inkişafın təməli 1993–2003-cü illərdə qoyulmuşdur. 2003-cü ildə Azərbaycan xalqı mənə etimad göstərərək, əslində Heydər Əliyev siyasətinə öz dəstəyini vermişdir. 2008-ci ildə isə Azərbaycan xalqı bir daha əmin oldu ki, Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir və bundan sonra da yaşayacaqdır.

Son 10 il ərzində biz xarici və daxili siyasətlə bağlı irəli sürdüyümüz bütün təşəbbüsləri reallaşdıra bildik. Bu gün Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan ölkədir. Bizim xarici siyasətlə bağlı uğurlarımızı təsvir etmək, bu barədə danışmaq üçün çox vaxt lazımdır. Sadəcə, bir misal gətirmək kifayətdir aydın olsun ki, bu siyasət nə dərəcədə uğurludur – Azərbaycan 155 ölkənin dəstəyi ilə dünyanın ən ali, ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu, xarici siyasətimizin zirvəsidir.

Azərbaycan son 10 il ərzində iqtisadi sahədə misli görünməmiş nailiyyətlərə çata bilmişdir. Dünyada iqtisadi inkişaf templərinə görə bizim göstəricilərimiz rekord göstəricilərdir. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır və digər göstəricilər də yüksək səviyyədədir. İşsizlik aradan götürülür, yoxsulluq 50 faizdən 6 faizə düşmüşdür. Bu onu göstərir ki, bəyan etdiyimiz siyasət reallaşır. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Gəlirlərin ədalətli şəkildə bölünməsi də əsas

prioritet kimi elan edilmişdir və biz bunun nəticələrini əyani şəkildə görürük.

Azərbaycanda icra edilən infrastruktur layihələri tamamilə yeni bir şəraitin yaradılmasına gətirib çıxarmışdır. Biz son illər ərzində xüsusilə qeyri-neft sektorunun inkişafı ilə məşğuluq. Bu sahənin inkişafı nəticəsində cari ilin birinci rübündə qeyri-neft sektorumuz 11 faizdən çox artmışdır. Nə iqtisadi, nə maliyyə böhranı bizə təsir etməmişdir. Biz öz iqtisadi siyasətimizi ardıcıllıqla, düşünülmüş şəkildə, qəbul edilmiş proqramlar üzrə aparırıq. Bizim istər xarici, istər daxili, istərsə də apardığımız iqtisadi siyasət düzgün siyasətdir. Həyat bunu təsdiqləyir. Dünyada müxtəlif yerlərdə proseslər çox təhlükəli məcrada inkişaf edir. Qarşıdurmalar, toqquşmalar yaşanır. Vətəndaş müharibələri bir tərəfdən, digər tərəfdən, müxtəlif bölgələrdə maliyyə və iqtisadi böhran hələ ki bitmir. Onun yeni dalğası başlanır. Biz görürük küçələrə on minlərlə, yüz minlərlə insan axışır ki, öz etirazını bu və ya digər formada ifadə etsin.

Azərbaycan bir sabitlik adasıdır. Azərbaycanda daxili sabitlik, xalqla iqtidar arasında birlik, vəhdət vardır. Azərbaycanda iqtisadi siyasət möhkəm sosial siyasətlə tamamlanır. Bizim xarici siyasətimiz də birmənalıdır, açıqdır, aydındır və müstəqildir. Bizim müstəqilliyimizin, müstəqil siyasətimizin təməlində də iqtisadi müstəqillikdir. Əgər iqtisadi müstəqillik olmasaydı, əgər biz xarici kreditlərdən asılı olsaydıq, müstəqil siyasət apara bilməzdik. Müstəqillik ən böyük dəyərdir, ən böyük sərvətdir. Müstəqillik o deməkdir ki, xalqımız azaddır, taleyimiz öz əlimizdədir. Azərbaycan xalqı, nəhayət ki, öz taleyinin sahibidir. Əsrlər boyu xalqımız müstəqillik eşqi ilə yaşamışdır. Nəsillər gəlirdi, gedirdi. Xalqımız müstəqillik eşqi ilə yaşamışdır. Bu gün biz müstəqilik. Bizim nəinki atributlarımız, sözün əsl mənasında, müstəqil, qüdrətli dövlətimiz vardır. Biz fəxr edirik ki, müstəqil Azərbaycanın vətəndaşlarıyıq. Ulu öndərin məşhur kəlamı var, deyir: «Mən fəxr edirəm ki, azərbaycanlıyam».

Biz inamla irəliyə gedirik. Çünki son 20 ildə – 1993-cü ildən bu günə qədər görülən işlər deməyə əsas verir ki, biz bundan sonra da uğurla, inamla inkişaf edəcəyik. Bizim böyük planlarımız vardır. Bu planların bir hissəsi artıq reallaşıb. Biz artıq kosmosa qalxmışıq. Azərbaycan o nadir ölkələrdəndir ki, artıq kosmik sənayesi vardır. Bu reallıqları özümüz yaratmışıq – Azərbaycan xalqının istedadı, zəhməti, Heydər Əliyev siyasəti hesabına. Biz bu siyasətə bundan sonra da sadiq olacağıq və sadiq olmalıyıq.

Bu gün Gül bayramında uşaqlarla görüşdüm, məni əhatə etmişdilər. Hər il Gül bayramında uşaqlarla görüşürəm – biri yaxınlaşır nə isə deyir, o biri yaxınlaşır nə isə deyir, biri gəlir deyir ki, mən Sizi tanıyıram, cənab Prezident, Siz Prezidentsi-niz – balaca uşaqlardır 4-5 yaşında. Bir qız yaxınlaşdı – 4-5 yaşında – dedi ki, mən Sizi tanıyıram, Siz Heydər babanın oğlusunuz. Bu, bu gün eşitdiyim ən gözəl, ən əziz sözlərdir. Bu onu göstərir ki, Heydər Əliyev yaşayır. Balaca qızın şüurunda, qəlbində, Azərbaycan xalqının qəlbində yaşayır. Nə qədər Azərbaycan var, Heydər Əliyev olacaqdır. Biz – ulu öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq.

* * *

*Sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirildi.*

*Daha sonra ümummilli liderin 90 illik yubileyinə həsr edilmiş təntənəli mərasimin bədii hissəsi* oldu.

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Hatay vilayətinin Reyhanlı şəhərində törədilmiş amansız terror aktları nəticəsində çoxlu sayda insanların həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı ən kəskin şəkildə mübarizəni labüd hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 may 2013-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz qardaşım!

Ölkənizin cənub-şərqində törədilmiş amansız terror aktları nəticəsində insanların həlak olması və yaralanması xəbərindən son dərəcə sarsıldıq.

Biz bəşəriyyət üçün dəhşətli bəlaya çevrilmiş terrorizmi qətiyyətlə pisləyir, ona qarşı mübarizəni hər cür dəstəkləyirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 may 2013-cü il*

## AVSTRİYAYA RƏSMİ SƏFƏR

*12 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Avstriya Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Dövlət başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Avstriya Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Vyananın Şvexat Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Avstriyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

# VYANADA ÜZEYİR HACIBƏYLİNİN ABİDƏSİNİ ZİYARƏT

*12 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 12-də Vyananın Dunay parkında ucaldılmış dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin abidəsini ziyarət etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoydular.*

*Dunay parkında dünya mədəniyyətinin tanınmış simalarının abidələri ucaldılmışdır. Üzeyir Hacıbəylinin abidəsi 2006-cı ilin mayında açılmışdır.*

*Dövlət başçısı və xanımı abidənin önündə xatirə şəkli çəkdirdilər.*

## «OMV AG» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU GERHARD ROİSS İLƏ GÖRÜŞ

*Vyana*

*12 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Vyanada Avstriyanın «OMV AG» şirkətinin baş icraçı direktoru Gerhard Roiss ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «OMV AG» şirkəti arasında əməkdaşlıq, enerji sahəsində gələcək birgə layihələr barədə fikir mübadiləsi aparıldı.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Vyana*

*13 may 2013-cü il*

*Avstriya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 13-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Hofburq sarayının qarşısındakı meydanda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Avstriya Respublikasının Prezidenti Hayntz Fişer və xanımı Margit Fişer Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Azərbaycanın və Avstriyanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Avstriyanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Hayntz Fişerə təqdim olundu.*

## AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ HAYNTZ FİŞER İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Vyana*

*13 may 2013-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Prezidenti Hayntz Fişerin mayın 13-də təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu. Əlaqələrimizin inkişafında yüksək səviyyəli səfərlərin əhəmiyyəti vurğulandı. Azərbaycan prezidentinin Avstriyaya rəsmi səfərinin əlaqələrimizin inkişafina töhfə verəcəyi bildirildi.*

*Görüşdə ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Vyana*

*13 may 2013-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Prezidenti Hayntz Fişerin mayın 13-də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Prezident Hayntz Fişer ulu öndər Heydər Əliyevin Avstriyaya rəsmi səfərini xatırlatdı. O, prezident İlham Əliyevin Avstriyaya rəsmi səfərinin ikitərəfli əlaqələrin inkişafında mühüm mərhələ olacağını vurğuladı. Bildirildi ki, Azərbaycan ilə Avstriya arasında əməkdaşlıq bütün sahələrdə inkişaf edir. Ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələr getdikcə möhkəmlənir. Qeyd olundu ki, hazırda onlarla Avstriya şirkətinin Azərbaycanda fəaliyyət göstərməsi iqtisadi sahədə əməkdaşlığın perspektivlərinin uğurlu olmasının göstəricisidir. Vurğulandı ki, ölkələrimiz arasında iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən energetika, turizm, xidmət sektoru və digər istiqamətlər üzrə yaxşı əməkdaşlıq imkanları vardır.*

*Ölkələrimizin enerji sahəsində əməkdaşlığının müzakirə edildiyi görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## «AZƏRBAYCAN RESPUBLİKASI VƏ AVSTRİYA RESPUBLİKASI ARASINDA DOSTLUQ MÜNASİBƏTLƏRİ VƏ TƏRƏFDAŞLIĞA DAİR BİRGƏ BƏYANNAMƏ» nin İMZALANMASI

*Vyana*

*13 may 2013-cü il*

*Vyanada geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra mayın 13-də «Azərbaycan Respublikası və Avstriya Respublikası arasında dostluq münasibətləri və tərəfdaşlığa dair Birgə Bəyannamə»nin imzalanması mərasimi olmuşdur.*

*Birgə Bəyannaməni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avstriya Respublikasının Prezidenti Hayntz Fişer imzaladılar.*

# AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ HAYNTZ FIŞER İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Vyana*

*13 may 2013-cü il*

*«Azərbaycan Respublikası və Avstriya Respublikası arasında dostluq münasibətləri və tərəfdaşlığa dair Birgə Bəyannamə»nin imzalanması mərasimi başa çatdıqdan sonra mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Prezidenti Hayntz Fişerin mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

## Avstriya prezidenti Hayntz Fişerin bəyanatı

Cənab Prezident, Sizi və nümayəndə heyətinizi burada, Avstriyada rəsmi səfər çərçivəsində salamlamaqdan olduqca məmnunam.

Azərbaycana, Bakıya 2011-ci ilin payızında etdiyim səfər yaxşı xatirimdədir. Bizim o vaxt Bakıda, indi isə Vyanada çox məhsuldar müzakirələrimiz oldu. Əməkdaşlığımız üçün bir çox sahələr mövcuddur. İndicə imzaladığımız Bəyannamədə ölkələrimiz arasındakı dostluq münasibətlərimiz və tərəfdaşlığımız əksini tapıb. Məsələn, Bəyannamədə hər iki ölkədə demokratiyaya, insan hüquqlarına hörmətlə yanaşmaya, qanunun aliliyinin təşviqinə sadiqlik vurğulanır. Sənəddə, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq sülh yolu ilə həllinin vacibliyi qeyd edilir.

Mən uzun sürən bu problem, münaqişə ilə bağlı vəziyyətin daha da yaxşılaşdırılmasına nail olmaq üçün növbəti mümkün ad-

dımların atılmasına dair söylədiyiniz rəyə, verdiyiniz təqdimata görə Sizə olduqca minnətdaram.

Əlbəttə ki, müzakirələrimizin əsas mövzusu iqtisadi əməkdaşlığa da aid idi. Çox əlamətdar haldır ki, Bakıya səfərimdən, apardığımız danışıqlardan və Bakıdakı biznes-forumdan 1 il sonra ölkələrimiz arasında ixrac, idxal əməliyyatları böyük həcmdə artmışdır. Bu çox yaxşı göstəricidir. Biz bunun davam etdirilməsinə çalışırıq. Avstriya tərəfi şirkətlərinin tərtib etdiyi və müxtəlif sahələri və təklifləri əhatə edən siyahını Prezidentə və onun əməkdaşlarına təqdim etdi. Burada neft, səhiyyə, texnologiyalar sahəsinə, yeni hava limanına, turizm sahəsindəki əməkdaşlığa dair təkliflər vardır. Dəmir yolları üçün avadanlıq, infrastruktur, mehmanxana işi, konsaltinq və digər məsələlər də öz əksini tapmışdır. Bizim bir çox ümumi layihələrimiz, bu cür layihələr üçün təkliflərimiz vardır. Bundan çox məmnunuq.

Azərbaycanda olarkən, mən Prezidentə Avstriyada və Lüksemburqda beynəlxalq əsaslarla təsis edilmiş Antikorrupsiya Akademiyası haqqında məlumat verdim. Bir neçə ay sonra Azərbaycanın Antikorrupsiya Akademiyasına qoşulması haqqında məlumatı almaqdan çox məmnun oldum. Bu qurum korrupsiyaya qarşı uğurlu mübarizə aparmaq üçün dövlət idarəçiliyi sahəsində təlim kursları keçir. Dünyanın bütün ölkələri iqtisadiyyatın şəffaflığını təmin etmək və təkmilləşdirmək üçün bu və ya digər dərəcədə buna ehtiyac duyurlar. Bu sahədə aparılan əməkdaşlıqdan çox məmnunuq.

Biz BMT çərçivəsində qarşılıqlı surətdə namizədlər üzərində razılığa gəlmişik. Avstriya BMT-nin irqi ayrı-seçkiliyin aradan qaldırılması üzrə komitəsinə Azərbaycanın namizədliyini dəstəkləyir. Azərbaycan isə BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması komitəsinə Avstriyanın xanım namizədini dəstəkləyir.

Görüşümüz olduqca müsbət, mehriban və konstruktiv mühitdə keçdi. Əlbəttə, biz Nabukko məsələsini də müzakirə etdik. Bu məsələdə biz eyni mövqedəyik, ümumi və oxşar maraqlarımız vardır. Növbəti qərar bir neçə həftədən sonra qəbul ediləcəkdir.

Bu, iyunda baş verə bilər. Nabukkonun qərb istiqamətinə və ya TANAP layihəsinə üstünlüyün verilməsindən asılı olmayaraq, qəbul olunacaq istənilən qərar enerji sahəsində önəmli əməkdaşlığımız üçün imkan açacaqdır.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Sağ olun, cənab Prezident!

Əvvəlcə icazə verin, göstərdiyiniz səmimi qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirim. Ölkənizdə olmağımızdan və dialoqumuzun davam etdirilməsindən çox şadıq.

Biz hamımız Azərbaycana etdiyiniz səfəri və apardığımız müzakirələri xatırlayırıq. Qeyd etdiyiniz kimi, həmin səfərdən sonra biz əməkdaşlığın bütün sahələrində sürətli inkişafı hiss edirik. Fikrimcə, Bəyannamənin imzalanması ikitərəfli münasibətlərimizdə mühüm mərhələdir. Bu, ölkələrimiz arasında imzalanmış bütün sənədlər arasında xüsusi yer tutur. Çünki o, əməkdaşlığımızın mahiyyətini, əlaqələrimizin tarixini əks etdirir və bir çox sahələri əhatə edir. Bu, olduqca mühüm Bəyannamədir. Sənəd münasibətlərin və tərəfdaşlığın əla səviyyədə olduğunu təsvir edir.

Əslində bu sözlər əməkdaşlığımızın səviyyəsini səciyyələndirir. Biz güclü siyasi əlaqələr qurmuşuq, daim əlaqədəyik. Bir-birimizi dəstəkləyirik və cənab Prezidentin qeyd etdiyi kimi, bu dəstəyi beynəlxalq təşkilatlarda davam etdirəcəyik.

İqtisadi əməkdaşlığa gəldikdə, çox yaxşı nəticələrimiz vardır. Ticarət dövriyyəsi artır və böyük potensiala malikdir. Hazırda bir çox Avstriya şirkətləri Azərbaycanda mühüm layihələri həyata keçirən podratçı qismində fəaliyyət göstərir. Bu layihələr turizm infrastrukturuna, incəsənətə, memarlığa aiddir. Avstriya şirkətlərinin Azərbaycanda əla nüfuzu vardır. Onlar Azərbaycanın hazırda həyata keçirdiyi bir çox infrastruktur layihələrində bizə yardım edirlər.

Bu gün bir azdan sonra bizim işgüzar dairələrlə görüşümüz olacaqdır. Bu tədbir fikrimcə, cənab Prezident, əməkdaşlığımıza

növbəti dəstək verəcəkdir. Biz həmçinin daha çox Azərbaycan şirkətlərinin Avstriyada işləməsini arzulayırıq. Ümidvarıq ki, bu da baş verəcəkdir.

Azərbaycan şirkətləri üçün sərmayə baxımından Avstriya çox cəlbedici ölkədir. Dünyada ən şəffaf neft fondlarından olan Azərbaycan Dövlət Neft Fondu Avropada və ümidvarıq ki, Avstriyada sərmayə imkanlarını axtarır və sərmayə layihələrinə başlayır.

Cənab Prezident bildirdi və bu Bəyannamədə qeyd olunub ki, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini müzakirə etdik. Münaqişə beynəlxalq hüququn normaları, beynəlxalq təşkilatların qərarları və qətnamələri əsasında həll olunmalıdır. Onların arasında mən erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini xüsusilə qeyd etmək istəyirəm. Əfsuslar olsun ki, 20 ildir bu qətnamələr yerinə yetirilmir, işğal davam edir. 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, etnik təmizləmə siyasətinə və soyqırımına məruz qalmışdır. Əfsuslar olsun ki, ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin prezidentlərinin status-kvonun qəbulolunmazlığı barədə verdikləri bəyanatlara Ermənistanda məhəl qoymurlar. Status-kvonun dəyişilməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanğıcı deməkdir. Fikrimcə, bu nə qədər tez baş verərsə, danışıqlar prosesi daha sürətlə gedər və danışıqlar prosesində müşahidə olunan mühit mənfidən müsbətə doğru dəyişə bilər. Azərbaycan ərazilərinin dərhal işğaldan azad edilməsinin başlanması bizim gözlədiyimiz məsələdir. Ümidvarıq ki, beynəlxalq ictimaiyyət bu istiqamətdə daha fəal rol oynayacaqdır.

Əlbəttə, biz enerji əməkdaşlığını da müzakirə etdik. Bu əməkdaşlıq üçün yaxşı perspektivlər vardır. Azərbaycan «Cənub Qaz Dəhlizi»nin tikintisini nəinki dəstəkləyən, əslində onu başlayan ölkədir. Ötən dəfə cənab Prezidentlə Bakıda keçirdiyimiz görüşdən sonra biz mühüm nailiyyət əldə etmişik. Burada Trans–Anadolu qaz boru kəmərinin tikintisi ilə əlaqədar

Türkiyə ilə əldə edilmiş razılaşma nəzərdə tutulur. Bu, Azərbaycan qazı üçün Avropa qitəsinə qapıları açır. Bu məsələ ilə bağlı Avropa təsisatları və Avropa İttifaqı ilə apardığımız müzakirələr hər zaman bizim diqqət mərkəzimizdədir.

Avropa İttifaqı ilə Azərbaycan enerji sektorunda strateji tərəfdaşlıq sazişini imzalamışdır. Orada Azərbaycan «Cənub Qaz Dəhlizi»nin əsas qüvvəsi və təşəbbüskarı kimi qeyd edilir. Fikrimcə, «Cənub Qaz Dəhlizi» uğurla həyata keçiriləcəkdir.

Hazırda «Şahdəniz» konsorsiumu təkliflərin kommersiya tərəfini qiymətləndirir. Ümidvarıq ki, yaxın gələcəkdə qərar qəbul olunacaq və nəticədə Azərbaycan qazı Avropa qitəsinə çatdırılacaqdır.

Gördüyümüz kimi, əla münasibətləri, yüksək səviyyədə qarşılıqlı anlaşma münasibətlərini genişləndirmək və əməkdaşlığı gücləndirmək üçün hər iki tərəfin istəyi vardır. Hesab edirəm ki, bu səfər bu baxımdan öz rolunu oynayacaqdır.

Hörmətli cənab Prezident, qonaqpərvərliyinizə görə çox sağ olun. Bildirmək istəyirəm ki, mən Vyana şəhərini və zəngin tarixi, xalqınızın tarixi irsini özündə əks etdirən belə möhtəşəm sarayı çox xoşladım.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**A v s t r i y a j u r n a l i s t i: Cənab Prezident, Azərbaycan Türkiyənin dostu sayılır. Həftənin sonunda Türkiyədə bomba partlayışları baş verdi. Suriyada gedən müharibənin Türkiyəyə yayılmasından ehtiyatlanırsınızmı? Sualım hər iki prezidentədir. Bu halda beynəlxalq ictimaiyyət buna reaksiya verməlidirmi və necə?**

**İ l h a m Ə l i y e v**: Əlbəttə, bu bizi narahat edir. Mən Türkiyə prezidentinə və Baş nazirinə bu cür qəddar terror aktları ilə əlaqədar dərin hüznlə başsağlığı verdim. Günahsız adamlar yenə də bundan əziyyət çəkiblər. Əlbəttə, biz narahatıq ki,

terrorçuluq insanlara əziyyət verməkdə davam edir. Terrorçuluğa qarşı mübarizə daha fəal şəkildə aparılmalıdır. Yeri gəlmişkən, BMT Təhlükəsizlik Şurasının üzvü kimi, Azərbaycan sədr olduğu zaman biz beynəlxalq terrorçuluğa qarşı mübarizənin aparılması məsələsini irəli sürdük və beynəlxalq ictimaiyyətin göstərdiyi səylərin birləşdirilməsinin zəruriliyini qeyd etdik. Zənnimcə, bütövlükdə beynəlxalq ictimaiyyət mövqemizi başa düşdü.

Terror təşkilatları arasında heç bir fərq qoyulmalı deyildir. Terror aktı üçün heç bir əsaslandırma və ya üzrlü səbəb ola bilməz. Terrorçuluq beynəlxalq ictimaiyyət tərəfindən pislənməlidir. Beynəlxalq ictimaiyyət terrorçuluğun qarşısının alınması üçün ümumi səyləri, informasiya mübadiləsini gücləndirməlidir.

Əlbəttə, Türkiyə Azərbaycanın dostudur. Bizim aramızda gözəl münasibətlər var və biz narahatıq ki, terrorçuluq əməlləri yayıla bilər, günahsız insanlar əziyyət çəkə bilər.

**H a y n t z F i ş e r**: Mənim sizin sualınıza verəcəyim cavab ondan ibarətdir ki, elə indicə biz görüş əsnasında Suriyadakı vəziyyətə toxunduq. Bildiyiniz kimi, Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvüdür. Şəxsən mən inanıram ki, Suriyanın hazırkı hakimiyyəti Türkiyə ilə əlavə cəbhəni yaratmaqla düşdüyü vəziyyəti ağırlaşdırıb. Hətta deyərdim ki, çox ağırlaşdırıb.

Son günlərdə baş verən maraqlı hadisələr göstərir ki, Rusiyanın Xarici İşlər naziri ilə ABŞ-ın Dövlət katibi arasında danışıqlar aparılmışdır. Münaqişənin səngidilməsi və dayandırılması üçün Rusiya ilə ABŞ arasında razılıq tapılarsa, bu. irəliyə doğru atılmış böyük addım olar. Çünki BMT Təhlükəsizlik Şurasının müsbət qərarı o vaxt mümkün olar ki, Rusiya və ABŞ arasında Təhlükəsizlik Şurasının qətnaməsinə aid bəzi fundamental məsələlər üzərində razılıq əldə olunsun.

Mənim şəxsi rəyim ondan ibarətdir ki, bu cür münaqişələr hərbi vasitələrlə deyil, hər zaman siyasi yolla həllini tapmalıdır. Əgər kimsə münaqişəni güc və qarşıdurma ilə həll etmək

istəyirsə. bu, pis fəsadlar verər. Mənə elə gəlir ki, misal kimi, İraqın adını burada çəkməyə ehtiyac belə yoxdur.

**V ü q a r  S e y i d o v** (*Azərbaycan Dövlət Teleqraf Agentliyi*)**: Sualım Avstriya prezidentinədir. İki ölkə arasında qeyri-enerji əməkdaşlığının hansı konkret sahələri genişləndirilə bilər?**

**H a y n t z  F i ş e r**: Əvvəlcə mən məmnunluqla qeyd edə bilərəm ki, Avstriyada müxtəlif sahələrdə yüksək texnologiyalar var. Mən infrastruktur, dəmir yolları, inşaat, səhiyyə və xəstəxanaların tikintisi sahələrini nəzərdə tuturam. Biz dost ölkə olaraq Azərbaycana bu texnologiyaları təqdim etmək istəyirik və təqdim edirik. İkincisi, turizm sahəsidir. Bu, Avstriyanın səciyyəvi xüsusiyyətidir. Burada turizm çox yüksək səviyyədə inkişaf edib. Beynəlxalq səviyyədə tanınır. Azərbaycan gözəl ölkədir. Turizm ikinci sahədir. Mədəniyyət üçüncü sahədir. Universitetlər arasında sıx əməkdaşlıq mövcuddur. Elmlər akademiyaları əməkdaşlıqda olduqca maraqlıdır. Bu, dördüncü sahədir. Bundan başqa, Avstriya, həmçinin mədəni irsin qorunması sahəsində də çalışır. Bilirik ki, Bakıdakı mədəni irsin bəzi əsas obyektlərində avstriyalı memarlar bərpa işlərinə cəlb olunmuşlar. Bunlar bir sıra yaxşı nümunələrdir. Əgər əlavə vaxt verilsəydi, mən digər sahələri də tapardım. Verdiyiniz suala cavab bu qədər.

**S u a l: Sualım prezident Əliyevədir. «Cənub Qaz Dəhlizi» ilə əlaqədar qərara gəldikdə, Siz bu qərarın iyunun sonunda qəbul ediləcəyini gözləyirsinizmi? İkincisi, əgər «Cənub axını» layihəsi həyata keçirilərsə, bunun Nabukkonun reallaşmasına nə dərəcədə təsiri olacaqdır?**

**İ l h a m  Ə l i y e v**: Bu qərarın yaxın zamanlarda qəbul olunmasını biz də gözləyirik. Bu, «Şahdəniz» qrupunun birgə qərarı olacaqdır.

Bu gün cənab Prezidentlə müzakirə etdiyimiz kimi, ümidvarıq ki, həmin qərar sırf kommersiya etibarlılığı baxımından qəbul ediləcəkdir. Artıq qeyd etdiyim kimi, biz «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi istiqamətində irəliyə doğru böyük addım

atmışıq. Bu halda xüsusən TANAP layihəsi üzrə Türkiyə ilə Azərbaycan arasında əldə edilmiş razılaşma nəzərdə tutulur. Bu, layihənin həyata keçirilməsini xeyli asanlaşdırır. Bir sözlə, biz əsas texniki və maliyyə öhdəliklərini öz üzərimizə götürməyə hazırıq. Biz strateji marşrutun reallaşmasına real töhfə veririk. Çünki bunun nəticəsində Azərbaycan Avropa qitəsində mühüm qaz ixracatçısına çevriləcəkdir. Bu bizə nəhəng qaz potensialımızı reallaşdırmaq imkanı yaradacaqdır. Bu gündən etibarən gələn 10 illər, 100 illər ərzində ölkəmizin iqtisadi müstəqilliyini təmin edəcəkdir.

Biz Avropa təsisatları ilə Azərbaycan arasında əməkdaşlıq səviyyəsindən çox məmnunuq və tərəfdaş kimi real iş görürük. Hazırda regionda həyata keçirilən və gələcəkdə həyata keçirilməsi planlaşdırılan layihələrə gəldikdə rəqabət bizi narahat etmir. Əksinə, fikrimcə, ədalətli rəqabət uğur üçün ilkin əsas şərtdir. Bu həm də istehlakçılar üçün vacibdir. Çünki onların daha çox seçimi olacaqdır. Bu həmçinin istehsalçılar üçün sərfəlidir. Çünki onlar daha səmərəli işləyəcəklər. Bu səbəbdən biz narahat deyilik. Lakin şaxələndirmə haqqında danışdıqda fikrimcə, biz hamımız nəzərə almalıyıq ki, əsas şaxələndirmə marşrutun yox, mənbənin şaxələndirilməsidir.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ LANÇDA İŞTİRAK

*Vyana*

*13 may 2013-cü il*

*Vyanada Avstriya Respublikasının Prezidenti Hayntz Fişer və xanımı Margit Fişer tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə mayın 13-də rəsmi lanç verilmişdir.*

**H a y n t z  F i ş e r:** Sizə və xanımınıza dəvətimizi qəbul edib Avstriyaya nümayəndə heyəti ilə səfər etdiyinizə görə minnətdaram. Azərbaycana, Bakıya 2011-ci ilin payızında səfərim zamanı bizə göstərilmiş qonaqpərvərliyə cavab olaraq, mən də Sizi eyni qonaqpərvərliklə qəbul edirəm.

Əməkdaşlığımız üçün bir çox vasitələr mövcuddur. Deyə bilərəm ki, əməkdaşlığımız hər zaman uğurlu olmuşdur. Ticarət dövriyyəsinin göstəriciləri artır, ixrac-idxal əməliyyatları genişlənir. Beynəlxalq müstəvidə, yəni beynəlxalq forum və təşkilatlar çərçivəsində də əməkdaşlıq edirik.

*Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə təbriklərini çatdıran Avstriya dövlətinin başçısı uzun illərdir həllini tapmayan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmiz üçün qəbul ediləcək həlli variantına nail olunacağına əminliyini bildirdi.*

*Münasibətlərin genişləndirilməsi baxımından yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan prezident Hayntz Fişer iqtisadi əlaqələrin möhkəmləndirilməsinin və səfər zamanı imzalanan Bəyannamənin vacibliyini vurğuladı.*

*Yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən prezident İlham Əliyev Azərbaycan ilə Avstriya arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı.*

**İ l h a m  Ə l i y e v:** Münasibətlərimizin tarixində ilk Avstriya prezidenti kimi, Sizin Azərbaycana səfərinizi yaxşı

xatırlayırıq. Bu, tarixi səfər idi. Biz çox gözəl şəxsi münasibətlər qurmuşuq və dialoqumuzu intensivləşdirmək razılığına gəldik. 2 ildən az müddətdə görürük ki, ticarət dövriyyəmiz sürətlə artmışdır. Çox fəal siyasi məsləhətləşmələr aparılır.

*Dövlətimizin başçısı yüksək səviyyədə qarşılıqlı səfərlərin, həmçinin işgüzar dairələrin görüşlərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət etdiyini bildirdi. Azərbaycanda fəaliyyət göstərən Avstriya şirkətlərinin bir sıra sahələrdə uğurla təmsil olunduqlarını qeyd edən prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın yaxşı perspektivi vardır. Avstriyanın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqeyə də toxunan prezident İlham Əliyev dedi:*

– Problemlərimizi başa düşdüyünüzə görə Sizə olduqca minnətdaram. Burada xüsusən də həll olunmamış Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və insanlarımızın çəkdiyi əziyyətlər nəzərdə tutulur. Münaqişənin beynəlxalq hüququn normalarına uyğun olaraq həllinə dünya ictimaiyyətinin sadiqliyi nikbinlik yaradır. Lakin 20 il ərzində bu münaqişənin həll olunmaması faktı çox məyusedicidir. Dostluq və tərəfdaşlıq haqqında Birgə Bəyannaməmizdə qeyd edildiyi kimi, həll yolu beynəlxalq hüququn normalarına, beynəlxalq təşkilatların qərar və qətnamələrinə əsaslanmalıdır.

*Qarşıdakı illərdə ölkələrimizin tərəfdaşlıq münasibətlərinin daha da güclənəcəyinə əminliyini vurğulayan prezident İlham Əliyev Azərbaycan ilə Avstriya arasında hava nəqliyyatı əlaqəsinin genişləndirilməsinin vacibliyini bildirdi. Dövlətimizin başçısı Vyana ilə Bakı arasında ən azı hər gün uçuşların təşkilinə əməkdaşlığımızın əlverişli zəmin yaratdığını qeyd etdi. Prezident İlham Əliyev yüksək qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirdi.*

## AVSTRİYA RESPUBLİKASININ BAŞ NAZİRİ VERNER FAYMAN İLƏ GÖRÜŞ

*13 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Avstriya Respublikasının Baş naziri Verner Fayman ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli münasibətlərimizin inkişafından məmnunluq ifadə olundu. İqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi. Azərbaycan prezidenti İlham Əliyevin Avstriyaya rəsmi səfərinin əlaqələrimizin bundan sonra da inkişaf etməsi işinə töhfə verəcəyinə əminlik ifadə edildi.*

*Söhbət zamanı iqtisadi əlaqələrimizin hazırkı vəziyyəti və perspektivlərinə dair geniş fikir mübadiləsi aparıldı.*

## AVSTRİYA–AZƏRBAYCAN BİZNES-FORUMUNDA İŞTİRAK

*Vyana*

*13 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avstriya Respublikasının Prezidenti Hayntz Fişer mayın 13-də Vyanada keçirilən Avstriya–Azərbaycan biznes-forumunda iştirak etmişlər.*

*Tədbiri Avstriya Ticarət Palatasının prezidenti, biznes-forumun təşkilatçısı açdı.*

**K r i s t o f L a y t l:** Zati-aliləri!

Hörmətli prezident Əliyev!

Federal prezident Hayntz Fişer!

Xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycanın nüfuzlu nümayəndə heyətinin üzvləri!

Mən Sizi Avstriyanın İqtisadi Palatasında səmimi-qəlbdən salamlayıram. Mən Sizin hamınıza «Xoş gəlmisiniz» – deyirəm və çox minnətdaram. Ölkənizin və Avstriyanın işgüzar dairələri arasında əməkdaşlıq ruhlandırıcı tempdə inkişaf edir.

Əvvəlcə, cənab Prezident, Sizi ölkənizin son onillikdə əldə etdiyi uğurlar münasibətilə təbrik edirəm. Bu məqamda atanızın ölkəmizə səfərini xatırlayırıq. 10 il öncə o burada olmuşdur. O buranı ziyarət etdi. Nümayəndə heyətinizin bəzi üzvləri onunla gəlmişdilər. Ata Əliyevin səfərinin fotoları həmin anları bizə bir daha xatırladır.

Hesab edirəm ki, ölkənizdə bu siyasətin davam etdirilməsi biz avstriyalılar üçün də mühüm məsələdir. Çünki bu siyasət qarşılıqlı etimad və inam yaradır. İqtisadi qərarlar etimad və inama əsaslanır. Bu gün ölkənizdə müzakirə etdiyimiz və müzakirə edəcəyimiz bir çox layihələr mövcuddur. Ümid

edirəm ki, çoxsaylı təmaslar qurulacaq və reallaşacaqdır. Şəxsi təmasların layihələrin icrasına yönəlməsi mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən bildirmək istəyirəm ki, həmin layihələrdə turizm, idman, nou-hauya malik olduğunuz və Avstriyanın sərmayə qoyduğu enerji, infrastruktur kimi nəhəng layihələr və sair nəzərdə tutulmuşdur.

Cənab Prezident, Siz qeyd etdiniz ki, əməkdaşlıq etdiyimiz sahələrdən istifadə etmədiyimiz sahələri sadalamaq daha asan olardı. Bu hər iki ölkənin işgüzar dairələrinin gördüyü işə verilən yüksək qiymətdir. Bu münasibətlə Sizi təbrik edirəm.

Əslində, bu palatada biz ikinci böyük zalı seçmişdik. Sonradan isə ən böyük zalı seçməli olduq. Buna baxmayaraq, burada divar boyunca bir çoxları ayaq üstə də dayanıb. Bu, əməkdaşlıq etmək üçün böyük maraq və iradəni göstərir. Hesab edirəm ki, Avstriyanın iqtisadi gücləri üçün bu çox yaxşı mesajdır və biz bu istiqamətdə işləyə bilərik. Bu yolda biz sizi müşayiət edə bilərik. Bu işə çox sadiqik.

Birinci cərgədə əyləşən sədr müavini ölkənizin yaxın dostudur və bir neçə dəfə səfər edib. Bu onu göstərir ki, biz nəinki belə böyük səfərlərdə maraqlıyıq, həm də istər ticari, istər sərmayə, istərsə də memarlıq sahələrində layihələri icra edirsinizsə, biz bir-birimizi daimi olaraq müşayiət etməyə hazırıq. Buna yalnız bir-birimizlə mütəmadi təmasda olaraq, qarşılıqlı prioritetləri, istəkləri öyrənməklə nail olmaq mümkündür. Bu səbəbdən biz həmin işləri görürük.

Avstriya Avropa İttifaqının üzvüdür və Sizi burada görməkdən şərəf hissi duyuruq. Biz Dunay strategiyasında, həmçinin Sizin ölkənizi də görürük. Avstriyanın siyasəti baxımından sizin bazar diqqət mərkəzindədir, nəinki iqtisadiyyatınız, həmçinin siyasətiniz bizi maraqlandırır. Biz həmçinin bu regionun sabitləşməsinə çalışmalıyıq. Fikrimcə, bu fəlsəfə iqtisadiyyatımızın arxasında dayanıb. Biz xalqlarımıza və ölkələrimizə xidmət etməyə və dünyada daha çox sülh və əməkdaşlığın bərqərar olunmasına töhfə verməyə hazırıq.

Çox sağ olun və bir daha Azərbaycandan gəlmiş dostlarımızı və tərəfdaşlarımızı səmimiyyətlə salamlayıram.

**Avstriya prezidenti Hayntz Fişerin çıxışı**

Hörmətli prezident Əliyev, Zati-aliləri!

Azərbaycanlı və avstriyalı qonaqlar, hörmətli Avstriya İqtisadi Palatasının sədri, xanımlar və cənablar!

Mən Avstriya və Azərbaycan işgüzar dairələrinin çox sayda aparıcı nümayəndələrini bir araya gətirən Avstriya–Azərbaycan biznes-forumunda prezident Əliyevlə birgə iştirak etməkdən böyük məmnunluq duyuram.

Avstriyanın və Azərbaycanın mədəni və tarixi kökləri nə qədər fərqli olsa da, bir o qədər də oxşarlıqlar vardır. Məsələn, ölkələrimizi ərazisi və əhalisinə görə müqayisə etmək və hətta oxşar hesab etmək olar. Hər iki ölkə medallarla təltif olunmaqda uğur qazanıb. Fərq kiçik olsa da, bu oxşarlıq Olimpiya oyunlarnda müşahidə edildi. Avstriya Qış Olimpiya oyunlarında medalları qazandığı halda, Azərbaycan Yay oyunlarında böyük uğurlar əldə etmişdir. Fikrimcə, bu, əməyin ədalətli qaydada bölünməsidir.

Hər iki ölkə «Eurovision» mahnı müsabiqəsində uğur qazanmışdır. Azərbaycan bu nailiyyəti 2011-ci ildə, Avstriya isə bir nəsil əvvəl qazanmışdır. Düzdür, demirəm nə vaxt, lakin uzun illər öncə.

İqtisadi sahədə ölkələrimiz bir-birini tamamlayır. Azərbaycan neft-qaz hasil və ixrac edən zəngin ölkədir. Avstriyanın iqtisadiyyatı isə yüksək texnologiyalara, bir çox sahələri əhatə edən sənaye istehsalına və əlbəttə ki, turizmə əsaslanır. Mən hər zaman qonaqlara fərəh hissi ilə deyirəm ki, əhalisi 8 milyondan bir az artıq olan Avstriyaya gələn turistlər istirahət yerlərində və obyektlərində ümumilikdə 120 milyon sutka keçirirlər.

İkitərəfli iqtisadi və enerji əlaqələri xüsusən də son illər ərzində yüksələn xətlə inkişaf edir. Avstriyanın Mərkəzi Avropada qovşaq rolu oynadığını nəzərə alaraq, Azərbaycan Avstriya üçün

Cənubi Qafqazda aparıcı ticarət tərəfdaşıdır. Son onillik ərzində gözəçarpan iqtisadi inkişafı ilə Azərbaycan xüsusən də turizm sahəsində fəaliyyət göstərən – yeri gəlmişkən, Palata sədri Laytl bunu qeyd etdi – infrastruktur layihələri ilə məşğul olan Avstriya şirkətləri üçün cəlbedici ölkəyə çevrilmişdir.

2011-ci ilin oktyabrında Bakıya son səfərim zamanı şəxsən müşahidə etdim ki, Bakı öz infrastrukturunun müasirləşdirilməsinə böyük sərmayələr yatırır. İnanıram ki, bu amillərə görə Avstriya şirkətlərinə Azərbaycanda açılan imkanlar artır. Buna görə mən Avstriya şirkətlərini Azərbaycanın iqtisadi potensialını daha dərindən öyrənməyə dəvət edirəm. Əminəm ki, Azərbaycan iqtisadiyyatını şaxələndirməklə və xaricdə, o cümlədən Avstriyada çoxşaxəli sərmayə fürsətlərindən istifadə edərək, daha geniş biznes imkanlarını sərgiləyəcəkdir.

Mən Azərbaycan tərəfini uzunmüddətli əməkdaşlıq üçün etibarlı tərəfdaş sayılan Avstriya şirkətlərinin ekspert biliklərinə və innovativ imkanlarına inamla yanaşmağa çağırıram. Avstriya ekspertlərinin yaradıcı fəaliyyətinə dair bir misal gətirim. Bəlkə də Avstriya tərəfi hələ bilmir ki, Avstriya vətəndaşı Robert Kalina nəinki avro əskinazlarının, həmçinin Azərbaycan valyutasının yeni əsginazlarının dizaynını tərtib edib. Beləliklə, mən azərbaycanlı dostlarımızı mallar və xidmətlərin qarşılıqlı mübadiləsi üçün çox faydalı olacaq Avstriyanın innovativ məhsullarının təqdim edildiyi digər sahələri də öyrənməyə dəvət edirəm.

Bundan başqa, qeyd etməliyəm ki, Avstriya Avropanın mərkəzində olmaqla, əlverişli coğrafi mövqeyə malikdir. Sağlam iqtisadi durum, Avropa İttifaqında ən aşağı işsizlik səviyyəsi, sabit sosial tərəfdaşlığımız – bu haqda bir neçə dəqiqə bundan əvvəl bir-birimizə məlumat verdik – yüksək dərəcəli əmək qüvvəsi və ümumi daxili məhsulun yüksək artım tempi bunları deməyə əsas verir. Bir sözlə, Avstriya biznes üçün sərmayə qoymaqda ideal məkandır. Avstriyanın coğrafi mövqeyini xatırlatdıqda bildirməliyəm ki, uzun məsafəyə baxmayaraq, Mərkəzi Asiyadan olan insanlar sadəcə, təsəvvür edə bilməzlər ki,

qonşu Slovakiyanın paytaxtında kiminlə isə görüş təyin etmək istəyirsənsə deyə bilərsən: «İndi saat 5-dir, gəlin 6-ya 15 dəqiqə qalmış görüşək». Siz Slovakiyanın paytaxtına 40 dəqiqəyə çatırsınız. Əgər sizin Macarıstanda, Budapeştdə işiniz varsa, saat birdə naharda iştirak etməlisinizsə, on birin yarısında maşınınızla yola düşməyiniz kifayətdir. Sürəti artırmadan 2 saat yarımdan sonra Budapeştə çata bilərsiniz. Mənə inanmırsınızsa özünüz sınayın! Dəmir sədlər dövründə vəziyyət tamamilə başqa cür idi. Çünki sərhəddə 2–2 saat yarım, bazar günlərində hətta  3 saat gözləməli idin. Ümumiyyətlə, işlər çox çətin gedirdi.

Yekun olaraq, mən Avstriya İqtisadi Palatasının sədri Laytla bugünkü forumu təşkil etdiyinə görə minnətdarlığımı bildirmək istəyirəm. Mən 2011-ci ilin oktyabrında Bakıda keçirilmiş ikitərəfli iqtisadi forumda iştirak etmişəm. Əminəm ki, bu cür görüşlər ikitərəfli ticarətin və sərmayə siyasətinin mühüm informasiya mənbəyidir. Belə tədbirlər biznes tərəfdaşları arasında yeni əlaqələrin qurulması üçün faydalı platforma rolunu oynayır və ciddi ticarət imkanları yaradır. Əlbəttə ki, sədr Laytla bir-birimizi tanımağımızın vacibliyini və əhəmiyyətini, əgər siz bizneslə məşğul olursunuzsa, şəxsən görüşməyin vacibliyini haqlı olaraq qeyd etdi. Çünki siz bu halda bir-birinizə etibar edə bilirsiniz və etimad göstərirsiniz. Əminəm ki, bugünkü forum Avstriya ilə Azərbaycan arasında iqtisadi və enerji əməkdaşlığının daha da dərinləşməsinə xidmət edəcək və hər iki ölkəyə fayda gətirəcəkdir.

Mən bu zalda əyləşən bütün biznes adamlarına və ekspertlərə, eləcə də şirkət nümayəndələrinə gələcək biznes fəaliyyətlərində böyük uğurlar arzulayıram. Yaxşı siyasi münasibətlərimiz, Azərbaycandan Avropanın bu hissəsinə hava uçuşları ilə biz gələcək əməkdaşlığımıza nikbinliklə baxa bilərik.

Çox sağ olun və sizə böyük uğurlar arzulayıram.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab prezident Fişer!

Hörmətli sədr Laytl!

Əziz dostlar!

Mənə ölkənizə səfər etmək, fəal siyasi dialoqu davam etdirmək və işgüzar dairələrlə görüşmək fürsəti yaratdığına görə prezident Fişerə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün bizim bir çox məsələləri, o cümlədən iqtisadi əməkdaşlığı müzakirə etdiyimiz çox məhsuldar görüş və müzakirələrimiz oldu. Nəticələrimiz yaxşıdır. Ümidvaram ki, bu görüşdən sonra iqtisadi işbirliyimiz daha fəal olacaqdır.

Coğrafi baxımdan biz bir-birimizə o qədər də yaxın deyilik. Lakin deyə bilərəm ki, Avstriya və Azərbaycan arasında məsafə o qədər də böyük deyildir. Siz səhər yeməyini Bakıda, naharı Vyanada, şam yeməyini isə yenidən Bakıda yeyə bilərsiniz. Əlbəttə, təyyarəyə minmək şərti ilə. Lakin qəlblərimiz arasında məsafə lap qısadır, çünki həqiqətən, biz Avstriyada özümüzə əsl dost və tərəfdaş qazanmışıq. Biz onlarla əlaqə saxlayırıq, işləyirik, gələcək layihələrimizi planlaşdırırıq, iqtisadi əməkdaşlıq qururuq. Müsbət iqtisadi əməkdaşlığa dair bir çox misallar gətirə bilərik. Biz yeni Azərbaycan manatının dizaynını tərtib etmiş cənab Kalinaya çox minnətdarıq. Ölkəmizdə pul islahatı həyata keçirildi və yeni dizaynlı əsginaslar dövriyyəyə buraxıldıqdan sonra manat gücləndi. Hazırda 1 manat 1 avroya bərabərdir. Ola bilsin ki, ikitərəfli əməkdaşlığımızın buna da təsiri olub.

Hazırda Azərbaycanda çoxlu sayda Avstriya şirkəti işləyir və ölkəmiz üçün mühüm layihələri uğurla həyata keçirir. Burada olduqca geniş sahələri əhatə edən layihələr nəzərdə tutulur. Bu gün biz bu mövzunu qısaca müzakirə etdik və bildirdik ki, əməkdaşlıq etdiyimiz çoxsaylı sahələri yox, iş aparmadığımız az sayda sahələri qeyd etmək daha asandır. Avstriya şirkətləri peşəkar, bacarıqlı şirkətlərdir və çox gözəl zövqləri ilə seçilirlər. Onların Azərbaycanda layihələndirdikləri və tikdikləri memarlıq binaları adi binalar deyildir. Bunlar elə binalardır ki, hamı onları görə biləcəkdir. Məsələn, bu, Bakının yeni Beynəlxalq aeroportudur, yaxud bu, Bakı Xalça Muzeyidir.

Azərbaycanın rəmzi olan Qız qalasının bərpası və yenilənməsi də Avstriya mütəxəssisləri tərəfindən aparılır. Bu, aramızda olan ən yüksək etimad səviyyəsidir, çünki Qız qalası bizim üçün böyük məna daşıyır. O özünəməxsusluğumuzun, memarlığımızın və mədəniyyətimizin əsl rəmzidir.

Əməkdaşlığımız üçün sahələr çoxdur. Avstriya şirkətləri mehmanxanalar, xizəksürmə və istirahət yerləri tikirlər, müxtəlif layihələrdə iştirak edirlər. Ümid edirik ki, gələn illərdə biz ölkəmizdə daha çox şirkət görəcəyik, çünki gələcək üçün planlarımız az deyildir.

Dövlət sərmayə proqramımız genişlənir. Ötən il Azərbaycana 22 milyard dollar məbləğində sərmayə yatırılmışdır. Biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə keçmiş sovet məkanında aparıcı ölkəyik. Sərmayə mühiti olduqca müsbətdir. Biz daha çox Avstriya şirkətini sərmayədar və podratçı kimi görmək istərdik. İnfrastruktur layihələri ilə bağlı məsələlərin həllində də biz həmin şirkətlərlə birgə işləyə bilərik, çünki Azərbaycan hazırda sürətlə müasirləşən ölkədir. İnfrastruktur, xidmətlər modernləşir və avstriyalı həmkarlarımızın yaxşı idarəçilik təcrübəsi və ekspert bilikləri bizim üçün çox qiymətlidir.

İqtisadi göstəricilərə gəldikdə, hazırda iqtisadiyyatımız əvvəlkindən daha çox şaxələndirilmişdir. Enerji sektorundan asılılığın aradan qaldırılması işi uğurla aparılır. 2013-cü ilin ilk 3 ayında qeyri-enerji sektorunda ümumi daxili məhsulun artımı 11 faizdən çox olmuşdur. Azərbaycan ümumi daxili məhsulla nisbətdə bəlkə də ən az xarici borcu olan ölkələrdəndir və onun səviyyəsi cəmi 7 faizdir. Sabit maliyyə sistemi mövcuddur. Valyuta sabitdir. Yaxşı sərmayə imkanları və iqtisadiyyatın sürətli artımı müşahidə olunmaqdadır. Son 10 il ərzində inanılmaz iqtisadi artım olmuşdur. Bu əsasən, enerji sektoru ilə şərtlənir. Lakin tək bu deyildir. Biz iqtisadiyyatımızı 3 dəfə artıra bildik. Bu bizə əvvəlcə üzləşdiyimiz işsizlik və yoxsulluq problemini əsasən həll etməkdə yardımçı olmuşdur. 10 il əvvəl əhalimizin 50 faizi yoxsulluq şəraitində yaşayırdı. Hazırda bu

cəmi 6 faizdir. İşsizlik 5,2 faizdir. Biz həmçinin Dövlət Neft Fondunu yaratmaqla, milli sərvətlərin ədalətli bölüşdürülməsinə nail olmuşuq. Yeri gəlmişkən, bu Fond dünyada ən şəffaf fondlardan biridir və o hazırda xaricdə də sərmayə yatırmağa başlayıb.

Biz Azərbaycanda olduqca şəffaf maliyyə vəziyyətini yarada bilmişik. Gələcək planlarımıza gəldikdə, biz müasirləşdirməni davam etdirəcəyik. Hazırda Azərbaycanın bütün rayonlarında böyük infrastruktur layihələrini həyata keçiririk. İqtisadiyyatımızın yeni sektorlarına fəal qaydada sərmayə yatıracağıq. Məsələn, informasiya və kommunikasiya texnologiyaları sahəsi nəzərdə tutulur. Bu ilin fevralında «Azərspace-1» adlanan ilk Azərbaycan peykini fəzaya buraxdıq. O, artıq orbitdədir. Hazırda kosmos sənayesini inkişaf etdiririk. Başqa sözlə, biz nəzərimizi regionun hüdudlarından, neft və qaz sektorundan kənara yönəltmişik, enerjinin inkişafımıza verdiyi təkan əvvəllər bəzi təhlilçilərin proqnozlaşdırdığı «holland sindromu»ndan və neft bəlasından bizi sığortaladı.

İqtisadi strategiyamızı elə planlaşdırırıq ki, sanki neft və qazımız yoxdur. Bu bizə şaxələndirmək və davamlı inkişafı təmin etməyə yardım edir. Enerji əməkdaşlığına gəldikdə, bu halda da biz, həmçinin Avstriya ilə Azərbaycan şirkətləri arasında fəal və məhsuldar münasibətlərə malikik. Ümid edirik ki, gələn illər ərzində bu əlaqələr strateji xarakter alacaqdır.

Bizim çox yaxşı qarşılıqlı anlaşmamız vardır. Avropa İttifaqı–Azərbaycan anlaşması da əvvəllər daha çox enerji ilə bağlı idi. Hazırda bu daha geniş vüsət alıb, lakin başlanğıcda enerji əməkdaşlığı dayanırdı. Azərbaycan öz neftini Avropa bazarlarına nəql edir. Bu bəzi ölkələrin enerji balansında önəmli yer tutur, yəni 30–40 faiz təşkil edir. Qazın nəqlinə gəldikdə, əgər, əlbəttə ki, hər şey planlarımıza uyğun gedərsə, Azərbaycan qazı 4-5 ildən sonra Avropa İttifaqının bazarına çıxarılacaqdır. Bu isə regionun enerji xəritəsini tamamilə dəyişəcəkdir.

Daşıma, neft və qaz boru kəmərləri layihələri ilə bağlı təşəbbüslərimiz regional əməkdaşlığa, sabitliyə və proqnozlaşdır-

maya xidmət edir. Fikrimcə, biz hasilatçılar, tranzit ölkələr və istehlakçıların maraqları arasında yaxşı tarazlıq tapmışıq. Enerji siyasətimiz və diplomatiyamız əməkdaşlıq formatına əsaslanır. Tam əminik ki, rəqabət və ədalətsiz yarışma ilə deyil, yalnız əməkdaşlıq yolu ilə məqsədlərimizə çata bilərik.

Avropa İttifaqı Azərbaycanı «Cənub Qaz Dəhlizi»nin əsas qüvvəsi və töhfə verən tərəf hesab edir. Bir daha qeyd edirəm, biz bu layihələri Xəzərdə başlamağımızdan, Xəzər dənizinin enerji resurslarını dünyada ilk dəfə olaraq əməkdaşlığa açıq etməkdən fərəhlənirik. Hazırda isə biz Avropadakı tərəfdaşlarımızla, o cümlədən avstriyalı dostlarımızla dünyanın ən mürəkkəb, mühüm və perspektivli enerji layihələrindən birinin – «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi üçün çalışırıq.

Bir daha qeyd etmək istəyirəm, bizim üçün və hökumətimiz üçün qeyri-enerji sektoru prioritetdir. Mən Azərbaycanda hələ işləməyən yeni Avstriya şirkətlərini bizimlə işləmək üçün ölkəmizə dəvət etmək istəyirəm. Böyük planlarımız vardır. Gələcək üçün iri sərmayə proqramlarımız vardır. Avstriya şirkətləri artıq bizim etibarlı, etimadlı tərəfdaşlarımıza çevriliblər. Peşəkarlıq, keyfiyyət, zövq, gözəllik və yaradıcılıq fəaliyyəti. Fikrimcə, Avstriya şirkətlərinə biz bu meyardan baxırıq. Onlar Azərbaycanda xüsusi yer tuturlar. Azərbaycanın bəzi rəmzləri ilə bağlı ən mürəkkəb və mühüm layihələr avstriyalı mütəxəssislər tərəfindən həyata keçirilir. Biz bu dəstəyə, Azərbaycanın müasirləşdirilməsinə yönələn səylərə görə minnətdarıq. Ümidvaram ki, bu məhsuldar əməkdaşlıq uğurla davam edəcəkdir. Xüsusən də, hər iki prezident 2 ildən az müddətdə artıq ikinci dəfədir ki, işgüzar dairələri bir-birinə yaxın olmağa həvəsləndirir. Çox sağ olun.

## VYANA ŞƏHƏRİNİN MERİ MİXAEL HÖYPL İLƏ GÖRÜŞ

*Vyana*

*13 may 2013-cü il*

*Avstriya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Vyana şəhərinin meri Mixael Höypl ilə görüşmüşdür.*

**M i x a e l H ö y p l:** Cənab Prezident!

Hörmətli qonaqlar!

Vyana Şəhər Şurasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi salamlamaqdan məmnunam. Vyananın paytaxtına xoş gəlmisiniz!

Vyana mədəniyyət şəhəri kimi tanınır. Burada həm müasir, həm tarixi binalar vardır. Konsert zallarını və muzeyləri seyr edərkən bunun haradan qaynaqlandığını hər kəs dərhal anlayır.

Vyana, həmçinin müasir, inkişaf edən şəhərdir. Bu şəhər mədəniyyətlərarası dialoq şəhəridir. Vyananın Nyu-York və Cenevrə ilə yanaşı, BMT-nin mühüm qurumlarının yerləşdiyi məkan olması faktı onun xüsusi funksiyalarının və rolunun bütün dünyada tanınmasına dəlalət edir. Vyanada bir çox beynəlxalq təşkilatların baş qərargahları yerləşir.

Biz mədəni və dini toqquşmalarda mədəniyyətlərarası təmaslara və dialoqa sadiqliyimizdən böyük qürur hissi duyuruq. Vyana dialoq, görüş üçün platformadır. Burada hamı siyasi və diplomatik həll variantlarının bir araya gəlməsinə inanır. Bu, tarixi ənənələrə və keçmişimizə əsaslanır.

Ötən il Vyana ilə Bakı arasında daha intensiv təmaslar baş tutmuşdur. Həmin vaxt Bakıda Vyana balı keçirilmişdir. Bu, Dunay çayının sahilində yerləşən şəhərin Azərbaycan paytaxtını musiqi ilə salamlamağına bənzəyirdi.

2011-ci ilin sonunda rəsmilərdən və iş adamlarından ibarət yüksək rütbəli nümayəndə heyəti Bakıya səfər etmişdir və onlar Vyananın təchiz edəcəyi nou-hauya böyük marağın şahidi oldular. Bu, nəqliyyat hərəkatının və daşımaların planlaşdırılması və idarəçilik kimi, şəhər texnologiyaları, alternativ enerji mənbələri, tullantıların işlənilməsi, mədəniyyət və turizm obyektlərinin istismarı sahəsində yeniliklər ola bilər.

Azərbaycanın da Vyanada iştirakı yüksələn xətlə artır. Bu halda məşhur və xalq tərəfindən sevilən vyanalı memarımız Hans Mozanın paytaxtın 13-cü dairəsindəki keçmiş villasında Azərbaycan səfirliyinin yerləşməsi faktını misal kimi gətirmək olar. Əmin ola bilərsiniz ki, vyanalılar buna çox diqqətlə yanaşırlar.

Cənab Prezident, Vyanaya gəlməyinizdən və şəhərimizin «Qızıl kitab»ını imzalayacağınızdan olduqca məmnunam. Çünki bu, xalqlarımız arasında olan qarşılıqlı hörmətin təzahürüdür. Vyanaya xoş gəlmisiniz və Avstriyada səfərinizə uğurlar arzulayırıq.

**İ l h a m  Ə l i y e v:** Hörmətli mer, hörmətli dostlar!

İlk öncə, mən Şəhər Şurasına dəvətə və Sizinlə görüşmək imkanına görə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün mən gözəl ölkənizə ilk rəsmi səfərimi həyata keçirirəm. Prezident və Baş nazirlə çox yaxşı müzakirələrimiz olmuşdur.

Biz ikitərəfli dostluq münasibətlərimizi geniş şəkildə nəzərdən keçirdik. Gələcək əməkdaşlıq üçün bir çox geniş perspektivlər müəyyən edildi.

Avstriya ilə Azərbaycan əsl dost və tərəfdaşdırlar. Bu gün iki Prezidentin imzaladığı siyasi Bəyannamə «Dostluq və Tərəfdaşlıq Bəyannaməsi» adlanır. Bir sözlə, münasibətlərimizin mahiyyətini əks etdirir. Əlbəttə, Şəhər Şurasına ziyarət etmək fürsəti böyük şərəfdir.

Əminəm ki, ölkələrimiz arasında təmaslar yerli bələdiyyələr səviyyəsində inkişaf edəcəkdir. Bizim bu sahədə çox müsbət təcrübəmiz vardır. Azərbaycanın Naxçıvan Muxtar Respub-

likası ilə Stiriya əyaləti arasında, Sumqayıt və Lints şəhərləri arasında tərəfdaşlıq vardır. Bunlar qardaşlaşmış məkanlardır.

Ümidvarıq ki, günlərin birində Bakı ilə Vyana daha geniş əməkdaşlığa başlayacaqdır. Çünki bizim aramızda, şəhərlərimiz arasında bir çox oxşarlıqlar vardır. Onlardan biri tarixi irsimizə, memarlığımıza, tarixi abidələrimizə çox diqqətli yanaşmadır. Aramızda olan əməkdaşlıq və etimad səviyyəsi o qədər yüksəkdir ki, Azərbaycan və Bakının əsas rəmzi – məşhur Qız qalası hazırda avstriyalı mütəxəssislər tərəfindən bərpa edilir. Bakının bir çox yeni rəmzləri, gözəl binalar Avstriya şirkətləri tərəfindən layihələndirilir və tikilir.

Ümid edirəm ki, cənab mer, vaxtınız olanda Azərbaycana səfər etdikdə avstriyalı dostlarımızın layihələndirdiyi və tikdiyi bir çox gözəl binaları görəcəksiniz. Bu, əməkdaşlığımızın, qarşılıqlı inam və etimadın səviyyəsini artırır. Ölkələrimiz dost ölkələrdir və fikrimcə, azərbaycanlılar və avstriyalılar nə qədər çox bir-birini tanısalar, səfər etsələr, bir o qədər hamımız üçün yaxşı olar.

Mən dünən səfərimi milli himnimizin müəllifi, dahi bəstəkarımız Üzeyir Hacıbəylinin abidəsini ziyarət etməklə başlamaqdan olduqca məmnun qaldım. Onun abidəsi 2006-cı ildə Vyananın gözəl guşələrindən birində ucaldılmışdır. Onun məşhur əsəri Vyana teatrında səhnəyə qoyulmuşdur. 2 il öncə prezident Hayntz Fişer Azərbaycana səfər etdikdə biz bir yerdə dahi bəstəkar Motsartın abidəsini Bakının gözəl meydanlarından birində açdıq. Bu nəinki məşhur həmvətənlərimizin xatirəsinə olan ehtiramımızın, həmçinin dostluğumuzun, səmimi münasibətlərimizin və qarşılıqlı dəstəyin göstəricisidir.

Səfərim zamanı beynəlxalq səviyyədə olan əlaqələrimizi, ticari münasibətlərimizi müzakirə etdik və edəcəyik. Bu gün ölkəmizin potensialını təqdim edən biznes-forum keçiriləcəkdir. Bu axşam biz Azərbaycanın Mədəniyyət Mərkəzini acacağıq. Bu, Azərbaycanın Avropada açılan ikinci Mədəniyyət Mərkəzi olacaqdır. Bu, Vyanada – dünya mədəniyyətinin paytaxtlarının birində açılır. Azərbaycan Mədəniyyət Mərkəzinin dünyanın ən

gözəl şəhərlərinin birində açılmasının böyük rəmzi mənası vardır. Bu mərkəz bir tərəfdən, Azərbaycan mədəniyyətini Avstriyada təşviq edəcək, digər tərəfdən isə xalqlarımız və ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrini quran görüş yerinə çevriləcəkdir.

Mən belə bir möhtəşəm incəsənət abidəsini ziyarət etmək üçün verilmiş dəvətə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm və Vyananın bütün sakinlərinə rifah, sülh və tərəqqi arzulayıram. Çox sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Vyana şəhər meriyasının Xatirə kitabını imzaladı.*

*Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.*

# VYANADA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Vyana*

*13 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 13-də Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı mərkəzin açılışını etdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Avstriya parlamentinin vitse-spikeri Frids Noyqebauer çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün əlamətdar gündür. Azərbaycan prezidentinin Avstriyaya rəsmi səfəridir. Səfər zamanı biz birlikdə Vyanada Azərbaycan Mədəniyyət Mərkəzini açırıq. Bu bizim münasibətlər tarixində əlamətdar bir hadisədir. Çünki dünya mədəniyyətinin paytaxtında belə Mədəniyyət Mərkəzinin açılışı həqiqətən də bizim üçün çox əhəmiyyətlidir. Səhər tezdən həmkarımla, cənab Prezidentlə birlikdə fəal danışıqlar, fikir mübadiləsi aparmışıq. Biz iqtisadi, siyasi, təhsil, turizm və mədəniyyət sahələrində müzakirələr apardıq və Avstriya ilə Azərbaycan arasında münasibətlərin necə inkişaf etməsi ilə bağlı tam qarşılıqlı anlaşma əldə etdik. Biz real tərəfdaşlarıq, dostlarıq.

Bu gün biz dostluq və tərəfdaşlıqla bağlı siyasi Bəyannamə imzalamışıq. Bəyannamənin adı bizim ikitərəfli münasibətlərə

necə yanaşdığımızı göstərir. Bizim hər iki ölkədə olduqca səmərəli əməkdaşlıq edən çox fəal işgüzar dairələrimiz vardır.

Bu gün mən, həmçinin prezident Fişerlə birlikdə biznes- forumda da iştirak etdim. Biz bir daha işgüzar qrupları yaxın olmağa, səmərəli şəkildə fəaliyyət göstərməyə, daha çox layihələr həyata keçirməyə ruhlandırdıq. Siyasi əlaqələr, güclü iqtisadi əməkdaşlıq və gələcəkdə görüləcək bir çox işlərin olması ilə yanaşı, biz ölkələrimiz arasında çox mühüm mədəni aspektləri görməkdən şadıq.

Dünən axşam nümayəndə heyətimiz Vyanaya çatan kimi biz böyük bəstəkarımız Üzeyir Hacıbəylinin 2006-cı ildə ucaldılmış abidəsini ziyarət etdik.

Mən həmçinin 2 il əvvəl prezident Fişerlə birlikdə iştirak etdiyimiz Bakının mərkəzi parklarından birində böyük Avstriya bəstəkarı Motsartın abidəsinin açılış mərasimini xatırladım. İndi biz Azərbaycan Mədəniyyət Mərkəzinin açılışını edirik. Bugünkü müzakirələrdə, həmçinin məmnunluqla bildirdik ki, bizi təkcə infrastruktur, enerji və tikinti layihələri birləşdirmir. Bu gün mən bir neçə dəfə qeyd etdim ki, Azərbaycanın, Bakının rəmzi olan Qız qalası avstriyalı mütəxəssislər tərəfindən bərpa olunur. Bu, qarşılıqlı etimadın, qarşılıqlı hörmətin və fəal əməkdaşlığın səviyyəsidir.

Mən əminəm ki, bizim müstəqilliyimiz dövründə açılan Azərbaycanın Mədəniyyət Mərkəzi olan bu mərkəz ikincidir. İlk növbədə Azərbaycan mədəniyyətini avstriyalılara təqdim edəcək, eyni zamanda, bu, ziyalılar, siyasətçilər, ictimai xadimlər arasında görüşlərin keçirildiyi yer olacaqdır. Bu bir növ Vyananın mərkəzində, özlüyündə dünya irsi olan bu gözəl şəhərdə Azərbaycan evi olacaqdır.

Azərbaycan nisbətən yeni müstəqil ölkədir. Biz 21 ildir müstəqil dövlət kimi yaşayırıq. Lakin bizim böyük tariximiz, mədəniyyətimiz, ənənələrimiz, ədəbiyyatımız, musiqimiz, xalçalarımız vardır. Yeri gəlmişkən, Bakıdakı Müasir Xalça Muzeyi də Avstriya şirkətləri tərəfindən tikilir. Mən hamını burada görməyə çox şadam. Mən burada çoxlu dostlar,

həmçinin Avstriyadakı Azərbaycan icmasının nümayəndələrini görürəm və ümid edirəm ki, bu Mədəniyyət Mərkəzi həmişə insanlarla, dostlarla dolu olacaq və bizim əlaqələrin mədəni aspekti – ölkələrimiz və xalqlarımız arasında güclü dostluq və tərəfdaşlıq əlaqələrini möhkəmləndirəcəkdir.

Əlaqələrimizin tarixindəki bu əlamətdar hadisə ilə əlaqədar hamınızı təbrik edirəm və mərkəzə gələcəkdə uğurlar arzulayıram. Təşəkkür edirəm.

## Avstriya parlamentinin vitse-spikeri Frids Noyqebauerin çıxışı

Xanımlar və cənablar!

Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılışında iştirak etmək imkanımın olması mənim üçün şərəfdir.

Ölkələrimiz arasında dostluq və səmimi münasibətlər vardır. 2011-ci ilin oktyabrında prezident Hayntz Fişerin Bakıya səfər etməsi, bu ilin martında mənim parlament nümayəndə heyəti, avstriyalı dostlarımla Bakıya səfər edərək, cənab Prezidentlə görüşmək şərəfinə nail olmağım və Zati-aliləri, Sizin Vyana səfəriniz bunun bariz nümunəsidir.

Əminəm ki, siyasi və işgüzar əlaqələr çox vacibdir. Lakin ən vacibi mədəniyyət sahəsində dialoqdur. Mədəniyyət xalqları bir araya gətirir, bir-birini anlamağa yardım edir və yeni üfüqlər açır.

Sizin ölkəniz və BMT Sivilizasiyalar Alyansı 2 həftədən sonra – mayın sonu, iyunun əvvəlində Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Bakıda keçirilməsi ilə bağlı tərəfdaşlıq edir. Forumda əsas diqqət mədəni müxtəliflik və birgə yaşamanı təbliğ edən əməli təşəbbüslərə yetiriləcəkdir. Azərbaycan Vyanada mədəniyyət sahəsində kifayət qədər fəaldır.

Sabah Vyanada ilk dəfə «Bakıya uçuş» sərgisi açılacaq. Bu yer Vyananın mərkəzindədir. Yeni Mədəniyyət Mərkəzi müxtəlif mədəniyyət tədbirlərində fəal iştirak edəcək, mübadilə

üçün yeni forum olacaq və mədəniyyət sahəsində dialoq və mübadiləyə stimul verəcəkdir. Çox sağ olun.

* * *

*Mərasimdə Avstriya ictimaiyyətinin nümayəndələri, diaspor təşkilatlarımızın üzvləri, azərbaycanlı tələbələr dövlətimizin başçısı ilə görüşlərində bu Mədəniyyət Mərkəzinin yaradılmasının ölkəmiz üçün çox əhəmiyyətli hadisə olduğunu bildirdilər. Onlar Azərbaycanın diaspor siyasətinin həyata keçirilməsində bu cür mədəniyyət ocaqlarının açılmasının əhəmiyyətini vurğuladılar.*

*Vyanada Azərbaycan Mədəniyyət Mərkəzi prezident İlham Əliyevin 2012-ci il 16 noyabr tarixli Sərəncamı əsasında Avstriyada ölkəmizin mədəniyyətini təbliğ etmək məqsədilə yaradılıb. Burada Avstriya ictimaiyyətinin Azərbaycanı yaxından tanıması üçün respublikamızın zəngin mədəniyyəti, incəsənəti və turizm imkanları barədə müxtəlif tədbirlərin təşkil olunması nəzərdə tutulub. Mərkəzin fəaliyyət istiqamətlərinə Azərbaycan dili kurslarının təşkili, müraciət edənlərə Azərbaycan müəlliflərinin əsərlərinin toplandığı zəngin kitabxana və mediateka ilə xidmət göstərmək də daxildir. Bu mədəniyyət ocağının kitabxanasında qonaqlar Nizami Gəncəvinin, Nəsiminin, Məhəmməd Füzulinin və Azərbaycan ədəbiyyatının digər klassiklərinin, həmçinin müasir ədəbiyyatımızın görkəmli yazıçı və şairlərinin əsərləri ilə tanış ola biləcəklər. Mərkəzdə mütəmadi şəkildə təşkil olunacaq musiqi axşamlarının iştirakçıları Azərbaycan xalq musiqisi ilə yanaşı, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov və digər tanınmış bəstəkarların əsərlərinin səslənəcəyi konsert proqramlarını dinləmək imkanı əldə edəcək, Azərbaycan muğamlarından zövq ala biləcəklər. Mədəniyyət Mərkəzində təşkil olunacaq sərgilərdə Azərbaycanın rəngkarlıq, heykəltəraşlıq və tətbiqi xalq sənətinin ən maraqlı nümunələri sənətsevərlərin sərəncamına veriləcəkdir. Mərkəzin yaradılmasında başlıca məqsədlərdən biri də Avstriyanın mədəniyyət və turizm qurumları, kütləvi informasiya vasitələri ilə əməkdaşlığı inkişaf*

*etdirmək, eləcə də bu ölkədə fəaliyyət göstərən digər dövlətlərin mədəniyyət mərkəzləri ilə sıx əlaqələr quraraq mədəniyyətlərarası dialoqa töhfə verməkdir.*

*Vyanada yaradılan Mədəniyyət Mərkəzi Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizin xaricdə tanıdılması istiqamətində həyata keçirdiyi növbəti mühüm tədbirlərdən biridir. Yeni mədəniyyət ocağı da bu sahədə aparılan işlərin gücləndirilməsinə, vahid mərkəzdən idarə olunmasına və daha səmərəli fəaliyyətin qurulmasına geniş imkanlar açır.*

*Xatırladaq ki, bundan əvvəl xaricdə ilk Azərbaycan Mədəniyyət Mərkəzi ötən ilin sentyabrında prezident İlham Əliyevin iştirakı ilə Parisdə açılmışdı.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzinin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.*

# SƏNAYE FEDERASİYASININ PREZİDENTİ VƏ İRİ ŞİRKƏTLƏRİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Vyana*

*14 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Vyanada Avstriya Sənaye Federasiyasının prezidenti Georq Kapş və iri şirkətlərin rəhbərləri ilə görüşmüşdür.*

**G e o r q K a p ş:** *(Avstriya Sənaye Federasiyasının prezidenti):* Cənab Prezident!

Cənab səfir, xanımlar və cənablar!

Sizinlə bilavasitə ünsiyyət imkanı yaratdığınız üçün təşəkkür edirəm. Əslində Sizinlə Avstriya Sənaye Federasiyasında görüşməli olsaq da, vaxtınızın az olmasını nəzərə alaraq burada, «İmperial» hotelində görüşürük.

Avstriyaya ilk rəsmi səfəriniz çərçivəsində bizimlə ünsiyyət qurduğunuz üçün çox məmnunuq. Ölkələrimiz ərazi ölçülərinə görə çox oxşar olsalar da, təbii ehtiyatlar nöqteyi-nəzərindən Azərbaycan nəzərəçarpacaq dərəcədə üstünlüyə malikdir. Son ildə ticarət dövriyyəsi 3 dəfə artmışdır ki, bu da sizi üstün edir. İndi sizin Avstriyaya ixracınız bizim Azərbaycana ixracımızdan çoxdur. Yenə də vəziyyətin yaxşılaşmağını müşahidə etməyə şadıq. Bizim şirkətlər Şərqi Avropaya və daha da şərqdə yerləşən ölkələrə sərmayə qoyulmasında maraqlıdırlar. Əminəm ki, Sizin Vyanaya səfəriniz münasibətlərimizi daha da dərinləşdirəcəkdir.

Bilirsiniz ki, Avropa təbii ehtiyatlardan çox asılıdır. Bizim elə də çox təbii resurslarımız yoxdur, xüsusilə də Avstriyanın. Ona görə də biz Azərbaycan tərəfdən təminata böyük ümid bəsləyirik. Beləliklə, Sizin bəzi boru kəmərlərini dəstəklə-

yəcəyinizi gözləyirik, xüsusilə də Nabukkonu. Özünüz də bilirsiniz ki, bu bizim üçün nə qədər vacibdir. Sizin dövlət borcunuzun az olması bizə böyük təəssürat bağışlayır, çünki bu borc heç 12 faiz təşkil etmir. Bizim dövlət borcumuz 70 faizdən çoxdur. Bu Sizə sərmayə qoyuluşu, infrastruktur və iqtisadi layihələr üçün geniş imkanlar, yeni üfüqlər açır. Belə ki, bu, sənaye üçün mütləq şərtdir. Lazım olan anlarda sizə dəstək olacağıq. Düşünürəm, bizim Şərq ölkələri ilə tarixi əlaqələrimiz mövcuddur. Elə zənn edirəm ki, biz bir-birimizin mentalitetinə yaxşı bələdik. Buna görə də Qərbi Avropa ölkələrinə nisbətən biz daha da yaxınıq. Bu da bizə böyük üstünlük verir. Çox sağ olun.

Sizin daha bir üstünlüyünüz vardır – ölkəniz nəqliyyat yollarının qovuşuğunda yerləşir. Siz Qərb ilə Şərqi birləşdirən nəqliyyat şəbəkəsinin mərkəzində yerləşirsiniz. Bu həm də daşımalar nöqteyi-nəzərindən çox gözəl məkandır. Bizə belə imkan yaratdığınız, buraya təşrif buyurduğunuz üçün Sizə dərin təşəkkürümü bildirirəm. Avstriya Sənaye Federasiyası ilə əlaqə saxlamağınız bizim üçün böyük şərəfdir.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Təşəkkür edirəm. Çox sağ olun. Sizi görməyimə çox məmnunam. Buraya, hotelə gəldiyinizə görə Sizə minnətdaram. Qeyd etdiyiniz kimi, səfər gündəliyim çox sıxdır. Dünən çoxlu görüşlərim olub, hamısı çox vacib və məhsuldar idi. Bu gün də proqramımı davam etdirirəm. Dünən prezident Fişerlə birgə biz Avstriya–Azərbaycan biznes-forumunda iştirak etdik. Bu, son 2 ildən də az vaxtda keçirilən ikinci belə forum idi. Birinci forum prezident Fişerin 2011-ci ildə Bakıya səfəri zamanı baş tutmuşdu. Biz Avstriya və Azərbaycan işgüzar dairələrinin ikitərəfli iqtisadi əməkdaşlıq sahəsində daha fəal olmalarını dəstəkləyirik. Çünki belə gözəl siyasi əlaqələrə malik olaraq, iqtisadi əməkdaşlığı

genişləndirmək üçün bu imkandan istifadə etməliyik. Dünən prezident Fişerlə dostluq və tərəfdaşlığa dair Bəyannamə imzaladıq. Bəyannamənin adı özü-özlüyündə bunu təsdiqləyir. Bu doğrudan da tərəfdaşlıq və dostluqdur. Sizin dediyinizlə tamamilə razıyam. Həqiqətən, ölkələrimiz arasında çoxlu bənzərliklər var, xalqlarımız bir-birini daha da yaxından tanımağa çalışırlar. Avstriya şirkətlərinin Azərbaycanda çox mühüm layihələrdə iştirakı nəticəsində Azərbaycanda ölkənizə, xalqınıza və işgüzar dairələrə ictimai rəy çox müsbətdir. Biznes dairələri nəinki infrastrukturun inkişafı baxımından vacib layihələri icra edirlər, o cümlədən Bakıda yeni incəsənət əsərlərini yaradırlar, paytaxtdakı yeni binalar zövqlü və gözəl olması və əlbəttə, funksional ölçüləri ilə diqqəti cəlb edir.

Siz keçmişdəki iqtisadi inkişafımızın əsas istiqamətlərini qeyd etdiniz. Bu, enerji sahəsi idi. Yenicə müstəqilliyini qazanmış ölkə üçün bu, sərmayələri cəlb etmək baxımından əsas yol idi. Bu işin öhdəsindən gəldik. Hazırda sərmayələri qeyri-enerji sektoruna cəlb edirik. Bu prioritetdir. Enerji məsələlərində, demək olar ki, bütün strateji layihələri həyata keçirdik. Azərbaycan nefti üçün beynəlxalq bazarlara dəhliz açdıq. Qaz üçün regional bazarlara çıxışı təmin etdik. Hazırda biz Azərbaycan tərəfindən irəli sürülmüş «Cənub Qaz Dəhlizi» üzərində işləyirik. «Cənub Qaz Dəhlizi»nin reallaşdırılması üçün bir çox praktiki addımlar atmışıq və üzərimizə maliyyə öhdəlikləri götürmüşük. Bu layihə Avropa üçün təchizat, bizim üçün qanunvericiliklə tənzimlənən və çox etibarlı olan yeni böyük proqnozlaşdırılan bazara giriş olacaq. Bu, Avropa və Azərbaycan üçün hər tərəfdən uduşlu variantdır. Avstriya ilə biz hökumət səviyyəsində, şirkətlər səviyyəsində işləyirik. Əminəm ki, məhsuldar əməkdaşlığımızı davam etdirəcəyik. Siz düzgün qeyd etdiniz ki, Azərbaycanın əlverişli coğrafi mövqeyi vardır. Lakin nəqliyyat infrastrukturu və logistika dəstəyi olmadan bunun o qədər də böyük mənası yoxdur. Bakıda qovşağın yaradılmasına böyük sərmayələr yatırırıq. Hava ilə daşımalar və dəmiryolu xətlərinə gəldikdə, hazırda Azərbaycan regional əməkdaşlıqda, həmçinin regionda mühüm rol oynayır. Əfqanıstan-

dakı missiyaya dəstəyimizə gəldikdə, biz Əfqanıstana və geriyə birbaşa və asan çıxışın təmin edilməsində ən mühüm rollardan birini oynayırıq. Hazırda biz Avropa və Azərbaycan arasında dəmir yolu əlaqəsini nəzərdə tutan böyük infrastruktur layihəsinin həyata keçirilməsinin sonuncu mərhələsindəyik. Ümidvarıq ki, bu ilin sonuna qədər layihəni tam başa çatdıracağıq və tarixi İpək yolunu bərpa edəcəyik. Bir tərəfdən Çin, digər tərəfdən isə Avropa arasındakı məsafə qısalacaqdır. Təbii ki, Azərbaycan bu vəziyyətdən yararlanacaq. Biz bu layihəyə böyük sərmayələr yatırmışıq.

Hazırda əsas məqsədimiz şaxələndirmədir. Siz qeyd etdiniz ki, çox yaxşı maliyyə durumu vardır. Xarici borcumuz qeyd etdiyinizdən də aşağıdır. Dövlətin xarici borcu ümumi daxili məhsulun 7 faizini təşkil edir. Valyuta ehtiyatları xarici borcla müqayisədə 7-8 dəfə artıqdır. Başqa sözlə, biz xarici borcu 1 günə ödəyə bilərik və heç kimin də bundan xəbəri olmaz. Lakin bu pul vəsaitlərinin müəyyən hissəsi gələcək dövr üçün nəzərdə tutulub və biz bundan istifadə etməliyik. Bəzi vəsaitləri hələ ki, kredit kimi götürürük. Lakin artıq kreditora çevrilmişik. Məsələn, bu ilin yanvarında biz beynəlxalq maliyyə korporasiyası ilə müxtəlif layihələr üçün 150 milyon ABŞ dollarının kredit kimi ayrılması haqqında saziş imzalamışıq. Bir sözlə, maliyyə vəziyyəti, milli valyuta, sərmayə mühiti sabitdir. Keçmiş Sovet İttifaqı ərazisində adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə 1-ci yerdəyik. Əlbəttə ki, bu sərmayələrin əsas hissəsi neft və qaz sektoruna yatırılıb. Hazırda digər sahələr, xüsusilə də turizm, xidmətlər sahəsi inkişaf edir. Avstriya şirkətləri infrastrukturumuzu inkişaf etdirməyə yardım edir. Başqa sözlə, bu günə qədər apardığımız əməkdaşlığın səviyyəsindən razıyıq. Lakin bu əməkdaşlıq hazırda yalnız podratçı öhdəlikləri ilə məhdudlaşır. Avstriya şirkətləri əsasən dövlət büdcəsi hesabına və özəl sektorun maliyyələşdirdiyi mühüm layihələrdə iştirak edirlər. Mən daha çox Avstriya şirkətlərini investor kimi görmək istəyirəm. Çünki sərmayə mühiti və imkanlar da yaxşıdır. İnşaat, turizm, ağır sənayedə yeni layihələr vardır. Biz ağır sənayeyə sərmayələrin cəlb

edilməsinin yeni mexanizmini yaratmışıq. Burada texnoloji parkların yaradılması nəzərdə tutulur. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı sürətlə gedir. Böyük sərmayə yatıran şirkətlər üçün çox güzəştli vergi rejimi tətbiq ediləcəkdir.

Azərbaycanda kosmos sənayesi inkişaf edir. Bu ilin fevralında biz ilk peykimizi buraxdıq. Kənd təsərrüfatının böyük potensialı vardır. Avropadan bu sahəyə böyük yatırımlar qoyulmuşdur. Həm ölkə, həm sərmayədarlar üçün çox yaxşıdır. Biz hər tərəfdən, uduşlu vəziyyət yarada bildik. Xarici və yerli sərmayədarlar imkanlardan istifadə edirlər. Hökumət də bundan istifadə edir. Ötən il Azərbaycana 22 milyard dollar sərmayə yatırılıb. Bizim ölkə üçün bu, kifayət qədər böyük məbləğdir. Son 5 ildə göstəricilər oxşar olub, bir çox işlər görülüb. Burada Azərbaycanda fəaliyyət göstərən və işləməyi planlaşdıran şirkətlərin nümayəndələri əyləşib. Hesab edirəm ki, bu format gördüyümüz işləri və mövcud imkanları nəzərdən keçirmək üçün çox səmərəli ola bilər. Burada müxtəlif sahələr üzrə məsul olan nümayəndə heyətinin üzvləri vardır. Fikrimcə, onların məhsuldar müzakirələri olacaqdır. Bu görüşə görə çox sağ olun.

* * *

*Sonra Avstriyanın iqtisadi sahədə tanınmış şirkətlərinin rəhbərləri Azərbaycan prezidentinə təmsil etdikləri qurumların fəaliyyəti barədə məlumat verdilər. Azərbaycan ilə Avstriya arasında yüksək texnologiyalar, infrastruktur, kənd təsərrüfatı, əczaçılıq, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və yeni sahələrin müəyyənləşdirilməsində maraqlı olduqlarını bildirdilər.*

*Görüşdə əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## BMT-nin VYANA OFİSİNİN BAŞ DİREKTORU YURİ FEDOTOV İLƏ GÖRÜŞ

*Vyana*

*14 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avstriyaya rəsmi səfəri çərçivəsində mayın 14-də BMT-nin Vyana ofisinin baş direktoru Yuri Fedotov ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı BMT-nin Vyana ofisinə gəldi.*

*Baş direktor Yuri Fedotov prezident İlham Əliyevi qarşıladı.*

*Görüşdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının üzvü kimi, bu qurumun, ümumiyyətlə, BMT-nin həyata keçirdiyi fəaliyyətə və ümumi proseslərə töhfə verdiyi qeyd olundu. BMT-nin fəaliyyətinin müxtəlif istiqamətlərini əhatə edən tədbirlərin Azərbaycanda keçirilməsinin önəmi vurğulandı.*

*Görüşdə Azərbaycan ilə BMT-nin Vyana ofisi arasında əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

# NÜVƏ SİLAHLARININ HƏRTƏRƏFLİ QADAĞAN OLUNMASI ÜZRƏ MÜQAVİLƏ TƏŞKİLATININ HAZIRLIQ KOMİSSİYASININ SEÇİLMİŞ İCRAÇI KATİBİ LASSİNA ZERBO İLƏ GÖRÜŞ

*Vyana*

*14 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Vyanada Nüvə Silahlarının Hərtərəfli Qadağan Olunması üzrə Müqavilə Təşkilatının hazırlıq komissiyasının seçilmiş icraçı katibi Lassina Zerbo ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı əvvəlcə Nüvə Silahlarının Hərtərəfli Qadağan Olunması üzrə Müqavilə Təşkilatının hazırlıq komissiyasının beynəlxalq məlumat mərkəzinin fəaliyyəti ilə tanış oldu.*

*Komissiyanın seçilmiş icraçı katibi Lassina Zerbo Azərbaycana təşkilata göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi və rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Söhbət zamanı Azərbaycan ilə Nüvə Silahlarının Hərtərəfli Qadağan Olunması üzrə Müqavilə Təşkilatının hazırlıq komissiyası arasında əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu.*

## BMT-nin SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORU KANDEH YUMKELLA İLƏ GÖRÜŞ

*Vyana*

*14 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Vyanada BMT-nin Sənayenin İnkişafı Təşkilatının baş direktoru Kandeh Yumkella ilə görüşmüşdür.*

*Görüşdə baş direktor Kandeh Yumkella Azərbaycana səfərini məmnunluqla xatırlatdı, dünyada gedən qloballaşma proseslərinə toxunaraq sənaye, energetika və digər sahələrdə müşahidə olunan meyillərdən, bəşəriyyəti narahat edən problemlərdən danışdı. Müasir dövrün çağırışlarından bəhs edən BMT rəsmisi dünyadakı işsizlik problemlərinə toxundu.*

*Prezident İlham Əliyev Azərbaycandakı iqtisadi inkişaf proseslərini diqqətə çatdıraraq, ölkəmizdə yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması, energetika və digər sahələrdə görülən tədbirlər barədə məlumat verdi, respublikamızın əldə etdiyi uğurlardan danışdı.*

*Görüşdə Azərbaycan ilə BMT-nin Sənayenin İnkişafı Təşkilatı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİNİN BAŞ DİREKTORU YUKİYA AMANO İLƏ GÖRÜŞ

*Vyana*

*14 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Vyanada Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukiya Amano ilə görüşmüşdür.*

*Görüşdə baş direktor Yukiya Amano Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verdiklərini, ölkəmizin nüvə təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş olduğunu bildirdi. Qeyd etdi ki, indiki dövrdə nüvə təhlükəsizliyinin qorunması xüsusi əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyev nüvə təhlükəsizliyinin təkcə Azərbaycan üçün deyil, region və dünya üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirdi və qeyd etdi ki, Ermənistandakı Atom-Elektrik Stansiyasının fəaliyyəti bu baxımdan narahatlıq doğurur.*

*Dövlətimizin başçısı həmin Atom-Elektrik Stansiyasının region üçün böyük təhlükə doğurduğunu bir daha diqqətə çatdırdı.*

*BMT-nin Vyana ofisində görüşlərini başa çatdıran prezident İlham Əliyevi baş direktor Yuri Fedotov yola saldı.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avstriya Respublikasına rəsmi səfəri mayın 14-də başa çatmışdır.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Vyananın Şvexat Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi Avstriyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

*** * ***

*Həmin gün Azərbaycan prezidenti Bakıya qayıtdı.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

# ŞAMAXI RAYONUNA SƏFƏR

*16 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Şamaxı rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Azərbaycan prezidentinə ulu öndərin abidəsinin yerləşdiyi Heydər Əliyev parkında yaradılan şərait barədə məlumat verildi.*

*Bildirildi ki, parkda sakinlərin istirahəti üçün hərtərəfli şərait yaradılmış, geniş yaşıllıq zolaqları salınmış, uşaq-əyləncə guşələri qurulmuşdur.*

## Uşaq Yaradıcılıq Mərkəzinin açılışı mərasimi

*Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən Şamaxıda inşa olunmuş Uşaq Yaradıcılıq Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycan dövləti gələcək nəslin sağlam və Vətənə sədaqət ruhunda böyüməsi, savadlı və yüksək intellekt sahibi olması qayğısını da öz üzərinə götürmüşdür. Hələ uşaq yaşlarından hər bir vətəndaşın ilkin peşə və sənət vərdişlərinə yiyələnməsi üçün müxtəlif tədbirlər görülür. Son illər paytaxtda və regionlarda Heydər Əliyev Fondu tərəfindən çoxlu sayda uşaq incəsənət məktəbləri və yaradıcılıq mərkəzləri istifadəyə verilir. Mədəniyyət və incəsənətin inkişafına, bu sahədə çalışan insanlara Heydər Əliyev Fondu tərəfindən göstərilən diqqət və qayğı, mədəniyyət ocaqlarının əsaslı təmiri, müasir tipli yeni infrastrukturun yaradılması bu sahənin hərtərəfli inkişafına stimul verir.*

*Şamaxı Uşaq Yaradıcılıq Mərkəzində tanınmış mədəniyyət xadimlərimizə həsr olunan guşə onların həyatına və sənət fəaliyyətinə aid eksponatlarla zəngindir. Mərkəzin yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq işləri görülmüş, xeyli ağac və gül kolları əkilmiş, bütün zəruri infrastruktur yaradılmışdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, bu incəsənət ocağı musiqi məktəbi kimi 1959-cu ildən fəaliyyət göstərir. 1995-ci ildə isə həmin məktəbin bazasında Uşaq İncəsənət Məktəbi yaradılıb. Məktəb 1984-cü ildən yararsız binada fəaliyyət göstərirdi. 11 şöbədən ibarət müəssisədə 70 müəllim çalışır, 384 şagird musiqi təhsili alır. Bina uzun illər əsaslı təmir olunmadığına görə tam yararsız vəziyyətə düşmüş və sökülmüşdü. Azərbaycan mədəniyyətinin hamisi Heydər Əliyev Fondunun təşəbbüsü ilə həmin ünvanda Şamaxı Uşaq Yaradıcılıq Mərkəzi üçün üçmərtəbəli yeni müasir bina inşa edilib.*

*Dövlətimizin başçısı Heydər Əliyev Fondunun fəaliyyətinə həsr olunmuş fotoguşəyə baxdı. Burada «Azərbaycan keçmiş əsrlərdə və bu gün» mövzusunda təqdim olunan sərgi-kompozisiyada qədim və müasir memarlıq nümunələri, həmçinin milli mədəniyyət və məişət ənənələri nümayiş etdirilir.*

*Qeyd olundu ki, mərkəzdə ümumilikdə 54 tədris, 2 qrim, 2 rəsm, 2 rəqs və digər yardımçı otaqlar, akt zalı, sərgi salonu yaradılıb. Burada tar, kamança, piano və digər musiqi fənləri tədris olunacaqdır. Tədris sinifləri və digər yardımçı otaqlar ən müasir avadanlıqla təchiz edilib. Binada müasir elektrik və istilik sistemləri quraşdırılıb. Mərkəzin akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır.*

*Prezident İlham Əliyev Uşaq Yaradıcılıq Mərkəzinin xalq çalğı alətləri orkestrinin ifasında Üzeyir Hacıbəylinin «Koroğlu» operasından uvertüranı dinlədi.*

## Olimpiya İdman Kompleksində yenidənqurmadan sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Şamaxıda yenidən qurulan Olimpiya İdman Kompleksi ilə tanış olmuşdur.*

*Bu gün Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır. Çünki idman ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə paytaxtla yanaşı, regionlarda da inşa olunan müasir idman obyektləri ilk növbədə, dövlətimizin başçısının idmanın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Şamaxı Olimpiya Kompleksi də bu baxımdan mühüm rol oynayır.*

*Regionun ən böyük olimpiya idman komplekslərindən biri olan bu qurğuda yarışların, təlim-məşq toplantılarının və digər mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır. Ölkəmizdə bütün idman qurumlarının bir yerdə fəaliyyət göstərməsi uğurlu nəticənin əldə olunmasının əsas səbəblərindən biridir. Bu sırada Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın idmançılara olan diqqəti də nəzərdən qaçmır. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi, Mehriban Əliyevanın uğurlu fəaliyyəti bu sahədə ölkəmizin ciddi nailiyyətlər qazanması ilə müşayiət olunur. Azərbaycan dünya idman aləminə nəhəng mərkəzlərdən biri kimi daxil olub. Məhz bunun nəticəsidir ki, I Avropa oyunları 2015-ci ildə Azərbaycanda keçiriləcəkdir.*

*Prezident İlham Əliyev Şamaxı Olimpiya Mərkəzində futbol meydançasının, üzgüçülük hovuzunun və yeni idman zalının açılışında iştirak etdi.*

*Mərkəzdə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Şamaxıya səfərlərindən və idmanın inkişafına göstərdikləri qayğıdan bəhs edən fotoguşələr yaradılıb.*

*Dövlətimizin başçısına məlumat verildi ki, son illərdə Şamaxıda idmanın müxtəlif növlərinin inkişafına xüsusi diqqət göstərilir. Bu cür idman qurğusunun istifadəyə verilməsi isə gənclərin idmana olan maraq və həvəsini daha da artırıb. Qeyd olundu ki, Şamaxı*

*Olimpiya Mərkəzində yeni idman zallarının və qurğularının tikintisinə 2010-cu ilin fevralında başlanılmışdır. Layihəyə əsasən 2500 kvadratmetr olan binaların fasadı dəyişdirilib, müasir dizaynlı materiallar və şüşələrlə örtülüb. Mərkəzin bütün havalandırma, işıqlandırma sistemləri yenilənib. Üzgüçülük hovuzunun dam örtüyünün metal konstruksiya hissələri dəyişdirilib.*

*Burada dövlətimizin başçısına ölkədə tikintisi nəzərdə tutulan olimpiya mərkəzinin yeni hazırlanmış layihəsi təqdim olundu.*

*Sonra prezident İlham Əliyev mərkəzin idman zallarını və otaqlarını gəzdi. Konfrans zalında müxtəlif tədbirlərin keçirilməsi üçün əlverişli şərait vardır. Oyun meydançalarının örtükləri və oturacaqları dəyişdirilmiş, əlavə məşq zalı inşa edilmişdir. Binanın daxilində trenajor-fitnes zalları və sauna fəaliyyət göstərəcəkdir. 2000 nəfərlik tribunası olan beynəlxalq standartlara uyğun futbol stadionu inşa edilmiş, yeni qaçış zolağı salınmışdır. Burada yüksək səviyyəli yarışların keçirilməsi mümkün olacaqdır. Müasir tələblərə uyğun 8 kottec inşa edilib. Ərazini sel sularından qorumaq üçün suötürücü beton kanal çəkilib. Bütün ərazidə elektrik təchizatı, suvarma, istilik şəbəkəsi qurulub. Elektrik transformatorları üçün yeni bina inşa edilmişdir. Yeni rabitə xətləri çəkilmiş, daxili avtomat telefon stansiyası, təhlükəsizlik kameraları quraşdırılmışdır. Bütün ərazi «Wİ-Fİ» internet şəbəkəsi ilə təmin edilib. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri aparılıb.*

*Prezident İlham Əliyev görülmüş işləri yüksək qiymətləndirdi, tapşırıqlarını verdi.*

## Astrofizika Rəsədxanasında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Şamaxı Astrofizika Rəsədxanasında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Son illərdə Azərbaycanda astronomiya elminin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bu baxımdan Şamaxı Astrofizika Rəsədxanasında aparılan təmir və yenidənqurma işləri diqqəti cəlb edir. Azərbaycan astronomiya elmi Nəsirəddin Tusi tərəfindən XIII əsrdə Cənubi Azərbaycanda yaradılmış məşhur Marağa Rəsədxanası ilə şöhrət qazansa da, XX əsrdə milli astronomiya elminin inkişafında yeni əlamətdar bir mərhələ başlanmışdır. 1927-ci ildən Azərbaycanda astronomiya ekspedisiyaları fəaliyyət göstərib. Bu ekspedisiyalar Şamaxı da daxil olmaqla, Azərbaycanın bir sıra rayonlarını tədqiq etmiş, son nəticədə rəsədxananın tikilməsi üçün məhz Pirqulu ərazisinə üstünlük verilməsini tövsiyə etmişdir.*

*Rəsədxana 1959-cu ildə Azərbaycanın tanınmış alimləri Həsən Əliyevin və Yusif Məmmədəliyevin təşəbbüsü ilə yaradılmış və 1960-cı ildə fəaliyyətə başlamışdır. Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən rəsədxana çətin müşahidə edilən cənub səmasının öyrənilməsində dünyanın bir çox rəsədxanası ilə müqayisədə üstünlüklərə malikdir. Mütəxəssislərin rəyinə görə, burada aydın gecələrin sayı il ərzində 200-ə çatır.*

*2008-ci ildən sonra Şamaxı Astrofizika Rəsədxanasının həyatında yeni əlamətdar mərhələ başlanıb. Belə ki, Azərbaycanda elmin inkişafına böyük diqqət göstərən dövlətimizin başçısı rəsədxananın yenidən qurulması, burada təmir-bərpa işlərinin aparılması ilə bağlı sərəncamlar imzalamış, tapşırıqlar vermişdir. Prezident İlham Əliyevin 2008-ci ilin sentyabrında və 2009-cu ilin iyulunda imzaladığı sərəncamlarla rəsədxananın maddi-texniki bazasının gücləndirilməsi və əsaslı təmir-tikinti işlərinin aparılması üçün dövlət büdcəsindən və Prezidentin ehtiyat fondundan ümumilikdə 8 milyon manat vəsait ayrılıb. Sərəncamların icrası*

*nəticəsində bu elmi-tədqiqat mərkəzinin maddi-texniki bazası möhkəmlənmiş, əsaslı təmir və yenidənqurma işləri aparılmış, yeni binalar inşa olunmuş, müasir qurğular işə salınmışdır.*

*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə dövlətimizin başçısına məlumat verdi ki, rəsədxanada inzibati bina, sərgi və 110 nəfərlik mühazirə zalları, 6 teleskop binası, o cümlədən 2 metrlik əsas teleskopun binası əsaslı təmir olunub, 110 nəfərlik yeməkxana tikilib.*

*Əsaslı təmir və yenidənqurmadan sonra buradakı inzibati otaqlarda iş şəraiti ən müasir səviyyəyə çatdırılıb. Rəsədxananın Bakı şəhər bölməsi, «Günəş fizikası», «Günəş və Yer əlaqələri», «Planetlər və kiçik səma cisimləri» və digər şöbələri vardır. 2 metrlik əsas teleskopun yerləşdiyi binada yaradılan şəraitlə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, bu bina ilə yanaşı, horizontal Günəş teleskopunun, 70 və 35 santimetrlik teleskopların, həmçinin alman teleskopunun binaları da əsaslı təmir olunub. Əsas teleskopun idarəetmə sistemi tam avtomatlaşdırılıb. Rəsədxananın bütün teleskoplarına müasir və yeni işıq qəbulediciləri alınmış, xüsusi kameralar və kriogen qurğusu quraşdırılmışdır. Ümumilikdə rəsədxana astrofizika və fundamental astronomiya sahəsində keçmiş sovet və postsovet elmi proqramlarına mühüm töhfələr vermişdir.*

*Rəsədxana AMEA tərəfindən təsdiq olunmuş elmi proqram əsasında fəaliyyət göstərir. Proqram dünya elminin ən qabaqcıl və prioritet problemləri ilə uzlaşdırılıb. Rəsədxanada qalaktikanın, ulduzların, planetar dumanlıqların, Günəşin, planetlərin və kometaların müşahidəsi aparılır. Burada ulduzlar fizikası, Günəş sistemi cisimlərinin dinamikası və fizikası, həmçinin Günəş fizikası istiqamətində elmi işlər görülür.*

*Dövlətimizin başçısına Şamaxı Astrofizika Rəsədxanasının əvvəlki və yenidənqurmadan sonrakı görüntüləri əsasında bu elmi-tədqiqat mərkəzinin fəaliyyəti barədə məlumat verildi. Rəsədxananın direktoru Əyyub Quliyev teleskopların müasirləşdirilməsi və avtomatlaşdırılması, gələcəkdə nəzərdə tutulan işlər, həmçinin əldə olunan nailiyyətlər barədə danışdı. Bildirildi ki, burada Günəş fizikası sahəsində tədqiqatlar aparılıb, yüksək*

*elmi nəticələr əldə olunub. Günəş alışmalarının inkişafı, maqnit sahəsi və Günəş atmosferinin incə quruluşu ilə bağlı aparılan tədqiqatlarla yanaşı, ulduz fizikası sahəsində qeyri-stasionar, dəyişən və qoşa sistem ulduzları, genişörtüklü ulduzlar, super-sıxlıqlı ulduzlar da öyrənilir.*

*Dövlətimizin başçısına son günlərdə kosmosdan alınan görüntülər, o cümlədən diametri 6,5 metrdən çox olan teleskoplar barədə məlumat verildi. Dövlətimizin başçısı Rəsədxananın yenidən qurulmasını yüksək qiymətləndirdi və bunun Azərbaycan elminə bir töhfə olduğunu vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Son illər burada aparılan tikinti-quruculuq işləri öz bəhrəsini vermişdir. Şamaxı Rəsədxanası uzun illərdir ki, fəaliyyət göstərir. Vaxtilə buraya böyük investisiyalar qoyulmuşdu. Amma sonra bu şəkillər də göstərir, mən də burada birinci dəfə olarkən gördüm ki, yararsız vəziyyətə düşmüşdü. Həm burada elmi araşdırmalar aparmaq üçün problemlər yaranmışdı, həm də alimlərin yaşayış səviyyəsi çox ağır idi. Vaxtilə tikilmiş binalar yararsız vəziyyətə düşmüşdü, dağılırdı. Ona görə biz qərara gəldik ki, rəsədxananı kompleks şəkildə bərpa edək.

Müvafiq sərəncamlar verilmişdir. Mən burada dəfələrlə olmuşam. Çox şadam ki, artıq biz rəsədxananı tam şəkildə yenidən qurduq, bərpa etdik. Çox gözəl şərait yaradılıb. Əsas teleskop da təmir edilib. Alimlərin də yaşayış şəraiti yaxşılaşıb. Burada yaşamaq, işləmək üçün bütün imkanlar vardır. Bu, Azərbaycan elminə verilən böyük töhfədir.

Azərbaycan elminin inkişafı üçün əməli tədbirlər görülür. Mənim müvafiq sərəncamlarım olmuşdur. Elmin maddi-texniki bazasının möhkəmləndirilməsi, alimlərin fəaliyyətinin stimullaşdırılması üçün vacib addımlar atılıb. Elmin İnkişaf Fondu yaradılıb. Yəni Azərbaycan dövləti çalışır ki, elmə ayrılan vəsait artsın və Azərbaycan elmi ölkəmizin uğurlu inkişafına maksimum dərəcədə xidmət göstərsin. İndi biz elmin ənənəvi və yeni istiqamətləri üzrə ciddi fəaliyyət göstəririk. Bu ilin fevral ayında artıq kosmik sənayenin təməlini qoyduq. Artıq bizim peykimiz orbitə çıxarılıbdır. Belə olan halda hesab edirəm ki, Azərbaycan

bölgənin elm mərkəzinə çevrilməlidir. Artıq Azərbaycan bölgənin iqtisadi, siyasi mərkəzidir. İndi görürsünüz, hər ay mötəbər siyasi tədbirlər keçirilir. Azərbaycan bölgənin elm mərkəzinə də çevrilməlidir.

Biz əlavə nə lazımdırsa edəcəyik. Hesab edirəm ki, biz bu bazadan yeni layihələrin həyata keçirilməsi istiqamətində işimizi davam etdirəcəyik. Əlbəttə, elə etməliyik ki, elmə qoyulan vəsait elmin inkişafına xidmət göstərsin və bunun praktiki nəticələri də olsun. İqtisadi inkişafımız və ümumiyyətlə, ölkəmizin hərtərəfli inkişafı üçün elmi praktiki addımlarla uzlaşdırmalıyıq. Daha doğrusu, bu uzlaşma vardır, gərək daha da səmərəli olsun. Dünyadakı ən qabaqcıl texnologiyalar Azərbaycanda olmalıdır. İndi dünya səviyyəsində olmasına baxmayaraq, hesab edirəm ki, rəsədxananın gələcək inkişafı istiqamətində əlavə addımlar atılmalıdır. Biz aparıcı rəsədxanaların səviyyəsinə qalxmışıq.

* * *

*Rəsədxanada aparılan təmir-tikinti işləri çərçivəsində ərazi tamamilə hasara alınmış, beşmərtəbəli 2 binanın birinci mərtəbələrində poçt, tibb məntəqəsi, uşaq bağçası, mağaza və digər xidmət obyektləri yaradılıb. Magistral elektrik, su, kanalizasiya, xarici və daxili qazlaşdırma, telekommunikasiya xətləri yenidən çəkilib. İnzibati binanın ətrafında yeni yaşıllıq salınıb.*

*Prezident İlham Əliyev rəsədxananın ərazisində yaradılan yeni yaşayış massivindəki şəraitlə də tanış oldu. Burada 40 və 32 mənzilli beşmərtəbəli 2 bina, 1 və 2 mərtəbəli 10 kottec və mehmanxana inşa olunub. Otaqlarda qonaqların rahatlığını yüksək səviyyədə təmin etmək üçün bütün şərait yaradılıb. Qonaqlar kotteclərin sürətli internet, kabel televiziyası və digər xidmətlərindən yararlana biləcəklər.*

*Dövlətimizin başçısı görülən işləri yüksək qiymətləndirdi.*

# ŞAMAXI CÜMƏ MƏSCİDİNİN BƏRPA VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*16 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı bərpa edilən və yenidən qurulan Şamaxı Cümə məscidinin açılışı mərasimində iştirak etmişdir.*

*Mərasimdə iştirak edən Qafqaz müsəlmanları müftiləri, islam ölkələrinin Azərbaycandakı səfirləri, ictimaiyyətin nümayəndələri və din xadimləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev qonaqlarla görüşdü.*

*Cümə məscidi ilə yaxından tanış olan dövlətimizin başçısına Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verdi.*

*Bildirildi ki, xalqımızın mənəvi dünyasının ucalığından soraq verən daha bir mühüm hadisə müasir Azərbaycan salnaməsinə daxil olur. Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Şamaxı Cümə məscidi yeni həyatına başlayır. Müsəlman aləminin ən müqəddəs ibadətgahlarından olan Şamaxı Cümə məscidi milli-mənəvi dəyərlərimizin təbliğində böyük əmək sərf edən prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun xidmətləri sayəsində əsaslı bərpa və yenidənqurmadan sonra xalqın istifadəsinə verilir.*

*Diqqətə çatdırıldı ki, Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi Xəlifə Xalid ibn Vəliyədin dövründə onun qardaşı Müslüm ibn Vəliyədin Azərbaycana gəlməsinin şərəfinə 743-cü ildə inşa olunub. Bəzi mənbələrə görə, Xilafət ordularının məğlub etdiyi Xəzər xaqanı məhz bu məsciddə islam dinini qəbul etmişdir. 1859-cu ildə Qafqazın ən böyük*

*quberniyalarından olan Şamaxıda baş verən dağıdıcı zəlzələ şəhəri alt-üst etdiyindən quberniyanın mərkəzi Bakıya köçürülüb. Zəlzələdən sonra məscidin bərpası əslən Şamaxıdan olan Qasım bəy Hacıbababəyova həvalə edildi. 1902-ci ildə baş verən növbəti zəlzələ zamanı da məscid dağılmamış, yenə də təbiətin sərt sınağına davam gətirməyi bacarmışdır. Bundan sonra məscidin bərpasının əvvəlki özül üzərində aparılmasına qərar verilib. Bərpa işlərini əvvəl memar Zivərbəy Əhmədbəyov, sonra isə polşalı memar-mühəndis İozef Ploşko aparmışdır. Ploşkonun bir qədər fərqli və orijinal layihəsi əsasında aparılan bərpa işləri başa çatdırılmamışdır. Məscid tamamlanmamış halda belə, öz əzəmətini qoruyub saxlayıb.*

*1918-ci ildə silahlı erməni daşnak dəstələri tərəfindən törədilən mart qırğınları zamanı Şamaxıda da soyqırımı aktı həyata keçirilmişdir. Ən böyük qırğın Cümə məscidində baş vermişdir. Şamaxılıların Allah evi kimi məscidə sığındığını görən ermənilər burada yanğın törədərək təqribən 1700 günahsız insanı qətlə yetirmişlər. Sovet dövründə məlum səbəblərdən təyinatı üzrə istifadə edilməyən məscid məhv olmaq təhlükəsi ilə üzləşmişdir. Azərbaycanın bütün sahələrdə inkişafına, o cümlədən milli- mənəvi dəyərlərimizin qorunmasına böyük diqqət və qayğı ilə yanaşan ulu öndər Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə 1980-ci ildə bu tarixi abidə təmir olunub.*

*Bildirildi ki, Heydər Əliyev Fondunun «Tolerantlığın ünvanı: Azərbaycan» layihəsi çərçivəsində Şamaxı Cümə məscidində aparılan əsaslı bərpa və yenidənqurma işlərini dövlətimizin başçısı daim diqqətdə saxlamışdır. Prezident İlham Əliyev 2009-cu ilin noyabrında Şamaxıya səfəri çərçivəsində Cümə məscidində olmuş, böyük tarixi dəyəri və xalqımızın mənəvi dünyasında xüsusi yeri olan bu abidənin bərpasına qərar vermişdir. Bununla əlaqədar Azərbaycan prezidentinin 2009-cu ilin dekabrında və 2013-cü ilin fevralında imzaladığı sərəncamlarla müvafiq maliyyə vəsaiti ayrılıb. Bundan sonra məsciddə əsaslı bərpa və yenidənqurma işləri başlanmış, Azərbaycan tarixinin mühüm mərhələsini təşkil edən Şirvanşahlar paytaxtının şanlı memarlıq nümunəsinin*

*yenidən xalqımızın mənəvi dünyasına qaytarılması istiqamətində yüksək təəssübkeşlik missiyası həyata keçirilmişdir. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva dəfələrlə məscidə gəlmiş, burada həyata keçirilən bərpa və yenidənqurma işləri ilə yerindəcə tanış olmuşlar. Prezident İlham Əliyev işlərin yüksək keyfiyyətlə aparılmasına dair tapşırıq və tövsiyələrini vermişdir. Beləliklə, dövlətimizin başçısı milli-mənəvi dəyərlərimizin qorunmasına, dini memarlıq abidələrinin bərpasına böyük diqqət göstərən Heydər Əliyev Fondunun təşəbbüsünə dəstək olmuş, Azərbaycan–Şərq memarlığının incisi olan bu abidəyə ikinci həyat bəxş etmiş, xalqımızın əsrlərlə formalaşan zəngin irsinin və mədəniyyətinin qorunmasına, gələcək nəsillərə ötürülməsinə töhfə vermişdir.*

*Qeyd olundu ki, məscidin yenidən qurulmasına 2010-cu ilin martında başlanılıb. Yenidənqurma işləri ilə yanaşı, Şamaxı Cümə məscidi Dövlət Tarix-Memarlıq abidəsinin ətrafında qədim hücrələr də bərpa olunmaqla, əsaslı abadlıq işləri aparılmışdır. Seyid Əzim Şirvani parkı da yenidənqurmadan sonra füsunkar görkəm almışdır. Ümumi sahəsi 1 hektara yaxın olan məscidin ilkin görkəminə qaytarılmasına xüsusi diqqət yetirilmişdir. Ötən əsrin 70–80-ci illərində burada təmir işləri yerinə yetirilərkən aparılan qazıntı işləri zamanı məscidin həyatində aşkarlanan mədrəsə, hücrə və qəbirlər olduğu kimi saxlanılmışdır. Bərpa və yenidənqurma işləri zamanı məscidin əvvəlki görkəmi və Şirvan memarlıq məktəbinin ənənələri maksimum diqqətdə saxlanılıb. Şamaxı seysmik zonada yerləşdiyindən məscidin bünövrəsi dəmir-beton konstruksiya ilə əsaslı şəkildə möhkəmləndirilib.*

*Vurğulandı ki, minarələrinin hündürlüyü 36,4 metr olan məscidin giriş, orta böyük, həmçinin sağ və sol günbəzləri nəfis şəkildə bərpa olunmuşdur. Günbəzlər qədim memarlıq üslubunda ornamentlərlə bəzədilib. Məscidin dəhlizi təkrarolunmaz tərtibatı ilə diqqəti çəkir. Orta salon milli memarlıq üslubunda yenidən qurulub. Burada eyni vaxtda 1500 nəfər ibadət edə bilər. Nəfis işlənmiş şəbəkələr və digər naxışlar insanı xoş ovqata və milli-mənəvi dəyərlərə kökləyir. Böyük günbəz yenidənqurmadan sonra xüsusi görkəm almışdır. Sağ və sol günbəzlər*

*bənzərsiz tərtibatı ilə diqqəti çəkir. Minbərlər də yüksək keyfiyyətlə və ənənəvi üsluba uyğun bərpa olunmuşdur. Məscidin həyatində əsaslı abadlıq işi görülmüş, 2 hovuz inşa edilmiş, 6 qalereya yaradılmışdır. İkimərtəbəli inzibati binanın sahəsi 804 kvadratmetrdir. Məsciddə konfrans salonu və digər yardımçı otaqlar yaradılıb. 520 kvadratmetrlik məişət binasında 250 nəfərlik mərasim salonu və müasir avadanlıqla təchiz edilən mətbəx yerləşir. Burada yaradılmış zəngin kitabxana dindarların istifadəsinə verilmişdir. Ümumilikdə, Şamaxı Cümə məscidi müstəqilliyin verdiyi imkanlardan maksimum bəhrələnən xalqımızın və Azərbaycan dövlətinin milli-mənəvi dəyərlərə, dini etiqad və vicdan azadlığına yüksək və həssas münasibətinin bariz nümunəsidir.*

*Azərbaycan prezidenti Cümə məscidinin 1902-ci il zəlzələsindən sonrakı, təmirdən əvvəlki və sonrakı, eləcə də yenidənqurma işlərinin gedişini əks etdirən stendlərə baxdı.*

*Şamaxı Cümə məscidinin açılışına həsr olunan mərasim Quran ayəsinin oxunması ilə başladı.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli din xadimləri!

Hörmətli səfirlər!

Əziz dostlar!

Bu gün ölkəmizin tarixində çox əlamətdar bir gündür. Bu gün biz Şamaxı Cümə məscidinin əsaslı təmirdən sonra açılışını qeyd edirik. Bu mərasimdə iştirak etmək üçün Azərbaycana gəlmiş Şimali Qafqaz müftilərini, bütün qonaqları salamlayıram. Azərbaycanda fəaliyyət göstərən müsəlman ölkələrinin səfirləri də bu gün bizimlə bərabərdirlər.

Qeyd etməliyəm ki, bu gün bu gözəl tədbirdə ölkəmizin hər bir bölgəsindən nümayəndələr iştirak edirlər. Azərbaycanın hər bir rayonundan din xadimləri bu gün buradadırlar. Əslində bu gün

bütün Azərbaycan buradadır, Şamaxıdadır, Şamaxı Cümə məscidinin açılışında iştirak edir.

Bu məscidin Azərbaycan tarixində xüsusi yeri vardır. Azərbaycanın ən qədim məscididir. Bu məscid 743-cü ildə tikilmişdir. Azərbaycanda, bütün Qafqazda islam dininin yayılmasında Şamaxı Cümə məscidinin çox böyük rolu olmuşdur. Əfsuslar olsun ki, təbii fəlakətlər nəticəsində məscid 2 dəfə dağıntılara məruz qalmışdır. 1859-cu və 1902-ci illərdə Şamaxıda baş vermiş güclü zəlzələlər nəticəsində məscidin böyük hissəsi dağılmışdır. Ondan sonra 1918-ci ilin mart ayında soyqırımı zamanı bu məscid vəhşi erməni quldur dəstələri tərəfindən yandırılıb. Bu məsciddə sığınacaq tapmaq istəyən 1000-dən yuxarı günahsız insan – onların arasında uşaqlar və qadınlar da olmuşdur – ermənilər tərəfindən yandırılmışdır. Vəhşi erməni quldur dəstələri sonra da Xocalı soyqırımını törətmişlər. Bu soyqırımı nəticəsində 613 dinc, günahsız insan həlak olmuşdur, onlardan 63-ü uşaq, 100-dən çoxu qadın idi.

Ancaq bu gün Şamaxı Cümə məscidi yenidən yaşayır, öz qapılarını dindarların üzünə açır. Azərbaycan dövləti bu məscidin bərpası üçün bütün lazımi tədbirləri görmüşdür. Sovet dövründə təbii ki, məscid fəaliyyət göstərmirdi. 2009-cu ildə mənim tərəfimdən Şamaxı Cümə məscidinin əsaslı təmiri ilə bağlı müvafiq sərəncam verilmişdir və 2010-cu ildən gərgin işlərə başlanılmışdır. Mən şəxsən hər il burada gedən tikinti-quruculuq işləri ilə tanış olurdum, göstərişlərimi verirdim və əsas məqsəd ondan ibarət idi ki, məscidin tarixi hissəsi qorunsun, saxlanılsın. Bu sütunlar, divarlar tarixi divarlardır. Beləliklə, bu gün məscidin həm daxili tərtibatı, həm xarici görünüşü zövq oxşayır. Bir daha demək istəyirəm, ən önəmli məsələ odur ki, qədim divarlar, daşlar qorunub, eyni zamanda, yeni tikililər də əlavə olunubdur.

Əslində bütün bu bərpa-quruculuq işləri Azərbaycanda bütövlükdə gedən işlərin təzahürüdür. Biz bütün işləri möhkəm təməl üzərində, dəyərlər üzərində qururuq. Milli-mənəvi dəyərlər bizim üçün hər şeydən üstündür. Biz öz dini və milli ənənələrimizə sadiqik. Bu möhkəm təməl üzərində müasir dövlət, müasir

Azərbaycan qururuq. Müstəqil, azad Azərbaycan dövləti bu böyük işin öhdəsindən layiqincə gələ bilmişdir. Bu gündən başlayaraq məsciddə bütün lazımi mərasimlər keçiriləcəkdir.

Azərbaycan dövləti öz keçmişinə sadiqdir. Azərbaycanda bütün dini abidələr bərpa edilir, təmir olunur. Sovet dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayı 1800-ə yaxındır. Bu onu göstərir ki, hətta sovet dövrü də insanların qəlbində olan imanı öldürə bilməmişdir. Azərbaycan xalqı öz müqəddəs dininə olan hörmətini, məhəbbətini ürəyində saxlamış və yaşatmışdır.

Dostlarımız – Şimali Qafqaz müftiləri, səfirlər, digər qonaqlar bütün tədbirlərimizdə – Təzəpir məscidinin əsaslı təmirindən sonra açılışı mərasimində, Bibiheybət məscidində, Əjdərbəy məscidinin yenidən açılışlarında iştirak etmişlər. Bu onu göstərir ki, Azərbaycanda həm dini ocaqlar bərpa edilir, həm də bütün bölgələrdə məscidlər tikilir. Bu yanaşma dövlət siyasətidir. Bundan sonra da biz bu yolla gedəcək, dini abidələrimizi bərpa edəcəyik və edirik. Son 10 ildə Azərbaycanda 200-dən çox məscid tikilib, 80-dən çox məscid təmir edilib. Hazırda xalqımız üçün böyük əhəmiyyət daşıyan İmamzadə dini-tarixi memarlıq abidəsi bərpa edilir. Bakının Binəqədi rayonunda Azərbaycanın ən böyük məscidi inşa olunur.

Azərbaycan müstəqil dövlət kimi, islam həmrəyliyinə də öz töhfəsini verir. Bütün müsəlman ölkələri ilə mehriban münasibətlər qurmaq əzmindəyik. Əslində bunu etmişik. İslam həmrəyliyinin gücləndirilməsi üçün əməli addımlar atırıq. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür, bu təşkilatın fəaliyyəti üçün lazımi töhfələr verir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini sahədə aparılan işləri çox yüksək qiymətləndirir. Çalışmalıyıq ki, bundan sonra da islam həmrəyliyini gücləndirək, müsəlman ölkələri arasındakı əlaqələri genişləndirək. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının xətti ilə Bakıda nazirlər səviyyəsində mötəbər tədbir keçirilmişdir. Belə tədbirlərin sayı getdikcə artmaqdadır. Azərbaycanda müxtəlif humanitar forumlar keçirilir. Dünya dinlərinin liderlərinin zirvə görüşü keçirilmişdir. Bu ayın

sonunda Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi nəzərdə tutulur. Azərbaycan artıq dünya xəritəsində tolerantlıq mərkəzinə çevrilmişdir. Azərbaycanda fəaliyyət göstərən bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və yaşayacaqdır. Azərbaycanda nə dini, nə milli zəmində heç vaxt heç bir qarşıdurma, anlaşılmazlıq olmamışdır və əminəm ki, olmayacaqdır. Dünyada gedən bəzi proseslər bizi haqlı olaraq narahat edir. İslam dininə qarşı ədalətsiz münasibət sərgilənir. Bəzi ölkələrdə islamofobiya meyilləri güclənir.

İslam mərhəmət dinidir. Çalışmalıyıq ki, əməli addımlarla dünyada islam dini haqqında dolğun və ədalətli məlumatları çatdıraq. Azərbaycan bu istiqamətdə kompleks tədbirlər görür. Keçən ilin sentyabr ayında Parisdəki Luvr Muzeyində islam mədəniyyəti bölməsinin açılışı olmuşdur. Azərbaycan bu bölmənin yaradılması üçün öz dəstəyini vermişdir. Bu bizim islam mədəniyyətinə olan töhfəmizdir. Bir neçə ay əvvəl Vatikanda ilk dəfə olaraq müsəlman ölkəsinin sərgisi keçirilmişdir. Bu da Azərbaycan sərgisi idi. Biz çalışırıq və birgə səylərlə çalışmalıyıq ki, islam mədəniyyəti, dəyərləri haqqında dünyaya dolğun məlumat çatdıraq. Bəzi hallarda qəsdən müsəlmanlar haqqında çox yanlış təsəvvür yaradılır, kütləvi informasiya vasitələri bu məsələnin dərinləşməsində rol oynayır. Əfsuslar olsun ki, müxtəlif bölgələrdə vətəndaş müharibəsi gedir, qardaş qanı axıdılır. Biz buna imkan verə bilmərik.

Qeyd etdiyim kimi, Şamaxı Cümə məscidi təbii fəlakətlərə, erməni vəhşiliyinə məruz qalmışdır. Şamaxının, demək olar ki, bütün binaları o vaxt – 1918-ci il soyqırımı zamanı dağıdılmışdır. Amma məscidi dağıda bilməmişlər. Məscid 1270 ildən sonra artıq yenidən fəaliyyətə başlayır. Bu doğrudan da böyük tarixi hadisədir, çox böyük rəmzi məna daşıyır. Bu onu göstərir ki, Azərbaycan xalqı əyilməzdir.

Hazırda işğal altında olan Şuşa məscidi, Ağdam məscidi, işğal altında olan digər məscidlər yarıdağılmış vəziyyətdədir. Ancaq gün gələcək biz o məscidləri də bərpa edəcəyik. Şuşa məscidini də, Ağdam məscidini də, işğal altında olan digər məscidləri də bərpa

edəcəyik. İşğalçıları Azərbaycan torpaqlarından qovacağıq. Azərbaycan bayrağı Şuşada, Xankəndidə, işğal olunmuş bütün torpaqlarda dalğalanacaqdır. Mən əminəm ki, o gün gələcəkdir. O günü yaxınlaşdırmaq üçün bütün Azərbaycan cəmiyyəti, Azərbaycan vətəndaşları bir nöqtəyə vurmalıdır. Ölkəmizi gücləndirməliyik, ölkəmizi hərtərəfli inkişaf etdirməliyik. Biz belə gözəl abidələr yaradırıq. Biz tarixi ədaləti bərpa edirik. Əminəm ki, Şamaxı məscidi bundan sonra əbədi yaşayacaqdır.

Bu gün Azərbaycan azaddır, müstəqildir. Müstəqil Azərbaycan öz tarixi keçmişini qorumağa da və gələcəyə inamla baxmağa da qadirdir. Bir daha mən Azərbaycan və dünya müsəlmanlarını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin çıxışı

Bismillahir-Rəhmanir-Rəhim!

Zati-aliləri möhtərəm prezident İlham Əliyev həzrətləri!

Möhtərəm müftilər! Əziz qonaqlar!

Hamınızı mübarək cümə günündə prezident İlham Əliyev həzrətlərinin sərəncamı və Heydər Əliyev Fondunun «Tolerantlığın ünvanı – Azərbaycan» layihəsi çərçivəsində əsaslı təmirdən sonra Şamaxı Cümə məscidinin açılış mərasimində salamlayır, «Xoş gəlmisiniz!» – deyirəm.

Şükürlər olsun ki, biz bu gün Azərbaycanda öz mənəvi dəyərlərimizə qovuşmaq, milli, dini irsimizi dirçəltmək imkanlarına malikik. İqtisadiyyatı sürətlə inkişaf edən, beynəlxalq aləmdə nüfuzu gündən-günə artan ölkəmizdə məbəd və ziyarətgahların böyük məhəbbətlə bərpa edilən nəfis binaları bir-birinin ardınca öz qapılarını dindarların üzünə açmaqdadır.

Azərbaycanın MDB məkanında, ümumən dünya miqyasında qazandığı uğurlarla yanaşı, mənəvi həyatda yaşanan bu yüksəliş dahi rəhbərimiz Heydər Əliyev yolunun təntənəsidir. Allahın lütf və mərhəmətindəndir ki, Azərbaycan xalqına tolerantlıq,

mədəniyyətlərarası dialoq və multikulturalizmin bünövrəsini qoymuş rəhbər qismət etmişdir və bu siyasət bu gün də uğurla davam edir.

Bu günlərdə biz dahi rəhbərimiz Heydər Əliyevin və onun ömür-gün yoldaşı Zərifə xanımın anadan olmalarının 90 illik yubileylərini təntənəli şəkildə qeyd etdik. Allah onlara rəhmət eləsin! Mən hər zaman Allaha şükr-səna edirəm ki, Azərbaycan xalqı və dövləti üçün mürəkkəb məqamlarda ulu öndər həyatına təhlükələrin olmasına baxmayaraq xalqına sahib çıxdı, məhz xalqın israr və təkidi ilə hakimiyyətə gəldi, xilaskarlıq missiyasını qəbul etdi. Müstəqilliyimizin, bir millət olaraq taleyimizin sual altında qaldığı, separatçılığın və müharibənin ölkəmizi zəiflətdiyi ağır məqamda Heydər Əliyev şəxsiyyətinin böyüklüyü özünü bir daha onda göstərdi ki, ölkəmizin çörəklə imtahana çəkildiyi ən çətin dönəmdə belə, mənəviyyat amilini unutmadı. Millətinə, dininə qəlbən bağlı olan dövlət rəhbərimizin ilk olaraq ayaq basdığı məkanlardan biri Təzəpir məscidi oldu. Ulu öndər buradan Azərbaycan xalqına «Allahın yolunda hamımız bir olaq» deyə müraciət edərək birliyə çağırdı. Heydər Əliyevin ilk sərəncamlarından biri ateizm dövründə şəhid edilmiş Bibiheybət məscidinin bərpası haqqında oldu. Məscidin bünövrəsinin qoyulması mərasimində etdiyi çıxışında o demişdir ki, biz Azərbaycanda bütün dini abidələri, ocaqları, müqəddəs yerləri sizinlə birlikdə bərpa edəcəyik. Bizim görə bilmədiyimiz işləri davamçılarımız sona çatdıracaqlar. Həyat ulu öndərin uzaqgörənliyini bu sahədə də sübut etdi. Bu uzaqgörənlik, əminlik onun əsasını qoyduğu yolun düzgünlüyündən, Allaha xoş gedən əməllərindən qaynaqlanırdı.

Böyük səadətdir ki, Heydər Əliyevin Bibiheybətdən başlatdığı dini-mənəvi irsin dirçəldilməsi yolu İlham Əliyevin timsalında Təzəpirdən, Əjdərbəydən, Gəncə İmamzadəsindən, bu yaxınlarda isə Sumqayıtdan keçərək bu gün bizləri qədim Şirvan elində Azərbaycanın qədim məscidinin yenidən qurulmuş gözəl binasının açılışı mərasimində bir araya gətirmişdir.

Şamaxı Cümə məscidi tariximizdə önəmli yerə malik, əsrlərin yadigarı olan ibadət məkanıdır. Bu məscid Azərbaycan dövlətçiliyinin şanlı dövrləri ilə yanaşı, ağır məqamlarına da şahidlik edib. Bu məsciddə indiyədək dinc Şamaxı əhalisinə qarşı qırğın törətmiş erməni silahlılarının atdığı güllələrin izi qalır. Allah evinə sığınmış insanları məhv etmək məramı ilə 1918-ci ildə erməni daşnakları tərəfindən yandırılmış bu məscid xalqımıza qarşı soyqırımının, erməni terrorunun qurbanı olub. Bu gün bu məscidin yenilənmiş daha da əzəmətli binası bizim milli şüur və ənənələrimizin dirçəlişi, iqtisadi və mənəvi qələbəmizin rəmzlərindən birinə çevrilir. Bu müqəddəs məkanda Azərbaycanın müstəqilliyi və Qarabağ uğrunda şəhid olanların, habelə erməni ekstremistləri tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırımı qurbanlarının xatirəsini anaraq, Allahdan onlara rəhmət diləyirik.

Fəxrlə deyə bilərəm ki, dövlət başçısı İlham Əliyevin müdrik siyasəti, xalqımızın milli-mənəvi dəyərlərinə, dini irsimizə ehtiramlı münasibəti sayəsində Azərbaycanda həm müsəlman, həm də digər dini icmaların fəaliyyəti ən yüksək səviyyədə dəstəklənir, onların maddi və mənəvi tələbatlarının ödənilməsi istiqamətində, ibadət məkanlarının inşası, təmir və yenidən qurulması sahəsində müvafiq addımlar atılır. Bütün bunlar Azərbaycanda mövcud tolerantlığın daha da dərinləşdirilməsinə şərait yaradır. Ulu öndər Heydər Əliyevin irsini yaşadan Fondun fəaliyyəti, Mehriban xanımın səyləri sayəsində Azərbaycan mədəniyyətlərarası dialoq işinə böyük töhfələr verir.

İlham Əliyev həzrətləri Azərbaycanın müqəddəs ocaqlarına qayğısı, milli-mənəvi dəyərlərə yeni həyat bəxş etməsi ilə misilsiz işlər görür. Mən, şeyxülislam olaraq, bu fəaliyyəti çox yüksək dəyərləndirir, Uca Allahdan ona böyük uğurlar diləyir və bütün Qafqaz müsəlmanları, dindarlar adından Zati-alilərinə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan dindarları hər zaman Sizin – bu böyük yolun davamçısının yanındadırlar və hər zaman da yanınızda olacaqlar.

Əminəm ki, bu gün açılışına toplaşdığımız Şamaxı Cümə məscidinin bu möhtəşəm binası xalqımızın öz çoxəsrlik mənəviyyat tarixinə verdiyi yüksək dəyərin ifadəsinə çevriləcəkdir. Bu mənəviyyat abidələri həm xalqımızın, həm də onun qeyrətli övladlarının adını əsrlər boyunca yaşadacaqdır.

İstəyirəm burada əyləşənlər – dindarlar adından Allah-Taalanın bizə göndərdiyi Qurani-Kərimi Sizə hədiyyə edim.

*Şeyxülislam Hacı Allahşükür Paşazadə Qurani-Kərimi dövlətimizin başçısına təqdim etdi.*

**İ s m a y ı l  B e r d i y e v** (*Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi, Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Şurasının sədri)***:** Bu gün bütün müsəlmanlar üçün bayramdır. İnsanı sevindirən əməllər bayramıdır. Ziyarətgahların bərpa olunması və orada Tanrıya dua edilməsi bizi sevindirir. Siz atanızın –Tanrı onu behiştlik etsin – işlərini davam etdirirsiniz. Təzəpir məscidinin necə gözəl bərpa olunduğunu görüb heyrətlənmişəm. Burada görülən işlər həqiqətən, böyük hünərdir. Allah Sizə güc və cansağlığı versin ki, bütün bu işləri davam etdirəsiniz.

*İsmayıl Berdiyev tolerantlıq və dinlərarası dialoqla bağlı Azərbaycanda təşkil olunan tədbirlərin, o cümlədən bu yaxınlarda «MDB müsəlmanları sülh və sabit inkişaf naminə» mövzusunda Bakıda keçirilən konfransı Azərbaycanın islam həmrəyliyinə verdiyi töhfə kimi dəyərləndirdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkənin ümumi inkişafında, həmçinin milli-mənəvi dəyərlərin qorunmasında və gələcək nəsillərə ötürülməsindəki xidmətlərindən danışan İsmayıl Berdiyev Şamaxı Cümə məscidinin bərpasını ulu öndərin siyasətinə sadiqliyin nümunəsi kimi səciyyələndirərək bildirdi:*

– Bu məscidin tikildiyi vaxtdan 13 əsr keçib. Onun hansı vəziyyətdə olduğunu fotoşəkillərdə görmüşdük. Sizin gördüyünüz işlər həqiqətən, insanı heyran qoyur. Sizə güc və cansağlığı diləyirəm.

**S u l t a n  M i r z a y e v** *(Rusiya Federasiyası Çeçenistan Respublikasının müftisi):* Rəmzi haldır ki, bu məscid cümə günü – müsəlmanlar üçün müqəddəs Rəcəb ayının müqəddəs cümə

günündə açılır. Peyğəmbər buyurmuşdur: Rəcəb Allahın ayıdır. Bu ayda oruc tutanlara, Quran oxuyanlara, namaz qılanlara – bunu yalnız Allah bilir – Allah əvəzini artıqlaması ilə verir.

Təkcə Azərbaycanın, Qafqazın müsəlmanları üçün deyil, bütün dünya müsəlmanları üçün bu böyük hədiyyəyə görə çox sağ olun!

*Sultan Mirzayev bu gün dünyanın bəzi regionlarında qan tökülməsinin sülh və mərhəmət dini olan islamın prinsiplərinə uyğun olmadığını söylədi və dini məbədlərdə sülhə və əmin-amanlığa çağırış dualarının daim yerinə yetirilməsini Ulu Tanrıdan arzu etdi.*

**M ə c i d Ş i k ə r o v** *(rayon ağsaqqalı):* Bu tarixi abidə 1980-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tapşırığı ilə təmir edilib. Siz isə, cənab Prezident, Şamaxı Cümə məscidinə xalqımıza, dinimizə layiq yeni həyat bəxş etmisiniz. Azərbaycanın bütün möminləri Sizin bu addımınızı dinimizə, millətimizin mənəviyyatına xidmət kimi qəbul edir. Məscidləri bərpa etməklə Allah evlərini insanlara qaytarırsınız və çox böyük savab iş görürsünüz.

Bütün möminlər Azərbaycana, bütövlükdə islam dünyasına gözəl və möhtəşəm abidəni yenidən bəxş etdiyiniz üçün Böyük Yaradana sonsuz şükürlər, Allahdan Sizə ən səmimi dualarını diləyirlər. Fəxrlə bildirmək istəyirəm ki, bu gözəl tarixi və dini abidə dindarlara, ağsaqqallara, ziyalılara, ümumən Azərbaycan müsəlmanlarına, bütün islam aləminə əvəzsiz bir hədiyyədir. Bu, Azərbaycan xalqının və dövlətinin öz milli və dini dəyərlərinə bağlı olduğunu bir daha sübut edir.

Əsrlər boyu ölkəmizdə formalaşan və bu gün qorunub saxlanılan tolerantlıq ənənələri və bərpa edilən tarixi dini abidələrimiz bizim dünya mədəniyyətinə ən böyük töhfəmiz, gələcək nəsillər üçün ən dəyərli mirasımızdır. Heç şübhəsiz ki, Azərbaycan xalqı bu mirasın sahibi, Siz isə onun himayədarı kimi həmişə tarixdə qalacaqsınız.

Möhtərəm cənab Prezident, biz ağsaqqallar, din adamları Azərbaycanımızın xoşbəxt gələcəyini Sizinlə görürük. Burada bütün bölgələrdən iştirak edən nümayəndələr də təsdiq edərlər

ki, bu gün şəhər və rayonlarımız necə böyük sürətlə inkişaf edir. İnsanlarımızın daha yaxşı, daha rahat yaşamaları üçün bütün tədbirlər görülür. Siz zəngin tarixi olan qədim Şamaxıya da daim yüksək diqqət və qayğı göstərmisiniz. Sizin bu diqqət və qayğınız nəticəsində qədim şəhərimiz milli memarlıq ənənələrinə uyğun bərpa olunub, böyük layihələr həyata keçirilir.

Biz Sizin və Mehriban xanımın tariximizə, mədəniyyətimizə, dini adət-ənənələrimizə olan qayğıkeş münasibətinizi yüksək qiymətləndiririk.

Möhtərəm cənab Prezident!

Biz şamaxılılar fəxr edirik ki, milli-mənəvi dəyərlərimizin keşikçisi, etiqad azadlığının təminatçısı olan Prezidentimiz vardır.

Biz ağsaqqallar və ümumilikdə, möminlər də ümummilli liderimizin çətin, lakin şərəfli yolunu uğurla davam etdirən, onun layiqli varisi olan Sizi, cənab Prezident, səmimiyyətlə və sədaqətlə dəstəkləyirik. Sizin rəhbərliyiniz altında parlaq gələcəyə doğru inamla irəliləyən Azərbaycan hazırda dünyada sürətlə inkişaf etmiş ölkələr sırasındadır. Bizim hər birimiz bu danılmaz həqiqətlə və Sizinlə fəxr edirik. Bir daha əmin ola bilərsiniz ki, xalqımız, bütün müsəlman aləmi Sizin bu tarixi xeyirxah işinizi heç vaxt unutmayacaqdır.

Möhtərəm Prezident! Allah işinizi avand etsin! Sizin işiniz haqq işidir. Allah Sizi qorusun!

* * *

*Daha sonra prezident İlham Əliyev Şamaxı Cümə məscidinin açılışı mərasimində iştirak edən qonaqlarla çay süfrəsi arxasında söhbət etdi.*

*Şamaxı Cümə məscidinin açılışından sonra bayram namazı qılındı. Əvvəlcə cümə namazı üçün azan oxundu. İmam minbərdən xütbə oxudu. Cümə namazının fərzi qılındıqdan sonra zikr və dualar edildi.*

*Daha sonra Şamaxı Cümə məscidinin mərasim salonunda ehsan verildi.*

## «BAKI ÜRƏK GÜNLƏRİ» III BEYNƏLXALQ KONQRESİNİN İŞTİRAKÇILARINA

Hörmətli Konqres iştirakçıları!

Sizi – «Bakı Ürək Günləri» III Beynəlxalq Konqresinin iştirakçılarını Bakı şəhərində salamlayıram. Əminəm ki, kardiologiyanın və ürək-damar cərrahiyyəsinin aktual problemlərinin müzakirəsi ölkəmizdə təbabətin inkişafına öz töhfəsini verəcəkdir.

Bu beynəlxalq konqres artıq ənənəvi şəkil almışdır. Builki konqresin xalqımızın ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunması dərin rəmzi məna daşıyır. Heydər Əliyev ölkəmizdə səhiyyə sisteminin daim təkmilləşdirilməsi və ən yeni standartlara uyğun qurulması sahəsində müstəsna xidmətlər göstərmişdir.

Bu istiqamətdə aparılmış işlərin davamı olaraq respublikamızda səhiyyənin inkişafı bu gün də dövlətimizin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindəndir. Hazırda Azərbaycanın müxtəlif regionlarında müasir diaqnostika mərkəzləri və müxtəlif şəfa ocaqları istifadəyə verilmiş, mövcud klinikalar əsaslı təmir olunaraq qabaqcıl texnologiyalara əsaslanan tibbi avadanlıqlarla təchiz edilmişdir. Gerçəkləşdirilən proqramlarda ürək-damar xəstəliklərinin müalicəsi və bu sahədə yüksək ixtisaslı gənc kadrların hazırlığı xüsusi yer tutur.

Ümidvaram ki, böyük elmi və elmi-praktiki əhəmiyyətə malik bu konqres azərbaycanlı mütəxəssislərin öz xarici həmkarları ilə əlaqələrini daha da möhkəmləndirəcək və ümumilikdə tibb elminin inkişafına xidmət edəcəkdir.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 may 2013-cü il*

## YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ANTONİS SAMARAS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da ölkəmizdə işgüzar səfərdə olan Yunanıstan Respublikasının Baş naziri Antonis Samaras ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Yunanıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın bundan sonra da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulanan görüşdə ikitərəfli münasibətlərin Azərbaycan–Avropa İttifaqı əlaqələri baxımından önəmli olduğu bildirildi.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

Hörmətli xanım Prezident!

Argentina Respublikasının milli bayramı – May inqilabının ildönümü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Argentina dövlətlərarası münasibətlərinin inkişafı dostluq əlaqələrimizin daha da möhkəmlənməsi və əməkdaşlığımızın genişlənməsi üçün yeni imkanlar açacaqdır.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Argentina xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 may 2013-cü il*

**İORDANİYA KRALI ƏLAHƏZRƏT**
**II ABDULLAH İBN ƏL-HÜSEYNƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–İordaniya dostluğu və əməkdaşlığının xoş ənənələrini daim yaşatmaq və inkişaf etdirmək üçün birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş İordaniya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 may 2013-cü il*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Gürcüstanın milli bayramı – Dövlət Müstəqilliyinin Bərpası Günü münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı çoxəsrlik dostluq və mehriban qonşuluq münasibətləri birləşdirir. Bu gün bu münasibətlər dinamik və hərtərəfli inkişaf edərək yeni məzmun kəsb etmiş, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də regional və beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı etimada və dəstəyə əsaslanan əməkdaşlığımızı, xalqlarımızın rifahı, ölkələrimizin çiçəklənməsi, regionumuzda tərəqqi və sabitliyin bərqərar olması naminə birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Gürcüstan xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 may 2013-cü il*

## BAKIDAKI DƏDƏ QORQUD PARKINDA HƏYATA KEÇİRİLƏN İŞLƏRLƏ TANIŞLIQ

*20 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Bakının Nərimanov rayonu ərazisində yeni salınan Dədə Qorqud parkında həyata keçirilən işlərlə tanış olmuşdur.*

*Dövlətimizin başçısı parkın ərazisini gəzdi, görüləcək işlərlə bağlı müvafiq tapşırıqlarını verdi.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Oklahoma ştatında baş vermiş təbii fəlakət – tornado nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Bu ağır anları Sizinlə bölüşür, yaralananların və xəsarət alanların tezliklə sağalacağına, dağıntıların aradan qaldırılacağına ümidlərimi ifadə edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 may 2013-cü il*

## İSPANİYA KRALLIĞININ MÜDAFİƏ NAZİRİ PEDRO MORENES ALVARO DE EULATENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də İspaniya Krallığının Müdafiə naziri Pedro Morenes Alvaro de Eulatenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə İspaniya Krallığı arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev bu əlaqələrin iqtisadi, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd edərək bu cür səfərləri intensiv şəkildə həyata keçirməyin vacibliyini bildirdi. Prezident İlham Əliyev İspaniya Krallığının Müdafiə naziri Pedro Morenes Alvaro de Eulatenin ölkəmizə səfərinin hərbi əməkdaşlığın inkişafına xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*İspaniya Krallığının Müdafiə naziri Pedro Morenes Alvaro de Eulate paytaxtımızda böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. İspaniyalı nazir Azərbaycana səfərinin əlaqələrimizin, o cümlədən hərbi sahədə əməkdaşlığımızın perspektivlərinin səmərəli müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.*

# GÜRCÜSTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Gürcüstanın Daxili İşlər naziri İrakli Qaribaşvilini qəbul etmişdir.*

*Daxili İşlər naziri İrakli Qaribaşvili Gürcüstanın Baş naziri Bidzina İvanişvilinin salamlarını dövlətimizin başçısına çatdırdı. Nazir vəzifəsində ölkəmizə ilk dəfə səfər etdiyini vurğulayan nazir Gürcüstanın Azərbaycan ilə strateji tərəfdaşlığa xüsusi önəm verdiyini dedi, Gürcüstanın yeni hökumətinin səyləri sayəsində ölkələrimiz arasında strateji tərəfdaşlığın və dostluq münasibətlərinin bütün sahələrdə daha da genişlənəcəyinə və dərinləşəcəyinə əmin olduğunu bildirdi.*

*Azərbaycan ilə Gürcüstan arasında qədim tarixi əlaqələrin, dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu vurğulayan prezident İlham Əliyev Gürcüstanın yeni hökumətinin ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq əlaqələrinin daha da genişləndirilməsinə böyük önəm verməsindən məmnunluğunu ifadə etdi, Azərbaycanın da öz növbəsində ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi və geniş sahələri əhatə etməsi üçün səylərini əsirgəməyəcəyini qeyd etdi. Hüquq-mühafizə orqanları arasında əməkdaşlığa toxunan prezident İlham Əliyev cinayətkarlığa qarşı birgə mübarizəni və informasiya mübadiləsini daha da genişləndirməyin önəmini vurğuladı.*

*Dövlətimizin başçısı Baş nazir Bidzina İvanişvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ TƏHSİL NAZİRİ NƏBİ AVCININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Türkiyə Respublikasının Milli Təhsil naziri Nəbi Avcının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyi vurğulandı. Qəti əminlik ifadə olundu ki, ölkələrimiz arasında təhsil sahəsində mövcud olan sıx əməkdaşlıq əlaqələri gələcəkdə də uğurla inkişaf edəcəkdir.*

*Görüşdə Türkiyə Respublikasının Milli Təhsil naziri Nəbi Avcının ölkəmizə səfərinin bu sahədə əməkdaşlığımızın daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu.*

## URUQVAY PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ HERMAN KARDOSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Uruqvay Parlamenti Nümayəndələr Palatasının sədri Herman Kardosonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Uruqvay arasında ikitərəfli əlaqələrin sürətlə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı əlaqələrimizin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlərdə inkişafı üçün yaxşı imkanların olduğunu deyən prezident İlham Əliyev münasibətlərimizin genişləndirilməsində parlamentlərarası əlaqələrin rolunu qeyd etdi. Dövlətimizin başçısı Herman Kardosonun ölkəmizə səfərinin uğurlu olacağına və əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Uruqvay Parlamenti Nümayəndələr Palatasının sədri ölkəsi ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu dedi. O bildirdi ki, ölkələrimizin bir-birindən uzaq məsafədə yerləşməsi əməkdaşlığımızın genişləndirilməsi işinə mane ola bilməz. Görüşdə ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, ticarət, turizm, kənd təsərrüfatı və digər sahələrdə inkişafı üçün yaxşı imkanların olduğu vurğulandı və bu istiqamətdə müvafiq addımların atılmasının önəmi qeyd edildi. Görüşdə, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasına dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## QAMBİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ XANIM SUSAN VAFFA-OQUN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Qambiya Respublikasının Xarici İşlər naziri xanım Susan Vaffa-Oqunu qəbul etmişdir.*

*İkinci dəfə ölkəmizdə səfərdə olduğunu vurğulayan Qambiya Respublikasının Xarici İşlər naziri xanım Susan Vaffa-Oqun ötən dövr ərzində paytaxtımızda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. O, Qambiya prezidenti Yəhya Cammehin məktubunu dövlətimizin başçısına təqdim etdi.*

*Dövlətimizin başçısı Qambiya prezidenti Yəhya Cammehin məktubuna görə minnətdarlığını bildirdi. Azərbaycan ilə Qambiya arasında ikitərəfli əlaqələrin inkişafının razılıq doğurduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimizin bir-birini beynəlxalq təşkilatlarda dəstəkləmələrinin önəmini qeyd etdi. Dövlətimizin başçısı Qambiyanın Xarici İşlər naziri xanım Susan Vaffa-Oqunun ölkəmizə səfərinin əməkdaşlığımızın müxtəlif sahələrdə inkişafı üçün yeni imkanlar açacağına ümidvar olduğunu bildirdi.*

# XIX AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ VII AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*22 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Bakı Sərgi Mərkəzində «WorldFood Azerbaijan–2013» XIX Azərbaycan Beynəlxalq qida sənayesi və «Agrihort Azerbaijan–2013» VII Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgiləri ilə tanış olmuşdur.*

*Kənd Təsərrüfatı naziri İsmət Abasov dövlətimizin başçısına məlumat verdi ki, Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun əsas sahələrindən olan aqrar bölmənin inkişafı respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunmasına, əhalinin rifahının yüksəlməsinə önəmli töhfəsini verməkdədir. Ən son texnologiyaların qida sənayesində tətbiqi bu sektorun inkişafı, istehsal olunan məhsulların keyfiyyəti və rəqabətə davamlılığı baxımından çox mühümdür. Bu baxımdan ölkəmizdə təşkil olunan sərgilər böyük əhəmiyyət kəsb edir və aqrar sahənin inkişafına müsbət təsirini göstərir.*

*Qeyd olundu ki, ənənəvi «WorldFood Azerbaijan–2013» və «Agrihort Azerbaijan–2013» sərgiləri ildən-ilə daha çox tərəfdaş toplayır, kənd təsərrüfatı məhsullarının istehsal və emal proseslərində yeni texnologiyaların tətbiqi ilə yanaşı, bu sahənin inkişafına və təkmilləşdirilməsinə, yerli və xarici iş adamları üçün işgüzar mühit yaratmaqla biznes əlaqələrinin qurulmasına və genişləndirilməsinə xidmət edir.*

*Vurğulandı ki, builki sərgilərin Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin 90 illik yubileyinin qeyd olunduğu dövrə təsadüf etməsi bu tədbirlərin əhəmiyyətini daha da artırır.*

*Azərbaycan iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatı və emal sənayesinin inkişafında ümummilli lider Heydər Əliyevin rolu əvəzsizdir. Prezident İlham Əliyevin uğurla davam etdirdiyi daxili və xarici siyasət kənd təsərrüfatının davamlı inkişafı üçün əlverişli şərait yaratmışdır. Təşkil olunan hər 2 sərgi bu inkişafın daha bir göstəricisidir.*

*Bildirildi ki, hər 2 sərgi Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə keçirilir. «WorldFood Azerbaijan–2013» sərgisində MDB ölkələri və Avropadan olan şirkətlər üstünlük təşkil edir. İştirakçıların ümumi sayının 38 faizini təşkil edən yerli şirkətlər də sərgidə böyük fəallıq göstərirlər. Bu il sərgidə Naxçıvan Muxtar Respublikası ayrıca pavilyonla çıxış edir. Bu pavilyonda Naxçıvanın məşhur mineral suyu, habelə xörək duzu, un və qənnadı məmulatları nümayiş etdirilir.*

*Budəfəki qida sənayesi sərgisində 30-dan çox ölkədən 180-dək şirkət iştirak edir. Sərginin ekspozisiya sahəsinin ötən ilə nisbətən 40 faiz artması bu tədbirə marağın ildən-ilə çoxaldığını göstərir. Diqqətə çatdırıldı ki, qida sənayesi sərgisi ilə eyni məkanda keçirilən və artıq 7-ci dəfə təşkil olunan «Agrihort Azerbaijan–2013» sərgisi aqrar kompleksin aparıcı nümayəndələrini, habelə kənd təsərrüfatı məhsullarının istehsalçı və təchizatçılarını bir araya gətirir. Sərgidə kənd təsərrüfatı və quşçuluq fabrikləri üçün, habelə istixana avadanlığı, suvarma sistemləri, toxumlar, gübrələr, heyvanlar və balıqlar üçün yemlər və s. məhsullar nümayiş etdirilir.*

*Azərbaycan prezidenti sərgilərin pavilyonları ilə tanış oldu.*

*ABŞ-ın Ət İxracı Federasiyasının stendi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, federasiya bütün dünyada Birləşmiş Ştatların ət məhsullarını təşviq edən, bu ölkənin qırmızı ət məhsulları üçün yeni imkanların yaradılması və mövcud beynəlxalq bazarların genişləndirilməsi ilə məşğuldur. Şirkət, habelə istehlakçıların ABŞ-da istehsal olunan ət məhsullarının keyfiyyət xassələri haqqında maarifləndirilməsi istiqamətində fəaliyyət göstərən qeyri-kommersiya təşkilatıdır.*

*Bildirildi ki, Hollandiyanın «Royal Brinkman» şirkəti 1885-ci ildə yaradılıb. Əsasən bağçılıq və istixana təsərrüfatları üçün avadanlıq istehsalı ilə məşğul olan şirkət 125 ildir ki, dünyanın bu sahədə ən aparıcı qurumlarından biridir. Şirkətin dünyada 250-dən çox nümayəndəliyi vardır. Bu şirkətin nüfuz qazanmasının əsas səbəbi müştərilərini yüksək keyfiyyətli xidmət və məhsullarla təmin etməsidir.*

*Sərgidə ziyarətçilərə imkanlarını geniş çeşiddə təqdim edən müəssisələrdən biri də «AzFP Co LTD» MMC-dir. Müəssisənin «Milla» brendi ilə istehsal etdiyi 50 adda süd və dondurma məhsulları istehlakçıların rəğbətini qazanıb. Bundan başqa, şirkət polistirol və polipropilen kisələr, eləcə də birdəfəlik plastik qablar da hazırlayır. Gündəlik istehsal gücü 250 ton olan müəssisə qısa zamanda Azərbaycanın bütün bölgələrində geniş alıcı kütləsi toplayıb.*

*Bildirildi ki, İranda manna yarmasından hazırlanan makaronun ilk və ən böyük istehsalçısı olan «Zar Macaron» şirkəti də keyfiyyətli və yüksək səviyyəli məhsullar hazırlayır.*

*Prezident İlham Əliyev «Helmaks» şirkətinin stendi ilə də tanış oldu. Qeyd edildi ki, şirkət qaramalın və davarın kəsilməsi üçün yüksək səviyyəli texnika hazırlayır. «Helmaks» şirkəti dünyada ən müasir avadanlığın layihələndirilməsi və istehsalı üçün davamlı olaraq tədqiqat və təkmilləşdirmə işlərini həyata keçirir.*

*«Shebekinsky machine-building plant» ASC isə çörək və şirniyyat məmulatlarının hazırlanması üçün nəzərdə tutulan sobaların istehsalı sahəsində 70 illik təcrübəyə malikdir.*

*Prezident İlham Əliyev Latviyanın da pavilyonuna baxdı.*

*Diqqətə çatdırıldı ki, Latviya sərgidə 3 şirkətlə təmsil olunur. Latviya İnvestisiyalar və İnkişaf Agentliyinin məqsədi daha çox xarici investisiyalar cəlb etməklə latviyalı sahibkarların həm daxili, həm də xarici bazarlarda rəqabətə davamlılığını artırmaq və biznesin inkişafını təşviq etməkdir. Latviyanın «Jaunpils Süd Zavodu» şirkəti pendir və kəsmik istehsalı ilə məşğuldur. Məhsul istehsalında heç bir konservantdan istifadə*

*edilmir. Əsas ofisi Riqada yerləşən «Laima» şirkəti isə Latviyanın ən böyük şirniyyat istehsalçısıdır.*

*Dövlətimizin başçısı «Grand Motors» şirkətinin pavilyonunda oldu. Diqqətə çatdırıldı ki, şirkət sərgidə kənd təsərrüfatı texnikası və avadanlığını təqdim edir. 2005-ci ildən fəaliyyətdə olan müəssisə əsasən tikinti və kənd təsərrüfatı texnikalarının idxalı və satışı sahəsində böyük təcrübəyə malikdir. Müəssisə, həmçinin İtaliyanın «New Holland» və «Maschio Gaspardo» şirkətlərinin Azərbaycanda rəsmi nümayəndəsidir.*

*Sərgidə təmsil olunan yerli şirkətlərdən biri də «ASPI AGRO» MMC-dir. Şirkət öz fəaliyyətində müasir texnologiyanın tətbiqinə və Azərbaycanın şərabçılıq ənənələrinə əsaslanaraq üzümün yetişdirilməsindən yüksək keyfiyyətli məhsulların buraxılışınadək tam bir istehsal prosesini özündə birləşdirir.*

*Almaniyanın «CLAAS Global Sales GMBH» şirkəti də sərgidə təmsil olunur. Şirkətin Azərbaycandakı təmsilçiliyi müştərilərə «CLAAS» markalı kənd təsərrüfatı texnikası təqdim edir. «CLAAS» şirkəti təxminən 100 ildir ki, məhsul yığımı dövründə müştərilərin işini asanlaşdıran kənd təsərrüfatı maşınları üçün yüksək texnologiyalı həll variantları işləyib hazırlayır. Müəssisə, həmçinin sahələrdə texnikaya yüksək keyfiyyətli xidmət göstərir və maşınları orijinal ehtiyat hissələri ilə təchiz edir.*

*İndoneziya sərgidə ayrıca pavilyonda təmsil olunur. Bu ölkənin pavilyonunda qənd, ədviyyat, çay, kofe, kakao, dəniz məhsulları və digər məmulatlar nümayiş etdirilir.*

*Sərgidə təmsil olunan yerli şirkətlərdən biri «Azərtoxum» MMC-dir. Cəmiyyətin fəaliyyətə başladığı gündən əsas hədəfi fermerləri yüksək reproduksiyalı toxumla təmin etməkdir. Müəssisənin illik istehsal gücü 250 min tondur. İstehsal prosesi əsasən 4 sahəni əhatə edir.*

*«Azəryem» MMC də müştərilərə ekoloji cəhətdən təmiz məhsullar təqdim edir.*

*Pavilyonlarla tanış olan dövlətimizin başçısına bildirildi ki, bütün Qafqaz regionunun qida sənayesində və kənd təsərrüfatında ən iri hadisə olan bu sərgilər müvafiq sahələrin inkişafına, iş*

*adamları arasında işgüzar əməkdaşlığın genişlənməsinə, məhsul istehsalının təkmilləşdirilməsinə və istehsalatda modern texnologiyaların tətbiqinə imkan yaradacaqdır.*

*Prezident İlham Əliyev sərginin işinə uğurlar arzuladı.*

## NATO BAŞ KATİBİNİN MÜAVİNİ QABOR İKLODİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də NATO baş katibinin müavini Qabor İklodini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Özünün Brüsselə, NATO-nun baş katibi Anders Foq Rasmussenin isə Azərbaycana səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev həmin səfərlər zamanı aparılan müzakirələrin əməkdaşlığımızın genişləndirilməsi baxımından önəmini qeyd etdi, Azərbaycan–NATO əməkdaşlığının gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi. Azərbaycan hərbçilərinin Əfqanıstandakı beynəlxalq sülhməramlı missiyanın tərkibində uğurlu fəaliyyətinə toxunan prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz Əfqanıstanda sülhün və sabitliyin bərqərar olunması işinə təhsil, təcrübə mübadiləsi və digər sahələrdə də kömək edə bilər.*

*NATO baş katibinin müavini Qabor İklodi «Meydana çıxan təhlükəsizlik çağırışları: XXI əsrdə enerji təhlükəsizliyinin genişləndirilməsi» mövzusunda Bakıda keçirilən konfransın önəmini vurğuladı. NATO ilə Azərbaycan arasında mövcud olan əməkdaşlığın daha da inkişaf etdiyini qeyd edən qonaq Azərbaycan hərbçilərinin Əfqanıstandakı beynəlxalq sülhməramlı missiyanın tərkibində uğurlu fəaliyyətinə, ölkəmizin Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, NATO-nun Əfqanıstandakı 2014-cü ildən sonrakı missiyasında Azərbaycanın iştirakı ilə bağlı mövqeyini də yüksək qiymətləndirdi.*

*Görüşdə enerji təhlükəsizliyi, nüvə silahının yayılmaması, terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# KOREYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDR MÜAVİNİ PARK BYONQ-SOQUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Koreya Respublikası Milli Assambleyasının sədr müavini Park Byonq-Soqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Koreya Respublikası Milli Assambleyasının sədr müavini Park Byonq-Soq Beynəlxalq Valyuta Fondunun Azərbaycanı ən sürətlə inkişaf etmiş iqtisadiyyata malik olan ölkələrin sırasına daxil etməsinin önəmini vurğuladı. Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən il ölkəmizdə mühüm beynəlxalq tədbirlərin uğurla keçirilməsinin böyük əhəmiyyət daşıdığını deyən qonaq 2012-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrlik etməsini mühüm hadisə kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Koreya Respublikası arasında ikitərəfli əlaqələrin sürətlə inkişaf etdiyini bildirdi. Ölkələrimiz arasında iqtisadi sahədə uğurların əldə olunduğunu, ticarət dövriyyəsinin artdığını qeyd edən dövlətimizin başçısı Koreya şirkətlərinin Azərbaycandakı uğurlu fəaliyyətlərinin genişlənməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev mədəniyyət sahəsində də əməkdaşlığımızın yaxşı səviyyədə olduğunu söylədi. Parlamentlərarası əlaqələrə toxunan dövlətimizin başçısı Koreya Respublikası Milli Assambleyasının sədr müavini Park Byonq-Soqun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin bu sahədə əməkdaşlığımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyini vurğuladı.*

*Görüşdə Koreya şirkətlərinin ölkəmizdə həyata keçirilən müxtəlif infrastruktur layihələrində yaxından iştirakının əhəmiyyəti vurğulandı, neft-kimya, yüksək texnologiyalar və digər sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğu bildirildi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Yan Kellini (ABŞ), Jak Foru (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması istiqamətində danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olundu.*

# VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN 2 SAYLI BAKI «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*24 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin mayın 24-də 2 saylı Bakı «ASAN xidmət» mərkəzinin açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərkəzin açılışında iştirak etmişdir.*

*Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov dövlətimizin başçısına məlumat verdi ki, Azərbaycanda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər mümkün korrupsiya hallarını aradan qaldırır və dövlət xidmətlərini vətəndaşlara yaxınlaşdırır.*

*Dövlətimizin başçısının ötən il iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun tabeliyində olan «ASAN xidmət» mərkəzlərinin yaradılması ilə bağlı fərmanı imzalaması bu sahədə çox mühüm addım olmuşdur. Sentyabrın 5-də imzalanmış digər bir fərmanla Agentliyin əsasnaməsi və strukturu təsdiq edilmişdir. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsidir. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı*

*inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir.*

*Ötən il dekabrın 29-da pilot layihə olaraq paytaxt Bakıda 1 saylı «ASAN xidmət» mərkəzi fəaliyyətə başladı. Pilot layihə çərçivəsində mərkəz Bakının Nəsimi, Nərimanov və Binəqədi rayonlarında qeydiyyatda olan vətəndaşlara xidmət göstərir. Bu il mayın 3-də isə Sumqayıt «ASAN xidmət» mərkəzi istifadəyə verilmişdir. Bu mərkəz Sumqayıt şəhərinin, eyni zamanda, Abşeron, Siyəzən, Şabran və Xızı rayonlarının sakinlərinə xidmət göstərir. Hər 2 mərkəzin fəaliyyətə başlamasından indiyədək ümumilikdə 100 mindən çox vətəndaş müraciət etmiş və ya xidmətlərdən yararlanmışdır. Müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notarial fəaliyyət, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olanlar üstünlük təşkil etmişdir.*

*«ASAN xidmət» mərkəzində ilk vaxtlar 23 hüquqi xidmət həyata keçirilirdisə, prezident İlham Əliyevin bu il martın 18-də imzaladığı fərmanla göstərilən xidmətlərin sayı artırılmışdır. Fərmana əsasən, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə əmək fəaliyyətini həyata keçirmələri üçün fərdi icazələrin, daşınmaz əmlakla bağlı dövlət reyestrindən arayışların verilməsi «ASAN xidmət» mərkəzlərinə həvalə edilmişdir. Bununla da dövlət orqanları tərəfindən göstərilən hüquqi xidmətlərin sayı 25-ə çatmışdır.*

*Prezident İlham Əliyev 2 saylı «ASAN xidmət» mərkəzinin fəaliyyəti ilə tanış oldu. Bildirildi ki, Bakının Xətai, Nizami və Suraxanı rayonlarının əhalisinə xidmət göstərəcək mərkəzdə vətəndaşların qəbulu elektron növbə əsasında həyata keçiriləcəkdir. Bunun üçün ən müasir avadanlıq quraşdırılmışdır. Elektron lövhələr və işarələr vətəndaşların məlumat əldə etməsini asanlaşdırır. Bu mərkəzdə də 3 elektron ərizə doldurma aparatı qoyulmuşdur.*

*Qeyd edildi ki, «ASAN xidmət» mərkəzinin əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik, etik davranış qaydalarına nəzarət və rahatlıqdır. Mərkəz daim internetə açıq olan kompüterlərlə təchiz edilmişdir. Burada vətəndaşların bütün*

*növ elektron xidmətlərdən yararlanması üçün şərait yaradılmışdır. Mərkəzdə əlillər üçün də hər cür imkan vardır. Gözdən əlillərin sərbəst hərəkəti üçün isə hər mərtəbənin döşəməsinə xüsusi örtüklər vurulmuş, lövhələr onların oxuya bildiyi müvafiq hərflərlə hazırlanmışdır.*

*Bildirildi ki, «ASAN xidmət» mərkəzində vətəndaşların gözləyərkən vaxtlarını səmərəli keçirmələri üçün funksional-yardımçı xidmətlər – bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, internet-kafe, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Mərkəzdə yerləşdirilən xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin haqqının, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkün olacaqdır. Xidmətin «Çağrı» mərkəzi vasitəsilə vətəndaş mərkəzə gəlmədən internet və ya telefonla bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala, növbə tuta bilər. Mərkəzdə videomüşahidə kameraları və rüsumların məbləğlərini əks etdirən tablo quraşdırılmışdır.*

*Prezident İlham Əliyev mərkəzin mühafizə otağı ilə tanış oldu. Qeyd edildi ki, korrupsiya hallarının qarşısının alınması, şəffaflığın təmin edilməsi məqsədilə mərkəzdə xidmət proseduru fasiləsiz videokamera vasitəsilə qeydiyyata alınacaqdır. Xidmət sistemi müasir İP telefon və İP şəbəkə sistemi ilə təmin edilmişdir. Xidmətlərin tənzimlənməsi məqsədilə elektron monitor və elektron elan tabloları qurulmuşdur. Xidmətin «asan.gov.az» internet saytı vasitəsilə vətəndaşlar üçün «online» növbəyə yazılma, elektron ərizələr doldurma, sənədləri digər orqanlara elektron qaydada göndərmə və digər imkanlar yaradılmışdır.*

*Dövlətimizin başçısına Elektron Məlumat Mərkəzi barədə məlumat verildi. Qeyd olundu ki, mərkəzə müraciət edən vətəndaş bütün məlumatları öyrənə, elektron ərizəni doldura və eyni vaxtda çap etdirə bilər. İlk dəfə 2 saylı Bakı «ASAN xidmət» mərkəzində Biometrik Məlumatların Toplanması Sistemi yaradılmışdır. Avadanlıq İsveçdə istehsal olunmuş, proqram təminatı isə alman kompüter mütəxəssisləri tərəfindən xüsusi olaraq «ASAN xidmət» üçün yazılmışdır. Sistem biometrik şəkillərin çəkilməsi, barmaq*

*izlərinin alınması, elektron imza və bunları mərkəzləşdirilmiş halda hüquq mühafizə orqanları sisteminə ötürməsi kimi mühüm xüsusiyyətlərə malikdir. Biometrik texnologiyalar insanların avtomatik tanınmasını, onların davranış və ya fizioloji xüsusiyyətlərindən istifadə etməklə şəxsiyyətlərinin müəyyənləşdirilməsinə imkan verir. Ən əsası odur ki, bu sistem insan orqanizmi üçün təhlükəli deyil. Həmçinin bu milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsi, qanunsuz miqrasiya və cinayətkarlıqla mübarizənin gücləndirilməsi baxımından da əhəmiyyətlidir.*

*Prezident İlham Əliyev mərkəzdə işçilər üçün yaradılan şəraitlə tanış oldu. Diqqətə çatdırıldı ki, «ASAN xidmət» mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlər göstərməsində vətəndaşların razı salınmasının, şəffaflığın təmin edilməsinin, korrupsiya hallarının istisna olunmasının, müasir texnologiyaların, «bir qapı» prinsipinin tətbiqinin, dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni düşüncə tərzinin – «dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir» yanaşmasının formalaşdırılmasıdır.*

*Dövlətimizin başçısına «ASAN kart»la bağlı geniş məlumat verildi. Bildirildi ki, «ASAN kart» özündə əsasən 2 – ödəniş və identifikasiya funksiyasını daşıyan kartdır. Bu kart vasitəsilə dövlət xidmətləri üzrə sifarişin alınması və ödənilməsini həyata keçirmək mümkündür. Ən əsası isə kart beynəlxalq funksiyalı olduğu üçün istənilən yerdə bütün növ ödənişləri həyata keçirmək mümkündür. Kartdan, həmçinin sərnişin nəqliyyatında və kommunal ödənişlərdə istifadə etmək olar. «ASAN kart»ın daha bir xüsusiyyəti isə elektron imza daşıyıcısı olmasıdır. Belə ki, müqavilələrin və digər rəsmi sənədlərin imzalanmasında bu kartdan istifadə etmək mümkündür. Məlumat verildi ki, 2 saylı «ASAN xidmət» mərkəzində də digər mərkəzlərdə olduğu kimi, uşaqlar üçün ayrıca oyun guşəsi yaradılmışdır.*

*Prezident İlham Əliyev mərkəzin yeməkxanası ilə də tanış oldu. Qeyd edildi ki, yeməkxanada yüksək şərait vardır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, könüllülük prinsipi əsasında vətəndaşlara xidmət göstərmək üçün 50 gənc seçilmiş və treninqlərə cəlb olunmuşdur.*

*Prezident İlham Əliyev könüllülərlə görüşdü.*

**F ə r i d G ü l a b l ı** : Hörmətli Prezident, bütün könüllülər adından Bakı şəhər «ASAN xidmət» mərkəzinin 2 saylı şöbəsinə «Xoş gəlmisiniz!» – deyirik.

Biz gəncləri sevindirən əsas cəhət odur ki, digər mərkəzlərdə olduğu kimi, bu mərkəzdə də könüllülərin işinin təşkili üçün böyük imkanlar yaradılmışdır. Bir gənc olaraq, biz elmi biliklərimizi, intellektual səviyyəmizi tam səfərbər edərək istənilən vəzifənin öhdəsindən gəlməyə hazırıq. Yeni bir qurumun işinin təşkilində və formalaşmasında fəaliyyətimiz bizə qürur verir.

**G ü l n a z R ə h i m o v a**: Cənab Prezident, Sizin digər «ASAN xidmət» mərkəzlərinin açılışında könüllülərə göstərdiyiniz xüsusi diqqət və səmimi münasibətiniz həqiqətən bizə çox xoş təsir bağışlayır.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən də çox şadam ki, könüllülər bu mərkəzdə də fəaliyyət göstərəcəklər. İndi artıq üçüncü mərkəz açılır. Bu sistem, ümumiyyətlə, Azərbaycanda qısa müddət ərzində öz vacibliyini artıq təsdiq edib. «ASAN xidmət»in yaradılması Azərbaycanda aparılan ciddi islahatların təzahürüdür. Bu, yeni sistemdir və Azərbaycan brendidir.

Bildiyimə görə, indi başqa ölkələrdə də bu təcrübə öyrənilir. Baxmayaraq ki, biz təzə başlamışıq, ancaq qısa müddət ərzində 100 minə qədər vətəndaş artıq «ASAN xidmət»ə müraciət etmiş və yüksək xidmət almışdır. Bu yenilikdir, müasirlikdir, ölkəmizin inkişafıdır.

«ASAN xidmət»in bir neçə əsas fəaliyyət istiqaməti vardır. Onların arasında insanlara yüksək səviyyəli xidmət məsələsi ön plandadır. Eyni zamanda, bu sistem vasitəsilə xoşagəlməz halların qarşısı alınır, korrupsiyaya qarşı mübarizə daha da gözəl səmərə verir, bürokratiyaya qarşı mübarizə artıq «ASAN xidmət» vasitəsilə yeni pilləyə qalxır. «ASAN xidmət»in fəaliyyəti innovasiya, müasirlik, texnologiyalar, bilik deməkdir. Siz

könüllülərin fəaliyyəti də cəmiyyətdə yeni bir davranış qaydalarının tətbiqi deməkdir. Bu çox nəcib və doğrudan da çox təqdirəlayiq bir funksiyadır. Gənclər təmənnasız bu işlərə qoşulur – vətəndaşlara kömək göstərmək, cəmiyyətdə öz fəaliyyətini daha da uğurla aparmaq və ümumi işimizə töhfə vermək üçün. Görürsünüz ki, «ASAN xidmət»in təməlində nə qədər gözəl amillər birləşir: müasirlik, yenilik, insanların vətəndaşlıq borcunun yerinə yetirilməsi, gənclərin bu işlərə qoşulması. Əlbəttə, bu xidmət ölkəmizin ümumu inkişafı ilə də tam uzlaşır. Çünki bu gün doğrudan da Azərbaycanda müasir dövlət qurulur, yeni texnologiyalar tətbiq edilir. Dünyanın ən qabaqcıl, mütərəqqi təcrübəsi Azərbaycanda tətbiq olunur. Bu, ümumiyyətlə, bizim siyasi xəttimizdir. Ancaq «ASAN xidmət»in üstünlüyü ondan ibarətdir ki, artıq Azərbaycan da müasir texnologiyaları tətbiq edir. Başqa ölkələr bizdə olan təcrübəni öyrənəcək və faydalanacaqdır.

Qısa müddət ərzində 100 min vətəndaşın bu xidmətdən istifadə etməsi, əlbəttə ki, xidmətin artıq cəmiyyətdə yüksək qiymətə layiq olduğunu göstərir. Əlbəttə, könüllülərin fəaliyyəti bu xidmətə əlavə töhfə verir. Bir daha demək istəyirəm ki, mən sizin vətəndaşlıq mövqenizi yüksək qiymətləndirir, təqdir edirəm. Çalışın ki, gələcək fəaliyyətinizdə də həmişə milli maraqlarımızın qorunması işində fəal iştirak edəsiniz. Sizə uğurlar arzulayıram.

**Gülnaz Rəhimova:** Biz gənclər könüllülər fəaliyyətinin təkcə «ASAN xidmət»də deyil, ümumiyyətlə, ölkə daxilində daha da genişləndirilməsini istəyirik. Çünki bu bizim gələcək karyeramızda əsas amillərdən biri olacaqdır.

**İlham Əliyev:** Sağ olun, düz deyirsiniz. Əminəm ki, sizin gələcəyiniz də çox uğurlu, parlaq olacaqdır. Çünki siz gənc yaşlarda ölkəmiz üçün vacib olan sahədə fəaliyyət göstərirsiniz, burada təcrübə toplayacaqsınız, insanlarla təmasda olacaqsınız. Bu təcrübə sizin üçün gələcəkdə, əlbəttə ki, çox faydalı olacaqdır.

Sizin kimi gənclər gələcəkdə ölkəmizi idarə edəcəklər. Ölkəmiz sürətlə inkişaf edir. Elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Bundan 10 il, 20 il, 30 il, 50 il sonra da Azərbaycan dünyada öz mövqeyini müdafiə edə bilsin. Bunu etmək üçün təkcə güclü

iqtisadiyyat, yaxud da ki, xarici siyasət kifayət deyil. Bunu etmək üçün Azərbaycan vətəndaşları, Azərbaycanın gələcəyini və inkişafını müəyyən edən insanlar bilikli, vətənpərvər olmalı, öz Vətənini sevməlidirlər.

Şadam ki, Azərbaycan gəncləri bu ruhda tərbiyə alır. Xüsusilə nəzərə almalıyıq ki, bu gün Azərbaycan ilə fəxr etmək üçün kifayət qədər çox səbəb vardır. Bir daha Sizi salamlayıram, təşəkkürümü bildirirəm və uğurlar arzulayıram.

**K ö n ü l l ü l ə r:** Çox sağ olun, təşəkkür edirik.

* * *

*Daha sonra dövlətimizin başçısı 2 saylı «ASAN xidmət» mərkəzinin yeraltı avtodayanacağının sxemini əks etdirən stendə baxdı. Diqqətə çatdırıldı ki, mərkəzə şəxsi avtomobilləri ilə gələn vətəndaşların rahatlığı da nəzərə alınmışdır. Belə ki, burada ümumi sahəsi 24 min kvadratmetr olan yeraltı dayanacaq yaradılacaqdır. Hazırda isə vətəndaşlar yerüstü dayanacaqdan istifadə edə bilərlər.*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan–İtaliya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə öz töhfəsini verməkdədir.

İnanıram ki, ikitərəfli qaydada, həmçinin Avropa İttifaqı çərçivəsində əməkdaşlığımızı müvəffəqiyyətlə davam etdirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına daim sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 may 2013-cü il*

## AVROPA PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ ELMAR BROK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Avropa Parlamentinin xarici əlaqələr komitəsinin sədri Elmar Broku qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Avropa təsisatları arasında əməkdaşlığın uğurla inkişaf etdiyini və yaxşı nəticələr əldə olunduğunu vurğuladı. Prezident İlham Əliyev tərəfdaşlıq əlaqələrimizin gələcəkdə daha da genişləndirilməsi üçün imkanları müəyyənləşdirməyin önəmini qeyd etdi. Dövlətimizin başçısı Avropa Parlamentinin xarici əlaqələr komitəsinin sədri Elmar Brokun ölkəmizə səfərinin Azərbaycan ilə Avropa təsisatları arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Avropa Parlamentinin xarici əlaqələr komitəsinin sədri Elmar Brok təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu dedi. Ölkəmiz ilə Avropa təsisatları arasında əlaqələrə toxunan Elmar Brok «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Avropa Parlamenti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## BAKIDA AĞ ŞƏHƏR BULVARININ TƏMƏLQOYMA MƏRASİMİ

*25 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Bakıda Ağ Şəhər bulvarının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Ağ Şəhər bulvarı Dənizkənarı Milli Parkın genişləndirilməsi ilə əlaqədar prezident İlham Əliyevin tapşırıqlarına əsasən görülən işlərin davamı olaraq salınacaqdır.*

*Əvvəlcə dövlətimizin başçısına ərazidə aparılacaq tikinti işləri barədə məlumat verildi.*

*Prezident İlham Əliyev Ağ Şəhər bulvarının təməlini qoydu. Görüləcək işlər barədə məlumat verildi ki, Ağ Şəhər bulvarı Dənizkənarı Milli Parkın ən gözəl yerlərindən birinə çevriləcək. Burada dənizkənarı piyada yolları salınacaq, yaşıllıq zonaları yaradılacaq, sahilbərkitmə işləri aparılacaqdır. İnsanların təhlükəsizliyini və hərəkətin rahatlığını təmin etmək üçün piyada keçidləri inşa ediləcəkdir. Bu nəhəng istirahət mərkəzi sürətlə genişlənən və müasirləşən Bakının ümumi mənzərəsini daha da gözəlləşdirəcəkdir.*

*Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.*

# DAĞÜSTÜ PARKDA YENİDƏNQURMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*25 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Bakının Dağüstü parkında yenidənqurmadan sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısı funikulyorla Dağüstü parka qalxdı.*

*Bildirildi ki, Dağüstü parkda aparılan yenidənqurma işləri nəticəsində paytaxt sakinləri və şəhərimizin qonaqları üçün daha bir istirahət məkanı istifadəyə verilir. Bu parkdan paytaxtımıza və Bakı buxtasına ecazkar mənzərə açılır. Məhz bu amil əsas tutularaq hələ XX əsrin 30-cu illərində Bakının baş planı hazırlanarkən burada salınacaq Dağüstü parkın paytaxtımızın ümumi kompozisiyasında mühüm əhəmiyyətə malik olacağı nəzərdə tutulmuşdu. Bu park uzun illər paytaxt sakinlərinin, şəhərimizin qonaqlarının sevimli istirahət məkanlarından biri olmuşdur.*

*Diqqətə çatdırıldı ki, bu gün Bakıda yenidənqurma və abadlıq işləri sürətlə davam etdirilir. Nəticədə şəhər daha da gözəlləşir. Bununla əlaqədar Bakının ən yüksək hissəsində yerləşən Dağüstü parkın da yenidən qurulması qərara alınmışdır. Ötən il başlanılan yenidənqurma işlərindən sonra bu park yeni görkəm alaraq göz oxşayan məkana çevrilmişdir. Park yenidən qurularkən relyef müxtəlifliyindən məharətlə istifadə olunmuşdur. Görülən işlər və meydançaların əlverişli yerləşdirilməsi Bakı buxtasına valehedici mənzərə açılmasına şərait yaradır. Prezident İlham Əliyev burada aparılan yenidənqurma tədbirlərini daim diqqət mərkəzində saxlamış, işlərin gedişi ilə yerindəcə tanış olmuş, müvafiq tapşırıqlarını vermişdir. Memarlıq baxımından zövqlə qurulan xiyaban və terraslar bir-biri ilə pilləkənlərlə əlaqələndirilir, meydançalar isə doğma Xəzərimizin panoramını daha geniş nümayiş etdirir. Şəhərin Azneft*

*meydanını Dağüstü parkla funikulyor birləşdirir. İndi bu park paytaxtın ən gözəl istirahət yerlərindən birinə çevrilib.*

*Məlumat verildi ki, burada əsaslı təmir işləri ən yüksək səviyyədə görülüb, parkın ərazisi tamamilə yenidən qurulmuşdur. Dövlətimizin başçısının Bakı şəhərində park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən yenilənən Dağüstü park ilk növbədə, paytaxt sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir. Müasir tələblər səviyyəsində qurulan və paytaxtın bu hissəsinin görkəminə xüsusi yaraşıq verən parkda yeni yollar və cığırlar salınmışdır. Burada quraşdırılan yeni şəlalə parka füsunkar görünüş verir. Parkda yaşıllaşdırma işləri aparılmış, köhnə ağaclar saxlanılmaqla yeni dekorativ bitkilər əkilmişdir. Müasir işıqlandırma sistemi parkın gözəlliyini daha da artırır.*

*Prezident İlham Əliyev Dağüstü parkdakı İstiqlal Muzeyinin binası ilə də tanış oldu. Dövlətimizin başçısı 2011-ci il avqustun 2-də Bakı şəhərində İstiqlal Muzeyinin tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalamışdır. Bundan sonra bu istiqamətdə görülən işlər daim dövlət başçısının diqqət mərkəzində olmuşdur.*

*Prezident İlham Əliyev sonra Dağüstü parkdan Bakının mənzərəsini seyr etdi. Vurğulandı ki, Dağüstü parkda inşa olunmuş kafedə müştərilərə yüksək xidmət göstəriləcəkdir. Binanın yuxarı mərtəbəsindən paytaxt Bakının və Xəzərin mənzərəsini müşahidə etmək mümkündür. Belə istirahət məkanlarının istifadəyə verilməsi Bakının simasının günbəgün dəyişdiyini, şəhərdə həyata keçirilən sosial infrastruktur layihələrinin miqyasının genişləndiyini bir daha təsdiqləyir.*

*Dövlətimizin başçısı kafedə yaradılmış şəraitlə maraqlandı, binadan ətrafı seyr etdi.*

# BUZOVNA–MƏRDƏKAN–QALA YOLUNUN AÇILIŞI MƏRASİMİ

*26 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Buzovna–Mərdəkan–Qala yolunun açılışında iştirak etmişdir.*

*Paytaxt Bakı və ətraf qəsəbələrin inkişafı daim diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «Bakı şəhərinin qəsəbələrinin 2006–2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı»nın davamı olan 2011–2013-cü illəri əhatə edən Dövlət Proqramı yol infrastrukturunun müasirləşdirilməsini əhatə edir. İndi Bakı və ətraf qəsəbələrin yolları ən müasir səviyyədə inşa olunur, yolötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri tikilir.*

*200 min nəfərə yaxın əhalinin yaşadığı Zabrat, Maştağa, Pirşağı, Kürdəxanı, Buzovna, Bilgəh qəsəbələrini Bakı şəhəri ilə birləşdirən Zabrat–Maştağa–Buzovna və Zabrat–Kürdəxanı–Pirşağı avtomobil yollarının yenidən qurulması üçün dövlətimizin başçısının ötən ilin oktyabrında imzaladığı sərəncama əsasən Prezidentin ehtiyat fondundan 5 milyon manat vəsaitin ayrılması bu tədbirlərin ardıcıl xarakter aldığını nümayiş etdirir.*

*Prezident İlham Əliyev Buzovna–Mərdəkan–Qala yolunun texniki göstəricilərini əks etdirən stendə baxdı.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, eni 22 metr olan yolun ümumi uzunluğu 12 kilometrə yaxındır. Yol ən müasir tələblər səviyyəsində inşa olunmuşdur. Dördzolaqlı yolun inşası zamanı bütün infrastruktur yenilənmiş, müasir işıqlandırma sistemi qurulmuş, yolboyu 3 qovşaq tikilmişdir. Bakıətrafı kənd və qəsəbələrin yollarının tamamilə yenidən qurulması ilk növbədə, əhalinin sosial məsələlərinin həlli baxımından önəmlidir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi və yeni yolda avtomobili idarə etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Buzovna–Mərdəkan–Qala yolunun əvvəlki vəziyyətini, tikinti zamanı və hazırkı vəziyyətini əks etdirən fotostendə baxdı.*

*Dövlətimizin başçısına yolboyu quraşdırılan müasir işıqforlar barədə də məlumat verildi.*

## QEYDLƏR

**1. Ümumdünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 8, 12, 55, 114.

**2. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 11, 13, 49, 119, 126, 127, 131, 210, 214, 249, 264, 266.

**3. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 11, 97, 118, 128, 166, 200, 210, 216, 244, 246, 259, 261, 264, 270, 344.

**4. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon

nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 24, 108–128, 144, 162, 198, 213, 252, 252, 265, 266,331.

**5. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı 2 palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 30, 161, 232, 344.

**6. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında

isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəti-

cəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 31, 38, 47, 50, 52, 55, 58, 88, 94, 96, 97, 98, 122, 135, 143, 146, 149, 169, 170, 174, 180, 187, 188, 206,227, 228, 229–233, 236–239, 242–251, 259, 301,303, 310, 317, 318, 323, 336.

**7. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 43, 56, 69, 77, 122, 144, 149, 232, 290, 301, 302, 309, 310, 316.

**8. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik

işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 43, 56, 77, 144, 180, 208, 225, 227, 228, 229, 230, 232, 237, 238, 240, 242, 254, 255, 257, 269, 290, 321.

**9. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 48, 73, 76, 165, 198, 266, 267, 329, 336, 344.

**10. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 48, 76, 329.

**11. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 58, 245, 284, 336.

**12. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 68, 69, 316.

**13. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 69, 246.

**14. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 69.

**15. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 69, 246, 316.

**16. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 75, 313.

**17. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur mesenat, maarifpərvər Bakı milyonçusu. Əvvəllər bənna işləmiş

Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz Səhmdar Cəmiyyəti»ni, Toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı Ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 78.

**18. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ- l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 78, 255, 284, 287, 289, 302.

**19. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 80, 205, 218.

**20. II Beatriks** (d.1938) – 1980–2013-cü illərdə Niderland Krallığının Kraliçası olmuşdur. – 80.

**21. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 84.

**22. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXP Mərkəzi Hərbi Şurasının sədridir. – 84.

**23. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 90, 161, 192.

**24. Ciorcio Napolitano** (d.1925) – İtaliyanın siyasi xadimi. 2006–2015-ci illərdə İtaliya Respublikasının Prezidenti olmuşdur. – 90, 352.

**25. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər

sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 94, 134–150, 237.

**26. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 133.

**27. Əziz Əliyev,** Əziz Məmmədkərim oğlu (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 141, 237.

**28. Mustafa bəy Topçubaşov** (1895–1981) – cərrah, ictimai və dövlət xadimi. Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı. Tədqiqatı, əsasən qarında, başda, döş qəfəsində aparılan cərrahi problemlərə, öddaşı xəstəliyinin müalicəsinə, periferik iflic xəstəliyinə həsr olunmuşdur. Orijinal diaqnostika və cərrahi üsul təklif etmişdir. Dünyada geniş istifadə olunan analgeziya üsulunu ilk dəfə M.Topçubaşov kəşf etmişdir. – 141.

**29. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

Professor Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 141, 237.

**30. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 45,1 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament, Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 158–162, 230.

**31. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 163, 229, 324.

**32. *bp*,** «B r i t i s h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbay-

canda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 184.

**33. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. – 184.

**34. Mişelin Kalmi - Rey** (d.1945) – İsveçrənin dövlət və siyasi xadimi. 2003–2007-ci illərdə İsveçrənin Xarici İşlər naziri, 2007-ci və 2011-ci illərdə prezidenti olmuşdur. – 205.

**35. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 212, 264, 279.

**36. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 215, 222, 323.

**37. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 226–228.

**38. Həzi Aslanov,** H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən Həzi Aslanov Stalinqrad vuruşmasında feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Həzi Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. Həzi Aslanov 1945-ci il yanvar ayının 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 227–228.

**39. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 228, 237, 254, 300.

**40. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 228, 237.

**41. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 228, 237, 254, 300.

**42. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 245, 247.

**43. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1 min

nəfərdir. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 246.

**44. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. Rəcəb Tayyib Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 253.

**45. Avstriya,** Avstriya Respublikası – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min $km^2$, əhalisi 8,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 254–300.

**46.** «**OMV AG**» – Mərkəzi Avropada ən böyük Avstriya neft kompaniyası. Mənzil-qərargahı Vyanadadır. Kompaniyanın əsası 1956-cı ildə qoyulmuş və ilk layihəsi Liviyada olmuşdur. Kompaniya dünyanın 17 ölkəsində neft məhsullarının hasilatı və axtarışını həyata keçirir. OMV-nin gündəlik hasilatı neft ekvivalenti ilə 317 min barreldir. Kompaniya 40 milyard kubmetr qaz satır, xalis gəliri ildə 1,5 milyard avrodur. – 254–300.

**47. Hayntz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriya Respublikasının Federal Prezidenti olmuşdur. – 257–270, 272–281.

**48. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi** (Lətif Kərimov adına) – Azərbaycanın xalça və xalq tətbiqi sənətinin nümayiş edildiyi ən zəngin ekspozisiya. 1967-

ci ildə yaradılmışdır. Burada Azərbaycanın xalça və xalça məmulatlarının növləri, tarixi dövrləri, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ və Təbriz toxuculuq məktəblərinin fərdi ənənələri, çoxsaylı çeşidləri qorunub saxlanılır. Bu gün muzeyin 10000-dək xalça və xalq tətbiqi sənəti nümunələri mühafizə edilib saxlanılır. – 278.

**49. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 28 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 278, 284, 287.

**50. Motsart Volfqand Amadey** (1756–1791) – dahi Avstriya bəstəkarı. Motsart görkəmli musiqi sənətkarları içərisində çox erkən inkişaf edən hərtərəfli istedadı, qeyri-adi taleyi, musiqinin bütün janrlarını əhatə edən yaradıcılığı ilə fərqlənir.

Vyana klassik məktəbinin nümayəndəsi olan Motsartın yaradıcılığı XVIII əsr musiqisinin zirvəsi, Maarifçilik dövrünün yetirməsi idi. Onun operalarında keçmiş musiqi janrları və formaları sintezləşdirilmiş, yeniləşdirilmişdir. Motsartın son 3 simfoniyası XVIII əsr simfonizminin ən görkəmli nümunələrindəndir. – 284, 287.

**51. Füzuli,** Məhəmməd Süleyman oğlu (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbay-

can, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 289.

**52. Nəsimi,** S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə öldürülmüşdür. – 289.

**53. Fikrət Əmirov,** F i k r ə t C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. – 289.

**54. Arif Məlikov,** A r i f C a h a n g i r o ğ l u (d.1933) – bəstəkar. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 289.

**55. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. – 289.

**56. Marağa rəsədxanası** – orta əsrlərdə ən böyük elmi-tədqiqat müəssisələrindən biri. 1259-cu ildə Nəsirəddin Tusinin

rəhbərliyi ilə Urgənc və Rey rəsədxanaları əsasında Marağa şəhərində tikilmişdir. Rəsədxana təqribən 50 il fəaliyyət göstərmişdir. Müxtəlif astronomik cihazlar, kitabxanasında 400 min əlyazma var idi. Burada aparılan tədqiqatlar Avropa elminin inkişafına böyük təsir göstərmişdir. – 305.

**57. Nəsirəddin Tusi,** Məhəmməd ibn Həsən (1201–1274) – Azərbaycanın görkəmli alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası (1259) qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. – 305.

**58. Şamaxı Astrofizika Rəsədxanası,** Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxana-sı – Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun «Astrofizika» sektoru bazasında 1960-cı ildə yaradılmışdır. Şamaxı Astrofizika Rəsədxanası dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşir. Bu rəsədxana çətin müşahidə edilən cənub göyünün öyrənilməsində dünyanın bir çox rəsədxanası ilə müqayisədə müəyyən üstünlüklərə malikdir. Burada aydın gecələrin sayı 190–200-ə çatır. – 305.

**59. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi-mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 309–322.

**60. II Abdullah,** A b d u l l a h  b i n  H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. II Abdullah kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 326.

## Şəxsi adlar göstəricisi

**II Abdullah** – 326
**Abutalıbov Hacıbala** – 86, 151, 238, 240, 254, 300
**Alıbabayev Babək** – 179–180
**Alie Marzuki** – 49
**Aslanov Həzi** – 227–228
**Avramopoulos Dimitrios** – 163
**Amano Yukiya** – 299
**Avcı Nəbi** – 332
**Atlıxanova Albina** – 109
**Atatürk Mustafa Kamal** – 149
**Baxışov Əlövsət** – 227, 228
**Bakayanis Teodora** – 220
**Balodis Antons** – 118
**Barak Ehud** – 199, 329
**Barrozi Joze** – 166
**Bayramov Niyazi** – 50
**Beatriks** – 80
**Berdiyev İsmayıl** – 94, 319
**Bertse Auqusts** – 118
**Berzinş Andris** – 99–122
**Besesku Trayan** – 123
**Bəşirov Hafiz** – 41–43
**Brok Elmar** – 353
**Brovkina Alevtina** – 147–148
**Blessinq Martin** – 92
**Cerezo Enrikio** – 158–162
**Çəlik Faruk** – 128, 129
**Dadli Robert** – 184
**De Eulate Pedro** – 330
**De Kirşner Kristina** – 325

**Duman Sunay** – 148
**Əhədpur Manuçehr** – 167
**Əhməd Təmim** – 97
**Əhmədbəyov Zivər bəy** – 310
**Əhmədinejad Mahmud** – 70
**Əl-Hoqubani Mofarrej** – 127, 128
**Əl-Rəşidi Zikra** – 129, 130
**Ələkbərov Anar** – 290
**Ələsgərov Fuad** – 195, 345
**Əliyev Həsən** – 305
**Əliyev Cəmil** – 141
**Əliyev Heydər** – 31, 38, 47, 50, 52, 55, 58, 88, 94, 96, 97, 98, 122, 135, 143, 146, 149, 169, 170, 174, 180, 187, 188, 206,227, 228, 229–233, 236–239, 242–251, 259, 301,303, 310, 317, 318, 323, 336
**Əliyev Əziz** – 141, 237
**Əliyev Tamerlan** – 141, 237
**Əliyeva Mehriban** – 43, 56, 77, 144, 180, 208, 225, 227, 228, 229, 230, 232, 237, 238, 240, 242, 254, 255, 257, 269, 290, 321
**Əliyeva Zərifə xanım** – 94, 134–150, 237
**Əmirov Fikrət** – 289
**Ərdoğan Rəcəb Tayyib** – 253
**Əsədov Oqtay** – 228, 237
**Əsgərov Cahangir** – 202
**Əzizov Eldar** – 187
**Fayman Verner** – 271
**Fedotov Yuri** – 158–162, 296
**Fişer Hayntz** – 257–270, 272–281
**Fişer Margit** – 257, 269
**For Jak** – 344

**Freyzer Uilyam** – 165
**Füle Ştefan** – 183
**Füzuli Məhəmməd** – 289
**Gəncəvi Nizami** – 216, 289
**Gül Abdullah** – 252
**Gülablı Fərid** – 349
**Hacıbababəyov Qasım bəy** – 310
**Hacıbəyli Üzeyir** – 78, 255, 284, 287, 289, 302
**V Harald** – 235
**Hamaçek Yan** – 74–75
**Heydərov Kəmaləddin** – 61
**Həsənov Əli** – 67
**Hikki Patrik** – 153–154, 155, 156
**Höypl Mixael** – 282–285
**Xalid ibn Vəliyəd** – 309
**İbrahimova Səidə** – 68
**İhsanoğlu Ekmələddin** – 124
**İklodi Qabor** – 340
**İsrafilova Qənimə** – 34, 35
**İvanişvili Bidzina** – 331
**Kallanan Martin** – 166
**Kalmi Rey Mişelin** – 205
**Kapralos Spiros** – 154
**Kapş Georq** – 291–292
**Kardoso Herman** – 333
**Kasprşik Anji** – 344
**Kelli Yan** – 344
**Kok Vim** – 205, 218–219
**Konstantinesku Emil** – 221
**Kozlovski Aleksandr** – 155
**Korlatea Titus** – 123
**Qarayev Qara** – 289
**Qomes Luis** – 234
**Qruevski Nikola** – 83
**Quliyev Əyyub** – 306

**Qaribaşvili İrakli** – 331
**Lakallen Luis** – 206
**Layte Kristof** – 272
**Lippman Peter** – 232
**Mehdiyev Ramiz** – 228, 237, 254, 300
**Medinş Yaseps** – 118
**Məcdalani Əhməd** – 130
**Məlikov Arif** – 289
**Məmmədəliyev Yusif** – 305
**Məmmədov Adil** – 169
**Moros Nikolas** – 72
**Moşetova Larisa** – 145–147
**Motsart Amadey** – 284, 287
**Mönye Paskal** – 30
**Mirzayev Sultan** – 96, 97, 320
**Muxtarov Əhməd** – 32
**Müslüm ibn Vəliyəd** – 309
**Moza Hans** – 283
**Napolitano Ciorcio** – 90, 352
**Nəcməddinov Bəhmən** – 55–56
**Nəsimi İmadəddin** – 289
**Noyqebauer Frids** – 288–289
**Nur (İordaniya kraliçası)** – 215–216, 222
**Obama Barak** – 48, 76, 329
**Oku Fransua** – 30
**Park Byonq-Soq** – 342–343
**Paşazadə Hacı Allahşükür** – 85, 94–95, 316–319
**Paumbats Ervins** – 118
**Peyc Aleksander** – 73
**Ploşko İozef** – 310
**Popov İqor** – 344
**Pşixaçev Şafik** – 98
**Putin Vladimir** – 133
**Rey Mişelin** – 205
**Rasizadə Artur** – 228, 237, 254, 300

**Rasmussen Anders** – 340
**Rəhimov Azad** – 59
**Rəhimova Gülnar** – 149, 150
**Roiss Gerhard** – 256
**Roqq Jak** – 154
**Saakaşvili Mixeil** – 224, 327
**Samaras Antonis** – 324
**Serageldin İsmail** – 205, 208
**Seyidov Vüqar** – 267
**Sərdarov Rauf** – 189–190
**Si Cinpin** – 84
**Soares Joao** – 200
**Şikərov Məcid** – 320
**Şirvani Seyid Əzim** – 311
**Şvarsenberq Karel** – 74
**Tadiç Boris** – 223
**Tağıyev Hacı Zeynalabdin** – 78
**Talimoni Jan-Pyer** – 30
**Tayler Toni** – 164
**Topçubaşov Mustafabəy** – 141
**Tod Jan** – 186
**Tusi Nəsirəddin** – 305
**Vaffa-Oqun Susan** – 334
**Vəliyev Yaqub** – 87–88
**Vike-Freyberqa Vayra** – 205, 216–217
**Vizer Marius** – 186
**Vuyanoviç Filip** – 91
**Yumkella Kandeh** – 298
**Yusifpahiç Muhammed** – 97–98
**Yurkans İvo** – 107
**Zerbo Lassina** – 297
**Zatlers Valdis** – 207
**Zərdari Asif** – 71
**Zuma Ceykob** – 79

## Coğrafi adlar göstəricisi

**Abşeron** (*rayon*) – 167 –175,196
**Ağdam** – 68, 69, 316
**Almaniya** – 144, 338
**Amerika Birləşmiş Ştatları** – 48, 73, 76, 165, 198, 266, 267, 329, 336, 334
**Argentina** – 325
**Asiya** – 12
**Avropa** – 12, 30, 74, 82, 106, 107, 108, 113, 153– 157, 198, 213, 264, 265, 275, 280, 395, 336
**Avstriya** – 254–300
**Baltik dənizi** – 104, 106
**Berlin** – 266
**Bəklə** – 172
**Biləcəri** – 85–89
**Bilgəh** – 357
**Binəqədi** – 88
**Boston** – 48
**Buzovna** – 357
**Budapeşt** – 276
**Cenevrə** – 282
**Cənubi Afrika Respublikası** – 79
**Cənubi Qafqaz** – 12, 55, 196, 199, 200, 206, 210, 213, 218, 275, 309

**Cəyirli** – 172
**Çalov** – 172
**Çeçenistan** – 96, 320
**Çexiya** – 74–75
**Çexoslovakiya** – 226
**Çin** – 84

**Dağlıq Qarabağ** – 11, 97, 118, 128, 166, 200, 210, 216, 244, 246, 259, 261, 264, 270, 344
**Fələstin** – 130
**Fransa** – 30, 161, 292, 344
**Füzuli** – 69
**Gəncə** – 202
**Gürcüstan** – 24, 108, 210, 213, 224, 327, 331
**Hacıqabul** – 31–47
**Xankəndi** – 316
**Xanəgahı** – 32
**Xəzər dənizi** – 104, 213, 280
**Xızı** – 196
**Xocalı** – 75, 313
**Xilmilli** – 172
**İndoneziya** – 49, 338
**İordaniya** – 215, 222, 326
**İran** – 70
**İspaniya** – 158–162, 130
**İsrail** – 199
**İtaliya** – 90, 161,192, 352
**Kəlbəcər** – 69, 246
**Kiyev** – 97, 226
**Koreya Respublikası** – 342–343
**Kür çayı** – 64, 65
**Kürdəxanı** – 357
**Küveyt** – 129

**Qafqaz** – 226, 310, 339
**Qambiya** – 334
**Qara dəniz** – 204, 106
**Qaraçay-Çərkəz Respublikası**– 319
**Qəbələ** – 202
**Qobustan** – 167, 169–180
**Quba** – 96
**Laçın** – 246
**Latviya** – 99–122, 205, 207, 337, 338
**Lənkəran** – 202
**Litva** – 144
**Lüksemburq** – 262
**Macarıstan** – 276
**Madrid** – 158–162
**Makedoniya** – 85
**Masazır** – 68
**Maştağa** – 357
**Mərkəzi Asiya** – 12, 276
**Mərkəzi Avropa** – 13, 275
**Mingəçevir** – 50–69, 194
**Misir** – 205, 208
**Monteneqro** – 91
**Moskva** – 98, 226
**Müşfiqabad** – 68
**Nabur** – 172
**Naxçıvan Muxtar Respublikası**– 58, 245, 284, 336
**Niderland** – 80, 205, 218
**Norveç** – 235
**Nyu-York** – 282
**Odessa** – 226
**Oklahoma** – 329
**Pakistan** – 71
**Paraqvay** – 234
**Polşa** – 226
**Rusiya** – 107, 133, 144, 145, 147, 192,

266, 267, 319, 320, 344
**Rumıniya** – 123, 221
**Riqa** – 106, 212, 338
**Serbiya** – 97, 223
**Səudiyyə Ərəbistanı** – 127
**Siçuan** – 84
**Siyəzən** – 196
**Slovakiya** – 276
**Simferopol** – 226
**Stalinqrad** – 226
**Sumqayıt** – 187–199
**Şabran** – 196
**Şamaxı** – 96, 301–322
**Şimali Qafqaz** – 97
**Şuşa** – 69, 246, 316
**Texas** – 76
**Türkiyə** – 24, 108– 128, 144, 162, 198, 213, 252, 253, 265, 266, 331
**Ukrayna** – 97, 192
**Uruqvay** – 206, 333
**Vyana** – 254–300
**Venesuela Bolivar Respublikası**– 72
**Yaxın Şərq** – 309
**Yaponiya** – 144
**Zabrat** – 357
**Zaqatala** – 202
**Yunanıstan** – 163, 229, 324

# MÜNDƏRİCAT

NAZİRLƏR KABİNETİNİN 2013-cü İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*14 aprel 2013-cü il ........................................................................5*

YEKUN NİTQİ

*14 aprel 2013-cü il ........................................................................14*

«ALİ AUDİT QURUMLARININ POTENSİALININ GÜCLƏNDİRİLMƏSİNİN MÜASİR ÇAĞIRIŞLARI» MÖVZUSUNDA IV BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*15 aprel 2013-cü il ........................................................................27*

«MDB MÜSƏLMANLARI SÜLH VƏ SABİT İNKİŞAF TƏRƏFDARIDIRLAR» BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN İŞTİRAKÇILARINA

*15 aprel 2013-cü il ........................................................................28*

FRANSANIN «ASTRİUM» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ DİREKTORU FRANSUA OK VƏ «EUROPEAN AERONAUTİC DEFENCE AND SPACE» ŞİRKƏTİNİN BEYNƏLXALQ MƏSƏLƏLƏR ÜZRƏ DİREKTORU JAN-PYER TALİMONİ İLƏ GÖRÜŞ

*15 aprel 2013-cü il ........................................................................30*

HACIQABUL RAYONUNA SƏFƏR

*15 aprel 2013-cü il ........................................................................31*

HACIQABUL RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 aprel 2013-cü il ........................................................................38*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*16 aprel 2013-cü il .......................................................................... 48*

İNDONEZİYA RESPUBLİKASI PARLAMENTİ NÜMAYƏN-DƏLƏR PALATASININ SƏDRİ MARZUKİ ALİENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 aprel 2013-cü il .......................................................................... 49*

MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏR

*16 aprel 2013-cü il .......................................................................... 50*

MİNGƏÇEVİR ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏN-DƏLƏRİ İLƏ GÖRÜŞ

*16 aprel 2013-cü il .......................................................................... 52*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*17 aprel 2013-cü il .......................................................................... 70*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*17 aprel 2013-cü il .......................................................................... 71*

VENESUELA BOLİVAR RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAS MADURO MOROSA

*17 aprel 2013-cü il .......................................................................... 72*

ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ TOMAS MELİAN VƏ ABŞ BEYNƏLXALQ İNKİŞAF AGENTLİYİ ADMİNİSTRATORUNUN MÜAVİNİ XANIM ALEKSANDER PEYC İLƏ GÖRÜŞ

*17 aprel 2013-cü il .......................................................................... 73*

ÇEXİYA RESPUBLİKASININ DEPUTATLAR PALATASININ SƏDR MÜAVİNİ YAN HAMAÇEKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 aprel 2013-cü il ............................................................................ 74*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*18 aprel 2013-cü il ............................................................................ 76*

AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ TEATRININ BİNASININ ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*18 aprel 2013-cü il ............................................................................ 77*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA

*19 aprel 2013-cü il ............................................................................ 79*

NİDERLAND KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ

*19 aprel 2013-cü il ............................................................................ 80*

BAKIDA SU İDMANI SARAYININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*19 aprel 2013-cü il ............................................................................ 81*

KEÇMİŞ YUQOSLAVİYA RESPUBLİKASI MAKEDONİYANIN BAŞ NAZİRİ NİKOLA QRUEVSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 aprel 2013-cü il ............................................................................ 83*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*20 aprel 2013-cü il ............................................................................ 84*

BİLƏCƏRİDƏKİ MƏDƏNİYYƏT-İSTİRAHƏT PARKININ ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*22 aprel 2013-cü il ........................................................................85*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

*23 aprel 2013-cü il ........................................................................90*

MONTENEQRONUN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ

*23 aprel 2013-cü il ........................................................................91*

«COMMERZBANK AG» BANKININ İDARƏ HEYƏTİNİN SƏDRİ MARTİN BLESSİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 aprel 2013-cü il ........................................................................92*

«MDB MÜSƏLMANLARI SÜLH VƏ SABİT İNKİŞAF NAMİNƏ» MÖVZUSUNDA BAKIDA KEÇİRİLƏN KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*23 aprel 2013-cü il ........................................................................93*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERZİNŞİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*24 aprel 2013-cü il ........................................................................99*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERZİNŞ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*24 aprel 2013-cü il ......................................................................100*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*24 aprel 2013-cü il ......................................................................101*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERZİNŞ İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*24 aprel 2013-cü il* ............................................................................*103*
AZƏRBAYCAN–LATVİYA BİZNES-FORUMUNDA İŞTİRAK

*24 aprel 2013-cü il* ............................................................................*111*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*24 aprel 2013-cü il* ............................................................................*117*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*24 aprel 2013-cü il* ............................................................................*122*

RUMINİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
TİTUS KORLATEANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*25 aprel 2013-cü il* ............................................................................*123*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ
EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*25 aprel 2013-cü il* ............................................................................*124*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI ƏMƏK NAZİRLƏRİNİN
BAKIDA KEÇİRİLƏN KONFRANSININ İŞTİRAKÇILARI
İLƏ GÖRÜŞ

*25 aprel 2013-cü il* ............................................................................*125*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*26 aprel 2013-cü il* ............................................................................*133*

GÖRKƏMLİ OFTALMOLOQ-ALİM, AKADEMİK ZƏRİFƏ
XANIM ƏLİYEVANIN 90 İLLİK YUBİLEYİNƏ HƏSR
OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*27 aprel 2013-cü il* ............................................................................*134*

PAYTAXTIN FÜZULİ VƏ MİRZAĞA ƏLİYEV
KÜÇƏLƏRİNİN ARASINDA YARADILAN YENİ İSTİRAHƏT

KOMPLEKSİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*27 aprel 2013-cü il* ....................................................................... *151*

2015-ci İLDƏ BAKIDA KEÇİRİLƏCƏK AVROPA OYUNLARI KOORDİNASİYA KOMİTƏSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*29 aprel 2013-cü il* ....................................................................... *153*

İSPANİYANIN «ATLETİKO MADRİD» FUTBOL KLUBUNUN HEYƏTİ İLƏ GÖRÜŞ

*29 aprel 2013-cü il* ....................................................................... *158*

YUNANISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ DİMİTRİOS AVRAMOPOULOSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 aprel 2013-cü il* ....................................................................... *163*

BEYNƏLXALQ HAVA NƏQLİYYATI ASSOSİASİYASININ BAŞ DİREKTORU TONİ TAYLER İLƏ GÖRÜŞ

*30 aprel 2013-cü il* ....................................................................... *164*

ABŞ NƏQLİYYAT KOMANDANLIĞI KOMANDANI UİLYAM FREYZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 may 2013-cü il* ........................................................................... *165*

AVROPA PARLAMENTİNİN AVROPA MÜHAFİZƏKARLAR VƏ İSLAHATÇILAR SİYASİ QRUPUNUN SƏDRİ MARTİN KALLANANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 may 2013-cü il* ........................................................................... *166*

ABŞERON VƏ QOBUSTAN RAYONLARINA SƏFƏR

*1 may 2013-cü il* ........................................................................... *167*
QOBUSTAN RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*1 may 2013-cü il*........................................................................................*169*

QOBUSTAN RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*1 may 2013-cü il*........................................................................................*176*

KƏND TƏSƏRRÜFATI KREDİTLƏRİ ÜZRƏ BEYNƏLXALQ
KONFEDERASİYANIN
43-cü KONFRANSININ İŞTİRAKÇILARINA

*2 may 2013-cü il*........................................................................................*181*

AVROPA İTTİFAQININ GENİŞLƏNMƏ VƏ AVROPA
QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI ŞTEFAN
FÜLENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*2 may 2013-cü il*........................................................................................*183*

*bp* ŞİRKƏTİNİN PREZİDENTİ ROBERT DADLİ İLƏ GÖRÜŞ

*2 may 2013-cü il*........................................................................................*184*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*3 may 2013-cü il*........................................................................................*185*

CÜDO FEDERASİYASININ VƏ BEYNƏLXALQ AVTO-
MOBİL FEDERASİYASININ PREZİDENTLƏRİ İLƏ GÖRÜŞ

*3 may 2013-cü il*........................................................................................*186*

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*3 may 2013-cü il*........................................................................................*187*

İSRAİL DÖVLƏTİNİN KEÇMİŞ BAŞ NAZİRİ
EHUD BARAK İLƏ GÖRÜŞ

*4 may 2013-cü il*........................................................................................*199*

ATƏT-in PARLAMENT ASSAMBLEYASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ JOAO SOARESİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 may 2013-cü il.......................................................................................200*

HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA MÜASİR ANQAR VƏ AEROVAĞZAL KOMPLEKSLƏRİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ, BEYNƏLXALQ LOGİSTİKA MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK VƏ YENİ ALINMIŞ SƏRNİŞİN TƏYYARƏLƏRİNƏ BAXIŞ

*6 may 2013-cü il.......................................................................................201*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİ İDARƏ HEYƏTİNİN HƏMSƏDRİ, MİSİRİN İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU İSMAİL SERAGELDİN, MADRİD KLUBUNUN PREZİDENTİ VƏ ÜZVÜ, NİDERLANDIN KEÇMİŞ BAŞ NAZİRİ VİM KOK İLƏ GÖRÜŞ

*6 may 2013-cü il.......................................................................................205*

URUQVAYIN KEÇMİŞ PREZİDENTİ LUİS ALBERTO LAKALLEN İLƏ GÖRÜŞ

*6 may 2013-cü il.......................................................................................206*

LATVİYA RESPUBLİKASININ KEÇMİŞ PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*6 may 2013-cü il.......................................................................................207*

BAKIDA KEÇİRİLƏN I CƏNUBİ QAFQAZ FORUMUNDA İŞTİRAK

*7 may 2013-cü il.......................................................................................208*

YUNANISTANIN KEÇMİŞ XARİCİ İŞLƏR NAZİRİ, YUNANISTAN PARLAMENTİNİN ÜZVÜ XANIM TEODORA BAKAYANİS İLƏ GÖRÜŞ

*7 may 2013-cü il.......................................................................................220*

RUMINİYANIN KEÇMİŞ PREZİDENTİ EMİL KONSTANTİNESKU İLƏ GÖRÜŞ

*7 may 2013-cü il*......................................................................................*221*

İORDANİYA KRALİÇASI ÜLYAHƏZRƏT NUR İLƏ GÖRÜŞ

*7 may 2013-cü il*......................................................................................*222*

SERBİYANIN SABİQ PREZİDENTİ BORİS TADİÇ İLƏ GÖRÜŞ

*7 may 2013-cü il*......................................................................................*223*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*7 may 2013-cü il*......................................................................................*224*

BAKIDA KEÇİRİLƏN I CƏNUBİ QAFQAZ FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ İŞTİRAK

*7 may 2013-cü il*......................................................................................*225*

9 MAY – QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*9 may 2013-cü il* ......................................................................................*226*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ YARADILMIŞ HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ VƏ MƏRKƏZDƏ GÖRÜLMÜŞ BİR SIRA İŞLƏRLƏ TANIŞLIQ

*9 may 2013-cü il*......................................................................................*229*

PARAQVAY RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS FEDERİKO FRANKO QOMESƏ

*10 may 2013-cü il*....................................................................................*234*

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*10 may 2013-cü il*....................................................................................*235*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2013-cü il*......................................................................................*236*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ PAYTAXTDA TƏŞKİL EDİLMİŞ GÜL BAYRAMINDA İŞTİRAK

*10 may 2013-cü il*......................................................................................*238*

BAKIDA YERALTI AVTOMOBİL DAYANACAĞININ ÜSTÜNDƏ SALINAN PARK, BAĞ VƏ FƏVVARƏLƏR KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*10 may 2013-cü il*......................................................................................*240*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ İŞTİRAK

*10 may 2013-cü il*......................................................................................*242*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*12 may 2013-cü il*......................................................................................*252*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*12 may 2013-cü il*......................................................................................*253*

AVSTRİYAYA RƏSMİ  SƏFƏR

*12 may 2013-cü il*......................................................................................*254*

VYANADA ÜZEYİR HACIBƏYLİNİN ABİDƏSİNİ ZİYARƏT

*12 may 2013-cü il*......................................................................................*255*

«OMV AG» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
GERHARD ROİSS İLƏ GÖRÜŞ

*12 may 2013-cü il*..........................................................................*256*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*13 may 2013-cü il*..........................................................................*257*

AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ HAYNTZ
FİŞER İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*13 may 2013-cü il*..........................................................................*258*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*13 may 2013-cü il*..........................................................................*259*

«AZƏRBAYCAN RESPUBLİKASI VƏ AVSTRİYA
RESPUBLİKASI ARASINDA DOSTLUQ MÜNASİBƏTLƏRİ
VƏ TƏRƏFDAŞLIĞA DAİR BİRGƏ BƏYANNAMƏ» nin
İMZALANMASI

*13 may 2013-cü il*..........................................................................*260*

AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ
HAYNTZ FIŞER İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA
BƏYANATLARLA ÇIXIŞLAR

*13 may 2013-cü il*..........................................................................*261*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ LANÇDA İŞTİRAK

*13 may 2013-cü il*..........................................................................*269*

AVSTRİYA RESPUBLİKASININ BAŞ NAZİRİ VERNER
FAYMAN İLƏ GÖRÜŞ

*13 may 2013-cü il*..........................................................................*271*

AVSTRİYA–AZƏRBAYCAN BİZNES-FORUMUNDA
İŞTİRAK

*13 may 2013-cü il* ......................................................................................*272*
VYANA ŞƏHƏRİNİN MERİ MİXAEL HÖYPL İLƏ GÖRÜŞ

*13 may 2013-cü il* ......................................................................................*282*

VYANADA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*13 may 2013-cü il* ......................................................................................*286*

SƏNAYE FEDERASİYASININ PREZİDENTİ VƏ İRİ ŞİRKƏTLƏRİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*14 may 2013-cü il* ......................................................................................*291*

BMT-nin VYANA OFİSİNİN BAŞ DİREKTORU YURİ FEDOTOV İLƏ GÖRÜŞ

*14 may 2013-cü il* ......................................................................................*296*

NÜVƏ SİLAHLARININ HƏRTƏRƏFLİ QADAĞAN OLUNMASI ÜZRƏ MÜQAVİLƏ TƏŞKİLATININ HAZIRLIQ KOMİSSİYASININ SEÇİLMİŞ İCRAÇI KATİBİ LASSİNA ZERBO İLƏ GÖRÜŞ

*14 may 2013-cü il* ......................................................................................*297*

BMT-nin SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORU KANDEH YUMKELLA İLƏ GÖRÜŞ

*14 may 2013-cü il* ......................................................................................*298*

BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİNİN BAŞ DİREKTORU YUKİYA AMANO İLƏ GÖRÜŞ

*14 may 2013-cü il* ......................................................................................*299*

ŞAMAXI RAYONUNA SƏFƏR

*16 may 2013-cü il* ......................................................................................*301*

ŞAMAXI CÜMƏ MƏSCİDİNİN BƏRPA VƏ YENİDƏN-QURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*16 may 2013-cü il*..........................................................................................*309*
«BAKI ÜRƏK GÜNLƏRİ» III BEYNƏLXALQ KONQRESİNİN İŞTİRAKÇILARINA

*17 may 2013-cü il*..........................................................................................*323*

YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ANTONİS SAMARAS İLƏ GÖRÜŞ

*19 may 2013-cü il*..........................................................................................*324*

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

*20 may 2013-cü il*..........................................................................................*325*

İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAH İBN ƏL-HÜSEYNƏ

*20 may 2013-cü il*..........................................................................................*326*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ

*20 may 2013-cü il*..........................................................................................*327*

BAKIDAKI DƏDƏ QORQUD PARKINDA HƏYATA KEÇİRİLƏN İŞLƏRLƏ TANIŞLIQ

*20 may 2013-cü il*..........................................................................................*328*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*21 may 2013-cü il*..........................................................................................*329*

İSPANİYA KRALLIĞININ MÜDAFİƏ NAZİRİ PEDRO MORENES ALVARO DE EULATENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 may 2013-cü il*..........................................................................................*330*

GÜRCÜSTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*21 may 2013-cü il..........................................................................331*

TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ TƏHSİL NAZİRİ NƏBİ AVCININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 may 2013-cü il..........................................................................332*

URUQVAY PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ HERMAN KARDOSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 may 2013-cü il..........................................................................333*

QAMBİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ XANIM SUSAN VAFFA-OQUN İLƏ GÖRÜŞ

*22 may 2013-cü il..........................................................................334*

XIX AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ VII AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*22 may 2013-cü il..........................................................................335*

NATO BAŞ KATİBİNİN MÜAVİNİ QABOR İKLODİ İLƏ GÖRÜŞ

*23 may 2013-cü il..........................................................................340*

KOREYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDR MÜAVİNİ PARK BYONQ-SOQUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 may 2013-cü il..........................................................................342*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*23 may 2013-cü il..........................................................................344*

VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN 2 SAYLI BAKI «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*24 may 2013-cü il*..........................................................................*345*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

*24 may 2013-cü il*..........................................................................*352*

AVROPA PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ ELMAR BROK İLƏ GÖRÜŞ

*24 may 2013-cü il*..........................................................................*353*

BAKIDA AĞ ŞƏHƏR BULVARININ TƏMƏLQOYMA MƏRASİMİ

*25 may 2013-cü il*..........................................................................*354*

DAĞÜSTÜ PARKDA YENİDƏNQURMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*25 may 2013-cü il*..........................................................................*355*

BUZOVNA–MƏRDƏKAN–QALA YOLUNUN AÇILIŞI MƏRASİMİ

*26 may 2013-cü il*..........................................................................*357*

QEYDLƏR..........................................................................*359*

*Şəxsi adlar göstəricisi*..........................................................................*378*

*Coğrafi adlar göstəricisi* ..........................................................................*383*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.